

**ASİF ATA (İNAM ATA)**

**ON QUTSAL BİTİQ**

**(Mütləqə İnam Fəlsəfəsi, Ruhaniyyatı)**

***Dördüncü Bitiq:***

# GÖRMƏK İNSANİLİYİ

**"Elm və təhsil"**
**Bakı -2020**

Atakənd-42

**Türkün (İlk) Ruhaniyyat Ocağı –**
**Asif Atanın (İnam Atanın)**
**Mütləqə İnam Ocağı**

**İşləyəni, ön sözün yazarı: Soylu Atalı**
**Bilgisayar işi: Göylü Atalı**
**Düzəldicisi: Nurtəkin Atalı**

**Asif ATA**
On Qutsal Bitiq toplusunun Dördüncü Bitiqi – Görmək İnsaniliyi.
Atakənd, Bakı, "Elm və təhsil", 2020, 252 səh.

Asif Atanın "Onluğu" Türk xalqından başlayan Yeni Bəşər İnamının özül dəyərlərini, eləcə də fəlsəfəsini özündə daşıyır. Ona görə də Dünyabaxışn bu Bitiqini təkcə yurdumuzun oxucularına deyil, bütövlükdə İnsanlığa sunuruq.

Dördüncü Bitiq: "Görmək İnsaniliyi" – İnamın altı qutsal əsərini özündə birləşdirir: Olan, Olmayan; Varlıq – Yoxluq; Ruhani Xətt; Münasibətlər; Mütləqilik; Hallar.

M $\frac{4702000000}{N-98-2020}$ Qrifli nəşr

**© Asif ATA, 2020**

## Görəni görmək gərəkliyi

Ürəyinizdə Ata Günəşi olsun!

Həqiqəti İnsanlığa yetən görər. İnsanlıqdan aşağıda durmaqla yarımhəqiqəti görmək olar, ya da heç görmək olmaz. İnsanlığın ölçüsündə duyğu da, İdrak da bütövdür. Bütövlük Həqiqətdən gəlir, Həqiqəti göstərir. Həqiqəti kiminsə ağzından eşidərək deməklə Həqiqət dərk olunmaz. Yalnız Həqiqət üstə yaşayanda söz kəsərli, işıqlı olur. Yalnız kəsərli, işıqlı söz ağıllara çatır, ürəklərin gücünə çevrilib yenidən yaşanır, – yaşama qayıdır. Həqiqəti yaşamayanın Həqiqət haqqında sözü anlaşılmaz olur. Həqiqət yanğıdır. Yanğı haqqında mülahizə edənlərlə Yanğı üstə yaşayanların etibarı, gərəkliyi bir olmur.

Bu çağa kimi bəşəriyyət ən çox boşluqda söz xərcləyənlərin etkisində olub. İndi Həqiqəti bütöv görənlərin, Həqiqət üstə yaşayanların, Həqiqət uğrunda savaşanların Yoluna düşməli, Qurtuluş qapısını açmalıdır.

Bəs Həqiqət nədir, Həqiqətə yetmək, onu dərk etmək nə deməkdir? Həqiqətə yetmənin ölçüsü necə olur? – Asif Ata bildirir, bəşəriyyət hələ həqiqəti bütöv dərk etməyib. Bu düşüncə ilə üzləşən istənilən adam, ilk baxışdan, Asif Ataya etiraz edər. Atanı gərəksiz inkarçılıqda suçlayar. Bəs bəşəriyyətin, neçə minillərdir, axtarışlar ilsırasının (tarixinin) üstündən cızmı çəkək? Doğrudan da, böyük suçlamadır (ittihamdır). Ancaq boşuna (əsassız) deyil. Asif Ata bəşəriyyətin fəlsəfi-düşüncə yönünü, Tanrısal sistemini araşdırıb öyrəndikdən sonra bu düşüncəyə gəlibdir. O deyir: “Fəlsəfə tarixi İdealizmlə Materializmin döyüşündən oluşubdur”. Fəlsəfənin başqa yönləri bu iki düşüncə sisteminin içindən doğmuşdur. Varlığa yanaşma bu iki sistemin ölçüsündən uzaqlaşmayıb. Ona görə də varlığa yanaşma İdealizmlə Materializmin sınırında, çevrəsindədir.

Ata yazır: “Fəlsəfənin əsas məqsədi – Maddiyyatın (materiyanın) Yapıya (Şüura) yanaşması (münasibəti) deyil, Görsənişin (Təzahürün) Mahiyyətə yanaşmasıdır”.

Materializm varlığı görsənişə (təzahürə) tən götürür. Ona görə də bu fəlsəfə ilə mahiyyəti dərk etmək olmaz, Görsənişi dərk etmək olar. Görsəniş isə nisbidir, ölümlüdür. İdrak görsənişdə boşluğa çıxır. Həqiqət görsənişdə deyil, onun mahiyyətindədir. Deməli, əslində Materializmdə dərk sürəci (prosesi) başa çatmır, yarımçıq qalır. Ona

görə də İdrakın varlığa yanaşması özünü doğrultmur. Ataya görə Fəlsəfə – Varlığın mahiyyəti haqqında düşüncədir, Görsəniş haqqında düşüncə deyil.

İdealizm araçılığı ilə də Mahiyyət dərk olunmur. Bu fəlsəfəyə görə Mahiyyət ideya ilə eyniləşir. Görsəniş ideyalar aləminin kölgəsi kimi sunulur. Gözə alınsa, ağıldan qıraqda ideya yoxdur, başqa sözlə, ideya ağılın məhsuludur, onda İdealizmdə mahiyyəti dərk etmək yolu daralır, həqiqətə yetmək olanağı aradan gedir. Buradan belə bir düşüncəyə gəlmək olar: Fəlsəfənin Varlığa yanaşması onun bütün sonrakı addımlarını bəlli edir.

Ata yazır: "Var olmaq – Mahiyyətə tən olmaqdır.
Mahiyyət gerçəklikdə tam Olmur.
O, gerçəkliyin olanaqlarından artıqdır.
Bu səbəbdən də olan (gerçəklik) əslində Olmayandır.
Olmayan – yəni Mahiyyət – əslində olandır.
Yəni gerçəklik olur, ancaq Olmur.
Mahiyyət olmur, ancaq Olur".

*(Asif Ata. "Olan və Olmayan" əsəri.)*

Məsələn, insan cism (bədən) – mahiyyət (İnsanlıq) birliyidir. Cism (gerçəklik) görünəndir, İnsanlıq görünməyəndir (fiziksəl deyil). Bədən olur, ölür. Deməli, olmur, yəni əbədi deyil, bir yerə qədərdir. İnsanlıq olmur, yəni gerçəkliyə tən deyil. Ancaq əbədidir, yəni Olandır.

Bu yanaşma Mütləqilik Fəlsəfəsinin ölçüsüdür. Bu, Asif Atanın baxışıdır. Bu baxış Mahiyyətin ideya ilə eyniləşdirilməsindən, ya Görsənişə tən götürülməsindən yüksəkdə durur. Mahiyyət Mütləqə təndir. Mütləq (Əbədi, Əzəli, Kamil, Sonsuz olan Mahiyyət) idrakla dərk olunur, ancaq idrakdan asılı deyil. İdrak mahiyyətə yoldur – fəlsəfə yoludur.

Asif Ata "Olan, Olmayan" əsərində fəlsəfi, ideoloji doktrinaları aydınlaşdırır, rədd edir. Çünkü bu doktrinalarla insan özünə çatmır, dünyanın mahiyyətinə yetmir. Fəlsəfi baxışlar Quruluşa yarayır, bundan siyasət yararlanır, maddiyyatçılıq ruhaniyyatçılığı üstələyir. Bununla da ideyalla gerçəklik arasında uçurum görünür. Özgürlük, ədalət idealda qalır, gerçəklikdə kanıtlanmır (təsdiq olunmur). Fəlsəfi doktrinalar insanı yanıldır, insan mahiyyətə yetmir, idealda olanı – Ədaləti, Özgürlüyü gerçəkliyə gətirə bilmir. Ya da yarımədalət

gətirir, yarımözgürlük gətirir. Quruluş – insanı maddiyyatıçılıq tələsinə salır. Sosial gəlişmənin yollarını öyrədir, varlanmanın, güclənmənin yollarını öyrədir, mənəviyyat yaratmaq öyrətmir. Çünkü mənəviyyat yaratmağın yolunu tanımır.

Kapitalizm sənayeləşmək kultu yaratdı. İnsan sənayeləşmənin köləsinə çevrildi. Gödənçilik ən böyük mədəniyyət sayıldı. Köləlikdən ağgünlülük (xoşbəxtlik) düzəltmək istədilər, alınmadı.

Sosializm – istehsalat kultu yaratdı, dövlət ağalığı ilə ağgünlü gələcək qurmaq istədi, insan dövlətin köləsinə çevrildi. Kollektiv təsərrüfatçılıq bireysəl mülkiyyəti yoxa çıxartdı. İnsan sürüləşmə aqibətinə sürüldü, ulusal kimliyini itirdi, özgürlüyünü itirdi, dinc heyvana çevrildi. İnsana gödəni ödənilmiş (təmin olunmuş) heyvan kimi baxdılar. Elə bildilər insan təkcə gödəndən oluşubdur, onun qarnı doysa, dövlətdən heç nə tələb eləməyəcək. Ancaq bu niyyətin ömrü uzun sürmədi...

Deyirlər sosializmi qıraqdan kapitalizm yıxdı. Deyirik sosializmi – onun öz içindəki mənəviyyatsızlıq yıxdı. İçində möhkəm olanı dışarıdan heç nə yıxa bilməz.

Din insanı mənəviyyata çağırdı. Ancaq bu mənəviyyatın özülü insanın içində deyil, dışarıdadır. Yəni din insanı Allahın mənəviyyatına çağırdı. Öz içində mənəviyyatı olmayanı Allahın mənəviyyatını qorumağa çağırmaq cəfəngiyyatdır. İçində həqiqətə yetməyəni dışarıda həqiqəti tanımağa çağırmaq özünü doğrultmaz. İnsanın mahiyyəti Allaha təndir. Ona bunu dərk etməyin yolunu demədi din. Bu səbəbdən də, dində insan Allaha əl açır, ondan maddiyyat dilənir, ruzi, bərəkət istəyir, mənəviyyat istəmir.

İnsanın Allahdan mənəviyyat istəməsi – içinə üz tutması demək olmalıdır. İçində ədaləti üzə çıxarmalı, ona yetməlidir. Onda həyat göründüyündən artıq olacaq, insanca davranışlar, yanaşmalar göründüyündən artıq olacaq. Maddiyyat uğrunda savaşa ehtiyac qalmayacaq, hər kəs başqasının haqqını dərk edəcək, sosial bərabərsizlik aradan qalxacaq.

Qoymurlar insan böyüsün, qoymurlar insan ədalətə, özgürlüyə yetsin. Nə Quruluş buna olanaq verir, nə dövlət, nə də din. Hamısı insanı özündən qıraqdakı qüvvəyə bağlayır, qıraqdakı qüvvədən asılı edir. Quruluş insanı doktrinalar əsarətinə salır, dövlət insanı hakimiyyət əsarətinə salır, din insanı Allah əsarətinə salır. Ona görə də həyat qaranlığa çevrilir.

Bəzən Asif Atanı bəlli fəlsəfi anlayışlarla anlamağa çalışırlar. Bunu da ən çox sovet oxulu keçmiş adamlar edirlər. Deməliyik, materialist, ya da idealist anlayışlarla Asif Atanı öyrənmək istəyi doğru sonuc verməz. Ata fəlsəfəsində anlayışlar yeni ölçü kəsb edir. Bu isə ideala yanaşmada yeni keyfiyyətlər ortaya çıxarır. Ancaq eyni halda, anlayışlar ifadə elədiyi anlamlara görə çelişkili (ziddiyyətli) də görünə bilir. Məsələn, bir yerdə "Həyat" anlayışı insanın öz üzərində qələbəsini ödəyən ortam kimi qiymətləndirilir, başqa bir yerdə insanın özümlüyünü itirdiyi ortam kimi. Sözsüz, insanın anlayışa yanaşmasının necəliyi çox önəmlidir. Bir var anlayışı yaşayanın onu necə ifadə eləməsi, bir də var oxucunun anlayışa yanaşması. Həyatı yaşayan ona necə yanaşır – bioloji ödəncin (təminatın) ödənildiyi ortam kimimi, özünün insani mahiyyətini üzə çıxarıb özümlüyünü təsdiq elədiyi araç kimimi?! Deməli, insan – biolojiliyindən yüksəyə qalxmırsa, həyat adi bir gedişə bərabərdir. İnsan kamilləşirsə, həyatı adilikdən qurtarır. Bu zaman Yüksək (ali) Həyat təsdiq olunur. Ata bunun adına Amal deyir.

Buradan çıxan sonuca baxaq: Ata "Həyat" anlayışını qonularda işlədəndə hər yol "burada "adi həyat", ya da "yüksək həyat" gözdə tutulur" deyə hər addımda açıqlamalar verə bilməz. Bu sorun, əslində bütün fəlsəfi dünyagörüşlərdə də özünü göstərir. Hər yol təkrar açıqlamalar edilərsə, sınırsız təkrarçılıq əsərin gücünü azaldar, oxunulmaz edər. Buna görə, öyrənmək istəyən oxucu yaradıcının anlayışlara gətirdiyi ölçünü özü üçün (araşdırma, ümumiləşdirmə yolu ilə) bəlli etməlidir.

Ata "Varlıq – Yoxluq" əsərində yazır: "Dünya, Həyat, İnsan – Mahiyyətlə Gerçəkliyin Birliyidir, – yəni Var olanla Var olmayanın birliyidir". Ataya görə Var olan – gerçəkliyə gələn, yəni mövcud olan deyil, Özündə qalandır. Nə deməkdir bu? Məsələn, torpaqda ağac bitir, bəlli bir çağa kimi boy atır, bar verir. Ancaq bu biçimin boyatma, barvermə olanağı sonsuz deyil, tükənir, quruyur, yox olur. Ancaq yaranışın olanağı başa çatmır. Yenə ağac bitəcək, quruyacaq. Yaranış nizamı, uyumu heç vaxt başa çatmır, əbədidir. Dünya həmin Yaranış nizamı, uyumu ilə gerçəkliyə, görünüşə gələnin birliyidir. Ancaq bu Birlik əbədi deyil, daim yenilənir. Yaranışın nizamı, uyumu sabitdir, gerçəkləşməsi isə dəyişir, yenilənir. Bir anda yaranış bir biçimlə bir olur, başqa anda başqa bir biçimlə. Yaranışın görünüşə gəlmə nizamı əbədidir, pozulmazdır. Ancaq dediyimiz kimi, bir

görünüşdə dayanıb qalmır, yeni görünüşlərlə (təzahürlərlə) daim yenilənir. Burada Var olan Yaranışdır, Var olmayan Yaranışın görsənişi, gerçəkliyi.

İnsan özündə İnsanlıq mənası daşıyır. İnsan ölür, İnsanlıq ölmür. Yəni İnsanlıq bədənə yerləşməyib, Dünyanın Yaranış, Doğuluş nizamındadır. Yəni İnsanlıqla bədən birliyi bədənin ölümünə qədərdir. İnsanlığın bədənlə birliyi – bədənə yerləşib qalması anlamında deyil. Bir bədən öləndə İnsanlığın yeni bədənlərlə birliyi başlayır. İnsanlıq Doğuluş nizamındadır. Daim doğulanlarla birləşir, ancaq onlara sığmır, onlara yerləşib qalmır. İnsanlıq bədənə qıraqdan, sonradan gəlmir, Doğuluşdan gəlir. Yəni əslində bədən İnsanlığın (ifadə olunmaq üçün) görünüşə gəlməsidir. İnsanlıq Var olandır, İnsan Var olmayandır.

Burada əslində iki yoxdur, bir var. Məna var, gerçəkliyi var. Bu iki demək deyil. Ona görə bəzən Ata deyir – Dünyalıq Əbədidir. Bəzən də deyir, Dünya Əbədidir. Yəni Dünya əslində bir olan Mahiyyətdir, bir də Mahiyyətin Gerçəkliyidir. Gerçəklik – mahiyyətin görünməsidir, ikinci bir şey deyil. Yəni Mahiyyət ikiləşmir, gerçəkləşir. Gerçəkliyi ölür, özü ölmür. Özü var olandır, gerçəkliyi var olmayandır.

Hürufilərin "Ən-əl Həqq" ideyasında da bu anlamı görmək olur. Nəsimi deyir:

***İnkar əhlin söylədirsən birə yüz der, yüzə min,***
***Əhli-iqrarın qatında varı birdir, var bir.***

İslam dünyagörüşündə isə durum tamam başqadır. Allah ayrıdır, Dünya ayrı. Allahla Dünya arasında birlik yoxdur, asılılıq var. Allah Dünyanın ağasıdır. Dünya Allah qatında heçdir, oyun-oyuncaqdır. Dünya Allahın yaratdığıdır, özü də kamil olmayan yaratdığıdır. Bir zamanlar dünya olmayacaq. Bu, dünyaya yanaşmanın antimahiyyət ölçüsüdür. İnkarçılıqdır. Burada Varlıq davamlı şəkildə danılır. Allahın özü belə, varlıq kimi dərk olunmur. Çünkü dünyadan ayrılır, yəni gerçəkliklə bağlılığı olmur. Gerçəkliklə bağlılığı olmayanın Varlığı cəfəngləşir. Cəfəngiyyat cəhalət yaradır. 7-ci yüzildə ərəb toplumu Bütsevərlik cəhalətindən Allahçılıq cəhalətinə sürüldü. Türk toplumu isə Tanrıçılıqdan Allahçılıq cəhalətinə sürüldü. Tanrıçılıq, ideal olmasa da, ideala doğma idi. Allahçılıq ideala qarşıdır. Çünkü,

dediyimiz kimi, Allahçılıqda dünya mənasından, nəinki ayrılır, mənasızlaşır.

Qabaqcıl baxışlı insanların düşüncələrində, ideyalarında Allah anlamı dirilirdi, dünya mənalanırdı, Allahçılar isə onları öldürürdülər. Əslində Allahçılıqdakı cəfəngiyyatı qoruyur, Həqiqətin gerçəkləşməsinin yolunu kəsirdilər. Məsələn, H.M.Həllac Allahla İnsanı bir olmaqda görürdü, yəni mahiyyətlə gerçəklik birliyini dərk edirdi. Bu həqiqətə qarşı çıxanlar onun dərisini soydular. Eləcə də Nəsiminin, həqiqəti cəfəngiyyatdan ayırmaq istədiyinə görə, dərisini soydular. Neçə belə qabaqcıl düşüncəli insanları öldürməklə Allah anlamını dərk etməyin yolunu bağlayıblar.

Bu gün də cəhalət davam edir, cəfəngiyyat qorunur, insan dünyanın mənasına doğmalaşa bilmir. İnsan idrakı keçicidə ilişib qalır, keçiciyə heyrətlənir, keçicidə möcüzə axtarır. Hər kəsin Allahın möcüzəsi adlandırıb heyrət elədiyi bir misala aydınlıq gətirək. İnsanlar arıların yaşam nizamında ilahi keyfiyyətlər axtarırlar: Arılar şirəni belə daşıyır, keşikçi filan işi görür, şirə gətirməyəni qovurlar b.k. İnsanların belə şeylərə heyrətlənməsi qəribədir. Nədən? Çünkü belə məsələlərdə sonsuzluq axtarmaq yersizdir. Bu, nəyisə dərk eləmək deyil, sadəcə bir növdən olan həşəratların yaşam sürəcini bilməkdir. İzləyib öyrənərsən, bilib başa çatarsan. Arı bütün hallarda sənin öyrəndiyin, bildiyin bir nizamla davranacaq, başqa bir gözlənilməzlik eləyəsi deyil. Bu sürəc min il bundan öncə də belə olub, min il bundan sonra da belə olacaq. Arının yaşam sürəci daim təkrar olunur. Arxasında gözlənilməzlik olmayan standart bir sürəcə heyrət eləməzlər. Arıda ağıl, şüur axtarırlar. Ağılda, şüurda gözlənilməzlik olur, axı bu, arıda yoxdur. Arıda, instinktiv olaraq, standart nizam var. Ancaq insan yüksək varlıqdır. Onda şüur, təfəkkür var, bunun arxasında gözlənilməzliklər olur. Başqa sözlə, mahiyyətə yetmək olanaqları var. İnsanda mahiyyət yeni çalarlarla tükənməz görsənişlərə gəlir. Əsil heyrət doğuracaq məsələ də budur. İnsanı dərk eləmək – İnsanlıq adlı mahiyyətə varmaqdır. Arını dərk eləmək isə arının özünə bağlı deyil, Dünyalığa bağlıdır. Arının yaşamı Dünyalığın sıradan bir çalarıdır. Bu çaları dərk eləmək istəsən, dediyimiz kimi, Dünyalığa gedib çıxacaqsan, arıda dayanmayacaqsan. Arıda dayananda standart bir nizamın olduğunu bilməkdən uzağa getməyəcəksən.

Dünyada heç nə var olmur, ancaq insan var olur. Çünkü insandan başqa heç nə mahiyyətə tən olmur. Tutaq, bir çağlar gedilib-gəlinən yolun qırağında ağac vardı. İndi yoxdur, ya quruyub, ya da kəsilib. Bu onu görənlərin xatırında, ya şəkildə, yazıda qalır. İnsan da bir çağlar yaşayırdı, indi ölüb, yoxdur. O da onu tanıyanların xatırında qalıb, şəkildə, yazıda var. Ancaq ağacla insanın bir çağlar olub, indi olmaması eyni anlam daşımır. İnsan ağacdan fərqli olaraq, xatirə faktı olmaqla sınırlanmır (məhdudlaşmır). İnsan şüurlu, ruhlu varlıq olduğu üçün özündən sonra Mənanı tanımaq, dərk etmək nədəni saxlayır. Biz onun ömründən, düşüncəsindən Mənaya doğru yol keçib gedirik.

Ağac kamilliyə can atmır, Doğanın verdiyi səviyyədə nədirsə, elə o olur. İnsan isə Doğanın verdiyi ilə, yəni cismaniliklə yetərlənmir, kamilliyə can atır. Ağac gerçəklikdə dayanır, insan gerçəkliyi ötür. Var olmaq budur!

Bəs insan gerçəkliyi necə ötür, varlığını necə təsdiq edir, necə təsdiq etməlidir? Burada çox böyük çətinlik var, "olmalıdır", "eləməlidir", "eləyə bilər" deməklə məsələ çözümünü tapmır. Deməli, sözün gücü "necə olmalıdır"ı deməkdə deyil, "necə olunmalıdır"ı deməkdədir. Başqa sözlə, ideya-düşüncə sistemi doğru olmalı, insanın düşünə bilməsi, zəkasını, mənəviyyatını böyütməsi üçün ortam yaranmalıdır. Ancaq bu ortam qıraqdan deyil, insanın içsəl tələblərindən yarana bilər. Necə? – Bu çağa kimi insana doğal varlıq kimi yanaşılıb, yəni Doğanın ünsürü kimi. Onun ruhsal varlıq olduğu gözardı edilib. Sonucda insan Doğadan ayrıla bilməyib, Doğaya qaytarılıb, Doğaya bağlanılıb. Burada insanın Doğadan ayrılmaması heyvandan ayrılmaması anlamındadır. İnsan Doğaya heyvan kimi deyil, İnsan kimi qayıtmalıydı. Onda Doğanı insaniləşdirəcəkdi. Doğadan yalnız maddi yararlanmaq, onu talamaq – insanı doğanın mənasından ayırdı. Doğadan yararlanmaq – Doğanı öldürmək səviyyəsində gerçəkləşdi. Bir sözlə, varlanmaq, zorlanmaq, başqalarının üzərində ağalıq eləmək istəyi Doğa ilə insan arasında uçurum yaratdı. Bilim də bu işdə Doğaya zərbə vurdu. İnsan bilimlə Doğanı maddi kəşf elədi, sənətlə, poeziya ilə mənəvi kəşf elədi. Ancaq sonra maddi kəşflə əldə elədiyi qazanca üstünlük verdi.

Din də Doğa ilə insanın doğmalığını yarada bilmədi. İnsana Doğanın fani olduğunu yeritdi. Bir çağlar panteizm insana Doğada Allahın olduğunu deyirdi. Onda insan Doğaya daha doğma idi.

Ancaq monoteist dinlər Doğanın boş, anlamsız olduğunu yeritdilər. İnsan Doğaya yağı kəsildi.

Deməli, insanın doğru yanaşması üçün idrakda gəlişən ideya-düşüncə sistemi doğru özüllər üzərində qurulmalıdır. İdeya-düşüncə sistemi insana doğal varlıq kimi deyil, ruhsal varlıq kimi yanaşmalıdır. İnsanda ruhsal keyfiyyətlər, yaxşılıqlar (fəzilətlər) – olanaqlar şəklində olur. Doğa heç vaxt bu olanaqları üzə çıxarmır, bioloji olanaqları üzə çıxarır. Bir misala aydınlıq gətirək: Doğa münbit torpaqda gül də bitirir, alaq da. İnsan münbit torpağa qulluq göstərməklə barlı-bəhrəli məhsullar yetişdirir. Bunu insan ömrü ilə tutuşdursaq, eyni mənzərəni görürük. İnsan özünü doğal varlıq kimi aparırsa, Doğa onun içini səhraya çevirir. Ancaq özünü ruhsal varlıq kimi qavrayarsa, yəni içinin yiyəsi olarsa, doğa onda gözəl duyğular yaradar. İnsan-Doğa birliyi mənəviyyatla cismanilik birliyi kimidir. Mənəviyyat cismaniliyə tabe olanda heyvanilik qələbə çalır. Mənəviyyat cismaniliyə hakimlik edəndə onu urvatda saxlayır. Burada hakimlik ağalıq anlamına gəlmir, yiyəlik anlamına gəlir.

Bu çağa kimi bəşəriyyətin ən böyük sorunu mənəviyyatla cismaniliyin, Doğa ilə İnsaniliyin münasibətini doğru qura bilməməsindədir. İdealist baxışda Doğa ideyanın kölgəsi kimi dərk olunur. Materialist baxışda Doğa zəbt olunur. Dini baxışda Doğa rədd olunur. Mütləqilik baxışında Doğa insaniləşdirilir. Biz də Mütləqilik ölçüsündə yanaşılmanın doğru olduğunu önə çəkir, İnsanlığı buna çağırırıq.

Beləliklə, biz ayrı-ayrı ideya-düşüncə yönlərini tutuşduraraq, yığcam bir sonuc ortaya qoymağa çalışdıq. Nədən tutuşdurmalar yolu ilə?! Çünkü bir çox hallarda oxucu yeniliyi araşdırmaq, öyrənmək zəhmətinə qatlaşmaq istəmir. Rastlaşdığı ideyaların köhnələrdə də olduğunu düşünür. Ancaq Asif Atanın düşüncəsini əsaslı öyrəndikdə yeni ölçünün olduğunu görmək çətin olmur.

Biz oxuculara quruculuq zəhməti diləyirirk. O zaman Görəni görmək, Qurucunu qurmaq ərdəmliyi öz təsdiqini tapacaqdır.

***Yükümüzdən Böyük Fərəhimiz yoxdur!***
***Atamız Var olsun!***

Soylu Atalı
Mütləqə İnam Ocağının Yükümlüsü

## *İNSANLAŞMAQ*

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.

Təqiblərə yüksəldim. Ata çağırıldım.
Bəşərin nicatı – İnsanlaşmaqdadır.
İnsanlaşın – İnsanlaşdırın...

*Şölə Ayı, 7-ci il. Bakı.*
*(İyun, 1985-ci il).*

## SABAHDAŞLARA

Naşı deyəcək: "Rütbəsi kiçik idi".
Müdrik deyəcək: "Rütbəni saymadı".

Naşı deyəcək: "Mənsəbi yox idi".
Müdrik deyəcək: "Mənsəbi saymadı".

Naşı deyəcək: "Heç kəsi sevmirdi".
Müdrik deyəcək: "İnsanı sevirdi".

Naşı deyəcək: "Gün görmədi!"
Müdrik deyəcək: "Günəşliydi!"

Naşı deyəcək: "Zamanla ayaqlaşmadı!"
Müdrik deyəcək: "Axsaq deyildi!"

Naşı deyəcək: "Dövrana inanmadı!"
Müdrik deyəcək: "Ədalətə inandı!"

Naşı deyəcək: "Cərgəyə qoşulmadı!"
Müdrik deyəcək: "Sürüdən ayrıldı!"

Naşı deyəcək: "Əzaba düçar oldu!"
Müdrik deyəcək: "Sevindi!"

Naşı deyəcək: "Nailiyyəti görmədi!"
Müdrik deyəcək: "Çünki kor deyildi!"

Naşı deyəcək: "Nəqarəti eşitmədi!"
Müdrik deyəcək: "Çünki kar deyildi!"

Naşı deyəcək: "Çağırdılar – dinmədi!"
Müdrik deyəcək: "Çünki lal deyildi!"

Naşı deyəcək: "Söyüldü, döyüldü!"
Müdrik deyəcək: "Hürkütdü, hürdürdü".

Naşı deyəcək: “Özü haqqında böyük fikirdəydi!”
Müdrik deyəcək: “Yükü böyük idi!”

Naşı deyəcək: “Özünü sevəndi!”
Müdrik deyəcək: “Özündən keçəndi!”

Naşı deyəcək: “Ağ eləmişdi!”
Müdrik deyəcək: “Üzü ağ idi!”

Naşı deyəcək: “Birtərəfliydi!”
Müdrik deyəcək: “Birsifətliydi!”

Naşı deyəcək: “Böyüyü bəyənmədi!”
Müdrik deyəcək: “Böyüklüyü bəyəndi!”

Naşı deyəcək: “Alimi bəyənmədi!”
Müdrik deyəcək: “Elmi bəyəndi!”

Naşı deyəcək: “Şairi bəyənmədi!”
Müdrik deyəcək: “Şeiri bəyəndi!”

Naşı deyəcək: “Filosofu bəyənmədi!”
Müdrik deyəcək: “Tutuquşunu mütəfəkkir saymadı!”

Naşı deyəcək: “Xəyallıydı!”
Müdrik deyəcək: “Ruhluydu!”

Naşı deyəcək: “Dostu yox idi!”
Müdrik deyəcək: “Amalla dostluq edirdi!”

Naşı deyəcək: “Ailəsizdi!”
Müdrik deyəcək: Övladlıydı!”

Naşı deyəcək: “Tənqidə cavab verməzdi!”
Müdrik deyəcək: “Ataları eşidərdi!”

Naşı deyəcək: “Rəqiblə döyüşmədi!”
Müdrik deyəcək: “Rəqibi olmadı!”

Naşı deyəcək: “Qəyyuma “var ol” demədi!”
Müdrik deyəcək: “Ləyaqətliydi!”

Naşı deyəcək: “Dili acı idi!”
Müdrik deyəcək: “Həqiqət qəndindən dadmışdı!”

Naşı deyəcək: “Çətin adam idi!”
Müdrik deyəcək: “Özünə bənzəyirdi!”

# OLAN, OLMAYAN

(Altıncı qutsal əsər)

# 1. MAHİYYƏT və TƏZAHÜR

I

***Fəlsəfə – Varlığın Mahiyyəti haqqında Fikirdir.***

Varlığın Mahiyyəti – Mütləqdir, Əbədidir, Sonsuzdur, Kamildir.

Təzahürü – nisbidir, ölümlüdür, keçicidir, qeyri-kamildir.

Bu səbəbdən də nisbiyə, keçiciyə, maddiyə əsaslanan ***Materializm*** vasitəsiylə Mahiyyəti dərk etmək olmaz – Təzahürü dərk etmək olar.

***İdealizm*** vasitəsiylə də Mahiyyət dərk olunmaz, çünki Mahiyyət əqliyyətə bərabər deyil, ondan hədsiz dərəcədə böyük, yüksək və qüdrətlidir. Fəlsəfi cərəyanların heç biriylə Mahiyyət dərk olunmaz.

***Mahiyyəti yalnız Ruhani İdrak dərk edə bilər.***

Fəlsəfənin əsas məsələsi – Maddiyyatın (materiyanın) Şüura münasibəti deyil, Təzahürün Mahiyyətə münasibətidir.

Təzahür – Mahiyyətə bərabər olmur, gerçəklikdə Mahiyyət özündən aşağı, kiçik, məhdud təzahür edir.

Dünya, Həyat, İnsan gerçəklikdə özlərindən balaca görünürlər.

Gerçək hadisələrin ən kamili belə, Dünyanın Mahiyyətini tam ifadə edə bilmir, Həyatın Mahiyyətini tam ifadə edə bilmir, İnsanın Mahiyyətini tam ifadə edə bilmir.

Buna görə də bizi əhatə edən Dünya, Həyat, İnsanlar öz Mahiyyətlərindən əskikdirlər.

1. Dünyanın Mahiyyətini dərk etmək üçün Təzahürdən kənara çıxmaq lazımdır.

Həyatın Mahiyyətini dərk etmək üçün Təzahürdən kənara çıxmaq lazımdır.

İnsanın Mahiyyətini dərk etmək üçün Təzahürdən kənara çıxmaq lazımdır.

Təzahürlə kifayətlənən, Təzahürə qapılıb qalan Fəlsəfə – Fəlsəfə deyil.

Bu nöqteyi-nəzərdən, materializmi əsil mənada fəlsəfə saymaq olmaz.

İdealizm – Mahiyyəti Təzahürlə eyniləşdirmir, ancaq onu əqliyyətlə məhdudlaşdırır.

Fəlsəfi Fikir – bu cərəyanların hər ikisindən artıqdır, böyükdür, yüksəkdir.

Həmin cərəyanlar Fəlsəfəyə bərabər deyil.

***Mahiyyəti dərk edən Fəlsəfə – Mütləqi dərk edən Fəlsəfə olur.***

II

Var olmaq – Mahiyyətə bərabər olmaqdır.

Mahiyyət Gerçəklikdə tam Olmur.

O, gerçəkliyin imkanlarından artıqdır.

***Bu səbəbdən də olan (gerçəklik) əslində Olmayandır.***

Olmayan – yəni Mahiyyət – əslində olandır.

***Yəni gerçəklik olur, ancaq olmur.***

***Mahiyyət – Olmur, ancaq olur.***

III

Mahiyyət gerçəkliyə – nisbiyə bərabər olsaydı, Dünya, Həyat, Bəşər tez bir vaxtda bitərdi, qurtarardı, məhv olardı.

Mahiyyət – Mütləqə bərabərdir.

Bu səbəbdən də o bitmir, qurtarmır, məhv olmur.

IV

Mahiyyət gerçəkliyə – qeyri-kamilə bərabər olsaydı, Dünya, Həyat, Bəşər naqislikdə ilişib qalardı.

Mahiyyət – Mütləqə bərabərdir.

Bu səbəbdən də Dünya, Həyat, İnsan naqislikdə ilişib qalmır, kamilliyə can atır.

V

Mahiyyət gerçəkliyə – sonluya bərabər olsaydı, Dünya, Həyat, Bəşər sonluda dayanıb qalardı.

Mahiyyət – Mütləqə bərabərdir.

Bu səbəbdən də Dünya, Həyat, Bəşər sonluda dayanıb qalmır, sonsuzluğa can atır.

## 2. İMKAN və GERÇƏKLİK

Gerçəklik – İmkandan məhduddur.

İmkan – gerçəklikdən genişdir.

Dünya, Həyat, İnsan – gerçəklikdə öz imkanlarına bərabər olmurlar.

***Olan həmişə ola biləcəkdən az olur.***

Dünya gerçəklikdə öz Dünyəviliyinə heç vaxt tam çatmır.

Həyat gerçəklikdə öz Həyatiliyinə heç vaxt tam çatmır.
İnsan gerçəklikdə öz İnsaniliyinə heç vaxt tam çatmır.
***Dünya, İnsan, Həyat həmişə gerçəklikdən artıq olur.***

## 3. AZADLIQ və ZƏRURİYYƏT

***Zəruriyyət – Həyata gerçəkliyin gözüylə baxmaqdır.***
***Azadlıq – Həyata Mahiyyətin gözüylə baxmaqdır.***
***Bu səbəbdən də zəruriyyət – imkansızlıqdır.***
Azadlıq – zəruriyyəti rədd etməklə imkansızlığı rədd edir.
***Gerçəkliyin məntiqində Azadlığa yer yoxdur.***
Çünki gerçəklik Olanı təsdiq edir, Azadlıq isə ola biləcəyin, ***Mahiyyət etibariylə olmalının məntiqinə əsaslanır.***
***Azadlıq – zəruriyyətin ölçüsünü, qənaətini, təsəvvürlərini alt-üst eləyir.***
***Azadlıq – Gerçəkliyi sarsıdır.***
***"Azadlıq – dərk olunmuş zəruriyyətdir" – fikri yanlışdır.***
***"Azadlıq – rədd olunmuş zəruriyyətdir" – fikri doğrudur.***
Azadlıq – zəruriyyəti maneə kimi nəzərə alır.
Zəruriyyət Azadlığa havadar olmur.
***"Zəruriyyət olmayan yerdə – Azadlıq yoxdur" – iddiası qorxaqların təskinliyidir.***
Azadlıq ***qeyri-zəruri hadisə*** kimi yaranır, zəruriyyətin əleyhinə yaranır, zəruriyyəti taxtdan salır, zəruriyyətin taxtına yiyələnir.
***Zəruriyyət Azadlığa təslim olur.***

## 4. NƏTİCƏ və SƏBƏB

Nəticə Səbəbdən törəyirsə də – Səbəbə tabe olmur.
Nəticəylə Səbəb arasında Kölə–Ağa münasibətləri yoxdur.
Səbəbiyyət Amirliyi – Xurafatdır.
***Nəticə Səbəbə zidd çıxa bilər.***
***Nəticə Səbəbi təəccübləndirə bilər.***
"Səbəbin labüd nəticəsi" anlayışı – fatalizmin qalığıdır.
Nəticə Səbəbiyyət məntiqini çox hallarda pozur.

Dünya Səbəbin yaratdığı dünya yox, nəticənin törətdiyi dünya olur.

## 5. TƏSADÜF və QANUNAUYĞUNLUQ

Təsadüf – qanunauyğunluğun ifadəsi yox, təsdiqi yox, İnkarıdır.

***Təsadüf – sübut edir ki, Dünya qanunauyğunluqlara sığmır.***

Təsadüf – qanunauyğunluqların pozulmasıdır.

***"Qanunauyğunluq – hər şeydir; bu səbəbdən də təsadüfün özü də qanunauyğunluğun ifadəsidir" – fikrində həqiqət yoxdur.***

***Əgər həyatda təsadüf mövcuddursa, deməli, Dünya qanunauyğunluqlar mənganəsinə salınmayıb.***

Təsadüf əsasında qələbə yarana bilər və bunun qanunauyğunluğa aiddiyyatı olmaz.

***Təsadüf Dünyanın qanunlardan artıq olduğunu sübut edir.***

## 6. VƏHDƏT və ZİDDİYYƏT

Ziddiyyət – Vəhdətin təsdiqi deyil – inkarıdır.

Ziddiyyətli Vəhdət anlayışı – uydurmadır.

Vəhdət – ziddiyyətsizlik deməkdir.

***Ziddiyyət – vəhdətsizlikdir.***

***Gerçəklik – vəhdət tanımır, çünki ziddiyyətlidir.***

***Ziddiyyətlərin münaqişəsiylə səciyyələnən cəmiyyət vəhdətdən məhrum olan cəmiyyətdir.***

***"Əksliklərdən yaranan vəhdət" anlayışı xurafatdır.***

***Ziddiyyətli olan Vahid ola bilməz.***

***Gerçəklik Vahid deyil – çünki Ziddiyyətlidir.***

***Mahiyyət Vahiddir – çünki Ziddiyyətsizdir.***

***Yalnız bütöv olan – Vahiddir.***

## 7. SABİTLİK və DƏYİŞKƏNLİK

Var olmaq – əslində Sabit olmaqdır.

***Dəyişkənlik – Özümsüzlükdür. Müxtəlif Məqamlarda müxtəlif cür olmaq – böyük mənada olmamaq deməkdir.***

Bu baxımdan – gerçəklik var olmur.

Əsil mənada İnsan yaşamır – İnsanlıq yaşayır.

Hadisə yaşamır – tarixi gediş yaşayır.
“Hər şey dəyişilirsə” – heç şey yaşamır!
***“Eyni çaya iki dəfə girmək olmursa” – çay Yoxdur.***
***Yalnız dəyişməyən yaşayır.***

## 8. MÜTLƏQ və NİSBİ

Nisbi Xeyir – Şərdir.
Nisbi Gözəllik – Eybəcərlikdir.
Nisbi Saflıq – Günahdır.
Nisbi Həqiqət – Yalandır.
Nisbi İnam – Şübhədir.
Nisbi Təsdiq – İnkardır.
Nisbi Ədalət – Zülmdür.
Nisbi Sədaqət – Xəyanətdir.
Nisbi Məhəbbət – Nifrətdir.
Nisbi Azadlıq – Əsarətdir.
Nisbi Ləyaqət – Qəbahətdir.
Nisbi Müdriklik – Naşılıqdır.
Nisbi Qeyrət – Qeyrətsizlikdir.
Nisbi Dostluq – Düşmənçilikdir.
Nisbi Mərdlik – Müxənnətlikdir.
Nisbi Müstəqillik – Köləlikdir.
Nisbi Böyüklük – Kiçiklikdir.
Nisbi İdrak – İdraksızlıqdır.
Nisbi İstedad – İstedadsızlıqdır.
Nisbi Qələbə – Məğlubiyyətdir.
Nisbi Doğmalıq – Yadlıqdır.
Nisbi Hörmət – Hörmətsizlikdir.
Nisbi Fədailik – Fərarilikdir.
***Gerçək olan – Var olmur.***
***Mütləq olan – Var olur.***

## 9. MÜTLƏQ FƏLSƏFƏSİ

***Din*** – Mütləqi uydurur. Dünyanı yaradan, insan taleyini müəyyən edən Allah – Yalandır.

***İdealizm*** – Mütləqi Əqliyyətlə eyniləşdirir, əslində isə Əqliyyət Mütləq deyil, çünki Ruha, Əbədiyə, Sonsuza, Kamilə bərabər deyil.

***Panteizm*** – Təbiəti Mütləqləşdirir; ancaq Təbiət Mütləqin özü yox, Təzahürüdür.

***Materializm*** – Mütləqi görmür, Təzahürü – yəni nisbini, keçicini, sonlunu, qeyri-kamili görür.

***Mütləqi yalnız Ruhani İdrak dərk etməyə qadirdir.***

***Ata Fəlsəfəsi*** – Mütləq Fəlsəfəsidir, Mütləqi dərk edən Fəlsəfədir.

***Ata Fəlsəfəsi*** – həm də İnsan Fəlsəfəsidir, yəni İnsanın Mütləq Mahiyyəti haqqında təlimdir.

***Ata Fəlsəfəsi*** – həm də Mənəviyyat Fəlsəfəsidir, İnsanın Özünə çatması haqqında təlimdir.

***Ata Fəlsəfəsi*** – həm də İdrak Fəlsəfəsidir, Ruhani İdrak haqqında təlimdir.

***Ata Fəlsəfəsi*** – həm də Cəmiyyət Fəlsəfəsidir, Ruhani Dövlət haqqında təlimdir.

***Ata Fəlsəfəsi*** – nə materializmdir, nə də idealizm.

***O, Dünyaya Ruhun gözüylə baxmaqdır.***

***Ruh anlayışında Xurafat yoxdur.***

***Ruh – Mütləqin İnsanda ifadəsidir.***

***Mənəviyyatın yaradıcısıdır, Həqiqətin, Ədalətin carçısıdır, həm də Zəkadan yüksək idrak növüdür; Mütləqi, Sonsuzu, Əbədini, Kamili dərk edən Qüdrətdir.***

Din Ruhdan öz məqsədi üçün istifadə etməyə çalışır, ancaq Ruh – dinin məhsulu deyil!

***Ruh – İnsaniliyin təsdiqidir.***

***Müasir hakim Fəlsəfə*** – Dini aradan qaldıra bilmir, çünki Mütləqi rədd edir, bu səbəbdən də Fəlsəfi İnam yarada bilmir.

***Ata Fəlsəfəsi*** – Dini aradan qaldıra bilər, çünki Mütləqi təsdiq edir, Fəlsəfi İnam yaradır.

***Müasir hakim Fəlsəfə*** – Mənəvi şəxsiyyət yarada bilmir. Çünki İnsanı maddiyyata pərçimləyir.

***Ata Fəlsəfəsi*** – Mənəvi şəxsiyyət yaratmağa qadirdir, çünki İnsanı Ruhani xilqət sayır, onu Mütləq Mahiyyətə bərabər olmağa çağırır.

***Müasir Hakim Fəlsəfə*** – əslində Həqiqət tanımır, çünki Mütləq tanımır.

***Ata Fəlsəfəsi*** – Həqiqət tanıyır, çünki Mütləqlidir.

***Müasir Hakim Fəlsəfə*** – İnsani cəmiyyət yarada bilmir, çünki maddi tərəqqidə İnsanı itirir.

***Ata Fəlsəfəsi*** – İnsani cəmiyyət yaratmağa qadirdir, çünki tərəqqinin mənasını ruhaniliyin təsdiqində görür.

***Ata Fəlsəfəsi – İdrak tarixindən təcrid deyil, ancaq onu – ən çox həyatın Tələbi yaratdı.***

***İnamsızlıq əvəzinə – İnam, insansızlıq əvəzinə – İnsan, mənəviyyatsızlıq əvəzinə – Mənəviyyat, idraksızlıq əvəzinə – İdrak, ədalətsizlik əvəzinə – Ədalət tələbi!***

***“Ata Fəlsəfəsi”*** sözündə inadkar bir niyyət də yaşayır: Ata Fəlsəfəsinin Övladlar Fəlsəfəsinə çevrilməsi!

## 10. İDEYA

I

İdeya – gerçəkliyin Mütləqə yüksəlməsidir.
Buna görə də o, gerçəklikdən artıqdır.
Xeyir – ideyadır, xeyirli – gerçəklik.
Xeyir – xeyirlidən artıqdır.
Gözəllik – ideyadır, gözəl – gerçəklik.
Gözəllik – gözəldən artıqdır.
Ədalət – ideyadır, adil – gerçəklik.
Ədalət – adildən artıqdır.

II

İdeya – Mahiyyətin ifadəsidir –
bu səbəbdən də gerçəklikdən böyükdür.
Mahiyyəti gerçəklikdən böyük saymaq –
gerçəkliyi özündən böyük saymaqdır.
Mahiyyəti gerçəkliyə bərabər saymaq –
gerçəkliyi özünə bərabər saymaqdır.

Gerçəklik heç zaman özünə bərabər olmur,
özündən kənara çıxır, özündən böyüyə yüksəlir.

III

"Gerçəklikdə gerçəklikdən başqa heç nə yoxdur" – iddiasında gerçəklik kiçilir.

Həyatda Hadisə də Var, İdeya da.

Hadisə – gerçəklikdə mövcud olur, İdeya – gerçəkliyin ardıcıl inkişafında.

Həyatda Xeyirli də Var, Xeyir də.

Xeyirli – gerçəklikdə mövcud olur, xeyir – gerçəkliyin ardıcıl inkişafında.

Həyatda gözəl də Var, gözəllik də.

Gözəl – gerçəklikdə mövcud olur, gözəllik – gerçəkliyin ardıcıl inkişafında.

Həyatda adil də Var, ədalət də.

Adil – gerçəklikdə mövcud olur, ədalət – gerçəkliyin əbədi inkişafında.

Hadisə də, İdeya da Var olurlar.

***Birinci – gözlə görünür, o biri – İdrakla dərk olunur.***

## 11. İDRAK

### I. Gerçəkliyi tanıma

İdrakın birinci mərhələsində İnsan gerçəkliyi ***tanıyır.***

Həmin mərhələdə ***Duyğu*** hökm sürür.

***Duyğu*** vasitəsiylə İnsan gerçəkliyi Hiss edir, Qavrayır və Təsəvvür edir.

### II. Gerçəkliyi qiymətləndirmə

İdrakın ikinci mərhələsində İnsan gerçəkliyi qiymətləndirir.

Həmin mərhələdə ***Mühakimə*** hökm sürür.

***Mühakimə*** vasitəsiylə İnsan gerçəkliyi təhlil edir, ***Sintez və Konsepsiya*** nəticəsində gerçəklik haqqında Fikir söyləyir.

### III. Gerçəkliyin Mütləqə yüksəldilməsi

İdrakın üçüncü mərhələsində İnsan ***gerçəkliyi Mütləqə yüksəldir.***
Həmin mərhələdə ***İdeya*** hökm sürür.
Əbədi, Sonsuz və Kamil olan dərk olunur.
Ruhani idrak (Vəhy, İlham, Ehtizaz, İntuisiya) Mütləqi dərk edir.

### IV. Meyar

Yalnız Mütləq olan – Həqiqidir.
Yalnız Mahiyyət – Mütləqdir.
Yalnız Mahiyyət – Həqiqidir.
Gerçəklik – Mütləqə, Mahiyyətə, Həqiqətə çatmır.
Bu səbəbdən də Həqiqətin gerçəklikdə Meyarı olmur.
***Həqiqətin Meyarı – Mütləqdir.***

### V. Kamilləşmə

Ruhani İdrakda – ***Vəhydə, İlhamda, İntuisiyada, Ehtizazda*** – Zəka, Mənəviyyat və İradə birləşir.
Bu səbəbdən də burada Zəka Zəkadan artıq olur.
Mənəviyyat Mənəviyyatdan artıq olur.
İradə İradədən artıq olur.
***Bu səbəbdən də Həqiqətin dərki – həm də İnsanın Ruhani Kamilləşməsi olur.***

## 12. RUH FƏLSƏFƏSİ

***Ata Fəlsəfəsi*** – Mütləq Fəlsəfəsi olduğu qədər də ***Ruh Fəlsəfəsidir.***
Çünki o, Ruhu – İnsanda Mütləqin ifadəsi sayır.
***Fəlsəfə tarixi Müstəqil Ruh Fəlsəfəsi tanımır.***
Platonizmi Ruh Fəlsəfəsi saymaq olmaz, çünki Yunan filosofunun İdeyalar Dünyası İnsandan (yəni həm də onun Ruhundan) kənarda mövcuddur.
Kant, Fixte, Şellinq – Ruh Fəlsəfəsi yox, Zəka Fəlsəfəsi yaratdılar: bu fəlsəfədə Dünya Zəkaya bərabərdir.

Ruh – Zəkadan geniş və yüksəkdir, o, İdrakın, Mənəviyyatın və İradənin vəhdətidir. Bu səbəbdən də Zəka Fəlsəfəsini Ruh Fəlsəfəsi saymaq olmaz.

Hegelin Mütləq Ruhu da İnsandan kənarda mövcud olan Mütləq Zəkadır.

***Beləliklə, Ruh Fəlsəfəsi – Şərq ənənələrinə əsaslanan və zəmanəmizin müdhiş ruhsuzluq fəlakətindən törəyən – yeni fəlsəfədir.***

## 13. RUHSUZLUQ FƏLAKƏTİ

İnsanda üç keyfiyyət yaşayır: Ruh, Zəka, Heyvani İnstinkt.

***Ruh – İnsanilik yaradır.***

***Mənəviyyat – Ruhun Övladıdır.***

***Ədalət Tələbi – Ruhun Ehtiyacıdır.***

***Həqiqət Tələbi – Ruhun Ehtiyacıdır.***

***Mütləqi dərk edən – Ruhdur.***

***Bu səbəbdən də Ruh – İnam yaradır.***

***Zəka*** – Gerçəkliyi dərk edir, təbiəti İnsana tabe edir, İnsanı Dünyanın Sahibinə çevirir.

***İnstinkt*** – İnsandakı heyvaniliyi, yırtıcılığı təsdiq edir.

Bəşər indiyə qədər ən çox Zəkaya arxalanıb, Zəkanı özünə hakim seçib, Zəkanı Mütləqləşdirib, Zəka vasitəsiylə heyvaniliyin üzərində qələbə çalacağına ümid bəsləyib.

Əslində isə Zəka heyvaniliyin həmdəmi olub, düşməni olmayıb.

Zəka vasitəsiylə yırtıcılıq yeni qüvvə qazanıb.

Zəka heyvaniliyə çox yaxşı xidmət eləyib, onu böyüdüb, artırıb, silahlandırıb.

***Zəkayla heyvaniliyin əcaib bir qohumluğu, doğmalığı peyda olub.***

Bu, əslində təbiidir.

Çünki Zəka Mənəviyyat tanımır, Vicdan tanımır, Ədalət tanımır, İnsaniliyə bərabər deyil.

Filosofların ən böyük ***Yalanı – İnsaniliyi Zəkayla eyniləşdirmək,*** İnsanın aqibətini Zəkaya tapşırmaq oldu.

Zəka Xeyirə bərabər sayıldı, əslində isə Zəka Şərə yaradı.

***Maarifçilər*** Zəkalı cəmiyyət arzuladılar və həmin cəmiyyətin insaniliyinə bel bağladılar.

***Hegel*** sevinclə Dünyanın Zəkaya bərabər olmasını bəyan etdi və bunu Nikbinliyin əsası saydı.

***İqtisadi fatalistlər*** – istehsalatı zəki, dəmir qanunlara tabe etdilər və bəşəriyyətin nicatını həmin qanunların təsdiqində gördülər.

***Möhtəşəm Yalan bu gün də yaşayır.***

Zəkalı olmaq hələ də Mənəvi olmaqdan üstün sayılır.

***Əslində isə Zəkanı Ruha tabe etmək, İnsanın Aqibətini Ruha tapşırmaq lazımdır.***

***İnsan həyatına Ruh hakim olmalıdır.***

***Yalnız belə olduqda Zəkayla heyvaniliyin sazişi pozular.***

***Ruhu xurafatın əlindən alıb İnsani Tərəqqinin hərəkətverici Qüvvəsinə çevirmək lazımdır.***

***Yoxsa Zəkalı Heyvanilik Dünyanı tar-mar eləyər.***

## 14. RUH – HƏYAT

Ədaləti – Həyat yaratmır, Ruh yaradır.

Xeyiri – Həyat yaratmır, Ruh yaradır.

Müqəddəsliyi – Həyat yaratmır, Ruh yaradır.

Həyatda Ülvi nə varsa, o, əvvəl Ruhda (İdrakda, Mənəviyyatda, İradədə) yaranır və sonra həyata keçir.

***Bu baxımdan, Ali Həyat Ruhdan törəyir.***

***Ruh Həyatı öz arxasınca aparır.***

## 15. İDEYA – MADDİYYAT

İdeyamı əzəlidir (birincidir), maddiyyatmı? – məsələ bunda deyil.

İdeyamı əsasdır, maddiyyatmı? – məsələ bundadır.

***İdeya əsasdır.***

Çünki İdeya – İnsaniliyin ifadəsidir.

***Heyvanın İdeyası yoxdur.***

Çünki İdeya – maddiyyatdan artıqdır, böyükdür, yüksəkdir.

İdeya Sonsuzdur, Əbədidir, Kamildir.

Bu səbəbdən də İdeya Həyatı öz arxasınca aparır.

Bu səbəbdən də Həyatı Həyat eləyən elə İdeyadır.

## 16. ƏXLAQ – HƏYAT

***Əxlaq – Həyata ziddir.***
Həyatda Ədalət qələbə çalmır.
Əxlaqda Ədalət qələbə çalır.

Həyatda Həqiqət qələbə çalmır,
Əxlaqda Həqiqət qələbə çalır.

Həyatda İnsanilik qələbə çalmır,
Əxlaqda İnsanilik qələbə çalır.
Həyatda İnsan nisbiləşir,
Əxlaqda İnsan Mütləqləşir.

Əxlaq Həyatla döyüşür, Həyat üzərində qələbə çalır, həyatı Ali Həyata yüksəldir.

## 17. HƏYAT YALANI

Şəhvət deyir: "Mən hər şeyəm" və İnsanı aldadır.
Şöhrət deyir: "Mən hər şeyəm" və İnsanı aldadır.
Varidat deyir: "Mən hər şeyəm" və İnsanı aldadır.
Hakimiyyət deyir: "Mən hər şeyəm" və İnsanı aldadır.

***Amalsız Həyat – aldanışdır.***
***Amalsız yaşamaq – aldanmaqdır.***

## 18. İDEALİZM – MATERİALİZM

İdealizmdə Təzahür Mahiyyətdən törəyir.
Bu səhvdir, çünki Təzahür Mahiyyətin övladı deyil, gerçəkliyidir.
Materializm Təzahürlə Mahiyyəti eyniləşdirir.
Bu da səhvdir. Çünki Təzahürlə Mahiyyət arasında Fərq böyükdür.
***Təzahür – Nisbini təsdiq edir, Mahiyyət – Mütləqi.***

## 19. PANTEİST İNKAR

I

Dünya – Allahdır.
Allah Sonsuzdur və Vahiddir.
Dünya sonlu və müxtəlif hadisələrdən ibarətdir.
Deməli, Dünya Yoxdur.
Dünyada Var olan – yalnız Allahdır.

II

Allah – Dünyadır.
Allah Sonsuz və Vahiddir.
Dünya sonlu və müxtəlif hadisələrdən ibarətdir.
Deməli, Allah yoxdur.
Allahda Var olan yalnız Dünyadır.
***Əgər Dünya – Allahdırsa – Dünya deyil!***
***Əgər Allah Dünyadırsa – Allah deyil!***

## 20. MATERİALİZM

Materializm – Fəlsəfə deyil, Elmdir, yəni gerçəklik haqqında bilikdir.

***Həm də Elmlərin ən gərəksizidir.*** Çünki konkret elmlərin dediyindən artıq heç nə demir.

Materializm ***Dünya Görüşü*** yaratmır – çünki Mahiyyətə varmır.

***Əxlaq yaratmır.*** Çünki Mahiyyətə varmır.

***İdeal yaratmır.*** Çünki Mahiyyətə varmır.

***Həqiqəti görmür.*** Çünki Mahiyyətə varmır.

***Materializmdə Fəlsəfə qurtarır.***

## 21. TƏRƏQQİ

Tərəqqinin Məqsədi – İnsanilikdir.

Çeşidləri müxtəlifdir.

***Maddi tərəqqi.***
***Mənəvi tərəqqi.***
***İctimai tərəqqi.***
***İdraki tərəqqi.***

Maddi tərəqqi – maddi nemətlər bolluğu deməkdir.

Mənəvi tərəqqi – mənəvi kamillik deməkdir.

İctimai tərəqqi – ədalətli cəmiyyət deməkdir.

İdraki tərəqqi – həqiqətlik deməkdir.

"Tərəqqinin əsasını maddi inkişaf təşkil edir" – fikri yanlışdır.

Maddi tərəqqi labüd şəkildə mənəvi tərəqqi yaratmır, mənəvi tərəqqiyə zidd ola bilir, mənəvi tərəqqini inkar edə bilir.

Maddi tərəqqi labüd şəkildə ictimai tərəqqi yaratmır, ictimai tərəqqiyə zidd ola bilir, ictimai tərəqqini inkar edə bilir.

Maddi tərəqqi labüd şəkildə idraki tərəqqi yaratmır, idraki tərəqqiyə zidd ola bilir, idraki tərəqqini inkar edə bilir.

***Maddi olmaq – mənəvi olmaq deyil, əxlaqlı olmaq deyil, idraklı olmaq deyil.***

***Maddi tərəqqi – Tərəqqinin əsası ola bilməz.***

***Tərəqqinin əsası – Ruhanilikdir.***

***Maddiyyat bolluğu Ruhaniliyə xidmət edəndə – Tərəqqi səviyyəsinə yüksəlir.***

***Əks təqdirdə o, Ruhaniliyə düşmən kəsilir.***

Mənəvi Tərəqqi – Ruhani Əxlaq deməkdir.

İctimai Tərəqqi – Ruhani Cəmiyyət deməkdir.

İdraki Tərəqqi – Ruhani İdrak deməkdir.

***Tərəqqi – Ruhaniliyin Təsdiqi deməkdir.***

Bəşər bu Ali Məqsədə çata bilmir.

Çünki maddi tərəqqiyə alüdə olur, ondan nicat gözləyir, ona qapılıb qalır.

***Maddiyyat artır – İnsaniyyət azalır.***

## 22. GERÇƏKLİK – AMAL

***Gerçəklik*** – Nisbiliyin təsdiqidir.
***Amal*** – Nisbiliyin inkarıdır.
***Gerçəklik*** – Keçiciliyin təsdiqidir.
***Amal*** – Keçiciliyin inkarıdır.
***Gerçəklik*** – qeyri-kamilliyin təsdiqidir.
***Amal*** – qeyri-kamilliyin inkarıdır.
***Gerçəklik*** – ölümlünün təsdiqidir.
***Amal*** – ölümlünün inkarıdır.

***Bu səbəbdən də Amalı seçən – gerçəklikdən keçir.***

## 23. CƏMİYYƏT RİYASI

Cəmiyyət İnsanı aldadır.
Xeyirə çağırır – Şəri qoruyur.
Saflığa çağırır – Çirkabı qoruyur.
Doğruya çağırır – Əyrini qoruyur.
Ləyaqətə çağırır – Qəbahəti qoruyur.
Munisliyə çağırır – Xəbisliyi qoruyur.
Məhəbbətə çağırır – Nifrəti qoruyur.
***Cəmiyyətə inanan – aldanır.***

## 24. GÖZƏLLİK

Gözəllik – Mütləqdən xəbər vermirsə – heçdir.
Gözəllik – Ruhanilikdən xəbər vermirsə – heçdir.
Gözəllik – Xeyirdən xəbər vermirsə – heçdir.
Gözəllik – yalnız gözəllikdirsə – heçdir.

## 25. İSTEHSALAT XURAFATI

Xudbinlik varsa – Dünya pisdir.
Yırtıcılıq varsa – Dünya pisdir.
Zülm varsa – Dünya pisdir.
Yalan varsa – Dünya pisdir.
Xudbinliyi İstehsalat yaratmır – İnsan yaradır.
Yırtıcılığı İstehsalat yaratmır – İnsan yaradır.
Zülmü İstehsalat yaratmır – İnsan yaradır.
Yalanı İstehsalat yaratmır – İnsan yaradır.
***Dünyanı dəyişmək üçün İnsanı dəyişmək lazımdır.***
Xudbinliyi İstehsalat öldürmür – İnsan öldürür.
Yırtıcılığı İstehsalat öldürmür – İnsan öldürür.
Zülmü İstehsalat öldürmür – İnsan öldürür.
Yalanı İstehsalat öldürmür – İnsan öldürür.
Dünyanın pisliyinə bais – İnsandır, İstehsalat deyil!
Dünyanın yaxşılaşmasına səbəb – İnsandır, İstehsalat deyil!
***İstehsalat xurafatı İnsanı aldadır.***

## 26. İSTEHSALAT FATALİZMİ

İstehsalat – Bazis yaradır.
İstehsalat – Üstqurum yaradır.
İstehsalat – Formasiya yaradır.
İstehsalat – Tərəqqi yaradır.
İstehsalat – Əsarət yaradır.
İstehsalat – Azadlıq yaradır.
İstehsalat – Cəmiyyəti dəyişir.
İstehsalat – İnsanı dəyişir.
İstehsalat – Zəruri hakimdir.
İstehsalat – Allahdır, İnsan – Bəndə!
***İnsanın taleyi İstehsalatın əlindədir.***
***Yazıq İnsan!***

## 27. MİLLİ MƏSƏLƏNİN "HƏLLİ"

Müstəqil olmağa haqqın var.
Ancaq Müstəqil olma.
Çünki bu Xəyanətdir!
Ayrılmağa haqqın var.
Ancaq ayrılma.
Çünki bu Xəyanətdir!
Milli mədəniyyətini inkişaf elətdir!
Ancaq Sabah milli mədəniyyət olmayacaq!
Vahid bəşəri mədəniyyət yaranacaq!
Milli dilini qoru!
Ancaq Sabah milli dil olmayacaq!
Vahid bəşəri dil yaranacaq!
Millətlər çiçəklənsin!
Ancaq Sabah Millət olmayacaq!
Vahid bəşəriyyət yaranacaq!
"Müstəqil" olduğun üçün – müstəqil deyilsən!
"Çiçəkləndiyin" üçün – Yox olursan!
***Misilsiz Sofistika!***

## 28. ÖLDÜRÜCÜ MƏNTİQ

Xüsusi pisdir – Ümumi yaxşıdır.
Balaca pisdir – Yekə yaxşıdır.
Müxtəlif pisdir – Vahid yaxşıdır.
Təkcə pisdir – Cəm yaxşıdır.
Xüsusi yaşamayacaq – Ümumi yaşayacaq.
Balaca yaşamayacaq – Yekə yaşayacaq.
Müxtəlif yaşamayacaq – Vahid yaşayacaq.
Təkcə yaşamayacaq – Cəm yaşayacaq.
***Yaşayan – yaşamayacaq!***

## 29. "PROLETAR HAKİMİYYƏTİ"

Kapitalizmdə ***burjua*** izafi dəyəri mənimsəyir, fəhlə istismar olunur.

Sosializmdə ***dövlət*** izafi dəyəri mənimsəyir, fəhlə istismar olunur.

Kapitalizmdə ***burjua*** fəhlə əməyindən bəhrələnir, qazanc əldə edir, zənginləşir.

Sosializmdə ***dövlət*** fəhlə əməyindən bəhrələnir, qazanc əldə edir, zənginləşir.

Kapitalizmdə istehsalat vasitələrinə fəhlə sahib olmur, ***burjua*** sahib olur.

Sosializmdə istehsalat vasitələrinə fəhlə sahib olmur, ***dövlət*** sahib olur.

Kapitalizmdə mülkiyyəti yaradan mülkiyyətdən məhrum olur, mülkiyyət ***burjuaziyanın*** əlinə keçir.

Sosializmdə mülkiyyəti yaradan mülkiyyətə yiyələnmir, mülkiyyət ***dövlətin*** əlinə keçir.

Proletariat kapitalizmi devirir, ancaq "itirməli heç nəyi olmayan bir sinif" səviyyəsində qalır.

Proletar inqilabı fəhlə sinfinin proletarlığını (total məhrumluğunu) aradan qaldırmır.

***Proletariat heç nə itirmədisə də, heç nə də qazanmadı.***

## 30. KƏNDLİ AQİBƏTİ

Sosializmdən əvvəlki formasiyalarda kəndli adlanan xüsusi bir sinif var idi, həmin sinif torpağa, – istehsalat vasitələrinə malik idi.

Sosializmdə kəndli bir sinif kimi ləğv olunur; torpaq, istehsalat vasitələri dövlətin əlinə keçir, kəndli–proletar vəziyyətinə düşür.

Onun "itirilməli bir şeyi" qalmır.

***Kollektiv təsərrüfat – dövlət təsərrüfatıdır.***

Kəndli dövlətə işləyir və zəhmətinin yalnız bir hissəsini mənimsəyir.

Kəndli təsərrüfatının gələcək inkişafı formal fərqi aradan qaldıracaq və Yeganə, Vahid, İctimai Dövlət mülkiyyəti tam bərqərar olacaq.

Ancaq kəndli sinfinin yoxa çıxması və proletarlaşması göz önündədir.

***Sosializm kapitalizmin görə bilmədiyi işi gördü: kəndlini bir sinif kimi ləğv etdi, fəhləyə çevirdi.***

## 31. SOSİALİST SİNİFLƏRİ

Real Sosializmdə Üç Sinif mövcuddur:

1) fəhlə sinfi, 2) idarəçilər sinfi, 3) ziyalılar sinfi.

Sosializmdə ***Dövlət Mülkiyyəti*** hakimdir.

Bu səbəbdən də Siniflərin hər üçü mülkiyyətdən məhrumdur.

Fəhlə sinfi maddi nemətlər istehsal edir, idarəçilər sinfi cəmiyyəti idarə edir, ziyalı sinfi idarəçilərə xidmət edir.

İdarəçilər sinfinin əhatə dairəsi genişdir: zavod, fabrik rəhbərlərindən, kolxoz sədrlərindən başlamış rayon, şəhər, respublika, ittifaq çinovniklərinə, partiya, sovet xadimlərinə, müəssisə başçılarına qədər.

İdarəçilər maddi nemətlər yaratmır, maddi nemətlər yaradanları idarə edirlər.

İdarəçilər mənəvi sərvətlər yaratmır, mənəvi sərvətlər yaradanları idarə edir, ideoloji proqram yaradır və həyata keçirirlər.

Qanunları qoruyur, cəmiyyətə başçılıq edir və cəmiyyətdən ən çox bəhrələnirlər.

Fəhlə Sinfi proletariatdan və kəndlidən ibarətdir. O, maddi nemətlər istehsal edir və onların ən cüzi hissəsini mənimsəyir.

Ziyalı – İdarəçilərə tabe olur, dövlətə qulluq edir, cəmiyyətdən əhəmiyyətli dərəcədə bəhrələnir.

Fəhlə əməyinin ən böyük bəhrəsi İdarəçilərə, orta bəhrəsi Ziyalılara, ən kiçik bəhrəsi Fəhləyə çatır.

## 32. DİALEKTİKA
(Antivarlıq)

Ziddiyyət – Varlığın əsasıdır.
Deməli, qeyri-ziddiyyət – Antivarlıqdır.
Dəyişkənlik – Varlığın əsasıdır.
Deməli, sabitlik – Antivarlıqdır.
Əksliklərin mübarizəsi – Varlığın əsasıdır.
Deməli, həmin mübarizə yoxdursa – Varlıq da yoxdur.
Kəmiyyətin keyfiyyətə keçməsi – Varlığın əsasıdır.
Deməli, həmin keçid yoxdursa – Varlıq da yoxdur.
İnkarın İnkarı – Varlığın əsasıdır.
Deməli, həmin İnkar yoxdursa – Varlıq da yoxdur.
Deməli, Varlıq həm də antiVarlıqdan ibarətdir.

Çünki Varlıqda ziddiyyətlə bərabər – ahəngdarlıq da yaşayır, dəyişkənliklə bərabər – sabitlik də yaşayır və s.

***Dialektik yolla antiVarlıq təsdiq olunur.***

## 33. TARİXİ MATERİALİZM
(Sosioloji əsatir)

İnsanın taleyi Allahlardan yox, İstehsalatdan asılıdır.

İstehsal qüvvələriylə istehsal münasibətləri arasında münaqişə yarananda insanlar arasında döyüş başlayır.

İstehsal qüvvələriylə istehsal münasibətləri arasında dinclik yarananda insanlar arasında əmin-amanlıq bərqərar olur.

İnsan elə bilir ki, öz ağlıyla iş görür, əslində isə istehsalatın hökmünü icra edir.

İnsan elə bilir ki, tarix meydanında at sürür, əslində isə istehsalat tərəfindən oynadılır.

İnqilab baş verir – İstehsalatın əməlidir.

Ədalət uğrunda vuruşma gedir – İstehsalatın əməlidir.
Dirçəliş uğrunda vuruşma gedir – İstehsalatın əməlidir.
Ruhanilik uğrunda vuruşma gedir – İstehsalatın əməlidir.
Həqiqət uğrunda vuruşma gedir – İstehsalatın əməlidir.
***Tarixi materializm peyda olunca – insan özünü aldadırdı.***
İstehsalata aid olanı özünə aid edirdi.
İstehsalatdan asılı olduğu halda istehsalatı özündən asılı sayırdı.
Sərbəstliyə can atırdı, tarixin təkərini geri döndərməyə çalışırdı.
***Unudurdu ki, onun Dünəni də, Bugünü də, Sabahı da İstehsalatdan asılıdır.***
***Unudurdu ki, İnsanı İnsan eləyən İstehsalatdır.***
***Unudurdu ki, özü İstehsal qüvvələrinin ünsürü kimi İstehsalata daxildir.***
***Unudurdu ki, aqibəti İstehsalatın əlindədir.***
***Unudurdu ki, Nicat – İstehsalatdadır.***
***Unudurdu ki, İstehsalata təhkim olunmuşdur.***

## 34. ELMİ KOMMUNİZM
(Elmləşən utopiya)

İctimailəşən Əmək – Ümumiləşən Mülkiyyət tələb edir.
Bu, İstehsalatın Qanunudur.
Həmin Qanunu Fəhlə Sinfi icra edir.
Çünki onun müqəddəratı, nicatı ümumiləşən Mülkiyyətdən asılıdır.
Xüsusi Mülkiyyət proletariatı məhvə doğru aparır.
Əvvəlkilər kommunizmi cəmiyyətə tətbiq edirdilər. Marksistlər kommunizmi istehsalatın inkişafında gördülər.
Buna görə də əvvəlkilər utopik kommunist çağırıldılar.
Marksistlər isə elmi kommunist sayıldılar.

## 35. FƏHLƏ QİSMƏTİ

Fəhlə kapitalizmi məhv etdi, ancaq özünü istismardan qurtara bilmədi.
İctimai Mülkiyyət yaratdı, ancaq özünü əmtəə aqibətindən qurtara bilmədi.

Proletar dövləti yaratdı, ancaq özünü rəiyyət iqbalından qurtara bilmədi.

***Cəmiyyət dəyişdi, ancaq fəhlə qisməti dəyişmədi.***

## 36. MARKSİZM

Feyerbaxdan kommunizm çıxartdı.
Hegeldən kommunizm çıxartdı.
Adam Smitdən kommunizm çıxartdı.
Utopiyanı elmləşdirdi.

## 37. ƏMƏLİYYAT

Fəlsəfəni materializmlə eyniləşdirdilər.

Sonra dedilər ki, "gələcəkdə fəlsəfəyə ehtiyac qalmayacaq!"

"Elm fəlsəfəni əvəz edəcək!"

Fəlsəfəni elmləşdirdilər və elm vasitəsiylə ləğv etməyə çalışdılar.

İnsanı Fəlsəfəsizlik bəxtiyarlığına səslədilər.

## 38. EHKAM İNAMSIZLIĞI

Deyirlər ki, cəmiyyətin inkişafı İdeyalardan yox, İstehsalatdan asılıdır.

Bəs İdeyaların (İdrakiliyin, Mənəviliyin, İradəliyin) İstehsalata təsiri yoxdurmu?

***İnsan – İnsan olsaydı, quldarlıq istismarı olardımı?***
***Feodal istismarı olardımı?***
***Kapitalist istismarı olardımı?***
***Dövlət istismarı olardımı?***

Deyirlər ki, İnsani münasibətlər iqtisadi münasibətlərdən asılıdır.

Bəs iqtisadi münasibətlər İnsani (iqtisadiyyatdan kənar) münasibətlərdən asılı deyilmi?

İnsan – İnsan olsaydı, Quldarlıq qələbə çalardımı?
Feodalizm qələbə çalardımı?
Kapitalizm qələbə çalardımı?
Dövlət Mütləqiyyəti qələbə çalardımı?

Deyirlər ki, İnsanın dəyişilməsi son nəticədə istehsalatın dəyişməsindən asılıdır.

Bəs istehsalatın dəyişilməsi İnsandan asılı deyilmi?
Fatehlik Ehtirası olmasaydı – Quldarlıq yaşardımı?
Ağalıq Ehtirası olmasaydı – Feodalizm yaşardımı?
Dəllallıq Ehtirası olmasaydı – Kapitalizm yaşardımı?
Müstəbidlik Ehtirası olmasaydı – Dövlət Mütləqiyyəti yaşardımı?
Fatehlik Ehtirası Quldarlıqdan əvvəl yaranmadımı?
Ağalıq Ehtirası Feodalizmdən əvvəl yaranmadımı?
Dəllallıq Ehtirası Kapitalizmdən əvvəl yaranmadımı?
Müstəbidlik Ehtirası Mütləqiyyətdən əvvəl yaranmadımı?
Deməli, əslində Quldarlıq – Fatehlik ehtirasından yarandı.
Deməli, əslində Feodalizm – Ağalıq ehtirasından yarandı.
Deməli, əslində Kapitalizm – Dəllallıq ehtirasından yarandı.
Deməli, əslində Mütləqiyyət – Müstəbidlik ehtirasından yarandı.

***Deyirlər ki, İnsanın Heyvandan Fərqi – maddi nemətlər istehsalındadır.***

Bu o deməkdir ki, İnsanla heyvan arasında mühüm fərq yoxdur. Hər ikisində həyatın əsası – maddi ehtiyacların ödənilməsiylə səciyyələnir.

***Deməli, İnsan – istehsalçı heyvandır.***

Deyirlər ki, ***İnsan – son nəticədə istehsalatla müəyyən olunan*** ictimai münasibətlərin məcmusudur.

Bəs ictimai münasibətləri kim yaradır?

***Dünyanı ayağı üstə qoymaq iddiasında olan "Qabaqcıl" Ehkam əslində Dünyanı baş-ayaq salır.***

***İqtisadiyyata sonsuz İnam – İnsana ardıcıl İnamsızlıq yaradır.***

## 39. NİSBİLİK

### I. Mütləqdən kiçik

"İnsanlar fərəhli deyil, fərəhli yalnız Allahlardır!" (Homer). Yəni nisbidə fərəh yoxdur, fərəh yalnız Mütləqdədir.

"İnsan müdrik deyil, müdrik yalnız Allahdır!" (Sokrat). Yəni nisbidə müdriklik yoxdur, müdriklik yalnız Mütləqdədir.

## II. Düşmənçilik

İnsan – təbiətlə düşmənçilik edir.
Heyvanatla düşmənçilik edir.
Başqa İnsanla düşmənçilik edir.
Özüylə düşmənçilik edir.
***Bu dəhşətli düşmənçilik İnsanı Yer üzündən silə bilər.***

## III. Yeni həyat

Ay nağılı vardı.
Dağ nağılı vardı.
Çay nağılı vardı.
Çöl nağılı vardı.
Qeyrət nağılı vardı.
Məhəbbət nağılı vardı.
Dostluq nağılı vardı.
Nağıl bitdi...
Ay itdi.
Dağ itdi.
Çay itdi.
Çöl itdi.
Qeyrət itdi.
Məhəbbət itdi.
Dostluq itdi...

## IV. Adamların Yaxşısı

Heyvanlıqda qala bilmir.
İnsan ola bilmir.
Ölə bilmir.

## V. Təmizlik

Evi çirkabdan təmizlədilər.
Evdə heç nə qalmadı.

## VI. İnsanlığa yaraşmayan

Erkəklik Kişiyə yaraşmır.
Dişilik Qadına yaraşmır.
Erkəksiz Həyat Yoxdur!
Dişisiz Həyat Yoxdur!
***Həyat İnsana yaraşmır!***

## VII. Həyata sığmayan

Həyat məktəbini bitirdim.
Amala atıldım.
Həyat kitabını oxuyub qurtardım.
Ömür kitabını yazmağa başladım.

## VIII. Naşılıq

"Əzizlənib!" – dedilər, "Zəncirlənib" – demədilər.
"Dağa qalxıb!" – dedilər, "Quyuya düşüb" – demədilər.
"Seçilib!" – dedilər, "Kiçilib" – demədilər.

***xxx***

"Dişinə qədər silahlanıb!" – deyirlər.
"Dişsizdir!" – deyirəm.
"Xalqı arxasınca aparır!" – deyirlər.
"Xalqsızdır!" – deyirəm.
"Bəşəri lərzəyə salıb!" – deyirlər.
"Bəşərsizdir!" – deyirəm.

***xxx***

"Silahsızsan!" – deyirlər.
"İnsanlıyam!" – deyirəm.
"Təksən!" – deyirlər.
"İnamlıyam!" – deyirəm.

## IX. VAR OLMAYAN

Demirəm ki, Pünhanlıq – Ləyaqətdir.
Deyirəm ki, Aşkarlıq – Ləyaqət yaratmadı.
Demirəm ki, Kapitalizm – Səadətdir.
Deyirəm ki, Sosializm – Səadət yaratmadı.
Demirəm ki, Monarxiya – Ədalətdir.
Deyirəm ki, Anarxiya – Ədalət yaratmadı.
Demirəm ki, Cəmiyyət dəyişmədi.
Deyirəm ki, Aqibət dəyişmədi.

***xxx***

Elə bağırdılar ki, Ağlın qulağı batdı, həqiqəti eşitmədi.
Elə çağırdılar ki, Quyuya düşdülər – bilmədilər.
Elə sevindilər ki, Fəryadları ərşə qalxdı.
Elə sevildilər ki, nifrətləri dünyanı tutdu.
Elə çimdilər ki, ruhları çirkaba qərq oldu.

## 40. AZƏRBAYCAN DƏRDİ

"Azərbaycanlılar"dan utanmayan – Azərbaycanla fəxr etməz!
"Azərbaycanlılar"dan iyrənməyən – Azərbaycanla fəxr etməz!
"Azərbaycanlılar"ı lənətləndirməyən – Azərbaycanı qiymətləndirməz!

***xxx***

Çünki "azərbaycanlılar" – Azərbaycan yaratmadılar.
Çünki "azərbaycanlılar" – Azərbaycan yaratmaq istəmədilər.
Çünki "azərbaycanlılar" – Azərbaycan yaratmağı bacarmadılar.

***xxx***

Namərdliyə dözdülər – Mərdliyə dözmədilər.
Alçaqlığa dözdülər – Ucalığa dözmədilər.
Mütiliyə dözdülər – Məğrurluğa dözmədilər.
"Babəkim Var!" – dedilər. Özləri Yox oldular.
"Nəsimim Var!" – dedilər. Özləri Yox oldular.
"Füzulim Var!" – dedilər. Özləri Yox oldular.
Çünki Hünərdən qaçdılar.
Çünki Əzabdan qaçdılar.
Çünki Kədərdən qaçdılar.

Süründülər – öyündülər.
Sürüldülər – sevindilər.

“Azərbaycanlılar”dan utanmayan – azərbaycanlı sayılmaz!
“Azərbaycanlılar”dan iyrənməyən – azərbaycanlı sayılmaz!
“Azərbaycanlılar”ı lənətləndirməyən – azərbaycanlı sayılmaz!

***xxx***

Əksilirlər – ölmürlər.
Kiçilirlər – ölmürlər.
Çünki yaşamırlar.
Yaşamayan ölməz!

***xxx***

Azərbaycan “azərbaycanlılar”a bənzəmədiyi dərəcədə böyükdür.
Azərbaycan “azərbaycanlılar”a bənzəmədiyi dərəcədə yüksəkdir.
Azərbaycan “azərbaycanlılar”a bənzəmədiyi dərəcədə ləyaqətlidir.

***xxx***

Azərbaycanı aldatmayan “azərbaycanlı”ya rast gəlmədim.
Azərbaycanı satmayan “azərbaycanlı”ya rast gəlmədim.

Ən böyük yağım – “həmdəmim!”
Ən böyük oğrum – “keşikçim!”
Ən böyük xainim – “yaxınım!”

Azərbaycanda “azərbaycanlılar” təhlükəsi yaranıb!
Azərbaycanı “azərbaycanlılardan” qorumaq gərək!

***xxx***

Yenidən şumlamaq lazımdır Azərbaycanı!
Yenidən toxum səpmək lazımdır Azərbaycanda!
İnsan becərmək lazımdır Azərbaycanda!
“Azərbaycanlılar”dan xilas etmək lazımdır Azərbaycanı:
Babəkləşdirmək!
Nəsimiləşdirmək!
Füzuliləşdirmək!

## 41. İDEAL

İnamlı İnsan.
İdraklı İnsan.
Əxlaqlı İnsan.
Torpaqlı Kəndli.
Fabrikli Fəhlə.
Azad Şəxsiyyət.
Müstəqil Vətən.
Ləyaqətli Şərq.
Ləyaqətli Bəşər.
Ruhani Cəmiyyət.

## 42. SİYASƏT YALANI

### I. Əxlaqdan keçən

Ölkələr, xalqlar, təbəqələr arasında münasibətdə İnsaniyyət itir.

***Siyasət – Əxlaqdan keçir.***
Riyaya söykənir – Həyalı görünür.
Qətlə çatdırır – Xilaskar görünür.
Yalana tapınır – Doğruçu görünür.
Zalımdır – Adil görünür.
Qəsbkardır – Hami görünür.
Yırtıcıdır – Məsum görünür.
Yaddır – Doğma görünür.
Bulanıqdır – Saf görünür.
Məkrlidir – Şəfqətli görünür.
Nifaq salandır – Barışdıran görünür.
Xaindir – Sadiq görünür.
Sünidir – Təbii görünür.
Minsifətlidir – Birsifətli görünür.

***Siyasət – Həqiqətdən keçir.***
Mərhəmətdən keçir.
Məhəbbətdən keçir.
Sədaqətdən keçir.
Vicdandan keçir.

Müqəddəslikdən keçir.
Ləyaqətdən keçir.
İnamdan keçir.

Siyasətdə Həqiqət məsxərəyə qoyulur – Yalana tapşırılır.
Mərhəmət məsxərəyə qoyulur – Nifrətə tapşırılır.
Məhəbbət məsxərəyə qoyulur – Şəhvətə tapşırılır.
Sədaqət məsxərəyə qoyulur – Xəyanətə tapşırılır.
Vicdan məsxərəyə qoyulur – Günaha tapşırılır.
Müqəddəslik məsxərəyə qoyulur – Çirkaba tapşırılır.
Ləyaqət məsxərəyə qoyulur – Qəbahətə tapşırılır.
İnam məsxərəyə qoyulur – Şübhəyə tapşırılır.

Siyasətdə Yalan – Həqiqət biçimində üzə çıxır.
Qəddarlıq – Mərhəmət biçimində üzə çıxır.
Nifrət – Məhəbbət biçimində üzə çıxır.
Xəyanət – Sədaqət biçimində üzə çıxır.
Günah – Vicdan biçimində üzə çıxır.
Çirkab – Müqəddəslik biçimində üzə çıxır.
Qəbahət – Ləyaqət biçimində üzə çıxır.
Şübhə – İnam biçimində üzə çıxır.

***Siyasət – aldadır.***

Siyasətdə Yalan qələbə çalır; bu səbəbdən də o, Yalançı qələbə olur.

Siyasət – əxlaqdan artıq sayılır; bu səbəbdən də o, İnsaniyyətdən əskik olur.

## II. Təmənnalı

Siyasətdə dövlət dövlətdən, ölkə ölkədən, təbəqə təbəqədən qazanc arayır.

Ancaq özünü təmənnasız göstərməyə çalışır.

***Təmənnasız köməkdən danışırlar – ancaq qazanc ələ gətirirlər.***

“Bəşəriyyətin səadəti naminə” – bir dövlət digər dövləti, bir ölkə digər ölkəni, bir təbəqə digər təbəqəni öz mənafe vasitəsinə çevirir, lakin həmin dövlətin, həmin ölkənin, həmin təbəqənin havadarı kimi görünmək istəyir.

Hansı “kiçik bir xalqısa hansı böyük bir yırtıcınınsa” pəncəsindən qurtarırlar. Hansı gerilik, vəhşilik, ətalət nişanəsi olan bir ölkənisə tərəqqiyə calayırlar. Hansı “məzlum bir təbəqənisə” “zülm işgəncəsindən” qurtarırlar, “insansevərlik naminə” az qala “özlərindən keçirlər”, “fədakarlıq nümunəsi” göstərirlər, “təmənnasızlıq zirvəsinə” yüksəlirlər. “Balaca xalq”, “məzlum təbəqə” müstəqillik əlaməti göstərəndə “həmin xalqın, təbəqənin bəxtiyarlığı üçün” təmənnasız şəkildə “fəlakətli sərbəstliyə” son qoyulur və “balaca xalq”, “məzlum təbəqə” bu müqəddəs əmələ öz minnətdarlığını bildirməli olur.

Bəşəriyyətə “yeganə düzgün yol” göstərən İdeologiya, Ehkam, Cərəyan, Təriqət və s. naminə bir ölkə, dövlət, təbəqə başqa ölkələri, dövlətləri, təbəqələri “öz ətrafında sıx birləşdirir” və bununla da onlara “misilsiz xidmət göstərir”, həmin birlikdən ayrılmağa çalışan nankorları “onların xeyrinə” cəzalandırır.

Güclü rəqibi məhv etmək üçün onun himayəsində olan gücsüz milləti rəqibə qarşı çevirir və sonralar “ilanın ağzından xilas etmək təmənnasızlığını” onun başına çırpırlar.

Xalqı, ölkəni, təbəqəni zəbt etmək üçün həqiqət, ədalət, ülviyyət elanından yapışır, “ilahi amal uğrunda döyüş müqəddəsliyinə” söykənirlər.

Ölkələrinin ərazisini genişləndirirlər, özgə xalqları, dövlətləri Yer üzündən silirlər, yaxud doğma yuvalarından didərgin salırlar və bunu “tarixi tərəqqinin labüd tələbi” kimi qələmə verirlər.

Dünyanı öz aralarında bölürlər, bir-biriylə savaşırlar, ancaq bu savaşı “tarixi ictimai zəruriyyətin ifadəsi” kimi qələmə verirlər.

Hakimiyyət uğrunda amansız, yırtıcı, əxlaqsız mübarizəni tərəqqi uğrunda döyüş kimi təqdim edirlər.

Şöhrətpərəstliyi, rəyasətpərəstliyi insanpərəstlik kimi nümayiş etdirirlər.

***Özlərinə xidmət edirlər – xalqa xidmət edən bilinirlər.***

Siyasət – Təmənnanın Təmənnasızlıq biçimində ifadəsidir.

Bu səbəbdən də o, hədsiz dərəcədə süni bir hadisədir.

***Təmənnasızlıqla Təmənna bir yerə sığmaz!***

## III. Xudbin

Siyasətdə bir xalq özünü başqa xalq vasitəsiylə təsdiq edir.

Bir ölkə özünü başqa ölkə vasitəsiylə təsdiq edir.

Bir təbəqə özünü başqa təbəqə vasitəsiylə təsdiq edir.

***Siyasətdə xudbinlik qələbə çalır.***

Ancaq o gizlədilir; bununla da qəbahət artır.

Başqa xalq təsdiq olunmur, əslində təslim olur; – ancaq təsdiq olunan sayılır.

Başqa ölkə təsdiq olunmur, əslində təslim olur; – ancaq təsdiq olunan sayılır.

Başqa təbəqə təsdiq olunmur, əslində təslim olur; – ancaq təsdiq olunan sayılır.

Siyasətdə ölkələr, xalqlar, təbəqələr arasında əsil Dostluq olmur, çünki Dostluqda hər iki tərəf – Məqsəd sayılmalıdır.

***Siyasətdə bir tərəfin Ləyaqəti, Özümlüyü başqası tərəfindən mənimsənilir.***

Siyasətdə ölkələr, xalqlar, təbəqələr arasında əsil İnam olmur; çünki Ləyaqəti Mənimsənilən tərəfin Ləyaqəti Mənimsəyən tərəfə İnamı olmaz.

Siyasətdə ölkələr, xalqlar, təbəqələr arasında əsil Birlik olmur. Çünki əsil Birlik – Ləyaqət bərabərliyi tələb edir.

Siyasətdə Ləyaqət bərabərliyi yoxdur.

Bu səbəbdən də Siyasət labüd şəkildə böyük Yalan yaradır.

Vasitəyə çevrilən xalq, ölkə, təbəqə – özünü məqsədə çevrilən xalq, ölkə, təbəqə kimi qələmə verir.

Bunu ondan düşdüyü vəziyyət tələb edir: o, özünü aldatmalı və bu aldanış vasitəsiylə özünə qarşı hörməti qorumalıdır.

***Məqsəd səviyyəli ölkə, xalq, təbəqə*** – başqa ölkəni, xalqı, təbəqəni vasitə əsarətində saxlamaq üçün həminYalana arxalanır.

***Hər iki tərəf Yalanı görür, ancaq onu pərdələməyə çalışır.***

Dost olmayanların "dostluğu" yaranır.

İnamsızların "inamı" yaranır.

Bir olmayanların "birliyi" yaranır.

Hər iki tərəfdə xudbinlik hökm sürür.

Məqsəd tərəf – Özündən başqa heç kəsi görmür, çünki o biri tərəf ona xidmət edir, onun üçün mövcud olur.

Vasitə tərəf də – əslində Özündən başqa heç kəsi görmür, çünki özünü vasitəlikdə hifz etməyə çalışır.

Bu səbəbdən də hər iki tərəfin bir-birinə müdhiş yadlığı törəyir. Fəqət həmin yadlıq gizlədilir və bununla da amansız bir gücə çevrilir.

Dəhşətli düşmənçilik yaranır.

Dəhşətli şübhə yaranır.

Dəhşətli ayrılıq yaranır.

Xudbinlik gizli qalmır, aşkara çıxır, süni sütunlar qırılır, özülsüz bina uçub tökülür.

## IV. Ağalıq

Siyasətdə "Ali İrq", "Böyük Xalq", "Yüksək Təbəqə", "Hakim İdrak" və "Hakim Din" Ağalaşır.

İrqi Ağalıqda ***bir İrq*** dünyanın Sahibi olmaq istəyir, başqa irqlərin aqibətini öz İradəsinə tabe edir.

Milli Ağalıqda ***bir Millət*** dünyanın Sahibi olmaq istəyir, başqa millətlərin aqibətini öz İradəsinə tabe edir.

İctimai Ağalıqda ***bir Təbəqə*** dünyanın Sahibi olmaq istəyir, başqa təbəqələrin aqibətini öz İradəsinə tabe edir.

İdraki Ağalıqda ***bir İdeologiya*** dünyanın Sahibi olmaq istəyir, bəşərin aqibətini öz İradəsinə tabe edir.

Mənəvi Ağalıqda ***bir Din*** dünyanın Sahibi olmaq istəyir, bəşərin aqibətini öz İradəsinə tabe edir.

Siyasət – ən bariz Ağalığı belə, pərdələməyə cəhd göstərir.

O, İrqi Ağalıqdan danışmır, İrqi üstünlüklərdən danışır və bununla da İrqlərə hakim olur.

O, Milli Ağalıqdan danışmır, Milli məhəbbətdən, səxavətdən, həmdəmlikdən, həmrəylikdən danışır və bununla da Millətlərə hakim olur.

O, Təbəqə Ağalığından danışmır, təbəqə məziyyətindən, qüdrətindən, fərasətindən danışır və beləliklə də Təbəqələrə hakim olur.

O, İdraki Ağalıqdan danışmır, İdraki Ləyaqətdən, Həqiqətdən, Qabiliyyətdən danışır və beləliklə də Ağıllara hakim olur.

O, Mənəvi Ağalıqdan danışmır, Mənəvi yüksəklikdən, saflıqdan, qeyrətdən danışır və beləliklə Mənəviyyata hakim olur.

***Siyasət Qılınca əl atanda belə, ölkələri tar-mar qoyanda belə, qan dənizi yaradanda belə, insanpərvərlikdən, vicdanpərəstlikdən danışır.***

***Siyasətdə Ağalıq sözü çox az işlənir, ancaq Siyasət anlayışı ən çox Ağalıq sözüylə həmahəngdir.***

Siyasət Ağa demir – Dayaq deyir, Qardaş deyir, Müttəfiq deyir, Müəllim deyir, Hami deyir.

***İrqçi*** deyir ki, mən dünyaya hakim olmasam – dünya dağılar.

***Hakim Millət*** deyir ki, mənsiz dünya yox olar.

Dünyanın mənafeyi üçün mən dünyaya Sahib olmalıyam.

***Hakim Təbəqə*** deyir ki, mənsiz dünya səfalətə qərq olar. Dünyanın xatirinə dünyaya Sahib olmalıyam.

***Ehkam*** deyir ki, məndən kənarda həqiqət yoxdur, dünyanın xeyiri üçün mən ona Sahib olmalıyam.

***Din*** deyir ki, məndən kənarda Mənəviyyat, İnsaniyyət yoxdur, bu səbəbdən də dünyaya Sahib olmalıyam.

Siyasət Ağalıq niyyətini gizlətməyə çalışır, ancaq axıra qədər buna nail ola bilmir.

Yalan üzə çıxır, Ağalığın sifəti görünür, xilqəti bilinir.

## V. Köləlik

Siyasətdə "Aşağı İrq", "Balaca Xalq", Rəiyyət, Müstəqil İdrak, Fərdi Mənəviyyat kölələşir.

***Aşağı İrqə*** deyirlər ki, sənin müstəqil mövcudluğun qeyri-mümkündür; çünki ağlın, mənəviyyatın, iradən naqisdir, sən bizim hakimliyimizi qəbul eləməlisən, himayəmizdə yaşamalısan, qəyyumluğumuzdan bəhrələnməlisən və bunu ali bəxtiyarlıq saymalısan!

Bizə – "Yüksək İrqin" nümayəndələrinə məhəbbətin, sədaqətin hədsiz olmalıdır, çünki çiynimizdə sənin yükünü daşıyırıq. Ölkənin maddi sərvətlərinə yiyələniriksə, bunu təbii və zəruri say, çünki sənin onları mənimsəmək qüdrətin yoxdur.

Mədəniyyətini də bizə uyğunlaşdır, çünki yeganə qabaqcıl, müasir, zəngin mədəniyyət bizimkidir.

***Taleyini bizə tapşır – səni ağ günə çıxaracağıq.***

***Özünə tapşırma – fəlakətə düçar olarsan!***

“Balaca xalqa” deyirlər ki, aqibətinin son məqamına qədər bizdən – “böyük xalqdan” ayrılma, havadarlığımızdan imtina etmə – uçuruma düşərsən.

Səndə Var olan – Bizik.

Bizdən Kənarda – Yoxsan!

***Özünə Sahib olan kimi – Yox olacaqsan!***

Müstəqil siyasi mövcudluq eşqinə düşmə!

İqtisadiyyatın bizə tabe olmalıdır, çünki o, yalnız bizim sayəmizdə inkişaf edə bilər.

Mədəniyyətinə biz istiqamət verməliyik, çünki o, yalnız bizim sayəmizdə inkişaf edə bilər. Yalnız bizimlə tərəqqiyə çata bilərsən!

Bizdən ayrılan kimi başı aşağı ətalətə yuvarlanacaqsan!

Özünü bizdə tap – özün olarsan!

Özünü özündə tapma – itirərsən!

Tarixi meydanda at oynatmaq iddiasına düşmə!

Həmin meydanda mən sənin yerinə də at sürürəm.

***Tarix – böyük xalqların səhnəsidir.***

Mənimlə bağlandığın üçün, mənim tarixi fəaliyyətimə yaradığın üçün qürrələn, fərəhlən!

Mənim tarixi yaradıcılığıma xidmət etdiyin üçün özünü xoşbəxt say!

Sənin tarixi xidmətin bundan ibarətdir!

***Müstəqil tarixi fəaliyyət xülyasına uyma!***

***Tapdanarsan, sürünərsən, sürülərsən!***

***Müstəqiləbənzərlik aqibətiylə kifayətlən!***

***Özünü inandır ki, müstəqilsən!***

***Özünü məndə inkar et – bu sənin ən böyük özünütəsdiqindir!***

***Rəiyyətə*** deyirlər ki, Yuxarı təbəqəyə xidmət etmək – ən böyük ləyaqətdir, çünki rəiyyət bu xidmətdə öz ali mənafeyini qoruyur.

Həmin xidmətdən əl çəkmək – özünə xəyanət etməkdir.

Çünki hakimlik üçün “Yuxarı təbəqə” yararlıdır; o daha səriştəli, daha qabil, daha səviyyəlidir.

Rəiyyətin özünə hakimlik eləməsi fəlakət törədərdi. Bu səbəbdən də xidmət, tabeçilik aqibətindən kənara çıxmaq – rəiyyəti uçuruma sürükləyər.

***Özünə sahib olan rəiyyət – özünü itirər.***

Təbii aqibətlə barışmaq – zəruridir, Yuxarı Təbəqəyə ehtiram bəsləmək – mərifət əlamətidir.

Yuxarı Təbəqə sənin hakimindir, çünki o səni səndən yaxşı təsdiq edir. Müstəqilliyini itirirsən – ancaq əsarətindən faydalanırsan.

***Azad İdraka*** deyirlər ki, sən naşı, günahkar və miskinsən, insanı yolundan çıxaransan, özündən əl çəkməli, Ehkama tapınmalısan, onun hakimliyini qəbul etməlisən!

***Müstəqilliyini itirən kimi həqiqəti tapacaqsan!***

Azadlığın – əsarətindir!

Özündən ayrılmağın – özünə çatmağındır!

***Fərdi Mənəviyyata*** deyirlər ki, ümumi hakim Mənəviyyatdan başqa Mənəviyyat yoxdur.

Hamının qəbul etdiyi Dini Qanunlara baş əyməli, tabe olmalısan!

"Özünə məxsus olan – heç kəsə məxsus olmur".

"Hamıdan fərqlənən – özünə bənzəmir".

"Fərdiyyət – əslində mənəvi məhrumiyyətdir".

"Bu məhrumiyyətdən xilas olmaq – ruhani bəxtiyarlıqdır".

Siyasət təsir edir, təzyiq göstərir, Zora əl atır, kölələşdirir.

Ancaq köləliyi əbədiləşdirə bilmir.

## VI. Fatehlik

Siyasət – Dünyanı fəth edəndə belə, Fədakar görünməyə çalışır.

Siyasət – fatehlikdən danışmır, fatehlik edir.

"Fateh yardımı" yaranır.
"Fateh xeyirxahlığı" yaranır.
"Fateh sədəqəsi" yaranır.
"Fateh səadəti" yaranır.

Fatehlik – çağırılır, dəvət olunur, bəslənir. O, fəth olunan ölkələrdə öz ardıcıllarını, carçılarını, silahdaşlarını yaradır.

"Vətənin müqəddəratı naminə" Vətən fəth olunur.

"Vətənin tərəqqisi naminə" Vətən fəth olunur.

"Vətənin gələcəyi naminə" Vətən fəth olunur.

***Fatehlik – Xəyanət əhvalı yaradır.***

"Sənin nicatın səndən uzaqlardadır!" – deyirlər.

"Fatehsiz yaşaya bilməzsən!" – deyirlər.

"Fəth olunmaqdan böyük qeyrət yoxdur!" – deyirlər.

"Fəth olunmaq – ali aqibətdir!" – deyirlər.

"Fəth olunmaq – tarixi zərurətdir!" – deyirlər.

Fateh ***İdrakı*** zəbt edə bilmir, zindana salır, ağılları hakim idrakla zəncirləyir.

Fateh ***İnamı*** zəbt edə bilmir, zindana salır, ürəkləri hakim inamla zəncirləyir.

Fateh ***Əxlaqı*** zəbt edə bilmir, zindana salır, mənəviyyatı hakim əxlaqla zəncirləyir.

Fateh ***İradəni*** zəbt edə bilmir, zindana salır, iradələri Zorla zəncirləyir.

***Etiqad Fatehliyini*** **–** İnam tərəqqisi adlandırırlar.

***İdrak Fatehliyini*** – Əqli tərəqqi adlandırırlar.

***Əxlaq Fatehliyini*** – Mənəvi tərəqqi adlandırırlar.

***Zoru*** – İradə tərəqqisi adlandırırlar.

***Fatehlik alqışlanır.***

Siyasət – möhtəşəm Yalan yaradır.

Siyasət – xalqları möhtəşəm Yalan qaranlığına bürüyür.

Həqiqət Günəşi doğanda zülmət çəkilir, xülya itir, fatehliyin qanlı pəncəsi göz önündə canlanır.

## VII. Zor

Siyasət Zora arxalanır, ancaq özünü könüllü niyyət tərcümanı kimi təqdim edir.

Siyasət balaca xalqları böyük xalqlara "könüllü surətdə" calayır, insanları "bu Günəş kimi həqiqətə" inandırmağa çalışır.

Siyasət kiçik ölkələri böyük ölkələrə "könüllü surətdə" birləşdirir, insanları "bu Günəş kimi həqiqətə" inandırmağa çalışır.

Siyasət xalqları "Ümumtarixi", "Həqiqi", "Yeganə", "Vahid" İdeoloji Ehkama "könüllü surətdə" tabe edir, insanları "bu Günəş kimi həqiqətə" inandırmağa çalışır.

Siyasət xalqları "ümumbəşəri" Dini Kəlamlara "könüllü surətdə" tabe edir, insanları "bu Günəş kimi həqiqətə" inandırmağa çalışır.

Siyasət Qılınca əl atanda belə, "könüllülük" Yalanından əl çəkmir.

Qılıncı xalqlara qarşı yox, əsil insanlara qarşı yox, asilərə, azğınlara, yolunu azanlara qarşı ***(könüllülərin xeyrinə)*** çevirməsindən danışır.

Zor – ***Mənəvi Zor biçimində*** özünü Zor saymır, İqtisadi Zor biçimində özünü Zor saymır.

Zor ictimai qanunlardan, xəlqi vəhdətdən, dövlət imtiyazından danışır, özünün qatil, cəllad xislətindən danışmır; zəruriyyətdən danışır – bəd niyyətdən danışmır.

Zor sübut eləmək istəyir ki, o, ən böyük ədalətdir, səmimiyyətdir, səxavətdir.

Zor sübut eləmək istəyir ki, o, həmişə keşikçidir – quldur deyil!

Zor sübut eləmək istəyir ki, o, Zor deyil.

"Zora əyilənlər – vüqarlı görünürlər!"

Zor buna nail olmaq istəyir, ancaq ola bilmir.

***Çünki insanlar Zora əyilsələr də, həm də Zoru əyirlər.***

## VIII. Hərcayilik

Siyasətin qazandığı nə varsa – ölümə məhkumdur.

"Möhtəşəm", "Əbədi", "Sonsuz" ***Hakimiyyət*** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir.

"Möhtəşəm", "Əbədi", "Sonsuz" Ümumdünyəvi ***Səltənət*** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, məhv edilir, Yer üzündən silinir.

"Möhtəşəm", "Əbədi", "Sonsuz" Ümumdünyəvi Siyasi ***Qüdrət*** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir.

"Möhtəşəm", "Əbədi", "Sonsuz", "Vahid", "Həqiqi" ***Ehkam*** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir.

"Möhtəşəm", "Əbədi", "Sonsuz" ***Siyasi Birlik*** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir.

"Möhtəşəm", "Əbədi", "Sonsuz" ***Maddi Qüdrət*** Tarix, Zaman, Ədalət tərəfindən rədd edilir, Yer üzündən silinir.

***Siyasət əslində heç nə yaratmır, çünki yaratdığı əbədi olmur.***

## IX. Oyun

***Siyasət – Oyundur.***
Əxlaqsızın – Əxlaq oyunudur.
Həqiqətsizin – Həqiqət oyunudur.
Məhəbbətsizin – Məhəbbət oyunudur.
Günahkarın – Saflıq oyunudur.

Quldurun – Keşikçi oyunudur.
Ağanın – Ata oyunudur.
Kölənin – Övlad oyunudur.
***Siyasət – oyundur.***
***Siyasətdə xalqın, bəşərin, insanın taleyiylə oynayırlar.***

### X. İnsaniyyət

***Siyasətin qələbəsi – İnsaniyyətin məğlubiyyətidir.***
Əxlaqsızlıq qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Xudbinlik qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Yalan qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Təmənna qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Ağalıq qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Köləlik qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Fatehlik qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Zor qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Hərcayilik qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
Oyun qələbə çalan yerdə – İnsaniyyət məğlub olur.
***Siyasətin məğlub olması üçün –***
***İnsaniyyətin Qələbəsi gərəkdir.***

## 43. HÜQUQ TƏLƏSİ

### I. Təbii hüquq

"İnsanlar bir-birinə bərabərdir" – deyirlər.

Əslində isə insanlar bir-birinə yalnız maddi baxımdan bərabərdirlər.

***Yəni hamı təbiətdən eyni dərəcədə bəhrələnə bilər, bəhrələnməlidir. Mənəvi cəhətdən insanlar bir-birinə bərabər deyillər.***

***Bərabərlikdən danışırlar, həm də maddiyyatı ləyaqət ölçüsünə çevirirlər.***

Maddi imtiyaz – cəmiyyətdə labüd şəkildə ictimai imtiyaz yaradır.

Maddiyyatdan ən çox bəhrələnən – cəmiyyətdə ən çox dəyərlənir.

***Mənəvi ləyaqət maddi məziyyətə qurban verilir.***

***Bərabərlikdən danışırlar – süni və eybəcər bərabərsizlik yaradırlar.***

## II. Vətəndaşlıq hüququ

***"Mülkiyyət toxunulmazdır!" – deyirlər.***

Mülkiyyəti əməkçinin əlindən alıb dövlətə verirlər. Mülkiyyət hamılaşır, yəni əslində hamı mülkiyyətdən məhrum olur.

***Mülkiyyətsizlərə mülkiyyət toxunulmazlığı hüququ verilir.***

Mülkiyyəti geri qaytarmaq – cinayət sayılır.

"Dövlət mülkiyyəti toxunulmazdır!" – deyirlər.

Zəhmətkeşdən alınan mülkiyyətə – zəhmətkeş toxuna bilməz!

***Mülkiyyətsizliyi əbədiləşdirirlər və mülki hüquqdan dəm vururlar.***

***Söz azadlığından*** danışırlar və naqis cəmiyyəti azad sözdən qoruyurlar.

"Cəmiyyətə toxunma!" – deyirlər.
"Naqisə naqis demə!" – deyirlər.
"Həqiqətdən azadsan!" – deyirlər.
"Vicdandan azadsan!" – deyirlər.

***Azad seçkidən*** danışırlar.

Seçiciləri istədikləri səmtə sürürlər. Onların İdrak ehtiyaclarını söndürürlər, Mənəviyyat ehtiyaclarını söndürürlər, İradə ehtiyaclarını söndürürlər.

***İstədiklərini seçdirirlər.***

***Etiqad azadlığından*** danışırlar. Ağılları, ürəkləri isə zəncirləyirlər – insanları "müstəqillik buxovundan" azad edirlər.

Etiqad azadlığından azad edirlər.

## III. Beynəlxalq hüquq

Ərazi toxunulmazlığından danışırlar. "Bir xalq digər xalqın ərazisini Zəbt edə bilməz!" – deyirlər. Sonra da Zəbt eləmək zəruriyyəti yaradırlar, Zəbt eləmək tələbatı yaradırlar, Zəbt eləmək ədaləti yaradırlar.

Özgə ərazisi zəbt olunur, ancaq quldur – cinayətkar sayılmır!

“Bir xalq digər xalqın azadlığına qəsd edə bilməz!” – deyirlər. Sonra da Qəsdin ləyaqətindən, mərifətindən, məhəbbətindən dəm vururlar.

Xalqları azadlıqdan məhrum edirlər, ancaq cinayətkar sayılmırlar!

“Bir xalq başqa xalqın daxili işlərinə qarışa bilməz!” – deyirlər. Sonra da “sübut edirlər” ki, Zorakı müdaxilə – gərəklidir, labüddür, fədakarlıqdır!

Deyirlər ki, “bir xalq başqa xalqın ictimai quruluşu əleyhinə təxribat əməliyyatı aparmamalıdır!” Sonra da “sübut edirlər” ki, Təxribat olmasa, özgə xalq məhv olar, bu əməliyyat – əslində nicatdır!..

***Bəşəriyyət hüquq tələsinə düşüb – çıxa bilmir...***

## 44. SƏLAHİYYƏT

### I. Xəlqilik

***Xalq*** – Əhalinin cəmi deyil, Mahiyyətidir. Yəni Xalq – Əhalinin cəmindən artıqdır, yüksəkdir.

***Xalq*** – Əhalinin bugünü deyil, Mahiyyətidir. Yəni Xalq – Əhalinin bugünündən artıqdır, yüksəkdir.

***Xalq*** – Maddi mənafedən artıqdır, yüksəkdir. Çünki maddi mənafe Xəlqi Mahiyyətdən aşağıdır, kiçikdir.

***Xalq*** – Sinfi münaqişələrdən artıqdır, yüksəkdir. Çünki Sinfi münaqişə Xəlqi Mahiyyətdən aşağıdır, kiçikdir.

***Xalq*** – gerçəklikdən artıqdır, yüksəkdir. Çünki Mahiyyət təzahürdən böyükdür.

***Xalq – Əhalinin dünənində, bugünündə, sabahında təzahür edən və onlardan artıq, yüksək, böyük olan Mahiyyətdir.***

***Xalq*** – müxtəlif hakimlik növlərinin hamısından artıq, yüksək, böyük olan Mahiyyətdir. Onların üzərindən adlayıb keçən, onları son nəticədə rədd edən, inkar edən Ruhanilikdir.

***Xalq*** – əlvan çeşidli ictimai-siyasi quruluşların hamısından artıq, yüksək, böyük olan Mahiyyətdir. Onların üzərindən adlayıb keçən, onları son nəticədə rədd edən, inkar edən Ruhanilikdir.

***Xalq*** – bir-birini əvəz edən İdeologiyaların, siyasi Qanunların, dini Ehkamların hamısından artıq, yüksək, böyük olan Mahiyyətdir. Onların üzərindən adlayıb keçən, onları son nəticədə rədd edən, inkar edən Ruhanilikdir.

***Xalq*** – Mahiyyətdir, yəni Mütləqin, Müqəddəsliyin, Kamilliyin ifadəsidir.

***Yalnız Vahid Müqəddəs İdeya əsasında yaşayan Əhali – Xalq səviyyəsinə ucalır.***

***Yalnız Vahid Müqəddəs Mənəvi Qanun (İmperativ) əsasında yaşayan əhali – xalq səviyyəsinə ucalır.***

***Maddi mənafe səviyyəsindən yuxarı qalxmayan birlik – xalq deyil.***

***Əhali cəminə malik olan ölkələr çoxdur, ancaq xalq azdır.***

***Əhali xalqda öz Mahiyyətini tapır. Xalq – əhalidə təzahür edir.***

Heç bir təbəqədə o, özünü tam büruzə vermir. Hər bir təbəqədə o, özünün bir cəhətini, bir xüsusiyyətini aşkara çıxarır.

***Bu səbəbdən də heç bir təbəqə özünü Xalq adlandıra bilməz.***

***Xalq – əhalinin özündən böyük Mənasıdır.***

***Xalq – təbəqələr birliyinin həmin birlikdən böyük mənasıdır. Həmin Ali Mənanın ən ibtidai Tələbi – ictimai-siyasi Müstəqillikdir.***

***Müstəqil olmayan – heçə bərabərdir.***

***Heçlik – Mahiyyəti ifadə edə bilməz.***

***Ali Mənanın Yüksək Tələbi – əhalinin Xalq səviyyəsinə yüksəlməsidir.***

Həmin Yüksəliş: Xalqı Tanıma, Xalqa Qovuşma və Xalqlaşma tələb edir.

***Xalqı Tanıma – Xalqın Müqəddəs Mənasına səcdə yaradır: xalqa aşiqlik ülviyyəti peyda olur.***

Bütün təbəqələr anlayırlar ki, xalq onlardan böyükdür, yüksəkdir, artıqdır.

Kəndli başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır.

Fəhlə başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır.

Ziyalı başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır.

İdarəçi başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır.

***Əhalinin cəmi*** başa düşür ki, xalq ondan böyükdür, yüksəkdir, artıqdır.

Həmin dərketmə Aşiqlik ucalığı kəsb edir, müqəddəslik ləyaqəti kəsb edir:

Əhali xalqlaşır!

## II. Fərdilik

Yalnız Tam özü olan – Özünü Xalqda tapa bilər.

Yalnız Tam azad olan – Özünü Xalqa tam həsr edə bilər.

Yalnız özünə Tam Sahib olan – Xalq səviyyəsinə yüksəlir.

***Özünə məxsus olmaq – naqisliyə məxsus olmaq deyil, naqislikdən xilas olmaqdır.***

***Özünə məxsus olmaq – hərcayiliyə məxsus olmaq deyil, hərcayilikdən xilas olmaqdır.***

***Özünə məxsus olmaq – Şər törətmək azadlığına malik olmaq deyil, Xeyir yaratmaq azadlığına malik olmaqdır.***

***Azadlıq – əslində xudbinliyin cilovlanmasıdır.***

***Xudbinlikdən azad olmayan – Azad sayılmaz!***

***Özündənkeçmə – əslində azadlığın ən yüksək mərhələsidir.***

***Özünə ən çox malik olan – xalqa ən çox gərək olur.***

Fərd öz düşüncəsində azad olduğu dərəcədə xəlqi düşüncəyə qovuşur.

Fərd duyğularında azad olduğu dərəcədə xəlqi duyğulara qovuşur.

Fərd iradəsində azad olduğu dərəcədə xəlqi iradəyə qovuşur.

***Müstəbidlik – naşılıqdır.***

Düşüncəni Zorlamaq olmaz.
Duyğunu Zorlamaq olmaz.
İradəni Zorlamaq olmaz.

Zorla yaranan düşüncə vəhdəti – Yoxdur.

Zorla yaranan duyğu vəhdəti – Yoxdur.

Zorla yaranan iradə vəhdəti – Yoxdur.

Kölələşən Fərd Yox olur.

***Yoxdan Mütləq yaratmaq olmaz!***

Fərd xalqa itaət etmir – qovuşur.

Fərd xalqda özünü itirmir – tapır.

Fərd xalqa əyilmir – xalq səviyyəsinə ucalır.

Zorakılar ***Naqis Fərdlərdən*** xalq yaratmaq istəyirlər, bu səbəbdən də Zora əl atırlar; ***Fərdi naqislikdən xilas edə bilmirlər.***

Zorakı səlahiyyət Fərdi dəyişdirmək əvəzinə – öldürür və ölü fərdlərdən xalq yaratmaq niyyətinə düşür.

Fərd o dərəcədə azad olmalıdır ki, xalqda öz Ali Azadlığına qovuşsun!

Fərd o dərəcədə müstəqil olmalıdır ki, xalqda öz Ali Müstəqilliyinə qovuşsun!

***Ən güclü Səlahiyyət – ən insani Səlahiyyətdir!***

Müstəbidlik – əslində ən aciz, ən zəif, ən süni Səlahiyyətdir.

***Çünki ruhanilikdən məhrumdur.***

***Çünki fərdi olan – ruhani olmaya bilməz.***

## III. Ruhani Dövlət

Fərdlərin xalqla vəhdəti Ruhani Dövlət vasitəsilə həyata keçirilir.

Ruhani Dövlət – Xəlqi Mahiyyəti ifadə edir, Əhalini həmin mahiyyət ətrafında birləşdirir, müxtəlif fərdlərdən ictimai birlik yaradır.

Ruhanilik gerçəklikdə ictimai hadisələr biçimində aşkara çıxır.

Adi dövlət öz vəzifəsini əksər hallarda təbəqələr, siniflər arasında müvazinət yaratmaqda, əhalinin maddi, siyasi mənafeyini təmsil etmək və qorumaqda görür.

***Əslində isə ictimai olan nə varsa, arxasında ruhanilik dayanır.***

Elə bir siyasi məsələ yoxdur ki, o, insaniyyətlə bağlı olmasın.

Yaxşı cəmiyyət qurmaq üçün yaxşı İnsan yaratmaq lazımdır!

Güclü məmləkət yaratmaq üçün yaxşı İnsan yetirmək lazımdır!

Dünyada yüksək siyasi mövqe qazanmaq üçün yaxşı İnsan yaratmaq lazımdır!

Vətəni düşməndən qorumaq üçün yaxşı İnsan yaratmaq lazımdır!

İctimai Tərəqqiyə çatmaq üçün yaxşı İnsan yaratmaq lazımdır!

***Bütün ictimai məsələlərin həlli əslində ruhani səciyyə daşıyır. Bütün ictimai müşküllərin arxasında insani xəsarət dayanır.***

Ədalətsizliyin səbəbi – insani xəsarətdir!

İctimai geriliyin səbəbi – insani xəsarətdir!

Cəhalətin səbəbi – insani xəsarətdir!

Qəsbkarlığın səbəbi – insani xəsarətdir!

***Buna görə də ictimai məsələləri həll etmək – əslində ruhani məsələləri həll etməkdir.***

Dövlət xadimi həm də ruhaniyyat xadimi olmalıdır.

***Dövlət Səlahiyyətini ruhanilik səlahiyyətindən ayırmaq – yanlış təmayüldür.***

Dövlət Əhalinin həm siyasi, həm də ruhani rəhbəri olmalıdır.

Ruhani rəhbərliyi dövlətdən təcrid etmək, onu xüsusi bir səlahiyyətə tapşırmaq bəşər tarixində çox yayılmış, fəqət son dərəcə zərərli bir meyildir.

***İnsan – ruhani varlıqdır.***

Buna görə də onu ruhanilikdən kənarda idarə etmək mümkün deyil!

İnsana sırf siyasi baxımdan yanaşmaq – onu anlamamaqdır.

***Çünki İnsanda elə siyasi keyfiyyət yoxdur ki, arxasında ruhanilik dayanmasın!***

Bu səbəbdən də Dövlət Ruhani səciyyə daşımalıdır, ruhaniləşməlidir; siyasi məsələlərə ruhaniliyin ifadəsi, təzahürü kimi yanaşmaq lazımdır.

Bu səbəbdən də Ruhani Xadimlik Səlahiyyətindən məhrum olan dövləti – əsil dövlət saymaq olmaz.

Xalqı təmsil etmək – ruhaniliyi təsdiq etməkdir.

***Ruhaniliyi təsdiq etmək üçün – Vahid, Qüdrətli, Ruhani Dövlət gərəkdir.***

***Güclü Dövlət – Ruhani Dövlətdir.***

## IV. Kamillik

Əhali Dövlət Səlahiyyətini bölmür, parçalamır, bütünlüklə ***Kamilə*** həvalə edir.

Əhali Dövlət səlahiyyətinə ortaq çıxmır: onun Bütövlüyünü, Ali Ləyaqətini qoruyur.

Əhali Hakimlik iddiasına düşmür, anlayır ki, Dövlət Səlahiyyəti – Kütləviliyə ziddir.

Xalq hakimiyyəti hadisəsini Yetkin Əhali bayağı mənada anlamır; "seçki nəzarətini", "parlament xəlqiliyini" ədalətin təntənəsi saymır.

***Xalq hakimiyyətini o, Xəlqi Mahiyyətin Bütöv ifadəsi kimi başa düşür*** və həmin Səlahiyyəti Kamilə tapşırır.

Çünki bilir ki, Ali Səlahiyyət bölünəndə, parçalananda kiçilir, bayağılaşır, Yox olur.

Bilir ki, çoxsəlahiyyətlilik – əslində xalqsızlıqdır.

***Bilir ki, hamının bir olması üçün birin hamı üzərində Ruhani Səlahiyyəti gərəkdir.***

Bilir ki, Məsuliyyət paylandıqca azalır.

Bilir ki, Səlahiyyət xüsusi İnsani keyfiyyətlər tələb edir və həmin keyfiyyətlərdən məhrum olanların idarəçiliyi – fəlakətdir.

Bilir ki, Onu özündən yaxşı – yetirdiyi Ali Ləyaqət ifadə edə bilər.

Bilir ki, Ali Timsal yaratmayan Xalq – Xalq deyil!

Bilir ki, Əhalinin Xəlqi Mahiyyəti Timsal yetirməyi Ruhani Vəzifə sayır.

Bilir ki, sinfi hakimiyyət əslində Şəxsi Ağalığın təsdiqindən başqa bir şey deyil!

Bilir ki, Monarxiya əslində Dövlət Səlahiyyətsizliyi deməkdir, çünki monarx əksər hallarda xalqı ifadə etmir, öz Xudbin iradəsini ifadə edir.

Bilir ki, Ruhani Qanunlar əsasında yaşayan ***Timsal*** Xəlqi İradəni ifadə edir.

Bilir ki, ***Mütləq Səlahiyyətə malik olan Kamil – İmtiyazsızlıq ləyaqətinə sadiqdir.***

Bilir ki, əhali yükünü daşımağa güclü çiyin lazımdır!

***Bilir ki, Xəlqi Səlahiyyət – Kamilindir.***

## V. Bəşərilik

Deyirlər ki, Möhtəşəm Xalq özünü Bəşərə qarşı qoyan Xalq olur.

Deyirlər ki, bir Xalqın yüksəlməsi başqa xalqların alçalması bahasına başa gəlir.

Deyirlər ki, xəlqi mənafe bəşəri mənafeyə uyğun gəlmir.

Çünki o, düşmən sayılan insanların əzabı, işgəncəsi, ölümü hesabına qazanılır.

Bu səbəbdən də deyirlər ki, xəlqi yüksəliş – bəşəri tənəzzül deməkdir.

Xalqın dərdinə qalan – bəşərin dərdinə qalmır.

Buna görə də xalqların vahid bəşər içərisində əriməsi, itməsi labüd və ədalətli hadisədir!

***Müxtəlif xalqlar əvəzinə – yeganə bəşər, davanın, dalaşın, qadanın kəsilməsi, sərhədlərin aradan qaldırılması, bəşəri vəhdət.***

Bunu arzulayırlar...

Əslində isə bu niyyətin həyata keçməsi – bəşərin ruhani müflisləşməsi və məhvi olardı.

Çünki bəşər ona görə xalqlara ayrıldı ki, sürü səviyyəsində qala bilmədi, buna onun ruhani ləyaqəti yol vermədi.

Xalqların yaranması həm Mənəviyyatın, həm də yaradıcı İdrakın əvəzsiz qələbəsi idi.

Xalqları təzədən sürüyə qaytarmaq – onların ləyaqətini tapdalamaqdır.

Xalqlar arasında münaqişələr mövcuddur, bu münaqişələrdə insani naqislik bariz şəkildə aşkara çıxır, müharibə dəhşətində çox vaxt yırtıcılıq qələbə çalır.

Fəqət bu fəlakətlərin heç biri bəşərin yenidən sürüləşməsi dəhşətindən artıq deyil.

Sürüləşən, aradan çıxan, məhv olan xalqlar faciəsi – bir-biriylə döyüşən, bir-birini Yer üzündən silməyə çalışan ölkələr faciəsindən kiçik deyil!

"Güclü xalq gücsüz xalqın üzərində hakim olmalıdır", "həyat döyüşündə qəddar və amansız olan qalib gəlir" iddiası və "xalqların vahid bəşərdə itməsi" nəzəriyyəsi bir nöqtədə birləşir.

Hər ikisində insanın özü üzərində qələbəsinə İnam yoxdur.

***Xalqların bəşərləşməsi – bəşərin ölməsi deməkdir.***

***Çünki xalq – bəşəriyyətin yeganə bəşəri mövcudluğudur.***

## 45. KAİNATDAN FƏRQLİ

Kainat Mütləqə bərabər ola bilməz.
Çünki o, maddidir.
İnsan Mütləqə bərabər ola bilər.
Çünki o, ruhanidir.

*16 Şölə Ayı, 7-ci il.*
*(16 iyun, 1985-ci il. Bakı).*

# VARLIQ – YOXLUQ

(On Altıncı  qutsal əsər)

## 1. Var olan – Yox olan

***Hər mövcud olan – Var olmur;***
***Var olan – Əzəli olur, Əbədi olur, Sonsuz olur, Kamil olur.***
***Əzəli olmayanın*** – Sonu olur;
***Sonlu – Nisbi Var olur*** – Nisbilik – Yoxluqdur,
Nisbi Var olan – Yox olur.
Var olmaq – Mütləqilik Tələb edir,
***Mütləq olmayan – Var olmur.***
***Əbədi olmayanın*** – Sonu olur;
***Sonlu – Nisbi Var olur*** – Nisbilik – Yoxluqdur,
Nisbi Var olan – Yox olur.
Var olmaq – Mütləqilik Tələb edir,
***Mütləq olmayan – Var olmur.***
***Sonsuz olmayanın*** – Sonu olur;
***Sonlu – Nisbi Var olur*** – Nisbilik – Yoxluqdur,
Nisbi Var olan – Yox olur.
Var olmaq – Mütləqilik Tələb edir,
***Mütləq olmayan – Var olmur.***
***Kamil olmayan*** – Naqis olur;
***Naqis – Nisbi Var olur*** – Nisbilik – Yoxluqdur,
Nisbi Var olan – Yox olur.
Var olmaq – Mütləqilik Tələb edir,
***Mütləq olmayan – Var olmur.***

## 2. Gerçəklik – Mahiyyət

Gerçəklikdə hər şey nisbidir, keçicidir, sonludur, qeyri-kamildir.
***Bu səbəbdən də Gerçəklik – Var olmur.***
Mahiyyət – Əzəlidir, Əbədidir, Sonsuzdur, Kamildir.
***Bu səbəbdən də Mahiyyət Var olur.***
Dünya, Həyat, İnsan – Mahiyyətlə Gerçəkliyin Birliyidir, – ***yəni Var olanla Var olmayanın Birliyidir.***
***Əzəli*** Mahiyyət – ötəri gerçəkləşir,
***Əbədi*** Mahiyyət – keçici gerçəkləşir,
***Sonsuz*** Mahiyyət – sonlu gerçəkləşir,

***Kamil*** Mahiyyət – qeyri-kamil gerçəkləşir.

***Bu səbəbdən də Mahiyyətlə Gerçəklik arasında Fərq – Var olanla Var olmayan arasında Fərqə bərabərdir.***

***Nisbi Varlıq – Yoxluqdur.***

***Gerçəklik Nisbi Varlıqlarla doludur, bu səbəbdən də Var olmayanlarla doludur.***

Gerçəklikdə – ***Nisbi Xeyir*** var, Mütləq Xeyir yoxdur; – bu səbəbdən də Xeyir yoxdur, – Şər var.

Gerçəklikdə ***Nisbi Ədalət*** var, Mütləq Ədalət yoxdur; – bu səbəbdən də Ədalət yoxdur, – Ədalətsizlik var.

Gerçəklikdə ***Nisbi Həqiqət*** var, Mütləq Həqiqət yoxdur; – bu səbəbdən də Həqiqət yoxdur, – Yalan var.

Gerçəklikdə ***Nisbi İnam*** var, Mütləq İnam yoxdur; – bu səbəbdən də İnam yoxdur, – İnamsızlıq var.

Gerçəklikdə ***Nisbi İdrak*** var, Mütləq İdrak yoxdur; – bu səbəbdən də İdrak yoxdur, – İdraksızlıq var.

Gerçəklikdə ***Nisbi Mənəviyyat*** var, Mütləq Mənəviyyat yoxdur; – bu səbəbdən də Mənəviyyat yoxdur, – Mənəviyyatsızlıq var.

Gerçəklikdə ***Nisbi İradə*** var, Mütləq İradə yoxdur; – bu səbəbdən də İradə yoxdur, – İradəsizlik var.

Gerçəklikdə –

***Zaman Həddində Varlıq var,*** – əslində bu, Yoxluqdur;
***Məkan Həddində Varlıq var,*** – əslində bu, Yoxluqdur;
***Mühit Həddində Varlıq var,*** – əslində bu, Yoxluqdur;
***Şərait Həddində Varlıq var,*** – əslində bu, Yoxluqdur;

***Varlığın Yoxluğa düşməsi – Fəlakətdir: bu Fəlakətdən çıxmaq üçün Mahiyyətin tərəfində Gerçəkliyə qarşı durmaq gərək.***

### 3. Təzahür – Məna

Məna – Əzəlidir, Əbədidir, Sonsuzdur, Kamildir.

Təzahür – Ötəridir, Keçicidir, Sonludur, Qeyri-kamildir.

***Təzahürdə Məna Özündən ayrılır; –***

Təzahür – Nisbi Mənadır; bu səbəbdən də Mənanın Yoxluğudur əslində.

Ötəri Məna olmur – Məna Əzəlidir; bu səbəbdən də Təzahür Mənaya qarşıdır.

Keçici Məna olmur – Məna Əbədidir; bu səbəbdən də Təzahür Mənaya qarşıdır.

Sonlu Məna olmur – Məna  Sonsuzdur; bu səbəbdən də Təzahür Mənaya qarşıdır.

Qeyri-kamil Məna olmur – Məna  Kamildir; bu səbəbdən də Təzahür Mənaya qarşıdır.

***Dünya Mənadan doğub – öz Mənasından doğub;***
***ancaq Məna Dünyadan artıq olub, böyük olub, yüksək olub – Dünyaya sığmayıb.***

***Mənadan doğan Dünya – Mənasızlıq doğub:***
***Məna ölçüsündə Mənasızdır dünya;***
***Məna olmasaydı – Dünya Mənasız sayılmazdı;***
***Təzahürün Yoxluğu əslində Mənanın Varlığıdır.***

İnsan – Məna həsrətlisidir; – Təzahürdə axtardığını tapmır, Təzahürdən kənara çıxır, Amala yetir.

***Təzahürdə Var olmayan Məna Amalda Var olur.***
***Təzahür Mənasızlığını Amal aradan qaldırır.***

## 4. Cəmiyyət – İnsan

***İnsan özündə Mütləqilik – Əzəlilik, Əbədilik, Sonsuzluq, Kamillik gəzdirən Ruhani Varlıqdır.***

Cəmiyyətdə – Mütləqilik – Əzəlilik, Əbədilik, Sonsuzluq, Kamillik yoxdur, bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.

Cəmiyyət – maddi münasibətlər əsasında qurulub; İnsan Ruhanilik – yəni Mütləq İnam, Mütləq İdrak, Mütləq Mənəviyyat, Mütləq İradə əsasında Yaranıb, – bu səbəbdən də İnsan Cəmiyyətdə Var olmur.

Cəmiyyət Ağa-Nökər münasibətləri əsasında qurulub; bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.

Cəmiyyət Hamılaşma, Təbəqələşmə, Özgələşmə əsasında qurulub; bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.

Cəmiyyət İnamı – Ötəri, Keçici, Sonlu, Qeyri-Kamil İnamdır; – bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.

Cəmiyyət İdrakı – Ötəri, Keçici, Sonlu, Qeyri-Kamil İdrakdır; – bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.

Cəmiyyət Mənəviyyatı – Ötəri, Keçici, Sonlu, Qeyri-Kamil Mənəviyyatdır; – bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.

Cəmiyyət İradəsi – Ötəri, Keçici, Sonlu, Qeyri-Kamil İradədir; – bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.

Cəmiyyət Qanunları – Ötəri, Keçici, Sonlu, Qeyri-Kamil Qanunlardır; – bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.

***Cəmiyyət Mütləq tanımır, – İnsan Mütləqsiz yaşaya bilməz, bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.***

İnsan Fərdiyyətdir, Xalqdır; – cəmiyyət Fərdiyyətə, Xalqa qarşıdır, bu səbəbdən də İnsan cəmiyyətdə Var olmur.

Cəmiyyət İnsanı öz Mahiyyətindən ayırır, öz Mahiyyətinə çatmaq üçün İnsan cəmiyyətdən Yüksəyə qalxmalıdır, Amala Yetməlidir.

## 5. Tarix – İnsan

Tarixdə İnsan – Adam olur; Məxluq olur – Yırtıcılaşır, Qəbahətləşir, Həqarətləşir; – bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarixdə ***Maddiyyatçılıq Ruhaniliyi Üstələyir,*** bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarixdə ***Ədalətsizlik Ədaləti Üstələyir,*** bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarixdə ***Yalan Həqiqəti Üstələyir,*** bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarixdə ***Şər Xeyiri Üstələyir,*** bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarixdə ***Ötərilik Əzəliliyi Üstələyir,*** bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarixdə ***Keçicilik Əbədiliyi Üstələyir,*** bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarixdə ***Sonlu Sonsuzu Üstələyir,*** bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarixdə ***Qeyri-kamil Kamili Üstələyir,*** bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarixdə ***Əsarət Azadlığı Üstələyir,*** bu səbəbdən də ***İnsan Tarixdə Var olmur.***

Tarix – ***Tarixi İnam – Nisbi İnam – yəni İnamsızlıq yaradır;*** bu səbəbdən də İnsan Tarixdə Var olmur.

Tarix – ***Tarixi İdrak – Nisbi İdrak – yəni İdraksızlıq yaradır;*** bu səbəbdən də İnsan Tarixdə Var olmur.

Tarix – ***Tarixi Mənəviyyat – Nisbi Mənəviyyat*** – yəni Mənəviyyatsızlıq yaradır; bu səbəbdən də İnsan Tarixdə Var olmur.

Tarix – ***Tarixi İradə – Nisbi İradə – yəni İradəsizlik yaradır;*** bu səbəbdən də İnsan Tarixdə Var olmur.

***Tarixi Adamlar, Məxluqlar yaradır, İnsan Tarixdən Yüksəkdir – Amal daşıyandır: Amal – Mütləq İnam, Mütləq İdrak, Mütləq Mənəviyyat, Mütləq İradə deməkdir: Gerçəklikdə, Təzahürdə, cəmiyyətdə olmayanı – İnsan özündə Yaşadır.***

## 6. Təbiət – İnsan

***İnsan Təbiəti Yox eləyir; bu səbəbdən də Təbiətdə Var olmur.***

İnsan Təbiətə Ağalıq eləyir; bu səbəbdən də Təbiətdə Var olmur.

Təbiət İnsanidir: İnsan Göyə, Dağa, Çaya bənzəyir; ancaq Təbiətlə Doğmalığını unudur – bu səbəbdən də Təbiətdə Var olmur.

Təbiətin ***Ruhu*** Var: o, Ağlayır, Gülür, Oxuyur, Kədərlənir: İnsan Təbiətin Ruhunu görmür, Faydasını görür; bu səbəbdən də İnsan Təbiətdə Var olmur.

İnsan unudur ki, özündə Təbiətin mənasını gəzdirir; təbiətə Zülm eləmək öz Ali Məninə Zülm eləməkdir: – ***İnsan bu həqiqəti unudur, bu səbəbdən də Təbiətdə Var olmur.***

Təbiət İnsanı ifadə eləyir, İnsan Təbiəti: Təbiət ölsə – İnsan ölər; İnsan ölsə – Təbiətin mənası ölər: – İnsan Yırtıcılığı Ülvi Bağlılığı qırır: İnsanla Təbiət arasında Yadlıq, Yağılıq törəyir, İnsan əslində Özünə Yağı kəsilir: – bu səbəbdən də Təbiətdə Var olmur.

***Təbiət İnamla qohumdur, İdrakla qohumdur, Mənəviyyatla qohumdur, İradəylə qohumdur – Fikirlə, Duyğuyla, İstəklə qohumdur – İnsan bunu unudur, bu səbəbdən də Təbiətdə Var olmur.***

İnsanın təkcə maddi Tələblərinə yox, Fikirlərinə, Hisslərinə, ***Ruhani Aqibətinə*** Göy gərək, Yer gərək, Ağac gərək, Dağ gərək: ***Təbiət Ruhanilik izhar eləyir,*** İnsan onu eşitmir, bu səbəbdən də İnsan Təbiətdə Var olmur.

İnsan Təbiətlə münasibətində ikiləşir: həm təbiətə qovuşmağa can atır, həm də təbiətə qənim kəsilir – öz İnsaniliyinə qarşı çıxır: – bu səbəbdən də Təbiətdə Var olmur.

***İnsan Təbiətlə Bir olmalıdır ki, Var olsun.***

## 7. Həyat – İnam

Həyat səviyyəsində İnam olmur – çünki Nisbi İnam olmur.
İnam Həyatdan artıq olur, yüksək olur, böyük olur.
***İnam – Amal səviyyəsində olur.***
İnam – ***Əzəliyə inanır,*** – Ötəriyə inanmır.
***Əbədiyə inanır,*** – Keçiciyə inanmır.
***Sonsuza inanır,*** – Sonluya inanmır.
***Kamilə inanır,*** – Qeyri-Kamilə inanmır.
Bu səbəbdən də Həyatı Ali Həyata Yüksəldir.
***Həyat səviyyəsində İnam Var olmur;***
***Həyatı ötəndə İnam Var olur.***

## 8. Həyat – İdrak

Həyat səviyyəsində İdrak – Nisbi İdrakdır.

***Nisbilik – Yoxluqdur; bu səbəbdən də Həyat səviyyəsində İdrak Var olmur.***

Həyat səviyyəsində İdrak – Ötəriyə çatır, Əzəliyə çatmır; ***İdrakın Mənası – Əzəlinin dərkidir; bu səbəbdən də Həyat səviyyəsində İdrak Var olmur.***

Həyat səviyyəsində İdrak – Keçiciyə çatır, Əbədiyə çatmır; ***İdrakın Mənası – Əbədinin dərkidir; bu səbəbdən də Həyat səviyyəsində İdrak Var olmur.***

Həyat səviyyəsində İdrak – Sonluya çatır, Sonsuza çatmır; ***İdrakın Mənası – Sonsuzun dərkidir; bu səbəbdən də Həyat səviyyəsində İdrak Var olmur.***

Həyat səviyyəsində İdrak – Qeyri-kamilə çatır, Kamilə çatmır; ***İdrakın Mənası – Kamilin dərkidir; bu səbəbdən də Həyat səviyyəsində İdrak Var olmur.***

***İdrak Mütləqi dərk edir, Əzəlini, Əbədini, Sonsuzu, Kamili dərk edir, Həyatdan artığı, yüksəyi, böyüyü dərk edir – Həyatı ötür, Amala çatır.***

## 9. Həyat – Amal

***Amal – Mütləqiliyin ifadəsidir.***

***Həyat – Mütləq tanımır,*** bu səbəbdən də Amal Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

***Həyat Amala çatmır, Amal Həyatı ötür.***

Həyat Nisbidə qalır, bu səbəbdən də Var olmur;
Amal Mütləqə Yüksəlir, bu səbəbdən də Var olur.

Amal Həyatın Mənasıdır. Məna Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

***Həyat – Amala çatmır, – Amal Həyatı ötür, onu Ali Həyata Yüksəldir.***

Həyat əslində Amalda Var olur; – ***Amal Həyatı Var eləyir.***

***Amal – Mütləq İnam deməkdir;*** Həyat Mütləq İnam tanımır;

Bu səbəbdən də Amal Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

***Həyat Amala çatmır; Amal Həyatı ötür, onu Ali Həyata Yüksəldir, Var eləyir.***

***Həyatın Varlığı – Amaldır əslində.***

***Amal – Mütləq İdrak deməkdir;*** Həyat Mütləq İdrak tanımır;

Bu səbəbdən də Amal Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

***Həyat Amala çatmır; Amal Həyatı ötür, onu Ali Həyata Yüksəldir, Var edir.***

***Amal – Mütləq Məvəviyyat deməkdir;***

Həyat Mütləq Mənəviyyat tanımır;

Bu səbəbdən də Amal – Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

***Həyat Amala çatmır; Amal Həyatı ötür, onu Ali Həyata Yüksəldir, Var edir.***

Həyat Amalda Mənaya qovuşur: ***Həyatın Varlığı – Amaldır əslində.***

***Amal – Mütləq İradə deməkdir;***

Həyat Mütləq İradə tanımır;

Bu səbəbdən də Amal Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

Amal Həyatı Ali Həyata çatdırır: –

***Həyatın Varlığı – Amaldır əslində.***

***Həyatın Varlığı – Həyatın özündən Artıqdır, Böyükdür, Yüksəkdir.***

## 10. Həyat – İnsanilik

***İnsanilik – Ruhanilikdir – yəni Əzəlilik, Əbədilik, Sonsuzluq, Kamillikdir.***

Həyatda ***Əzəli*** Var olmur, bu səbəbdən də İnsanilik – Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

Həyatda ***Əbədi*** Var olmur, bu səbəbdən də İnsanilik – Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

Həyatda ***Sonsuz*** Var olmur, bu səbəbdən də İnsanilik – Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

Həyatda ***Kamil*** Var olmur, bu səbəbdən də İnsanilik – Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

İnsanilik – Mütləqilikdir: –

Həyatda Mütləq Var olmur – Nisbi Var olur.

Həyatda Nisbi İnam olur – Nisbi İnam – İnsaniliyə Ziddir;

Nisbi İdrak olur – Nisbi İdrak – İnsaniliyə Ziddir;

Nisbi Mənəviyyat olur – Nisbi Mənəviyyat – İnsaniliyə Ziddir;

Nisbi İradə olur – Nisbi İradə – İnsaniliyə Ziddir.

İnsan Həyatda Ruhaniliklə cismaniliyin birliyi biçimində mövcud olur***: Mahiyyətcə bu, Varlıqla Yoxluğun birliyi deməkdir.***

Ruhani – Əzəlidir, Cismani – Ötəri;

Ruhani – Əbədidir, Cismani – Keçici;

Ruhani – Sonsuzdur, Cismani – Sonlu;

Ruhani – Kamildir, Cismani – Qeyri-Kamil.

Həyatda Əzəli – Ötəridə mövcud olur;
Əbədi – Keçicidə mövcud olur;
Sonsuz – Sonluda mövcud olur;
Kamil – Qeyri-Kamildə mövcud olur –

İnsan Faciəsinin mahiyyəti bundan ibarətdir:

***Həyat Məxluqa yarayır, Adama yarayır – İnsana yaramır;***

***Məxluq*** – mahiyyətcə Qeyri-İnsanidir, –

***Adam*** – Nisbi İnsani;

İnsan – Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir – ancaq Həyatda yaşamalıdır; ***İnsan Həyatda mövcud olur, ancaq Həyatda Var olmur: Həyat – İnsanilik üçün Azdır; bu səbəbdən də İnsan Həyatdan Artığa, Böyüyə, Yüksəyə – Ali Həyata can atır: – İnsan Həyatda yaşayır, Ali Həyatda Var olur: – Mütləq İnamda, Mütləq İdrakda, Mütləq Mənəviyyatda, Mütləq İradədə...***

## 11. Fərdilik – İnsanilik

***İnsanilik – Fərdilikdə – yəni Özümlükdə ifadə olunur – cəmiyyətdə – yəni Özgəlikdə ifadə olunmur.***

Özümlük – Özgəliyə – yəni Təbəqələşməyə, Hamılaşmağa – qarşıdır.

***Təbəqələşmə*** – Əzəliyə yaddır, Əbədiyə yaddır,
Sonsuza yaddır, Kamilə yaddır.

***Hamılaşma*** – Əzəliyə yaddır, Əbədiyə yaddır,
Sonsuza yaddır, Kamilə yaddır.

***Fərdilik – Bənzərsizlik deməkdir.***

***Fərdi Bənzərsizliyin Əzəliyə bənzəri var, Əbədiyə bənzəri var, Sonsuza bənzəri var, Kamilə bənzəri var.***

***Mütləqilik – Fərdilikdə ifadə olunur,***
***Təbəqələşmədə, Hamılaşmada ifadə olunmur.***

Mütləq İnam Fərdilikdə ifadə olunur; – Təbəqələşmədə, Hamılaşmada ifadə olunmur.

Mütləq İdrak Fərdilikdə ifadə olunur; – Təbəqələşmədə, Hamılaşmada ifadə olunmur.

Mütləq Mənəviyyat Fərdilikdə ifadə olunur; – Təbəqələşmədə, Hamılaşmada ifadə olunmur.

Mütləq İradə Fərdilikdə ifadə olunur; – Təbəqələşmədə, Hamılaşmada ifadə olunmur.

Təbəqələşmədə, Hamılaşmada İnsan – İnsaniliyindən ayrılır, Fərdi Bənzərsizliyini itirir: – bu Mütləqə bənzərliyin itməsidir əslində, – Mahiyyətə, Mənaya bənzərliyin itməsidir...

***Məna – Fərdi Bənzərsizlikdə ifadə olunur, – Fərdi Bənzərsizlik Mənanı qoruyur.***

***Təbəqələşmə – Özümlüyün inkarıdır; – əslində Mənanın inkarıdır.***

***Hamılaşma – Özümlüyün inkarıdır; – əslində Mənanın inkarıdır.***

***Təbəqələşmə – Mənasızlaşmadır.***

***Hamılaşma – Mənasızlaşmadır.***

İnsanilik – Mütləq Məna deməkdir, o, Fərdiyyətdə Var olur, – cəmiyyətdə Var olmur.

***Cəmiyyət – Fərdiyyət Yoxluğudur;***

***Fərdiyyət – İnsanilik Varlığı.***

## 12. Xalq – İnsanilik

***Xalq – Fərdlər Birliyidir;*** – Özümlüyü, Bənzərsizliyi saxlayan; – Özgəliyə, Hamılaşmağa, Təbəqələşməyə qarşı duran...

Fərdilik – Xalqda Var olur; – cəmiyyətdə Yox olan Özümlük, Bənzərsizlik Xalqda Var olur.

Cəmiyyətdə Yox olan İnsanilik – Xalqda Var olur;

***Mahiyyətcə Xalq – cəmiyyətə qarşıdır.***

Cəmiyyətdə Yox olan Mütləqilik – Xalqda Var olur.

Cəmiyyətdə Yox olan Mütləq İnam – Xalqda Var olur.

Cəmiyyətdə Yox olan Mütləq İdrak – Xalqda Var olur.

Cəmiyyətdə Yox olan Mütləq Mənəviyyat – Xalqda Var olur.

Cəmiyyətdə Yox olan Mütəq İradə – Xalqda Var olur.

***Cəmiyyətdəki Mənasızlıq, Mahiyyətsizlik Xalqda Yox olur.***

Cəmiyyətdə Yox olan Əzəlilik Xalqda Var olur.

Cəmiyyətdə Yox olan Əbədilik Xalqda Var olur.

Cəmiyyətdə Yox olan Sonsuzluq Xalqda Var olur.

Cəmiyyətdə Yox olan Kamillik Xalqda Var olur.

***Xalq – İnsaniliyi cəmiyyətdən qoruyur.***

## 13. Maddi – Ruhani

***Maddi*** – Nisbidir, Ötəridir, Keçicidir, Sonludur, Qeyri-Kamildir.

***Ruhani*** – Mütləqdir, Əzəlidir, Əbədidir, Sonsuzdur, Kamildir.

***Maddi – Mahiyyətin Təzahürüdür,***

***Ruhani – Mahiyyətin İfadəsidir.***

Ruhani – Maddidən Artıqdır, Böyükdür, Yüksəkdir.

Maddiyyata bağlanan ***İnam*** – İnamsızlıqdır – Mütləqilikdən məhrumdur.

Maddiyyata bağlanan ***İdrak*** – İdraksızlıqdır – Mütləqilikdən məhrumdur.

Maddiyyata bağlanan ***Mənəviyyat*** – Mənəviyyatsızlıqdır – Mütləqilikdən məhrumdur.

Maddiyyata bağlanan ***İradə*** – İradəsizlikdir – Mütləqilikdən məhrumdur.

***Maddi*** – ***Əzəli*** deyil – bu səbəbdən də Var olmur;
***Əbədi*** deyil – bu səbəbdən də Var olmur;
***Sonsuz*** deyil – bu səbəbdən də Var olmur;

***Kamil*** deyil – bu səbəbdən də Var olmur.
***Ruhani – Əzəlidir*** – bu səbəbdən də Var olur;
***Əbədidir*** – bu səbəbdən də Var olur;
***Sonsuzdur*** – bu səbəbdən də Var olur;
***Kamildir*** – bu səbəbdən də Var olur.

Maddi – Mənadan yaranıb, – Mənadan ayrılıb:
Maddinin Mənası maddidən Artıqdır, Böyükdür, Yüksəkdir;

***Maddinin Mənası Ruhanidir – yəni Qeyri-Maddidir.***

***Maddi Məna olmur, bu səbəbdən də Maddi – Var olmur; Maddinin Varlığı – Ruhanilikdir.***

***Ruhanilik – Maddiyyatın Mənasıdır – yəni Varlığıdır: Maddilik Ruhaniliyin Təzahürüdür – yəni Yoxluğudur.***

## 14. Əlaqələr – Təzadlar

Dialektika əksliklər arasında Nisbi Fərq görür;
Dialektikada əksliklər bərabərləşirlər – yəni əslində Yox olurlar.

***Dialektika – Yoxluq Təlimidir.***

Dialektika Xeyirlə Şər arasında Nisbi Fərq görür; Dialektikada Şər Xeyirləşir, Xeyir Şərləşir – yəni əslində hər ikisi Yox olur.

***Dialektika – Yoxluq Təlimidir.***

Dialektika Mahiyyətlə Gerçəklik arasında Nisbi Fərq görür; Dialektikada Mahiyyətlə Gerçəklik bərabərləşir – əslində hər ikisi Yoxa çıxır.

***Dialektika – Yoxluq Təlimidir.***

Dialektika Maddiylə Ruhani arasında Nisbi Fərq görür; Dialektikada Maddiylə Ruhani bərabərləşir – əslində hər ikisi Yoxa çıxır.

***Dialektika – Yoxluq Təlimidir.***

Dialektika Mənayla Təzahür arasında Nisbi Fərq görür; Dialektikada Məna Təzahürlə bərabərləşir – əslində hər ikisi Yoxa çıxır.

***Dialektika – Yoxluq Təlimidir.***

Dialektika Amalla Həyat arasında Nisbi Fərq görür; Dialektikada Amal Həyatla bərabərləşir – əslində hər ikisi Yoxa çıxır.

***Dialektika – Yoxluq Təlimidir.***

Dialektika Varlıqla Yoxluq arasında Nisbi Fərq görür; Dialektikada Varlıqla Yoxluq bərabərləşir – əslində hər ikisi Yoxa çıxır.

***Dialektika – Yoxluq Təlimidir.***

Əslində Xeyirlə Şər arasında Fərq – Mütləqdir,
Mahiyyətlə Gerçəklik arasında Fərq – Mütləqdir,
Maddiylə Ruhani arasında Fərq – Mütləqdir,
Mənayla Təzahür arasında Fərq – Mütləqdir,
Amalla Həyat arasında Fərq – Mütləqdir,
Varlıqla Yoxluq arasında Fərq – Mütləqdir –
***Dünya Təzadlar Birliyidir.***

## 15. Qismətçilik Yoxluğu

Din İnsanın Aqibətini Allaha tapşırır;

Fəlsəfi Ehkam – İnsandan asılı olmayan Zəruri Qanunlara.

***Hər ikisində İnsan Yox olur.***

Əslində Bir Zəruriyyət Var – Mahiyyət – Dünyanın, Həyatın, İnsanın Əzəli, Əbədi, Sonsuz, Kamil Mənası.

Ondan başqa nə Varsa – Təzahürdür;

Fəlsəfi Ehkam Təzahürü Labüdləşdirir; İnsanı Labüd Qanunlar Əsarətinə salır: İnsan Aqibətinə Qismətçilik Hakim olur: İnsan Allahdan Qismət gözləyir, Zərurətdən Qismət gözləyir; İnamını, İdrakını, Mənəviyyatını, İradəsini Qismətə tabe edir; Özündən Aşağı, Özündən Kiçik, Özündən Əskik yaşayır.

***Əksliklərin Döyüşü və Vəhdəti Qanunu*** kəşf edir Dialektika – Labüd, Qarşısı alınmaz Zəruri Qanun – və İnsan ümidini ona bağlayır, üzünü ona tutur, gözünü ona dikir, ***Qanunla Bağlanır.***

***Kəmiyyətin Keyfiyyətə keçməsi Qanunu*** icad edir Dialektika – və İnsan ümidini ona bağlayır, üzünü ona tutur, gözünü ona dikir, ***Qanunla Bağlanır.***

***İnkarı İnkar Qanunu*** kəşf edir Dialektika – və İnsan ümidini ona bağlayır, üzünü ona tutur, gözünü ona dikir, ***Qanunla Bağlanır.***

***Səbəbiyyət Qanunu*** kəşf edir Fəlsəfi Ehkam, Səbəbdən doğan Labüd nəticə hökmü çıxarır və İnsan ümidini ona bağlayır, üzünü ona tutur, gözünü ona dikir, ***Qanunla Bağlanır.***

Din də, Fəlsəfi Ehkam da İnsanı yox edir, Onu Mütləqiliyindən, Ruhaniliyindən, Özümlüyündən ayırır.

***Qismətçilik – Qanunlaşan Yoxluqdur əslində.***

## 16. Ziddiyyət – Bütövlük

***Dialektika – Ziddiyyətdən böyük Məna tanımır.***
Əslində isə Ziddiyyətli Məna olmur, Məna – Bütövdür;
Bu səbəbdən də Ziddiyyət – Mənasızlıqdır.
Ziddiyyətli ***Əzəli*** olmur;
Bu səbəbdən də Ziddiyyət – ***Ötəridir.***
Ziddiyyətli ***Əbədi*** olmur;
Bu səbəbdən də Ziddiyyət – ***Keçicidir.***
Ziddiyyətli ***Sonsuz*** olmur;
Bu səbəbdən də Ziddiyyət – ***Sonludur.***
Ziddiyyətli ***Kamil*** olmur;
Bu səbəbdən də Ziddiyyət – ***Qeyri-Kamildir.***
***Əzəli olmayan*** Var olmur –
Bu səbəbdən də Ziddiyyət – Yoxluqdur.
***Əbədi olmayan*** Var olmur –
Bu səbəbdən də Ziddiyyət – Yoxluqdur.
***Sonsuz olmayan*** Var olmur –
Bu səbəbdən də Ziddiyyət – Yoxluqdur.
***Kamil olmayan*** Var olmur –
Bu səbəbdən də Ziddiyyət – Yoxluqdur.
***Ziddiyyətli Var olmur, Bütöv Var olur.***
Gerçəklik – Ziddiyyətlidir;
Mahiyyət – Bütöv.
Həyat – Ziddiyyətlidir;
Amal – Bütöv.
Adam – Ziddiyyətlidir;
İnsan – Bütöv.
Nisbi – Ziddiyyətlidir;
Mütləq – Bütöv.
***İnamsızlıq*** – Ziddiyyətlidir;

***İnam*** – Bütöv.
***İdraksızlıq*** – Ziddiyyətlidir;
***İdrak*** – Bütöv.
***Mənəviyyatsızlıq*** – Ziddiyyətlidir;
***Mənəviyyat*** – Bütöv.
***İradəsizlik*** – Ziddiyyətlidir;
***İradə*** – Bütöv.
***Bütövlük*** – Ziddiyyətin Yoxluğudur – bu səbəbdən də Varlıqdır.
***Ziddiyyət*** – Bütövlüyün Yoxluğudur – bu səbəbdən də Yoxluqdur.

## 17. Dəyişən – Dəyişməz

***Mütləq*** – Dəyişmir, Nisbi Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***Əzəli*** – Dəyişmir, Ötəri Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***Əbədi*** – Dəyişmir, Keçici Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***Sonsuz*** – Dəyişmir, Sonlu Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***Kamil*** – Dəyişmir, Qeyri-Kamil Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***Mahiyyət*** – Dəyişmir, Təzahür Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***Amal*** – Dəyişmir, Həyat Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***İnsan*** – Dəyişmir, Adam Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***İnam*** – Dəyişmir, ***İnamsızlıq*** Dəyişir; –

bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***İdrak*** – Dəyişmir, ***İdraksızlıq*** Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***Mənəviyyat*** – Dəyişmir, ***Mənəviyyatsızlıq*** Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***İradə*** – Dəyişmir, ***İradəsizlik*** Dəyişir; –
bu səbəbdən də Dəyişən Var olmur,
Dəyişməz Var olur.
***Dəyişən – Yoxluğa doğru hərəkət edir,***
***Dəyişməz – Varlıqda qalır.***

## 18. Qeyri-Müəyyənlik – Müəyyənlik

***Mütləq*** – Müəyyəndir; ***Nisbi*** – Qeyri-Müəyyən.
***Əzəli*** – Müəyyəndir; ***Ötəri*** – Qeyri-Müəyyən.
***Əbədi*** – Müəyyəndir; ***Keçici*** – Qeyri-Müəyyən.
***Sonsuz*** – Müəyyəndir; ***Sonlu*** – Qeyri-Müəyyən.
***Kamil*** – Müəyyəndir; ***Qeyri-Kamil*** – Qeyri-Müəyyən.
***Mahiyyət*** – Müəyyəndir; ***Təzahür*** – Qeyri-Müəyyən.
***Amal*** – Müəyyəndir; ***Həyat*** – Qeyri-Müəyyən.
***İnsan*** – Müəyyəndir; ***Adam*** – Qeyri-Müəyyən.
***İnam*** – Müəyyəndir; ***İnamsızlıq*** – Qeyri-Müəyyən.
***İdrak*** – Müəyyəndir; ***İdraksızlıq*** – Qeyri-Müəyyən.
***Mənəviyyat*** – Müəyyəndir; ***Mənəviyyatsızlıq*** – Qeyri-Müəyyən.
***İradə*** – Müəyyəndir; ***İradəsizlik*** – Qeyri-Müəyyən.
***Müəyyənlik*** – Varlıqdır;
***Qeyri-Müəyyənlik – Yoxluq.***

## 19. İmkan – İmkansızlıq

***Mütləqin*** İmkanı Sonsuzdur,
***Nisbinin*** İmkanı – Sonlu;
bu səbəbdən də Mütləq – İmkanlıdır,
Nisbi – İmkansız.
***İmkan Mütləqdə Var olur, Nisbidə Var olmur.***

***Mahiyyətin*** İmkanı Sonsuzdur,
***Təzahürün*** İmkanı – Sonlu;
bu səbəbdən də Mahiyyət – İmkanlıdır,
Təzahür – İmkansız.
***İmkan Mahiyyətdə Var olur, Təzahürdə Var olmur.***

***Amalın*** İmkanı Sonsuzdur,
***Həyatın*** İmkanı – Sonlu;
bu səbəbdən də Amal – İmkanlıdır,
Həyat – İmkansız.
***İmkan Amalda Var olur, Həyatda Var olmur.***

***İnamın*** İmkanı Sonsuzdur,
***İnamsızlığın*** İmkanı – Sonlu;
bu səbəbdən də İnam – İmkanlıdır,
İnamsızlıq – İmkansız.
***İmkan İnamda Var olur, İnamsızlıqda Var olmur.***

***İdrakın*** İmkanı Sonsuzdur,
***İdraksızlığın*** İmkanı – Sonlu;
bu səbəbdən də İdrak – İmkanlıdır,
İdraksızlıq – İmkansız.
***İmkan İdrakda Var olur, İdraksızlıqda Var olmur.***

***Mənəviyyatın*** İmkanı Sonsuzdur,
***Mənəviyyatsızlığın*** İmkanı – Sonlu;
bu səbəbdən də Mənəviyyat – İmkanlıdır,
Mənəviyyatsızlıq – İmkansız.
***İmkan Mənəviyyatda Var olur, Mənəviyyatsızlıqda Var olmur.***

***İradənin*** İmkanı Sonsuzdur,
***İradəsizliyin*** İmkanı – Sonlu;
bu səbəbdən də İradə – İmkanlıdır,
İradəsizlik – İmkansız.
***İmkan İradədə Var olur, İradəsizlikdə Var olmur.***

***Əzəlinin*** İmkanı Sonsuzdur,
***Ötərinin*** İmkanı – Sonlu;
bu səbəbdən də Əzəli – İmkanlıdır,
Ötəri – İmkansız.
***İmkan Əzəlidə Var olur, Ötəridə Var olmur.***

***Əbədinin*** İmkanı Sonsuzdur,
***Keçicinin*** İmkanı – Sonlu;
bu səbəbdən də Əbədi – İmkanlıdır,
Keçici – İmkansız.
***İmkan Əbədidə Var olur, Keçicidə Var olmur.***

***Kamilin*** İmkanı Sonsuzdur,
***Qeyri-kamilin*** İmkanı – Sonlu;
bu səbəbdən də Kamil – İmkanlıdır,
Qeyri-kamil – İmkansız.
***İmkan Kamildə Var olur, Qeyri-kamildə Var olmur.***

***Dünyanın Məna boyda İmkanı var – Dünyadan Artıq.***
***Həyatın Məna boyda İmkanı var – Həyatdan Artıq.***
***İnsanın Məna boyda İmkanı var – İnsandan Artıq.***

## 20. Təkrar – Təkrarsızlıq

***Nisbi*** Mütləqə çatmır, bu səbəbdən də Dünya təkrarlanır.
***Həyat*** Amala çatmır, bu səbəbdən də Dünya təkrarlanır.
***Gerçəklik*** Mahiyyətə çatmır, bu səbəbdən də Dünya təkrarlanır.
***Təzahür*** Mənaya çatmır, bu səbəbdən də Dünya təkrarlanır.
***Həyat*** Amala çatmır, bu səbəbdən də Dünya təkrarlanır.
***Cəmiyyət*** İnsana çatmır, bu səbəbdən də Dünya təkrarlanır.
***Tarix*** İnsana çatmır, bu səbəbdən də Dünya təkrarlanır.
***Maddi*** Ruhaniyə çatmır, bu səbəbdən də Dünya təkrarlanır.

***Ötəri Əzəliyə*** çatmır, bu səbəbdən də Dünya təkrarlanır.

***Keçici Əbədiyə*** çatmır, bu səbəbdən də Dünya təkrarlanır.

***Sonlu Sonsuza*** çatmır, bu səbəbdən də Dünya təkrarlanır.

***Qeyri-Kamil Kamilə*** çatmır, bu səbəbdən də Dünya təkrarlanır.

***Gerçək İnam – Mütləq İnama*** çatmır, bu səbəbdən də Dünya təkrarlanır.

***Gerçək İdrak – Mütləq İdraka*** çatmır, bu səbəbdən də Dünya təkrarlanır.

***Gerçək Mənəviyyat – Mütləq Mənəviyyata*** çatmır, bu səbəbdən də Dünya təkrarlanır.

***Gerçək İradə – Mütləq İradəyə*** çatmır, bu səbəbdən də Dünya təkrarlanır.

***Dünya*** özünə çatmır – bu səbəbdən də təkrarlanır.

***Həyat*** özünə çatmır – bu səbəbdən də təkrarlanır.

***İnsan*** özünə çatmır – bu səbəbdən də təkrarlanır.

***Təkrarda Dünya Var olmur,***
***Həyat Var olmur,***
***İnsan Var olmur.***
***Varlıq – Təkrarsızlıq tələb edir –***
***Təkrarı ötmək!***

## 21. Xeyir – Şər

***Şərin öz Varlığı Yoxdur;***
***Şər – Xeyirin Yoxluğudur.***

***Mütləq Şər olmur –*** bu səbəbdən də Şər Var olmur.

***Əzəli*** Şər olmur – bu səbəbdən də Şər Var olmur.

***Əbədi*** Şər olmur – bu səbəbdən də Şər Var olmur.

***Sonsuz*** Şər olmur – bu səbəbdən də Şər Var olmur.

***Kamil*** Şər olmur – bu səbəbdən də Şər Var olmur.

***Xeyir Var olsa – Şər olmaz.***

***Xeyir Gerçəklikdə Var olmur; bu səbəbdən də Şər Yox olmur.***

***Mütləqdə*** Şər olmur, ***Nisbidə*** Şər olur; – bu səbəbdən də Şər Var olmur.

***Həyatda*** Şər olur – ***Amalda*** Şər olmur, bu səbəbdən də Şər Var olmur.

***Təzahürdə*** Şər olur – ***Mahiyyətdə*** Şər olmur,

bu səbəbdən də Şər Var olmur.
*İnamda* Şər olmur, – *İnamsızlıqda* Şər olur;
bu səbəbdən də Şər Var olmur.
*İdrakda* Şər olmur, – *İdraksızlıqda* Şər olur;
bu səbəbdən də Şər Var olmur.
*Mənəviyyatda* Şər olmur, – *Mənəviyyatsızlıqda* Şər olur;
bu səbəbdən də Şər Var olmur.
*İradədə* Şər olmur, – *İradəsizlikdə* Şər olur,
bu səbəbdən də Şər Var olmur.
***Şər – Gerçəklikdə olan Yoxluqdur.***
***Xeyir – Gerçəklikdə olmayan Varlıqdır.***
***Şər Yoxluğunu ötən – Xeyir Varlığına yetir.***

## 22. Ölümsüzlük – Ölüm

***Mütləq ölmür – Nisbi ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***Əzəli ölmür – Ötəri ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***Əbədi ölmür – Keçici ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***Sonsuz ölmür – Sonlu ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***Kamil ölmür – Qeyri-kamil ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***Ruh ölmür – Cism ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***İdrak ölmür – İdraksızlıq ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***Mənəviyyat ölmür – Mənəviyyatsızlıq ölür;***

bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***İradə ölmür – İradəsizlik ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***Məna ölmür – Təzahür ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
***Mahiyyət ölmür – Hadisə ölür;***
bu səbəbdən də Ölüm Var olmur,
Ölümsüzlük Var olur.
Dünyada Varlıq da var, Yoxluq da.
***Ölümsüzlük – Dünyanın Varlığıdır,***
***Ölüm – Dünyanın Yoxluğu.***

## 23. İnsanilik

***İnsan Varlıqdan yaranır – Yoxluğa düşür,***
***Yoxluğu Var elədiyi dərəcədə Var olur.***

*22 Qismət günü, Yağış Ayı, 13-cü il. Bakı.*
*(22 noyabr 1991-ci il).*

# RUHANİ XƏTT

(Səkkizinci qutsal əsər)

## 1. MÜTLƏQ TƏLƏB

***İctimai İnqilab*** – cəmiyyəti baş-ayaq qoyur və çox cüzi nəticə əldə edir.

Azadlıq, Bərabərlik, Qardaşlıq... şüarlarının heç biri həyata keçmədi.

İnqilab həm də cəmiyyəti məhv olmaq təhlükəsi qarşısında qoyur.

Fransanı əslində Monarxizmi bərpa edən Napoleon xilas etdi.

Rusiyanı əslində totalitarizmi (Mütləq Dövlət Hakimiyyətini) təsdiq edən Stalin xilas etdi.

***Ruhani İntibah*** – insanların İnamını, İdrakını, Mənəviyyatını, İradəsini kamilləşdirir və çox böyük nəticələr əldə edir: bəşəri mənəvi iflasdan, vəhşilikdən, əxlaq süqutundan qurtarır.

Ruhani hərəkatlar olmasaydı (məs. Zərdüşt hərəkatı, Budda hərəkatı, İsa hərəkatı və s.) insanlar yırtıcılıq və murdarlıq cəngəlliyində itib-batardılar.

***İnqilab*** insanı köhnə cəmiyyətin zülmündən xilas etmək istəyir, ancaq əslində yeni əsarət yaradır. Ən yaxşı halda Möhtəşəm, Zorlu Dövlət peyda olur və həmin Dövlət insanı öz köləsinə çevirir.

İnsan üçün yaranmış yeni Dövlət İnsanı bütünlüklə zəbt edir: İnsan bir şəxsiyyət kimi heç səviyyəsinə endirilir, misilsiz bir antiinsanilik – ***insanilik bayrağı altında antiinsanilik*** – bərqərar olur.

Köhnə ictimai-siyasi quruluş devrilir, ancaq İnsanın qaranlıq iqbalına gün düşmür. Mülkiyyət ümumiləşir, (ictimailəşir, dövlətləşir), ancaq İnsanın qaranlıq iqbalına gün düşmür.

İstismarçı siniflər ləğv olunur, ancaq İnsanın qaranlıq iqbalına gün düşmür.

"Kiçik xalqları" azadlığa çıxarırlar, əslində isə onun azadlığını – müstəqil yaşamaq haqqını – əlindən alırlar.

Bərabərlikdən danışırlar – bərabərsizlik yaradırlar: imtiyazlar təzadı, maddi təminat fərqi ədalətə meydan oxuyur.

***Təzə əyanlar, zadəganlar silkləri törəyib.***

"Vahid ideologiya əsasında yaranan xalq" şüarı altında millətləri tədricən, ardıcıl şəkildə, məharətlə, "qardaşcasına", "böyük xalqın" damlasına çevirirlər.

Dinlə döyüş şüarı altında Mütləqə İnamı sarsıdırlar.

Qabaqcıl İdrak şüarı altında idraksızlıq yayırlar.

Qabaqcıl Əxlaq şüarı altında əxlaqsızlıq yayırlar.

Vahid İradə şüarı altında iradəsizlik yayırlar.

Bu fəlakətli vəziyyət Mütləq bir tələb – Ruhani İntibah (Dirçəliş) Tələbi irəli sürür.

Ruhani İntibahın Məqsədi aşağıdakından ibarətdir:

I. Mütləqə İnamı təsdiq etmək.
II. Ruhani Varlıq olan İnsanı Kamilləşdirmək, Yüksəltmək, öz Mütləq Mahiyyətinə çatdırmaq.
III. Müstəqil, Azad, Vahid Xalq yaratmaq.
IV. İnsana layiq olan Ruhani Cəmiyyət qurmaq.
V. Şərqin Ruhani Ləyaqətini bərpa etmək.
VI. Bəşəri İnamsızlıq, İdraksızlıq, Mənəviyyatsızlıq, İradəsizlik bəlasından qurtarmaq.

***Mütləq Tələb – Müqəddəs Tələbdir!*** Bu Tələbi həyata keçirmək üçün Müqəddəsləşmək gərəkdir.

***Bu baxımdan, Mütləq Tələb həm də Müqəddəsləşmək Tələbidir***!

## 2. TARİXƏ BAXIŞ

Bəşər Tarixi – iqtisadiyyat tarixi deyil, ictimai siniflər tarixi deyil.

***Bəşər tarixi İnsan tarixidir.***

İnsan özünü tarixdə iki biçimdə: İnsani Mahiyyət (yəni İnsanı heyvanat dünyasından fərqləndirən keyfiyyətlər) və Fərdlər biçimində ifadə edir.

Bəşər tarixində nə baş verirsə, onun əsasını İnsani Mahiyyət və Fərdlər fəaliyyəti təşkil edir.

***İqtisadiyyat*** – İnsani Mahiyyətdən və Fərdlərdən asılıdır.

***Siniflər*** – İnsani Mahiyyətdən və Fərdlərdən asılıdır.

İnsani Mahiyyət, Fərdlər – iqtisadiyyatdan əhəmiyyətlidir.

İnsani Mahiyyət, Fərdlər – Siniflərdən əhəmiyyətlidir.

İqtisadiyyatı cəmiyyətin aparıcı qüvvəsi saymaq – zahiri təsəvvürlərə uymaqdır, üzdə olanı görməkdir, Mahiyyətə, Daxilə, Batinə nüfuz edə bilməməkdir.

Sinfi fəaliyyəti cəmiyyətin aparıcı qüvvəsi saymaq – zahiri təsəvvürlərə uymaqdır, üzdə olanı görməkdir, Mahiyyətə, Daxilə, Batinə nüfuz edə bilməməkdir.

İqtisadiyyatın arxasında – İnsan dayanır.

Sinfin arxasında – Fərd dayanır.
***İqtisadiyyat*** – əlamətdir, Mahiyyət deyil.
***Sinif*** – əlamətdir, Mahiyyət deyil.
***Mahiyyət – İnsanilikdir və o, canlı fərdlərdə Təzahür edir.***

## 3. AZADLIQ

### I

Azad Yırtıcı – Müdhiş Əsarət yaradır.
Azad Hərcayi – Müdhiş Əsarət yaradır.
Azad Xudbin – Müdhiş Əsarət yaradır.
Azad Həris – Müdhiş Əsarət yaradır.
Azad Əyyaş – Müdhiş Əsarət yaradır.
Bəşəri yalnız ***İnsanlar*** Azad edə bilər.
Yalnız ***İnsanlaşan*** bəşər Azad ola bilər.

### II

"Azadlıq Haqsızlıq törədir!" – deyirlər.
"Azadlıq Qəddarlıq törədir!" – deyirlər.
"Azadlıq İstismar törədir!" – deyirlər.
"İnsanilikdən kənar Azadlıq yoxdur!" – deyirik.
"İnsanilik Haqsızlıq törətməz!" – deyirik.
"İnsanilik Qəddarlıq törətməz!" – deyirik.
"İnsanilik İstismar törətməz!" – deyirik.

### III

Heç kəsin əsarətini qəbul etmirəm, heç kəsin azadlığına qəsd etmirəm.

### IV

İnsan öz balaca "Mən"inə bərabər olanda kölə olur.

İnsan öz böyük "Mən"inə bərabər olanda Azad olur.

Balaca "Mən"də Yırtıcı yaşayır, Hərcayi yaşayır, Xudbin yaşayır, Həris yaşayır, Əyyaş yaşayır.

Böyük "Mən"də Yırtıcı ölür, Hərcayi ölür, Xudbin ölür, Həris ölür, Əyyaş ölür.

***Azad İnsan – Azad Dünya yaradır.***

**V**

Hamının Azad olması üçün – hamının İnsan olması gərəkdir.

**VI**

Hamı Azad olmaq istəyir, hamı İnsan olmaq istəmir.
Bu səbəbdən də Bəşər Köləlikdən qurtarmır.
İçindəki Yırtıcılıq aşkara çıxır – əsarət doğulur.
İçindəki Hərcayi aşkara çıxır – əsarət doğulur.
İçindəki Xudbin aşkara çıxır – əsarət doğulur.
İçindəki Əyyaş aşkara çıxır – əsarət doğulur.

**VII**

***Hamı Azad ola bilər – hamı İnsan ola bilsə.***

## 4. XƏLQİ GERÇƏKLİK

Xəlqi gerçəklik – İqtisadi gerçəklik deyil, ictimai gerçəklik deyil.

***Xəlqi gerçəklik – Xüsusi Ruhani gerçəklikdir.***

O, cəmiyyətin qarşısında Müqəddəs Məqsəd qoyur, insanları həmin Məqsədi həyata keçirməyə səfərbər edir, həmin Məqsəd vasitəsilə Həyatı Ali Həyata yüksəldir.

## 5. RUHANİ BƏRABƏRSİZLİK

***Sinfi mənsubiyyət baxımından*** insanlar bir-birinə bərabərdir.
Ali sinif, adi sinif, yüksək sinif, aşağı sinif yoxdur.
***Təbəqə baxımından*** insanlar bir-birinə bərabərdir.
Ali təbəqə, adi təbəqə, yüksək təbəqə, aşağı təbəqə yoxdur.
***İxtisas baxımından*** insanlar bir-birinə bərabərdir.
Ali ixtisas, adi ixtisas, yüksək ixtisas, alçaq ixtisas yoxdur.
***Maddi təminat baxımından*** insanlar bir-birinə bərabərdir.
Varlılar-Yoxsullar ədalətsizliyi aradan qaldırılmalıdır.
***Rütbə, vəzifə imtiyazları*** – süni imtiyazlardır.
İmtiyaz bərabərliyi olmayan yerdə ədalətdən danışmaq olmaz.

Ancaq Ruhanilik baxımından, yəni İnam, İdrak, Mənəviyyat, İradə baxımından insanlar bir-birinə bərabər deyil və bu bərabərsizliyin inkarı ləyaqətsizliyin təsdiqindən başqa bəşərə heç nə vermir.

Yetkin Naqisə bərabər olmaz.
Saf Murdara bərabər olmaz.
Müdrik Naşıya bərabər olmaz.
Fədakar Xudbinə bərabər olmaz.
Cəsur Qorxağa bərabər olmaz.
Təbii Süniyə bərabər olmaz.
Doğru Əyriyə bərabər olmaz.

Bu baxımdan ***Mənəvi Yüksəklər, Alilər, Böyüklər Ləyaqəti Var və həmişə olacaqdır.***

***Ancaq həmin Ləyaqət Maddi, İctimai, Siyasi İmtiyaz tanımır.***

***Ruhani Ləyaqətin ölçüsü – Təmənnasızlıqdır.***

## 6. İNSANİ MÜNASİBƏT

İnsan dünyaya insanla rəqabət aparmaq üçün gəlməyib.

İnsan dünyaya insanın üzərindən adlayıb keçmək üçün gəlməyib.

İnsan dünyaya İnsanı uçuruma sürükləmək üçün gəlməyib.

***İnsan dünyaya özündəki Mütləqə çatmaq üçün gəlib.***

***Həyat uğrunda mübarizə – antiinsanilikdir.***

***Kamil*** – rəqabət tanımır, insanilik tanıyır.

***Kamil –*** rəqabət oyatmır, məhəbbət oyadır.

***İnsanilik – rəqabəti öldürür.***

***Kamil*** – hamını kamil görmək istəyir, bu səbəbdən də rəqabət yaranmır.

***Kamilin*** yeganə təmənnası – kamillikdir, bu səbəbdən də rəqabət yaranmır.

***Kamillik*** – yırtıcılığın, xudbinliyin, həsədin ölümüdür, bu səbəbdən də rəqabət yaranmır.

İnsani münasibətdə rəqabətə yer olmur.

## 7. QEYRİ-İNSANİLİK

"Xudbinlik təbiidir" – deyirlər.
"Yırtıcılıq təbiidir" – deyirlər.
"Qorxaqlıq təbiidir" – deyirlər.
"Hərislik təbiidir" – deyirlər.
"Təbii saydığınız heyvanidir" – deyirik –
"qeyri-insanidir" – deyirik.

## 8. İNSANİ BİRLİK – HEYVANİ BİRLİK

**I**

İnsani Birlik yaratmaq üçün İnsan özünü Fərdi şəxsiyyət kimi tam ifadə etməlidir: yəni İqtisadi, İctimai, İdraki, Mənəvi Müstəqillik əldə etməlidir.

Heyvani Birlik yaratmaq üçün İnsan Fərdi şəxsiyyət kimi heç olmalıdır, yəni İqtisadi, İctimai, İdraki, Mənəvi Müstəqilliyindən əl çəkməlidir.

**II**

***Ümumilik hakimiyyəti*** – heyvanlaşma Təhlükəsi yaradır.

***Ümumi – Müstəqillik tanımır, bənzərsizlik tanımır. Ümumi – eyniləşmə tanıyır.***

***Eyniləşən bəşər – sürüləşir.***

**III**

İnsana inanmadılar – Sinfə inandılar.
Şəxsiyyətə inanmadılar – Ümumiyə inandılar.
***İnsansızlıq yaratdılar.***
***İnamsızlıq yaratdılar.***

## 9. XÜSUSİ MÜLKİYYƏT – ÜMUMİ MÜLKİYYƏT

"Xüsusi Mülkiyyət ədalətsizlik yaradır" – deyirlər.

"Əmək bahasına qazanılan Xüsusi Mülkiyyət – ***ədalətin*** təsdiqidir!" – deyirik.

"İstismar bahasına qazanılan Xüsusi Mülkiyyət – ***zülmün*** təsdiqidir!" – deyirik.

"Dövlətləşən, ümumiləşən, ictimailəşən Xüsusi Mülkiyyət – ***əsarətin*** təsdiqidir!" – deyirik.

Birincidə əməkçi öz zəhmətinə sahib olur.

İkincidə İstismarçı Şəxs Əməkçinin zəhmətinə sahib olur.

Üçüncüdə Zorakı Dövlət əməkçinin zəhmətinə sahib olur.

***Xüsusi Mülkiyyəti əməkçinin əlindən alırlar.***

***Xüsusi Mülkiyyəti ədalətsizləşdirirlər.***

## 10. MƏHRUMİYYƏT

“İstismarı aradan qaldırdıq” – deyirlər.
“İstismar olunan mülkiyyətə sahib olmadı” – deyirik.
“Burjuaziyanı ləğv etdik!” – deyirlər.
“Fəhlə Mülkiyyətə (Fabrikə, Zavoda) Sahib olmadı” – deyirik.
“Mülkədarlığı ləğv etdik!” – deyirlər.
“Kəndli Mülkiyyətə (Torpağa) sahib olmadı” – deyirik.
***“Fəhlə öz əzəli Məhrumiyyətindən xilas olmadı” – deyirik.***
***“Kəndli – fəhlələşdi!” – deyirik.***

## 11. İSTİQBAL

***Heç kəsin heç nəyi olmayacaq və hamının hər şeyi olacaq.***

***Yəni heç kəs özünə sahib olmayacaq və hamı bir-birinə bərabər olacaq.***

## 12. HAQSIZLIQ

### I

“Azadlığa çıxanın” İnam azadlığı əlindən alınıb.
İdrak azadlığı əlindən alınıb.
Mənəviyyat azadlığı əlindən alınıb.
İradə azadlığı əlindən alınıb.
Azadlığa çıxan azadlıqdan çıxıb.

### II

İnamına Zor Sahib olub, ona görə İnamsızdır.
İdrakına Zor Sahib olub, ona görə İdraksızdır.
Mənəviyyatına Zor Sahib olub, ona görə Mənəviyyatsızdır.
İradəsinə Zor Sahib olub, ona görə İradəsizdir.

### III

Zorla “inamlanıb”, ona görə əsarətdədir.
Zorla “idraklanıb”, ona görə əsarətdədir.
Zorla “mənəviləşib”, ona görə əsarətdədir.
Zorla “iradələşib”, ona görə əsarətdədir.
Haqsızlıqdan başqa heç bir haqqı yoxdur!

**IV**

"İnsan azadlığı toxunulmazdır!" – deyirdilər bir vaxt.

Toxunmalı bir şey qalmayıb.

"İnsan yalnız könüllü şəkildə azadlığından keçə bilər" – deyirdilər bir vaxt.

Keçməli bir şey qalmayıb.

"İnsan vasitə deyil – Məqsəddir!" – deyirdilər bir vaxt.

İnsan ictimai vasitəyə çevrilib.
İqtisadi vasitəyə çevrilib.
Siyasi vasitəyə çevrilib.

## 13. KONKRET İFLAS

***Mücərrəd Ədaləti,*** bütün dövrlərə aid olan, əbədi, dəyişməz Ədaləti lənətləyirlər.

Və konkret, dinamik, sinfi ədalətdən dəm vururlar.

Görəsən, ədalət necə olarmış: hər an dəyişən, qeyri-sabit, dövrlə başlanıb, dövrlə bitən; hər gözə bir cür görünən, hər dodaqda bir cür danışılan, hər qulaqda bir cür səslənən, qeyri-müəyyən, əslində qeyri-mövcud bir yoxluqmu?

***Mücərrəd Həqiqəti,*** bütün dövrlərə aid olan, əbədi, dəyişməz Həqiqəti lənətləyirlər və konkret, dinamik, sinfi həqiqətdən dəm vururlar.

Görəsən, həqiqət necə olarmış: hər an dəyişən, qeyri-sabit, dövrlə başlanıb, dövrlə bitən; hər gözə bir cür görünən, hər dodaqda bir cür danışılan, hər qulaqda bir cür səslənən, qeyri-müəyyən, əslində qeyri-mövcud bir yoxluqmu?

***Mücərrəd Xeyiri,*** bütün dövrlərə aid olan, əbədi, dəyişməz Xeyiri lənətləyirlər və konkret, dinamik, sinfi xeyirdən dəm vururlar.

Görəsən, xeyir necə olarmış: hər an dəyişən, qeyri-sabit, dövrlə başlanıb, dövrlə bitən; hər gözə bir cür görünən, hər dodaqda bir cür danışılan, hər qulaqda bir cür səslənən, qeyri-müəyyən, əslində qeyri-mövcud bir yoxluqmu?

***Mücərrəd Əxlaqı,*** bütün dövrlərə aid olan, əbədi, dəyişməz Əxlaqı lənətləyirlər və konkret, dinamik, sinfi əxlaqdan dəm vururlar.

Görəsən, əxlaq necə olarmış: hər an dəyişən, qeyri-sabit, dövrlə başlanıb, dövrlə bitən; hər gözə bir cür görünən, hər dodaqda bir cür danışılan, hər qulaqda bir cür səslənən, qeyri-müəyyən, əslində qeyri-mövcud bir yoxluqmu?

***Ədalətsizdirlər*** – ona görə Mücərrəd Ədaləti inkar edirlər.
***Həqiqətsizdirlər*** – ona görə Mücərrəd Həqiqəti inkar edirlər.
***Xeyirsizdirlər*** – ona görə Mücərrəd Xeyiri inkar edirlər.
***Əxlaqsızdırlar*** – ona görə Mücərrəd Əxlaqı inkar edirlər.
***Özlərində olmayanı görmürlər.***

## 14. EHKAM SƏDDİ

***Xalq*** İnam uğrunda döyüşür – Sinfi Mənafe axtarırlar.
***Xalq*** Ədalət uğrunda döyüşür – Sinfi Mənafe axtarırlar.
***Xalq*** daxili əsarət əleyhinə döyüşür – Sinfi Mənafe axtarırlar.
***Xalq*** xarici əsarət əleyhinə döyüşür – Sinfi Mənafe axtarırlar.
Dünyada nə baş verirsə – onu Sinfi Mənafeylə bağlayırlar.
***İdrak Sinfi Mənafe səddində ilişib qalır – Həqiqətə çatmır.***

## 15. RUHANİ RƏŞADƏT

### I

Zamandan adlamaq.
Əzabdan adlamaq.
Təhlükədən adlamaq.
Ölümdən adlamaq.
Dözümdə odlanmaq.

### II

Ruhani Tənhalığa düçar olar – Taleyi dəyişməz.
Məhrumiyyətə düçar olar – Taleyi dəyişməz.
İşgəncələrə düçar olar – Taleyi dəyişməz.
Dustaqxanaya düşər – Taleyi dəyişməz.
Təqib olunar – Taleyi dəyişməz.
Təhqir olunar – Taleyi dəyişməz.
Çünki Ruhaninin Taleyi – Amaldır.
***Amal – dəyişməz!***

**III**

Şər – Tənhalıqla qorxudur,
Məhrumiyyətlə qorxudur,
İşgəncəylə qorxudur,
Dustaqxanayla qorxudur,
Təqiblə qorxudur,
Təhqirlə qorxudur.
***Qorxaq – Şərə xidmət eləyir.***

**IV**

Şərin hökmünə tabe olmuruq.
Şərə Ruhani təzyiq göstəririk.
Şəri ifşa edirik, damğalayırıq, rədd edirik.
Xalq Şəri tanıyır.
Xalq Şərlə Ruhani Döyüşə hazırlanır.
Xalq Şərlə Ruhani Döyüşə çağırılır.

***Şərləşən*** – özündəki İnsanı öldürür.
Canavarlaşır, İlanlaşır.

***Ruhani*** – özündəki İnsanı bəsləyir.
Canavarı, İlanı öldürür.

Biz xalqı Ruhani Yaşamağa çağırırıq.
Biz xalqı Ruhani ölümdən xilas edirik.

Biz Canavara, İlana Quzu Məsumluğu göstərmirik.
Biz Canavara, İlana Ruhani Rəşadət Qətiyyəti göstəririk.

## 16. İDEALSIZLIQ

**I**

***Ruhani maraq*** – özündəki Mütləqə çatmaqdır.
***Maddi maraq*** – Varidata çatmaqdır.
***Maddi ehtiyac*** – Bədəni yaşatmaqdır.

**II**

Maddi nemətlər zənginliyi – zəruri və gərəkli məziyyətdir.

Ancaq cəmiyyətin İdealını Maddi bolluqda görmək – cəmiyyəti idealsız qoymaqdır.

Çünki İdeal – Maddi Hadisə deyil, Ruhani Hadisədir.

**III**

***Maddi İdeal yoxdur.***

Maddi nemətlər vasitəsiylə Toxlar cəmiyyəti yaratmaq olar, İnsanlar cəmiyyəti yox.

**IV**

Güzəransızlığı aradan qaldırmaq – İnsansızlığı aradan qaldırmaqdan çox asandır.

**V**

İnsani cəmiyyət yaratmaq üçün insanlaşmaq Məqsədinə çatmaq lazımdır.

**VI**

İnsanlaşan özündəki vəhşini, naşını, xudbini, çirkini öldürür, balaca "mən"i üzərində yüksəlir, ruhani zənginlik qazanır.

**VII**

Maddi sərvət uğrunda yarışda İnsanilik qələbə çalmır, məğlub olur.

**VIII**

İnsanlar gözlərini maddiyyata dikiblər, ona görə də ruhaniliyi görmürlər.

**IX**

Maddi nemətlər vasitəsiylə İdeala yüksəlmək olmaz, bədəni mühafizə etmək olar.

**X**

İnsani problemlərin həlli iqtisadi problemlərin həllindən çox çətindir.

### XI

Maddi bərabərliyin İnsani cəmiyyət yaradacağı ehtimalı – xülyadır.

Maddi bərabərlik çox adi bir ədaləti bərpa edir: hamı təbiətdən eyni dərəcədə bəhrələnə bilər.

Ancaq Maddi bərabərlik İnsanilik yaratmır:

Ali İnam, Ali İdrak, Ali Mənəviyyat, Ali İradə Maddi Bərabərlik vasitəsiylə hasil olmur.

Vəhşilik, xudbinlik, hərislik maddi bərabərliklə aradan qalxmır.

Eybəcərlik yaşayır və zəngin antiinsanilik çeşidləri törədir.

## 17. ƏLAC

İnsan özünə qalib gələcəksə – Dünya düzələcək.
İnsan özünə məğlub olacaqsa – Dünya pozulacaq.

## 18. ŞƏRƏ QARŞI XEYİR

Mütləq İnam – İnamsızlığın sonu deməkdir.
Mütləq İdrak – İdraksızlığın sonu deməkdir.
Mütləq Mənəviyyat – Mənəviyyatsızlığın sonu deməkdir.
Mütləq İradə – İradəsizliyin sonu deməkdir.

***Şəri Xeyir öldürər – Şər öldürməz.***

*Qürub Ayı, 7-ci il. Bakı.*
*(1985-ci il, avqust).*

# MÜNASİBƏTLƏR

(Yeddinci  qutsal əsər)

## I. RUHANİ – FƏRDİ – MADDİ

**I**

Maddi bərabərsizlik – Ruhaniyyatı Maddiyyatla bərabərləşdirir.

Maddi bərabərlik – Ruhaniyyatı Maddiyyatdan ayırır.

Bu baxımdan, Maddi bərabərlik Ruhani bərabərsizliyə xidmət edir.

**II**

Maddi bərabərsizlik – Fərdiyyəti Maddiyyatla bərabərləşdirir.

Maddi bərabərlik – Fərdiyyəti Maddiyyatdan ayırır.

Bu baxımdan, Maddi bərabərlik Fərdi bərabərsizliyə xidmət edir.

**III**

Maddi bərabərlikdə Ruhaniyyat Maddiyyatla ölçülmür. Fərdiyyət Maddiyyatla ölçülmür.

Ruhaniyyat özünü tam ifadə edir.

Fərdiyyət özünü tam ifadə edir.

## 2. FƏRDİYYƏT – CƏMİYYƏT

"Fərdiyyət hər şeydir – cəmiyyət heç şey!" – fikri cəfəngiyyatdır. Çünki Tək hər şey olanda – cəm heç şey olmaz.

"Fərdiyyət heç şeydir – cəmiyyət hər şey!" – fikri cəfəngiyyatdır. Çünki Tək heç şey olanda cəm də heç şey olur.

Fərdiyyətçiliyi Xudbinliklə eyniləşdirirlər. Əslində xudbinlik fərdiyyətçiliyə ziddir, ***çünki fərdi ləyaqətə ziddir.***

## 3. İNSAN – KOLLEKTİV – ŞƏRAİT

**I**

İnsan anadan kollektiv şəkildə doğulmur, Tək-tək, Fərdi şəkildə doğulur.

Kollektivi Fərdlər yaradır.

Pis İnsanlar pis kollektiv yaradırlar.
***Günah İnsandadır.***

**II**

İnsandan kənarda şərait yoxdur.
Pis şəraiti pis İnsanlar yaradıblar.
***Günah İnsandadır.***

**III**

Russo deyirdi ki, "İnsan yaxşıdır, onu pozan pis ictimai şəraitdir".

Bəs pis ictimai şəraiti kim yaradıb?

***Günah İnsandadır.***

**IV**

Russo deyirdi ki, "Yaxşı İnsanı pis eləyən xüsusi Mülkiyyətdir".

Bəs "yaxşı İnsan" niyə xüsusi Mülkiyyət kimi pis bir hadisə törətdi, "təbiətə quldurcasına basqın etdi"?!

***Günah İnsandadır.***

**V**

***İnsan özünü dəyişməsə, yaxşı İnsan olmasa, ictimai şərait də dəyişməyəcək, pis şərait olaraq qalacaq.***

***Nicat İnsandadır.***

## 4. AZADLIQ – BƏRABƏRLİK

***Hamı Azad yaşamaqda bir-birinə bərabərdir.***

## 5. İNSANLAŞMAQ – FƏRDİLİK

Cəmiyyəti İnsanlaşdırmaq üçün hər Fərd özünü İnsanlaşdırmalıdır.

Cəmiyyətdən İnsanlaşma gözləyən – yanılır!

Çünki cəmiyyət – ***Fərdlərdə olandan*** artıq heç nə yaratmır.

## 6. İNSANİLİK – İCTİMAİLİK

"İnsan – ictimai varlıqdır" – sözündə həqiqət yoxdur.
İnsan – cəmdən törəmir.
İnsan – cəmi törədir.

## 7. FƏRDİ – İCTİMAİ

“Fərdi Mənafe ictimai Mənafeyə qurban verilir” – fikrində Hikmət yoxdur.

“İctimai Mənafe fərdi Mənafeyə çevrilir” – fikrində Hikmət var.

## 8. FƏRD – XALQ – DÖVLƏT

Fərd Xalqda İdeal Məqsədə yüksəlir, Ruhani Dövlət Xalqı ifadə edir.

## 9. ATA – ANA – ÖVLAD

Ailə – Azad Şəxsiyyət becərən Bağçadır.
Bağbanı – Ata, Torpağı – Ana.

## 10. ÇOXLUQ – AZLIQ

Yüz adamı bir İnsan idarə edə bilər.
Bir İnsanı Yüz Adam idarə edə bilməz.

## 11. KOLLEKTİV – ŞƏXSİYYƏT – DÖVLƏT

### I

***Müasir*** kollektivi Şəxsiyyətin xilaskarı sayırlar. Əslində isə o, şəxsiyyət üzərində hakimlik alətidir. Yəni ***hakim*** – kollektiv vasitəsilə Şəxsiyyət üzərində ***Ağalıq*** edir.

### II

Ümumi Mənafeyə xidmət edən əslində Rəhbərliyə xidmət edir. Çünki ***Rəhbərlik*** Ümumiliyin Timsalçısı hesab olunur.

### III

Kollektiv – Şəxsiyyəti Müstəqillik Yükündən xilas edir, onu ***Şəxsiyyətsizləşdirir.***

Bu səbəbdən də kollektiv ən çox mütiləşdirilmiş adamlardan ibarət olur.

**IV**

Kollektiv – ***Tabeçilər birliyi*** yaradır. Həmin birlik ən çox ***müstəbidlik*** üçün yarayır.

***Çünki müstəbidlik əslində kollektiv tabeçilik deməkdir.***

**V**

Kollektiv əmək – zəhmətkeşi əmlaksız qoyur, onu ***nökər*** səviyyəsinə endirir.

Kollektiv Mülkiyyət əslində əməkçidən ayrılan, əməkçiyə yad olan, özgələşən Mülkiyyətdir.

Kollektiv Mülkiyyətə dövlət malik olur.

Dövlət Mülkiyyəti – ***Anonim Mülkiyyətdir,*** ancaq Ağa Mülkiyyətidir, Hakim Mülkiyyətidir. Çünki burada zəhmətkeş – Dövlət adlanan Ağanın ***nökəridir.***

**VI**

"Dövlət Mülkiyyəti Ümumxalq Mülkiyyətidir" – deyirlər. Əslində isə o, xalqın Mülkiyyətdən məhrum olmasıdır. Çünki Şəxsiyyətdən kənarda Xalq yoxdur. Şəxsiyyət Mülkiyyətsizdirsə, deməli xalq da Mülkiyyətsizdir.

**VII**

Hamıya məxsus olan – heç kəsə məxsus deyildir. Ümumxalq Mülkiyyəti yoxdur, Dövlət Mülkiyyəti var və o, hamını Mülkiyyətsiz qoyur.

**VIII**

Kollektiv hökm yoxdur, ***Rəhbər*** hökmü var.

Kollektiv – Rəhbər hökmünə tabe olur. Köhnə rəhbər hakimliyini davam etdirir.

Kollektiv – rəhbər hökmünə tabe olmur, təzə Rəhbər peyda olur.

***Hər ikisində hakim – Rəhbərdir.***

**IX**

***Rəhbər*** – Şəxsiyyətlə döyüşdə əksər hallarda kollektivə arxalanır.

Kollektiv – Rəhbərə Sədaqət tabeçiliyi göstərir, rəhbərin gözünə girir, ona alçalır. Fərd kollektivdə özünün ən naqis cəhətlərini aşkara çıxarır.

**X**

Dövlətin gələcəkdə kollektiv assosiasiyayla əvəz olunacağından danışırlar, yəni ***Zorakı tabeçilik Könüllü tabeçiliklə əvəz olunacaq,*** İnzibatçılığa son qoyulacaq. Əslində isə ***heç nə dəyişilməyəcək.***

Yenə cəmiyyətə Hakim Sahib olacaq, ***Total (hərtərəfli) kollektivçilik Total Ağalıq yaradacaq. Təzə Zorakılıq çeşidi – Könüllü Zorakılıq – peyda olacaq.***

## 12. NÖKƏR – AĞA

***Nökər:*** özgə əmlakına yaradığı üçün öz əməyindən pay alan.

***Ağa:*** öz əmlakına yaramadığı üçün özgə əməyinə Sahib çıxan.

## 13. CƏMİYYƏT – İNSAN

İnsan anadan nöqsanlı doğulur. Cəmiyyət naqisliyi azaltmır – artırır və özünü İnsanın tərbiyəçisi kimi qələmə verir.

İnsan özüylə Məşğul olanda "Fərdiyyətçisən!" – deyib çığırır.

## 14. İCTİMAİLƏŞMƏK – RƏZİLLƏŞMƏK

Təşkilatlar İnsanı pozur: kölələşdirir, süniləşdirir, alçaldır.

İdarələr İnsanı pozur: kölələşdirir, süniləşdirir, alçaldır.

***İctimailəşən – rəzilləşir.***

## 15. FƏRDİ YOL

"Fərdi tək qoysan – yolunu azar" – deyirlər.

"Fərdi tək qoymasan – yolu olmaz" – deyirik.

## 16. FƏRD – ƏXLAQ

"Fərdi özbaşına buraxsan, fəlakət törədər" – deyirlər.

"Fərd – ailədən asılı olmalıdır".

"Fərd – cəmiyyətdən asılı olmalıdır".

"Fərd – dövlətdən asılı olmalıdır".

"Fərd – Əxlaqdan asılı olmalıdır" – deyirik.
Onda İnamın üzünə ağ olmaz,
İdrakın üzünə ağ olmaz,
Mənəviyyatın üzünə ağ olmaz,
İradənin üzünə ağ olmaz.

## 17. FƏRD – CƏMİYYƏT – XALQ

***Fərd cəmiyyətə tabe olur – Xalqda özünü tapır.***
Cəmiyyət ***Fərdi Məhrumiyyətdən*** yaranır.
Xalq ***Fərdi Tələbatdan*** yaranır.
Cəmiyyətdə ***yadlaşan*** – Xalqda ***doğmalaşır.***
***Cəmiyyətdən ayrılan – özgədən ayrılır.***
***Xalqdan ayrılan – özündən ayrılır.***

## 18. SİNFİLİK – İNSANİLİK

Sinfilikdə İnsan Maddi Münasibətə bərabər olur.
Sinfilikdə İnsanın Ruhani Mahiyyəti itir.
Bu baxımdan, Sinfilik İnsaniliyə Ziddir.

## 19. XALQ – KÜTLƏ

Kütlə – Xəlqi Mahiyyəti ifadə edəndə xəlqiləşir.
Kütlə – Xəlqi Mahiyyətdən uzaqlaşanda sürüləşir.
***Birincidə Fərdiyyət Xəlqi Məna kəsb edir, ikincidə yox olur.***
***Bu baxımdan, Kütlə – Xalq da ola bilir, sürü də.***
***Xəlqi kütlə də olur, qeyri-xəlqi kütlə də.***

## 20. RUHANİ – MADDİ

### I

Maddi Tələb – əslində ən ibtidai tələbdir.

Onu ideallaşdırmaq – İnsan həyatını hədsiz dərəcədə bəsitləşdirmək deməkdir.

***Bəsit Həyat – Ruhani Qəriblik törədir.***

**II**

Bəşər Maddi firavanlıqdan məhrumdur. Bu səbəbdən də o, Ruhani xəsarətin səbəbini maddi məhrumiyyətdə görür. Unudur ki, ***Əxlaqi Ləyaqətdən*** məhrum olan maddi firavanlıq daha dəhşətli Ruhani xəsarət yarada bilər.

**III**

Maddiyyata həsr olunan ömürdə Ruhaniyyata yer qalmır.

Çünki Maddiyyat uğrunda döyüşən özüylə döyüşmür. Çünki Maddiyyat uğrunda döyüşdə Ruhani Ləyaqət məğlub olur.

## 21. KÜTLƏVİLİK – XƏLQİLİK

Xəlqilikdə əhali öz Adi səviyyəsindən yüksəyə qalxır.

Kütləvilikdə əhali öz Adi səviyyəsində qalır.

Xəlqilikdə İnam, İdrak, Mənəviyyat, İradə – Ali səviyyədən enmir.

Kütləvilikdə İnam, İdrak, Mənəviyyat, İradə – Adi səviyyəyə enir.

Xəlqilik kütləvilik səviyyəsinə enəndə bəsitləşir.

Kütləvilik xəlqilik səviyyəsinə qalxanda zənginləşir.

***Ruhani vəzifə – kütləni xalqlaşdırmaqdır.***

## 22. QAÇQINLAR

Maddiyyat dalınca qaça-qaçda Ruhaniyyatı itirdilər.

## 23. DİALEKTİK TƏLİM

Dünyada heç nəyi Sabit saymırlar və İnsanın Dünyayla bağlılığını qırırlar.

## 24. MÜCƏRRƏD – KONKRET

Mücərrəd İnsanla ona görə döyüşürlər ki, konkret cəmiyyət – antiinsanidir.

Mücərrəd Ədalətlə ona görə döyüşürlər ki, konkret cəmiyyət – ədalətsizdir.

Mücərrəd Həqiqətlə ona görə döyüşürlər ki, konkret Ehkam – qeyri-həqiqidir.
Konkret İnsan – İnsana bənzəmir.
Konkret Həqiqət – Həqiqətə bənzəmir.
Konkret Ədalət – Ədalətə bənzəmir.

## 25. QABİLİYYƏT – LƏYAQƏT

### I

Mən Ağıllıyam – ona görə Maddiyyatın çoxunu qarmalamalıyam.
Mən İstedadlıyam – ona görə Maddiyyatın çoxunu qarmalamalıyam.
Mən Savadlıyam – ona görə Maddiyyatın çoxunu qarmalamalıyam.
Mən Qoçağam – ona görə Maddiyyatın çoxunu qarmalamalıyam.

### II

Ən böyük zənginliyin – Ağlın.
Quldurluğu Ağlına necə layiq bilirsən?
Ən böyük zənginliyin – İstedadın.
Quldurluğu İstedadına necə layiq bilirsən?
Ən böyük zənginliyin – Savadın.
Quldurluğu Savadına necə layiq bilirsən?
Ən böyük zənginliyin – Qoçaqlığın.
Quldurluğu Qoçaqlığına necə layiq bilirsən?

### III

Cəmiyyətə ən çox xeyir verirəm – bu səbəbdən də cəmiyyətdən ən çox qazanc alıram.
***Qazancın – xeyirxahlığın.***
Ruhaniyyatı niyə Maddiyyatla əvəz edirsən?

## 26. VARLI – YOXSUL

**I**

Ruhani üstünlüyünə əminsənsə, Maddi üstünlüyü neynirsən?
Əmin deyilsən. Buna görə də Varidatdan yapışırsan.

**II**

Varidat səni Maddi kasıbdan fərqləndirir,
Mənəvi kasıbdan fərqləndirmir.
Mənəvi zəngindən aşağısan, kasıbsan!

**III**

Mənən yoxsulsan, bu səbəbdən də Maddiyyat dalınca qaçırsan.

**IV**

Mənəviyyatdan qaçırsan!

## 27. İDARƏ HƏYATI

İdarələrdə İnsan yaşamır;
Rəis yaşayır,
Xidmətçi yaşayır,
İcraçı yaşayır,
İfaçı yaşayır.

## 28. CƏMİYYƏTƏBƏNZƏRLİK

"Cəmiyyət dəyişməsə, İnsan dəyişməz!" – deyirlər.
Cəmiyyət Ədalətsizdir, hamı ədalətsizmi olmalıdır?
Cəmiyyət Həqiqətsizdir, hamı həqiqətsizmi olmalıdır?
Cəmiyyət Əxlaqsızdır, hamı əxlaqsızmı olmalıdır?
***Cəmiyyətə bənzəyən – İnsana bənzəmir.***

## 29. BƏRABƏRLİK – BƏRABƏRSİZLİK

**I**

İnsaniliyi Maddiyyat təyin etmir, Ruhaniyyat təyin edir.

Bu səbəbdən də Maddi Bərabərlik – ədalətsizlik yaratmır; naqisi kamilə bərabərləşdirmir.

**II**

Ruhaniyyatın maddiyyatla ölçülməsi – İnsani Ləyaqətə xələl gətirir.

Maddi bərabərlik həmin ləyaqətsizliyə son qoyur.

**III**

***Heç kəs heç kəsə tam bərabər deyildir.***

Ancaq hamı dünyadan eyni dərəcədə Maddi bəhrələnməlidir.

***Çünki Maddi bəhrə – Ruhani üstünlüyün dəyəri ola bilməz.***

## 30. ÜMUMİ MÜLKİYYƏT BƏRABƏRLİYİ

Ümumi Mülkiyyət hamını bir-birinə bərabər eləyə bilər.

***Ancaq bu, Məhrumlar bərabərliyi olar.***

## 31. ŞƏXSİYYƏT – DÖVLƏT

Şəxsiyyət Maddi ehtiyaclarını özü ödəməlidir.

***O, dövlətin əlinə baxmamalıdır.***

Dövlətin əlinə baxanda Şəxsiyyət kölələşir.

## 32. XİDMƏT – MADDİ MƏNFƏƏT

**I**

Şəxsiyyət Xalqa Maddi mənfəət xatirinə xidmət edəndə, xidmət ***xudbinləşir.***

**II**

Cəmiyyət xidməti Maddi qazancla dəyərləndirir.

***Maddi qazanc xatirinə xidmət İnsana yaraşmır.***

**III**

"İşlə – əvəzində Maddi ehtiyaclarını ödəyəcəksən" "haqqında" dəhşətli ruhsuzluq gizlənib: ***"Güzəran üçün işlə! Güzəran üçün yaşa!"***

**IV**

"Sən mənim üçün işləyirsən, mən səni yedizdirirəm, geyindirirəm, yaşadıram!"

***Quldarın köləsinə bəxş etdiyi həyat.***

## 33. RUHANİ İMKAN

Maddi Bərabərlik Maddi üstünlük uğrunda döyüşə son qoyur.

İnsanın özünü bütünlüklə Ruhaniyyat uğrunda Döyüşə sərf etmək İmkanı yaranır.

## 34. ƏDALƏT – MƏNFƏƏT

Ədalət Mənfəəti Ləyaqətə qurban verir,
Mənfəət Ədalətdən keçir.

## 35. HƏQİQƏT –MƏNFƏƏT

Həqiqət Mənfəəti nəzərə almır, Mənfəət Həqiqətdən keçir.

## 36. İNSANİYYƏT – MƏNFƏƏT

Mənfəətdə İnam iştirak etmir, Mənəviyyat iştirak etmir, İdrak adi ağıl səviyyəsində qalır. İradə – adi fəallıq səviyyəsində qalır.

***Mənfəətdə İnsan kiçilir.***

## 37. QİYMƏT – QİYMƏTSİZLİK

Ruhaniliyin Qiyməti yoxdur, çünki, Maddiyyatdan artıqdır, nisbidən artıqdır.

***Ruhani – Qiymətsizdir!***

## 38. ƏDALƏT-ŞƏRAİT

Ədalət şərait tanımır. O, bütün şəraitlərdə özü olaraq qalır.

"Bir şəraitdə ədalət sayılan başqa şəraitdə ədalətsiz sayılır" – Fikri Dialektik İblislikdir.

## 39. DİALEKTİKA – METAFİZİKA

Təzahür dəyişir, ***mahiyyət*** dəyişmir.
Təzahür dialektikdir, mahiyyət – Metafizikdir.

## 40. ÇEVRİLMƏ

Xüsusinin Ləğvi vasitəsilə Ümumi Bəxtiyarlıq yaratmaq istədilər. Əslində ***Ümumilik Müstəbidliyi*** yaratdılar və o, son nəticədə Fərdi müstəbidliyə çevrildi.

## 41. HAMI VƏ TƏK

***Hamı*** – Ümumi Birlik deməkdir.
***Hamı*** – həm də Müxtəlif Şəxsiyyətlər deməkdir.

Müxtəlif Şəxsiyyətlər ayrı-ayrılıqda İnsanlaşmasa – Ümumi İnsani birlik yaranmayacaq.

## 42. DİNAMİK HƏYAT TƏRZİ

Elə bağlanırlar ki, açılmaq asan olsun.
Elə bağlanmırlar ki, açılmaq mümkün olmasın.
Ona görə də Vətənsizdirlər,
Ona görə də Ailəsizdirlər,
Ona görə də Amalsızdırlar,
Ona görə də Əməlsizdirlər.

## 43. ZƏRURİYYƏT – ZİDDİYYƏT

Tək bir Zəruriyyət Var:
İnsanın öz Mahiyyətinə çatması.
Tək bir Ziddiyyət Var:
Gerçəkliyin Mahiyyətə bərabər olmaması.

## 44. BİRLİK – SÜRÜLÜK

Azad şəxsiyyətlər – Birlik yaradır.
Kölə şəxslər – sürü yaradır.

## 45. AZADLIQ – ƏSARƏT

Mülkədardan azad olmaq – Azadlıq deyildir.
Kapitalistdən azad olmaq – Azadlıq deyildir.
Dövlət Feodalizmi yarandı.
Dövlət Kapitalizmi yarandı.
Mülkədardan azad olduq – əsarətdən azad olmadıq.
Kapitalistdən azad olduq – əsarətdən azad olmadıq.

## 46. MÜSTƏQİLLİK – FƏDAKARLIQ

Ömrümə Sahibəm.
Onu Amalıma Sərf edirəm.
Fədakarlığımda Müstəqiləm.

## 47. XÜSUSİYYƏTÇİLİK TƏZAHÜRÜ

Xüsusi Mülkiyyətin ləğvi xüsusiyyətçiliyi öldürmədi. Yeni Xüsusiyyətçilər növü peyda oldu: total (hərtərəfli) oğruluq yarandı.

***Mülkiyyət oğurlandı, talandı. Oğurluq – normalaşdı, ümumiləşdi.***

Qanun – oğurluğu lənətlədi, həyat – oğurluğu bəslədi.
Oğurluq cəzalandı, həm də bitdi, artdı, həyatiləşdi.

## 48. İQTİSADİYYAT – MƏNƏVİYYAT

### I

İqtisadiyyat planlaşdı.
Ləyaqət planlaşmadı.
Ləyaqətsizlik planlı iqtisadiyyatı sarsıtdı.

**II**

Əməkçiylə İqtisadiyyat Yadlaşdı.

Əməkçi əməyini Yad iqtisadiyyatdan əsirgədi, ona ürək qızdırmadı, can yandırmadı.

***Yad iqtisadiyyat susuz torpaq kimi qurudu.***

**III**

Əməkçiyə ***Doğma*** İqtisadiyyat gərəkdir,

***Xüsusi Zəhmətkeş Mülkiyyəti gərəkdir.***

Onda iqtisadiyyat köklü ağac kimi boy atacaq, şaxələnəcək.

## 49. MADDİYYATSIZLIQ BƏDNAMLIĞI

Əgər Maddi Başdırsa, əsasdırsa – niyə rüşvət almayasan?

Vicdandan çəkinəsən, Vüqardan çəkinəsən.

Cəza Təhlükəsini Təcrübi Məharət vasitəsilə aradan qaldırmaq olar.

***Maddiyyatçının rüşvətçiliyi təbiidir.***

***Maddiyyatçılıq – rüşvətçiliyi doğruldur.***

## 50. OĞRULUQ – DOĞRULUQ

**I**

Kapitalizm Maddi Sərvəti Sitayiş Taxtına çıxartdı.

Sosializm Maddi Sərvəti Sitayiş Taxtından salmadı.

Əgər Maddi Tərəqqi Başdırsa – Maddi Sərvət də Başdır.

**II**

Yeni cəmiyyətdə də Varlı sevildi, təqdir olundu, fərqləndi, yüksək dəyərləndi.

Yeni cəmiyyətdə də kasıb (yaxud az varlı) sevilmədi, təqdir olunmadı, dəyərlənmədi.

Maddi Sərvətə Malik olan yenə də İctimai Ləyaqətə sahib oldu.

Maddi Sərvətə Malik olmayan yenə də İctimai Ləyaqətdən Məhrum oldu.

## III

Oğru varlı sevilir, çünki sərvətin nə vasitəylə ələ gətirilməsi əhəmiyyətli məsələ sayılmır, yazılmamış "Maddiyyat kodeksində" ruhanilik zəruriyyəti yoxdur.

Doğru kasıb (yaxud az varlı) sevilmir, çünki kasıblığın mənəvi səbəbləri əhəmiyyətli məsələ sayılmır, yazılmamış "Maddiyyat kodeksində" ruhanilik zəruriyyəti yoxdur.

## IV

***Oğru oğruluğun bəhrəsini görür.***
***Doğru doğruluğun ziyanını çəkir.***
Doğruluq təhqir olunur, bədnam olur, alçalır.
Yüksək olduğun üçün – alçaq sayılırsan.
Düz olduğun üçün – Yanlış sayılırsan.
İrəlidə olduğun üçün – geri qalırsan.
Xalis olduğun üçün – naqis bilinirsən.

## V

Oğru Varlı tutulur, dustaqxanaya salınır – ancaq zəlil sayılmır, aciz sayılmır, gərəksiz sayılmır.

Doğru kasıb tutulmur, dustaqxanaya salınmır, ancaq zəlil sayılır, aciz sayılır, gərəksiz sayılır.

## VI

Doğru – kitablarda, qəzetlərdə, qanunlarda, tədbirlərdə sevilir, alqışlanır, həyatda döyülür, söyülür.

Oğru – kitablarda, qəzetlərdə, qanunlarda, tədbirlərdə söyülür, döyülür, həyatda sevilir, seçilir.

## VII

İdealda Doğrular üçün yaranan cəmiyyətə gerçəklikdə oğrular Sahib oldu.

Bu təbiidir.

***Çünki Maddiyyatçılıq – əslində Oğrunun tərəfindədir, Doğrunun tərəfində deyil.***

## 51. SEÇİLMİŞLƏR HƏQARƏTİ

İnqilabdan qabaq ictimai elita (seçilmişlər təbəqəsi) mövcud idi.

Həmin təbəqə başlanğıcda qabiliyyətlilərdən, dövlət qarşısında xüsusi xidməti olanlardan yaranmışdı, onlar xüsusi nişanlarla, titullarla fəxri adlarla fərqlənirdilər.

İnqilab həmin Elitanı (seçilmişləri) Nişanlarıyla, Titullarıyla, Fəxri adlarıyla ləğv etdi.

İndi "ideal bərabərlik olan cəmiyyətdə" ***Elitamaniya*** həqarəti baş alıb gedir.

Titullarla, Mükafatlarla, Ordenlərlə fərqləndirilən Elita günügündən artır.

Mənəvi plebeylik (gədalıq) törəyir və bu, Ruhani ləyaqəti təhqir edir.

Titullar arxasında istedadsızlıq, mənəviyyatsızlıq, inamsızlıq, idraksızlıq, xudbinlik, rəzillik gizlənir.

Xəlqi adlar icad edirlər və xəlqi Müqəddəsliyə yağı çıxırlar.

***Elita çirkabı yaranır.***

***Xalqa çirkab içirdirlər.***

Seçilmişlər həqarəti törəyib.

Seçilmişlər – həqarəti seçdilər!..

## 52. İCTİMAİLƏŞƏN QADIN

Özünə yaradı, ailəsinə yaramadı, kişisinə yaramadı.

İctimaiyyətə yaradı.

Qadınlığa yaramadı.

Kişi müstəbidliyindən azad oldu, kişi həyanlığını itirdi.

Evdə kişini əvəz etmək istədi.

Ailəni Başsız qoydu.

Atanı Evladın gözündən saldı.

Evladı atasız qoydu.

Kişi kimi danışdı.

Danışığını itirdi.

Kişi kimi davrandı.

Davranışını itirdi.

Kişi kimi yeridi.

Yerişini itirdi.

Anasına qızlıq eləmədi – oğlanlıq elədi.
Balasını tələsik öpdü.
Onu nəvazişsiz qoydu.
Müəssisələrə yaradı, evə yaramadı.
Kollektivi idarə elədi.
Səadətini idarə eləyə bilmədi.
Hamıya gözəl oldu, ərinə çirkin.
Sevindi.
Sevilmədi.
Nitq irad elədi.
Dilini yanıltdı.
Fəal olmağa vaxt tapdı.
Qadın olmağa vaxt tapmadı.
Ayıldı.
Özünü axtardı, tapmadı!

## 53. YENİLƏŞƏN AİLƏ

Ata Evdə ***haqsızdırsa*** – ailə ***haqsızdır.***
Ata haqsızlığı yaratdılar.
Ailə haqsızlığı qazandılar.

## 54. NÖKƏR RƏHBƏRLİYİ

Əgər Rəhbər Müstəqil, Azad Fərdlərdən Müstəqil, Azad, Vahid Xalq yaratmırsa, Xalqı Dünyada təmsil etmirsə, Xalqın Ruhani Ləyaqətini qorumursa, o, rəhbər deyil – nökərdir!

Nökəri Rəhbər saymaq – zəlillikdir.

## 55. ZAHİRİ – DAXİLİ

Bəzək təmtərağı, çilçıraq cazibəsi, geyim-kecim parıltısı; mərasimlər, bayramlar təntənəsi; şüarlar, şəkillər, məlumatlar, ədədlər əzəməti; tonlar, metrlər, sürətlər möcüzəsi; nişanlar, adlar, titullar böyüklüyü; görüşlər, qəbullar səmimiyyəti; Ümumdünya yığışmaları şöhrəti; qardaşlıq, dostluq ülviyyəti; Yubileylər səxavəti, Muzeylər sədaqəti, Məclislər nizamı; saraylar, restoranlar, mehmanxanalar,

metrolar cəzbi; heykəl bütpərəstliyi, kitab seli – Daxili Boşluğun təzahürüdür!

***Boşluğa aldanmaq – ruhani naşılıqdır.***

***Həmin naşılıqdan ayrılan – Həqiqəti görür.***

## 56. HƏYAT – MÜBARİZƏ

Həyat – Ruhanilik uğrunda mübarizədir.

Həmin mübarizədə Maddi Mənafe uğrunda döyüş məğlub olur.

## 57. KAPİTALİZM – SOSİALİZM

Kapitalizm – sosial-darvinizm (maddi mənafe uğrunda döyüş) üstəgəl demokratiya.

Sosializm – Ümumi (ictimai) Mülkiyyət üstəgəl totalitarizm (Mütləq Dövlət Hakimiyyəti).

## 58. MADDİ MÜNASİBƏT – RUHANİ MÜNASİBƏT

Maddi münasibətdən həsəd doğur, qorxu doğur, hərislik doğur, sürülük doğur, sünilik doğur, yırtıcılıq doğur.

Ruhani münasibətdə həsəd ölür, qorxu ölür, hərislik ölür, sürülük ölür, sünilik ölür, yırtıcılıq ölür.

Maddi münasibət bəşəri dolandırır. Ruhani münasibət bəşəri İnsanlaşdırır.

***İnsani cəmiyyətdə Ruhani Münasibət hökm sürməlidir. Maddi Münasibət Ruhani Münasibətin hökmünə tabe olmalıdır.***

## 59. ÇOXLUQ – AZLIQ

İdarəçiləri çox olan ölkə pis idarə olunur.

***İdarə çoxluğu idarəsizlik törədir.***

Alimləri çox olan ölkə – zəif elm yaradır.

***Alim çoxluğu – elmsizlik törədir.***

Sənətkarı çox olan ölkə – zəif sənət yaradır.

***Sənətkar çoxluğu – sənətsizlik törədir.***

Böyüyü çox olan ölkənin böyüklüyü kiçik olur.

***Böyüklər çoxluğu böyüksüzlük törədir.***

Qanunları zəngin olan ölkələrdə intizam yoxsul olur.
***Qanun çoxluğu qanunsuzluq törədir.***
***Burada çoxluq – yoxluğu ifadə edir.***

## 60. MADDİYYATLAŞMAQ

Yol – maşınındır.
Ev – avadanlığındır.
Baş – saçındır.
Ürək – bədənindir.
Bədən – paltarındır.
***Ruha yer yoxdur.***

## 61. HƏYAT – İNSANİYYƏT

Həyatdan bolluca Şəhvət götürdü,
Şöhrət götürdü,
Varidat götürdü.
***İnsaniyyət götürmədi.***
Yoxsa Şəhvəti saymazdı,
Şöhrəti saymazdı,
Varidatı saymazdı.

## 62. RUHANİ HAKİMLİK

Şəhvətdən azad olmaq – əsarət deyil, hakimlikdir.
Şöhrətdən azad olmaq – əsarət deyil, hakimlikdir.
Varidatdan azad olmaq – əsarət deyil, hakimlikdir.
***Ruhani Hakim heç kəsə Sahib olmur.***
***Özünə Sahib olur.***

## 63. VƏTƏN – SƏN

**I**

***Vətən – sənsən.***
Özündən ayrı yaşaya bilməzsən!
Həyat sənə yad ola bilər, Vətən həmişə doğmadır.
***Çünki özünə yad ola bilməzsən!***
***Vətəndən ayrı yaşayan – özündən ayrı yaşayır.***
***Tək qalanda belə, Vətənləsən.***

**II**

Maddi mənafe qurtarır – Vətən yaranır.

**III**

Torpaq Müqəddəsləşir.
Tarix Müqəddəsləşir.
Əcdad Müqəddəsləşir.
Adət Müqəddəsləşir.

**IV**

Vətənə Mütləq İnam doğur – Vətən yaranır.

**V**

Vətən dərdlisi olursan.
Vətən qəhərlisi olursan.
Vətən qeyrətlisi olursan.
Vətən həyanı olursan.
Vətən dayağı olursan.
Vətənə gərək olduğun dərəcədə özünə gərək olursan.

**VI**

Hamı Vətənli olmur.
Vətəndə Vətənsiz yaşayanlar var.
Vətənlə bir olmurlar.
Özləriylə bir olmurlar.
Özgələşirlər.

**VII**

Özgələşən – eybəcərləşir.
***Şərləşir.***

## 64. VƏTƏN – MADDİYYAT – RUHANİYYAT

Vətənin Meşəsini sevirsən.

Təkcə odun qalamaq üçün yox.

Odunsuz da keçmirsən. Ancaq Vətən – Meşə Müqəddəsliyidir, Meşə faydası deyil.

Vətənin Çayını sevirsən.

Təkcə çimmək üçün yox.

Çimməksiz də keçinmirsən. Ancaq Vətən – Çay Müqəddəsliyidir, Çay faydası deyil.

Vətənin Düzlərini sevirsən.

Təkcə Maddi bəhrələnmək üçün yox.

Maddi bəhrəsiz də keçinmirsən. Ancaq Vətən – Düzlər Müqəddəsliyidir, Düzlər faydası deyil.

Vətənin insanlarını sevirsən.

Təkcə Maddi yararlıq üçün yox.

Maddi yararlıqsız da keçmirsən. Ancaq Vətən – İnsan yararlığı yox, İnsan Müqəddəsliyidir.

***Vətəndə – Maddi Müqəddəsləşir.***

## 65. ALLAH – MÜTLƏQ

Allahda İnsan kiçilir.
Bəndələşir.
Köləleşir.
Körpələşir.
Mütləqdə İnsan böyüyür.
Mütləqləşir.

## 66. TARİX

Vəhşilikdən yüksək, İnsanilikdən aşağı.

## 67. HƏYAT – ÖLÜM

***Hər ikisi Amaldan kiçik.***

***Müdriklər – Amal naminə birincidən keçirlər, ikincini seçirlər.***

## 68. MƏNƏVİLİK – GÖZƏLLİK

Mənəvi bəzənməlidir, yoxsa naşılar onu görməzlər.

## 69. ŞÖHRƏT NƏFSİ

Üfunətli Leşin üstünə qarğa-quzğun kimi cumurlar.

## 70. İNAM – ŞÜBHƏ

Şübhə – İdraki Şikəstlikdir.
Axsaq İdrak İnama çatmaz.

## 71. NAŞILIQ – MÜDRİKLİK

**I**

***Naşı Həyatı hər şey sayır, Müdrik – Amalı.***

Naşı Həyatdan artıq heç nə görmür, Müdrik həyatdan artığına can atır.

Naşı naqisliklə barışır, Müdrik Kamillik arayır.

Naşı nisbini Mütləq sayır, Müdrik nisbini Mütləqə yüksəldir.

Naşı Həyatda dayanıb qalır, Müdrik Həyatı arxasınca aparır.

***Müdrik Həyatdan keçə bilir, çünki onun Həyatdan başqa Amalı var.***

***Naşı Həyatdan keçə bilmir, çünki onun Həyatdan başqa heç nəyi yoxdur.***

**II**

– Həyatdan keçirəm – Vətəndən keçmirəm.
– Vətən – Həyat deyilmi?!
***– Vətən Həyatdan artıqdır.***

– Həyatdan keçirəm – Xalqdan keçmirəm.
– Xalq – Həyat deyilmi?!
***– Xalq Həyatdan artıqdır.***

– Həyatdan keçirəm – Bəşərdən  keçmirəm.

– Bəşər – Həyat deyilmi?!
***– Bəşər Həyatdan artıqdır.***

Vətən – Amaldır,
Xalq – Amaldır,
Bəşər – Amaldır.

## 72. MİLLƏT – BƏŞƏR

**I**

Millətimlə – doğmalığım var.
Bəşərlə – birliyim.
İnsanlığımda birliyim doğmalaşır.

**II**

Bəşəri Millətimdən kənarda axtarmıram.
Millətimə baxıram – bəşəri görürəm.
Millətimə yarayıram – bəşərə yarayıram.
Qapı-qapı düşüb bəşər axtarmıram.
***Bəşər yanımdadır.***

**III**

Millətimin dərdi – bəşərin dərdidir.
Millətimə əlac tapıramsa – bəşərə də əlac tapıram.

**IV**

***Bəşərilik – əslində insani doğmalıqdır.***
Millətimdə bəşər mənim üçün doğmalaşdı.
Bunsuz Mən özümə yadam,
Bəşərə yadam.

**V**

Nə qədər millətim var –
Mən varam,
Doğmalığım var,
Bəşəriliyim var.

**VI**

Millətim yaşamasa, "sürüləşən bəşərə" qarışsa –
Mən Yoxam,
Doğmalığım Yoxdur,
Bəşəriliyim Yoxdur;
Özümə Yadam,
Bəşərə Yadam;
Köməksizəm!
Gərəksizəm!

**VII**

Millət ölən günü
Doğmalığım öləcək!
Bəşəriliyim öləcək!

**VIII**

Qorumalıyam millətimi.
Özüm üçün. Bəşər üçün.

**IX**

Bəşər – doğmalar birliyidir.
Millətlər ölsə, Yadlar birliyi yaranacaq.
Bu, bəşərin ölümüdür.
Bəşər üçün Millətimi qoruyuram!..
Özüm üçün Millətimi qoruyuram!..

## 73. ÖZÜMÜNKÜ – ÖZGƏNİNKİ

**I**

İnsanlığa doğma olan nə varsa – özümünküdür.
İnsanlığa yad olan nə varsa – özgəninkidir.

**II**

"Özümünkü mənə yaddır, özgəninki mənə doğmadır" – deyən özgəyə də yad olur.

***Özünə yaramayan özgəyə də yaramır.***

**III**

Özümünkü – yəni İnsanlığa yarayan, ancaq Mənim daxilimdə yaranan!

Xalqımın bətnində yaranan!
Ən doğma, ən əziz!

**IV**

Özümünkü – yəni özümlə tən olan, bir olan, özümdən ayrılmağı mümkün olmayan, sifətim kimi, gözüm kimi!

**V**

Özümünkü – yəni İnsanlığa doğma olanlar arasında Mənim üçün ən doğması, istəklisi, gərəklisi!

**VI**

Özümünkü – yəni bəşər vadisində Mənim bənzərsiz Mövcudluğum!

**VII**

Özümünkü olmayan yerdə hər şey yadlaşır.
Özümlüyün Məğlubiyyəti – özgəliyin qələbəsidir.
***Özümlük itərsə – bəşər özgələşər.***

## 74. TƏRBİYƏ – TƏRBİYƏSİZLİK

Tərbiyəni Şəxsiyyətin əlindən alırlar.
Cəmiyyətə tapşırırlar.
Şəraitə tapşırırlar.
Kollektivə tapşırırlar.
Təşkilata tapşırırlar.
İclasa tapşırırlar.
***İnsanı özünə yaxın qoymurlar.***
Tərbiyəni yadlaşdırırlar.
Şəxsiyyəti tərbiyədən ayırırlar.
Tərbiyəsizləşdirirlər.

## 75. HƏQİQƏT – YALAN

***Həqiqət dəyişirsə – o, Yalandır.***

## 76. DƏYİŞMƏZLİK – ƏTALƏT

***Dəyişməzlik – Ölümsüzlüyün ifadəsidir, Ətalət – Ölümün.***

## 77. DƏYİŞKƏNLİK – İNKİŞAF

***İnkişaf – əslində Əbədini təsdiq edir, dəyişəni təsdiq etmir.***

## 78. MÜQƏDDƏSLİK – HƏRCAYİLİK

**I**

Müqəddəslik – İnsana İnam.
Hərcayilik – Heyvana İnam.
Yəni Müqəddəslik – İnsandakı ***Mütləqə*** İnam.
Hərcayilik – İnsandakı ***Vəhşiyə*** İnam.
***Əslində Xeyir – İnsanilikdir.***
***Əslində Şər – Heyvanilikdir.***

**II**

Müqəddəslik – ***Ruhaniyyatçılıq.***
Hərcayilik – ***Maddiyyatçılıq.***
Yəni Müqəddəslik – İnsanın Ruhani xilqət sayılması.
Hərcayilik – İnsanın Maddi xilqət sayılması.

**III**

Müqəddəslik – Mütləqə İnam.
Hərcayilik – nisbiyə İnam.
Yəni Müqəddəslik – Dünyada, Həyatda, İnsanda Mütləq Mahiyyət görmək.
Hərcayilik – Dünyada, Həyatda, İnsanda nisbidən başqa heç nə görməmək.

**IV**

Müqəddəslik – Amalçılıq.
Hərcayilik – Həyatçılıq.
Yəni Müqəddəslik – Amalı (yəni Ali Həyatı) Təsdiq edir.
Hərcayilik – Həyatı Təsdiq edir.

## 79. HƏYAT – AMAL

Həyat – adam yetirir, Amal – İnsan.

## 80. HƏYAT – CƏMİYYƏT – AMAL

***Cəmiyyət – əhliləşdirilmiş Həyat*** deməkdir.
(Yəni Zorakılığa məruz qalmış, tabeləşdirilmiş, ram edilmiş, sərbəstliyini itirmiş).
***Amal – Ülviləşdirilmiş Həyat*** deməkdir.
(Yəni Yüksəlmiş, Müqəddəsləşmiş, Mütləqə çatdırılmış).

## 81. BAĞBAN

İnsaniyyət Ağacını ***Məhəbbət*** suyuyla suvarır, onun quru budaqlarını ***Tələbat*** qayçısıyla kəsir, ***Ruhani*** meyvə becərir.

## 82. CAHİLLİK – KAMİLLİK

***Cahil*** – İnsanlığın nicatını İnsandan kənarda axtarır.
***Kamil*** – İnsanlığın nicatını İnsanın özündə görür.

## 83. PLANLAŞDIRILMIŞ İQTİSADİYYAT

Planlaşdırılmış İqtisadiyyat – əhliləşdirilmiş iqtisadiyyatdır.
Əhliləşdirilmiş İqtisadiyyat dinc olur, ancaq zəngin olmur.
Zənginlik – sərbəstlik sevir, dinclik sevmir.

## 84. TƏRƏQQİ

İnsanı öküz kimi arabaya qoşdular və sürdülər.
İnsan öküz deyildi. Dözmədi.
Araba Yoxuşda dayandı.
İndi aşağı yuvarlanır.

## 85. TƏBİİLİK – SÜNİLİK

İnsanda Müqəddəslikdən Təbii heç nə yoxdur.
İnsanda Hərcayilikdən Süni heç nə yoxdur.
Həyat Müqəddəsliyə yox, Hərcayiliyə xidmət eləyir.
***Həyatilik – əslində Sünilikdir.***
***Həyat adamı – ən Süni adamdır.***

## 86. SADƏLƏŞMƏ – İBTİDAİLƏŞMƏ

***Sadələşən*** hadisə – əhəmiyyətsiz əlamətlərdən azad olur.
***İbtidailəşən*** hadisə – Mahiyyətdən uzaqlaşır.

## 87. İRƏLİLƏMƏ – GERİLƏMƏ

Bəşəri sürülüyə sürükləyirlər və bunu misilsiz irəliləmə sayırlar.
Sürü şüuruna arxalanırlar – Elmlikdən dəm vururlar.
Sürü instinktini bərpa edirlər və Fəlsəfi çevrilişdən danışırlar.
***Geriyə üz tuturlar – irəli gedən bilinirlər.***

## 88. DƏLLALLIQ – İNSANLIQ

### I

Dəllallıq – Maddi Mənfəətin İnsaniliyi üstələməsidir.
***Dəllal – İnsanilik bahasına qazanır.***
Dəllal Maddiyyat qazanır, İnsaniyyət itirir, bununla barışır, bunu itki saymır.
Dəllallıq İnsanı yaratmır, İnsan dəllallığı yaradır.
***Dəllallığın yaranmasının səbəbi İnsandır.***

### II

Dəllallıqda zəhmət alver alətinə çevrildi, alındı, satıldı.
Əslində ***İnsan*** alver alətinə çevrildi.
Dəllallıq – əməyi əməkçinin əlindən aldı, mala çevirdi.
***Dəllallıq özü zəhmət sayıldı.***
***İnsan Dəllal əsarətinə düşdü.***

**III**

Dəllallıq İnsanın İnsanilikdən aşağı olduğunu aşkara çıxartdı.

İnsan İnsan olsaydı, dəllallıq eləməzdi.

İnsan İnsan olsaydı, dəllallığa dözməzdi.

Dəllallıq varidat yaradır! – deyirlər.

Əslində dəllallıq – bolluca rəzalət yaradır.

İnsan İnsan olsaydı, rəzil varidatdan keçərdi, insaniyyətdən keçməzdi.

İnsan İnsan olmayıb, ona görə dəllallıq törəyib.

**IV**

İlk dəllal İnsanlıq səddini keçdi.
Son dəllal İnsanlığa təslim olmalıdır.

## 89. ƏXLAQ – CƏMİYYƏT

Cəmiyyəti İnsansızlıq Bəlasına salan ***əxlaqsızlıqdır.***

Cəmiyyəti İnsansızlıq Bəlasından ***Əxlaq*** xilas edəcək.

Cəmiyyətçilər Əxlaqdan çəkinirlər, cəmiyyətə Əxlaqi münasibəti bəyənmirlər.

Əslində Cəmiyyətin Əxlaqdan başqa ***xilaskarı*** yoxdur.

## 90. GERÇƏKLİK – İNSANİ MAHİYYƏT

**I**

“İnam gerçəklikdən doğub” – deyirlər.

“İdrak gerçəklikdən doğub” – deyirlər.

“Mənəviyyat gerçəklikdən doğub” – deyirlər.

“İradə gerçəklikdən doğub” – deyirlər.

**II**

Bəs gerçəklik İnamdan niyə bu qədər uzaqdır?

Bəs gerçəklik İdrakdan niyə bu qədər uzaqdır?

Bəs gerçəklik Mənəviyyatdan niyə bu qədər uzaqdır?

Bəs gerçəklik İradədən niyə bu qədər uzaqdır?

**III**

İnam gerçəklikdən yüksək olan İnsani Mahiyyətdən doğub – deyirik.

İdrak gerçəklikdən yüksək olan İnsani Mahiyyətdən doğub – deyirik.

Mənəviyyat gerçəklikdən yüksək olan İnsani Mahiyyətdən doğub – deyirik.

İradə gerçəklikdən yüksək olan İnsani Mahiyyətdən doğub – deyirik.

**IV**

***İnsani Mahiyyət gerçəkliyi öz arxasınca aparır.***

## 91. TƏNHALIQ

Ətrafdakılarla danışmağa dəyməz –
əvvəldən bilirsən ki, nə danışacaqlar.
Ətrafdakılarla dalaşmağa dəyməz –
əvvəldən bilirsən ki, necə dalaşacaqlar.
Ətrafdakılarla barışmağa dəyməz –
əvvəldən bilirsən ki, necə barışacaqlar.
***Qədimlər – kənddə-kəsəkdə.***
***Sabahdakılar – sabahda.***
***Hamı var, heç kəs yoxdur.***

## 92. BAŞLAMAQ – BAŞLANMAQ

Təzədən ***başlamaq*** lazımdır.
Məhəbbəti.
Dostluğu.
Qeyrəti.
Kişiliyi.
Qadınlığı.
Evladlığı.
Təzədən ***başlanmaq*** lazımdır.

## 93. İNSAN GÜZGÜSÜ

Cəmiyyətin güzgüsü əyridir – orada özünü görməzsən.
Həyatın güzgüsü kiçikdir – oraya sığmazsan.
Amalın güzgüsünə bax – orada özünü görərsən.

## 94. BAŞ-AYAQ

Baş Ayağa düşdü.
Ayaq Başa çıxdı.
Həyat Baş-ayaq oldu.

## 95. CAVAN – QOCA

Cavan – cəmiyyətdən narazıdır.
Acığını Qocanın üstünə tökür.
***Qocanı saymır.***
Qoca – cəmiyyətdən narazıdır.
Acığını cavanın üstünə tökür.
***Cavanı söyür.***

## 96. QANUN – QANUNSUZLUQ

**I**

"Qanunlar yaxşıdır" – deyirlər.
Ancaq onlara əməl olunmur.
Qanunsuzluq törəyir.

**II**

"Əməl olunmayan qanunlar – pis qanunlardır" – deyirik.
Çünki qanunsuzluğun qarşısını ala bilmir.

**III**

Qanunları insan yaradır.
İnsani naqislik qanunlarda özünü büruzə verir.
Qanunlara insan riayət edir.
İnsani naqislik qanunlara riayətdə özünü büruzə verir.
***Kamil İnsan – Kamil Qanunlar yaradardı.***
***Kamil İnsan – Qanuna tam riayət edərdi.***

**IV**

Qanun Müqəddəslik səviyyəsinə qalxmırsa – yoxdur.
Qanunu Müqəddəslik səviyyəsinə qaldıran Müqəddəs İnsanlardır.
***Müqəddəs İnsan yoxdursa – Qanun da Yoxdur.***

## 97. İQTİSADİYYAT – RUHANİYYAT

**I**

İqtisadiyyata Sitayiş Maddi Varidat yaradır.
İqtisadiyyata Sitayiş həm də Ruhani İflas yaradır.
Maddi İnkişaf naminə Ruhani Tənəzzüllə barışırlar.
***Güzəran xatirinə İnsandan keçirlər.***

**II**

***İqtisadi İnkişaf İnsaniliyə gərək olduğu dərəcədə Həqiqidir.***
***İqtisadi İnkişaf İnsaniliyə zərər olduğu dərəcədə qeyri-həqiqidir.***

## 98. MƏNİMSƏYƏN – MƏNİMSƏNİLƏN

Ömrünü Maddi Mənimsəməyə həsr edən – əslində Mənimsənilir.
Maddiyyat onun Ruhaniliyini əlindən alır.

## 99. İNSAN – HƏYAT

İnsan özünə Sahib olmayanda – Həyat ona Sahib olur.

## 100. İNSANLIQ – CƏMİYYƏT – İNSAN

İnsanlığa yaramayan Cəmiyyətə yarayırsa – Cəmiyyət qeyri-insanidir.

İnsanlığa yaramayan Dövlətə yarayırsa – Dövlət qeyri-insanidir.

İnsanlığa yaramayan İnsana yarayırsa – İnsan qeyri-insanidir.

## 101. CƏMİYYƏT PAYI

**I**

Maddi nemət paylanırsa – İnsan Zəlildir.
***Mülkiyyətsizlik – zəlillik törədir.***

**II**

Öz nemətindən sənə səxavətlə pay verirlər.
***Nemətini əlindən alanın əlinə baxırsan.***

**III**

Maddi Tələbatını ödəmək üçün ömrünün cüzi hissəsi sənə bəsdir.
Ömrünü bütünlüklə Maddi Ehtiyacın ödənilməsinə həsr edirsən.
Ruhani Tələbatı ödəməyə ömrün çatmır.
***Ömrünü bədəninə bəxş edirsən.***

**IV**

Maddi nemət ictimailəşir, cəmiyyətin malı olur, dövlət onu sənə ömürlük xidmət əvəzi paylayır, bununla da ömrünə, əməyinə, vaxtına sahib olur və səndən tələb edir ki, bunu Səadətin zirvəsi sayasan.

Mülkiyyət onun əlindədir, yəni maddi nemətlər onun əlindədir, istəsə o, səni maddi rifahdan tamam məhrum edər, ac qoyar, cismən məhv edər.

Maddi nemət yaratmayan Dövlət maddi nemətlərə sahib olur və bu Sahibliyi yeri gəldikdə, əməkçinin başına dəyənək kimi çırpır.

"Ümumxalq Dövlət Mülkiyyəti" deyilən tarixi hadisənin İnsan taleyində oynadığı əsas rol bundan ibarətdir.

## 102. BİRLİK MƏNTİQİ

**I**

Birliyə bağlanmısan.
Açılsan qırılarsan.

**II**

Dünyada Xalq bir olmalıdır.
Niyə iki Xalq olsun?
Dünyada Dil bir olmalıdır.
Niyə iki Dil olsun?
Dünyada Din bir olmalıdır.
Niyə iki Din olsun?
Dünyada İqtisadiyyat bir olmalıdır.
Niyə iki İqtisadiyyat olsun?
Dünyada Mənəviyyat bir olmalıdır.
Niyə iki Mənəviyyat olsun?

**III**

Bağlanmısan – açılmazsan.
Bir olmusan. ***Yox olmusan!***
Bir hərf bütün kitablara bəsdir.
Bir ədəd bütün hesablara bəsdir.
Birləşmisən. ***Bir olmusan. Yox olmusan.***
***Birlik Biri təsdiq edir.***

## 103. MÜSTƏQİLLİK – BİRLİK

Varsansa – niyə Yox olursan?
Xalqsansa – niyə Xalq deyilsən?
Dilin varsa – niyə Dilsiz olursan?
Qolların varsa – niyə bağlanırsan?
Açarın varsa – niyə açılmırsan?
Niyə birliklə Bir olursan, özünlə Bir olmursan?
Ədədlərdən biri sayılırsan.
Yalnız ***Bir ədəd sayılır.***
Hərflərdən biri sayılırsan.
Yalnız ***Bir hərf sayılır.***
Birlik Bir üçündürsə – Sən kim üçünsən?
Birlikdə yox olursansa – niyə var olursan?
Birlik Tək üçündürsə, sən niyə Cəmə qoşulursan?
Xalqsansa – Xalq ol!
Varsansa – Var ol!
Yoxluğa tapınma!
***Dünya əlvan daşlardan tikilmiş gözəl bir binadır.***
***Dünya binasının daşlarından biri ol!***
***Ancaq Biri təsdiq edən Birliklə bir olma!***

## 104. QÜTBLƏR

***Bir tərəfdə*** Həyat – İnsanilikdən aşağı.
***O biri tərəfdə*** Antihəyat – İnsaniliyə zidd.
Amalda – Ali Həyat – Müqəddəs, Ruhani, İnsani.

## 105. SIÇRAYIŞ – TƏNƏZZÜL

Ani, Zahiri Sıçrayış – Davamlı, Daxili Tənəzzül yaradır.

## 106. İNQİLAB – CƏMİYYƏT

İnqilab cəmiyyəti başı üstə çevirməyi bacarır,
ancaq onu təzədən ayaq üstə qoymağı bacarmır.

## 107. ÇİNOVNİK ƏQİDƏSİZLİYİ

Çinovniklikdə xidmət əqidəni əvəz edir.

Çinovniki çox olan ölkə əqidəsiz ölkə olur.

Totalitarizm (Mütləq Dövlət Hakimiyyəti) əhalinin çox hissəsini çinovnikə çevirir, bununla da əhalini əqidəsizləşdirir.

Bu səbəbdən də çətin ayaqda totalitarizmə dayaq olan olmur.

## 108. SƏNƏT – RUHANİYYAT

Sənət vasitəsilə İnsan dəyişməz.

Ruhani Amal vasitəsilə İnsan dəyişər.

Ruhani Amalları yoxdur –
Sənətdən ***Məbəd*** yaratmaq istədilər – ***Klub*** düzəltdilər.

***Bədiiyyata bel bağladılar –***
***Ruhaniyyatdan məhrum oldular.***

## 109. SÖZ – ƏMƏL

Bədiiyyat tarixi – ictimai tarixindən zəngin olan xalqlarda bəzən söz əməli üstələyir.

Gözəl söz söyləmək – gözəl iş görməkdən daha yüksək qiymətləndirilir.

Bunun nəticəsində qorxaq, balaca, süni ***söz bahadırlığı*** peyda olur və xalqı dadlı sözlərlə qeyrətli əməllərdən ayırır.

***Söz söyləmək əməl yaratmaqdan üstün sayılır.***

Bu ruhda tərbiyə olunan əhali söz meyindən feyziyab olub öz əsarətli, fəlakətli vəziyyətinə son qoymağa can atmır, köləliklə barışır, tədricən tarix meydanından kənar edilir, gərəksizləşir.

***Bədiiyyatpərəstlik – dəhşətli ictimai halsızlıq yaradır.***

## 110. QƏRB –ŞƏRQ

Qərb – Maddiyyatı bəşərin İdealına çevirə bildi və bəşəri öz arxasınca apara bildi.

Şərq – ruhaniyyatı bəşərin İdealına çevirə bilmədi, bəşəri öz arxasınca apara bilmədi.

***Qərbin qələbəsi əslində bəşərin məğlubiyyəti idi.***
***Şərqin məğlubiyyəti əslində bəşərin məğlubiyyəti idi.***
***20-ci əsr Qərbə üstünlük verir.***
***Sabah – Şərqindir!***

## 111. XALQ – ŞƏXSİYYƏT

***Xalq özünü ən çox Ali Şəxsiyyətdə ifadə edir.***

Ərəb xalqı – Məhəmmədə bərabərdir.
Ancaq bütün ərəblər bir yerdə Məhəmmədə bərabər deyil.
Yəhudi xalqı – Musaya bərabərdir.
Ancaq bütün yəhudilər bir yerdə Musaya bərabər deyil.
Hind xalqı – Buddaya bərabərdir.
Ancaq bütün Hindlilər bir yerdə Buddaya bərabər deyil.
Alman xalqı – Lüterə bərabərdir.
Ancaq bütün almanlar bir yerdə Lüterə bərabər deyil.
Çex xalqı Yan Qusa bərabərdir.
Ancaq bütün çexlər bir yerdə Yan Qusa bərabər deyil.
Ali Şəxsiyyət Xalqı tam ifadə etdiyi üçün əhalidən artıqdır.

## 112. PEYĞƏMBƏRLİK

Peyğəmbər həm filosof idi, həm şair idi, həm natiq idi, həm də ictimai xadim idi.

Peyğəmbərlik dağı uçdu, yerində ayrı-ayrı daşlar qaldı: filosof daşı, şair daşı, natiq daşı, ictimai xadim daşı.

***Daşlar azlıq eləyir.***
***İndi Dağ lazımdır – Peyğəmbərlik dağı!***

## 113. ALİMLƏR – FİLOSOFLAR – PEYĞƏMBƏRLƏR

Koperniklər, Darvinlər "Kainat nədir?" – sualına cavab verirlər.

Sokratlar, Platonlar “İnsan nədir?” – sualına cavab verirlər.

Zərdüştlər, Buddalar “İnsanı necə dəyişdirmək olar?” – sualına cavab verirlər.

Birincilər – təzə bilik yaradırlar.

İkincilər – təzə düşüncə tərzi yaradırlar.

Üçüncülər – təzə İnsan yaradırlar.

## 114. ZƏKA – CƏZA

Zəkayla Cəzanın Döyüşündə Zəka məğlub olmur.

***Çünki Zəka Ruhani hadisədir, maddi hadisə deyil.***

Cəza ***Zəkalını*** məhv edə bilər, ancaq ***Zəkanı*** öldürə bilməz.

Bəşər tarixi məğlub edilmiş Zəka tanımır, öldürülən, yandırılan, işgəncələrə məruz qalan Zəkalı tanıyır.

Zəkayla döyüş – Cəzanın ən böyük səhvi olur.

***Çünki Zəkalı məhv olanda belə – Zəka yaşayır.***

## 115. CİSMANİ – RUHANİ

Sufilər cismani gözəlliyi – Mütləqin nişanəsi sayırdılar.

Sufiliklə bağlı olan şairlər buna həddən ziyadə ciddi məna verdilər və Mütləqi qaşda, gözdə, dodaqda, qəmzədə axtarmağa başladılar. Əslində isə Mütləqi cismanilikdə yox, Ruhanilikdə – İnamda, İdrakda, Mənəviyyatda, İradədə tapmaq olardı.

Cismani gözəlliyin ilahiləşdirilməsi cismaniliyin xeyrinə oldu, şairləri Mütləqdən uzaqlaşdırdı.

***Maddi heç vaxt Ruhanini Təmsil edə bilməz.***

***Ruhanini yalnız Ruhani Təmsil edə bilər.***

## 116. EŞQ – MÜTLƏQ

Eşqdə nisbi Mütləqləşir.

Aşiq Məşuqəni Mütləq sayır, ona səcdə qılır, sitayiş edir.

***Əslində bu, Məşuqənin real məziyyətlərinə yox, təxəyyüldə, ürəkdə, idrakda ideallaşdırılmış, ülviləşdirilmiş varlığına pərəstişdir.***

Əslində Aşiq ***Məşuqənin şəxsində Mütləqi sevir.***

***Eşqdə Məşuqə Amallaşır.***

Cazibədar bir yanlışlıq – Mütləqə aid olan keyfiyyətlərin sevgiliyə şamil edilməsi baş verir və bu səhv Aşiqliyin bənzərsiz şeriyyətini yaradır.

## 117. SƏADƏT – FƏLAKƏT

### I

Ehkamdan ayrılmaq – Səadətdir.
Şeytandan ayrılmaq – Səadətdir.
Cəhənnəmdən ayrılmaq – Səadətdir.
Cənnətdən ayrılmaq – Səadətdir.
Mütləqdən ayrılmaq – Fəlakətdir.

### II

Ehkamdan ayrılmaq üçün – Mütləqi tapmalısan.
Şeytandan ayrılmaq üçün – Mütləqi tapmalısan.
Cəhənnəmdən ayrılmaq üçün – Mütləqi tapmalısan.
Cənnətdən ayrılmaq üçün – Mütləqi tapmalısan.
***Yoxsa İnamsız qalarsan!***
***İnsansız qalarsan!***

## 118. SƏMAVİLİK – ÜLVİLİK

### I

Səma nə qədər öyrənilsə də, tədqiq olunsa da, yenə insan üçün əlçatmazlıq rəmzi olacaqdır.

Çünki onun İdeal Mənası real Mənasından çox yüksəkdir.

Çünki İnsan Səmavilik ülviyyətindən əl çəkməz.

### II

Səmaviliyi lənətləyirlər, rədd edirlər, inkar edirlər.

Unudurlar ki, yerdə gözəl, kamil, ali nə varsa – hamısının səbəbkarı səmavi fikirlər, ideyalar, duyğulardır və bu baxımdan, göy olmasaydı, Yerdə yaşamağa dəyməzdi.

### III

"Göydən Yerə düş" – deyirlər.
Unudurlar ki, göy elə Yerdədir...

**IV**

Məxluqun Səması yoxdur.
Adamın Səması ondan uzaqdır.
İnsanın Səması ürəyindədir.

**V**

Peyğəmbərlər göydən cavab gözləyirdilər.
***Cavab isə ürəklərindən gəlirdi.***
***Peyğəmbərlər göyü ürək sayırdılar.***

**VI**

***İnsanın Yeri Adi Yer deyil – Səmavi Yerdir.***

## 119. İDEAL – REAL

İdeal – gerçəkliyin Mütləqə yüksəldilməsidir.
Real – gerçəkliyin Nisbidə qalmasıdır.
İdeal üçün Nisbi yoxdur.
Real üçün Nisbidən başqa heç nə yoxdur.

## 120. SAHİBLİK – SAHİBSİZLİK

**I**

Əgər ölüm varsa – İnsan həyatda heç şeyə malik deyil.
Əgər son mənzil varsa – İnsanın həyatda mənzili yoxdur.
Mütləq mənada İnsan həyatda ***Amaldan*** başqa heç nəyə Sahib deyil.

**II**

Cəmiyyət İnsanı Mülkiyyətsiz qoymaqla ölümün işini görür.
Cəmiyyət Mülkiyyəti hamılaşdırmaqla ölümün işini görür.
Cəmiyyət Amalla döyüşdə məğlub olmaqda ölümə bənzəyir.

## 121. ADAM – İNSAN

Adi günlərdə Adamı da İnsan sanırsan.
Çətin günlərdə Adamla İnsanın Fərqini anlayırsan.
Adamla kifayətlənən – həyatla kifayətlənir.
***Çətin gündə Həyat İnsana azlıq edir.***

## 122. DOST – DÜŞMƏN

Dost – Amalın qazancı.
Düşmən – Həyatın qazancı.

## 123. BÖYÜK – KİÇİK

Böyük – Amalla ayaqlaşan.
Kiçik – Həyatla ayaqlaşan.

## 124. CƏSUR – QORXAQ

Cəsur – Həyatının qədrini bilən.
Qorxaq – Həyatının qədrini bilməyən.

## 125. FİLOSOF – ŞAİR

Filosof üçün Həyat – Mütləqin natamam, nisbi təzahüründən başqa bir şey deyil.

Şair üçün Həyat – hər şeydir.

Filosof – anadangəlmə Amalçıdır.

Şair – anadangəlmə Həyatçıdır.

## 126. FƏLSƏFİ TƏFƏKKÜR – ADİ TƏFƏKKÜR

Fəlsəfi Təfəkkür – Həyata Mütləqin gözüylə baxır.

Adi Təfəkkür – Həyata Həyatın gözüylə baxır.

## 127. BƏDİİYYAT – HƏQİQƏT

Bədiiyyat Həyatı gözəllik biçimində təqdim edir.

Bu baxımdan, o, Həyatı tənqid edəndə belə, təsdiq edir.

Həqiqət – Həyatı Həyati biçimdə təqdim edir.

Bu baxımdan, o, Həyatı təsdiq edəndə belə, tənqid edir.

## 128. GÖZƏLLİK – MƏNA

Gözəllik biçim ahəngdarlığı cazibədarlığıdır.
Ancaq o, həm də Ali Mənanın ifadəsi kimi görünür.
Bu səbəbdən gözəllik Həyatda olduğundan artıq bilinir.

## 129. SÖZ – MƏZMUN

Söz Məzmunun əyninə biçilməyib.
Ona görə də Sözü Məzmunun əyninə biçmək lazım gəlir.

## 130. BİLMƏK – DUYMAQ

Bilən – özündən kənardakıyla görüşür.
Duyan – özündəkiylə görüşür.

## 131. NİKBİN – BƏDBİN

Nikbin – Mütləqə İnanan.
Bədbin – Nisbiyə tapınan.

## 132. XOŞBƏXTLİK – BƏDBƏXTLİK

Xoşbəxtlik – Müqəddəslik.
Bədbəxtlik – Hərcayilik.
***Müqəddəslik – Ömrün nəticəsi.***
***Hərcayilik – Adamla bir doğulan.***

## 133. MƏRHƏLƏLƏR

I. Heyvanat aləmiylə Uyğunluq.
II. Heyvanat aləmindən Fərqlənmə.
III. Heyvanat aləmiylə Təzad.
Birinci mərhələ – Bioloji Həyat.
İkinci mərhələ – İctimai Həyat.
Üçüncü mərhələ – Ruhani Həyat.

Bəşəriyyət hələlik birinci və ikinci mərhələlərdə yaşayıb, üçüncü mərhələdə yaşamayıb. Üçüncü mərhələdə yalnız Ali Şəxsiyyətlər yaşayıb.

Ruhani Məqsəd – üçüncü mərhələyə çatmaqdır.

## 134. HƏZZ – İZTİRAB

***Həzz*** – İnsani Ləyaqətlə görüş.
***İztirab*** – İnsani Qəbahətlə görüş.

## 135. İRSİYYƏT – VARİSLİK

Müqəddəslik Ocağının sönməməsi.

## 136. RUHUN ÖLMƏZLİYİ

İnsanın daxilindəki heyvana təslim olmaması.

## 137. RUH – GERÇƏKLİK

Gerçəkliyin Ruhdan başqa ülviyyəti yoxdur.
Həmin ülviyyət gerçəklikdə natam, nisbi şəkildə aşkara çıxır.

## 138. GERÇƏKLİK – CƏMİYYƏT

Cəmiyyət gerçəkliyə uyğundur, ona görə də naqisdir.

## 139. HAMILIQLA MƏHRUMİYYƏT

Hamı "Dövləti İdarə edəndə" hamı Dövləti İdarə etməkdən məhrum olur.

İdarəçiləri idarə edirlər, idarəyə tabe edirlər.

## 140. ALİ HƏYAT – KAMİL İNSAN

**I**

Hamı eyni Qanunlara tabe olur.
Hamı eyni Qanunları pozur.
Çünki Qanunlar nöqsanlı adamlar tərəfindən yazılır.
Çünki Həyat – Qanunları pozmaq imkanı yaradır.
Çünki İnsani naqislik – qanunları pozmaq imkanı yaradır.
***Yaxşı Həyat – Ali Həyat tələb edir!***
***Kamil İnsan tələb edir!***

**II**

***Nə qədər ki, Həyat Ali deyil – Qanun pozulacaq!***
***Nə qədər ki, İnsan Kamil deyil – Qanun pozulacaq!***

**III**

Qanunsuzluğu zorla aradan qaldırmaq istəyirlər.
Zora qarşı zor yaranır.
Qanunsuzluq azalmır – artır.

**IV**

O vaxt ki, Qanunlar ürəklərə yazılacaq –
Qanunlar pozulmayacaq!
O vaxt ki, Qanunlar ağıllara yazılacaq –
Qanunlar pozulmayacaq!

## 141. ÜSTÜNLÜK

"Kim rütbədə üstündür?" – demirik.
"Kim vəzifədə üstündür?" – demirik.
"Kim ixtisasda üstündür?" – demirik.
"Kim imtiyazda üstündür?" – demirik.

"Kim Atalıqda üstündür?" – deyirik.
"Kim Analıqda üstündür?" – deyirik.
"Kim Evladlıqda üstündür?" – deyirik.
"Kim qeyrətdə üstündür?" – deyirik.
"Kim ləyaqətdə üstündür?" – deyirik.

## 142. ÖLMƏK – YAŞAMAQ

İçərində qatil yatıb, oyanmayıb, məhv olmayıb.
Oyansa – İnsanı öldürə bilər, ölsə – İnsan yaşayar.
İçərində əyri yatıb, oyanmayıb, məhv olmayıb.
Oyansa – İnsan əyilər, məhv olsa – düzələr.
İçərində Çirkab yatıb, oyanmayıb, məhv olmayıb.
Oyansa – İnsan çirklənər, məhv olsa – təmizlənər.
İçərində Günah yatıb, oyanmayıb, məhv olmayıb.
Oyansa – İnsan günaha batar, məhv olsa – saflığa çıxar.
Ya sən Qatili öldürəcəksən – ya Qatil səni.
Ya sən Əyrini öldürəcəksən – ya Əyri səni.
Ya sən Çirkabı öldürəcəksən – ya Çirkab səni.
Ya sən Günahı öldürəcəksən – ya Günah səni.

## 143. ZƏNCİR

Şöhrət zənciriylə bağlanmısan Dövlət qapısına.
Şəhvət zənciriylə bağlanmısan Dövlət qapısına.
Varidat zənciriylə bağlanmısan Dövlət qapısına.
    Şöhrəti qoruyursan.
    Şəhvəti qoruyursan.
    Varidatı qoruyursan.
İmkanın olsa, Zəncirdən açılarsan.
    Şöhrəti götürərsən.
    Şəhvəti götürərsən.
    Varidatı götürərsən.
Zəncirli qapıdan qaçarsan.

## 144. HƏSƏD

Hünərin İnsanlıq qiyməti Heyrətdir.
Sən ona həsəd aparırsan.
***İnsana çatmırsan.***

## 145. HƏRARƏT

Hərarətlə yeyirlər.
Hərarətlə qazanc üstünə yüyürürlər.
İnsanlıqda hərarətləri sönür.

## 146. VƏHDƏT

Qul köləliyiylə barışır.
Qulla quldarın sarsılmaz birliyi yaranır.

## 147. BİLMƏZLİK

**I**

Köləliyin çox vaxt özünü bilirlər – adını bilmirlər.

**II**

***Yox olurlar, "Var olduq!" – deyirlər.***

**III**

"Var olduq!" sözünü məktəblərdə öyrədirlər,
"Yox olduq!" sözünü öyrətmirlər.

**IV**

"Var ola-ola" yox olurlar.

## 148. VAR OLMAMAQ

**I**

***Qul Var olanda – Qul olmur.***
***Buna görə də onu Var olmağa qoymurlar.***

**II**

***Qulun özgəliyi olur – Özü olmur.***

**III**

Zəmanə köləsini yerişindən tanımaq olur.
O, süni dərəcədə Məğrur görünür.

## 149. QUL DAMĞASI

İndi Qulu Mənfəətlə damğalayırlar.
Hörmətlə damğalayırlar.
Vəsiqəylə damğalayırlar.
Vəzifəylə damğalayırlar.
Nişanla damğalayırlar.
Fəxri Fərmanla damğalayırlar.
***İndi Qul Fərqləndirilir, Fəxrləndirilir.***
***İndi Qul, damğasıyla öyünür.***

## 150. XALQIN ÖMRÜ

Xalqın əsarət dövrü olur, kölə ömrü olmur.

## 151. BƏŞƏR HEKAYƏTİ

**I**

Azadlığa çağrılır – Əsarət quyusuna düşür.
Ədalətə çağrılır – Zülm quyusuna düşür.
Həqiqətə çağrılır – Yalan quyusuna düşür.
Sədaqətə çağrılır – Xəyanət quyusuna düşür.

**II**

Əsarət quyusundan "Azadlıq!" – deyə bağırır.
Zülm quyusundan "Ədalət!" – deyə bağırır.
Yalan quyusundan "Həqiqət!" – deyə bağırır.
Xəyanət quyusundan "Sədaqət!" – deyə bağırır.

**III**

Azadlıq becərilər – alınmaz.
Bəşər Azadlıq Bağbanı olmadı.
Ədalət becərilər – alınmaz.
Bəşər Ədalət Bağbanı olmadı.
Həqiqət becərilər – alınmaz.
Bəşər Həqiqət Bağbanı olmadı.
Sədaqət becərilər – alınmaz.
Bəşər Sədaqət Bağbanı olmadı.

**IV**

Bəşər heyvandan ayrıla bildi – özünə yaraya bilmədi.

## 152. "DÜNYƏVİ LƏYAQƏT"

Özgəyə Ögey olmağı Ləyaqətinə sığışdırmır.
***Ona görə də Özününkünə ögey olur.***

## 153. XUDBİNLİK – YADLIQ

Xudbinlik – özünə Sahib olmaq deyil, özgəyə Sahib olmaqdır.

Xudbinlik – öz əməyinə Sahib olmaq deyil, özgə əməyinə Sahib olmaqdır.

Xudbinlik – öz Mülkiyyətinə Sahib olmaq deyil, özgə mülkiyyətinə Sahib olmaqdır.

***Xudbinlik – yadlıqdır.***

## 154. İSTİSMAR

İstismar – Əməkçinin Mülkiyyətdən Məhrum olunması.

## 155. XÜSUSİ – İCTİMAİ

**I**

Əməkçi Xüsusiyyətçiliyi olmayan yerdə İstismar aradan qalxmır, Xüsusiyyətçi İstismarı Dövlət İstismarıyla əvəz olunur.

Ehkam İctimai Mülkiyyətin istismar yaradacağını nəzərə almır.

***Əslində isə o, mövcuddur.***

Əməkçi Mülkiyyətdən Məhrum olanda İctimai İstismar yaranır, yəni İctimaiyyəti təmsil edən Dövlət zəhmətkeş əməyini mənimsəyir.

Xüsusi İstismarın İctimai İstismarla əvəz olunması zəhmətkeş aqibətində yenilik yaratmır – Onu Mülki Məhrumiyyətdən xilas etmir.

**II**

Özgə Evladına ögey yanaşmaq Təbii sayılır.
Özgələşən Mülkiyyətə ögey yanaşmaq Təbii sayılmır.

## 156. TƏZADLAR

Xüsusi İstismarçı Mülkiyyəti hədsiz Varidat Təzadı yaradır.

Cəmiyyətin bir Qütbündə ifrat var-dövlət, o biri Qütbündə ifrat yoxsulluq bərqərar olur.

İctimai İstismarçı Mülkiyyət yeni bir Təzad – Mülkiyyətə tam Sahib olmuş Dövlət və Mülkiyyətdən tam məhrum olmuş Əməkçi – təzadı yaratdı.

## 157. ƏDALƏT – HƏYAT

**I**

Ədalət – Həyata verilən həqiqi Qiymətdir.
Həqiqi Qiymət – Mütləq Qiymətdir.
Həyat – Mütləqə çatmır.
Bu səbəbdən də Ədalətə çatmır.
***Ədalət – Ali Həyat Tələb edir.***

**II**

Məxluq – Ədalət tanımır.
Adam – Ədalətsizliklə barışır.
İnsan – Ədalətə Yüksəlir.

**III**

Həyatdakı Ədalətli – Ədalətə çatmır.
***Ədalət – Amallaşmaq Tələb edir, İnsanlaşmaq Tələb edir.***
Həyat Ədalət üçün azdır...

## 158. HƏQİQƏT – HƏYAT

**I**

***Həqiqət – Mütləqin dərkidir.***
Həyat – Mütləqə çatmır.
Bu səbəbdən də Həqiqətə çatmır.
***Həqiqət – Ali Həyat Tələb edir.***

**II**

Məxluq – Həqiqət tanımır.
Adam – Həqiqətsizliklə barışır.
İnsan – Həqiqətə Yüksəlir.

**III**

Həyatda Həqiqi – Həqiqətə çatmır.
***Həqiqət – Amallaşmaq tələb edir.***
***İnsanlaşmaq Tələb edir.***

Həyat Həqiqət üçün azdır...

## 159. MƏNƏVİYYAT – HƏYAT

**I**

Mənəviyyat – Mütləq Ruhani kamillikdir.
Həyat – Mütləqə çatmır.
Bu səbəbdən də Mənəviyyata çatmır.
Mənəviyyat – Ali Həyat Tələb edir.

**II**

Məxluq – Mənəviyyat tanımır.
Adam – Mənəviyyatsızlıqla barışır.
İnsan – Mənəviyyata yüksəlir.

**III**

Həyatda Mənəvi – Mənəviyyata çatmır.
***Mənəviyyat – Amallaşmaq Tələb edir.***
***İnsanlaşmaq Tələb edir.***
Həyat Mənəviyyat üçün azdır...

## 160. İRADƏ – HƏYAT

**I**

İradə – Mütləq Ruhani Qüdrətdir.
Həyat – Mütləqə çatmır.
Bu səbəbdən də İradəyə çatmır.
İradə – Ali Həyat Tələb edir.

**II**

Məxluq – İradə tanımır.
Adam – İradəsizliklə barışır.
İnsan – İradəyə yüksəlir.

**III**

Həyatdakı İradəli – İradəyə çatmır.
***İradə – Amallaşmaq Tələb edir.***
***İnsanlaşmaq Tələb edir.***

Həyat İradə üçün azdır...

## 161. İNAM – HƏYAT

**I**

İnam – Mütləqin Təsdiqidir.
Həyat – Mütləqə çatmır.
Bu səbəbdən də İnama çatmır.
***İnam – Ali Həyat Tələb edir.***

**II**

Məxluq – İnam tanımır.
Adam – İnam tanımır.
İnsan – İnama yüksəlir.

**III**

Həyatdakı İnamlı – İnama çatmır.
***İnam – Amallaşmaq Tələb edir.***
***İnsanlaşmaq Tələb edir.***
Həyat İnam üçün azdır...
***Bütün Yollar Amallaşmaya aparır,***
***İnsanlaşmaya aparır...***

## 162. MÜQƏDDƏS FƏRƏH

İnsanlaşmanın hər məqamı, pilləsi, mərhələsi – Müqəddəs Fərəhdir.

İnamlaşmanın hər məqamı, pilləsi, mərhələsi – Müqəddəs Fərəhdir.

İdraklaşmanın hər məqamı, pilləsi, mərhələsi – Müqəddəs Fərəhdir.

Mənəviyyatlaşmanın hər məqamı, pilləsi, mərhələsi – Müqəddəs Fərəhdir.

İradələşmənin hər məqamı, pilləsi, mərhələsi – Müqəddəs Fərəhdir.

Ruhani Doğuluşun hər məqamı, pilləsi, mərhələsi – Müqəddəs Fərəhdir.

Müqəddəsləşmənin hər məqamı, pilləsi, mərhələsi – Müqəddəs Fərəhdir.

*Ata Ayı, 7-ci il. Bakı.*
*(Sentyabr, 1985-ci il).*



# MÜTLƏQİLİK

**(Dördüncü qutsal əsər)**

# I. **ÖVLADLIQ**

## *Evladlarıma!*

***Mütləq Mahiyyətlisiniz!***
Gerçək imkanları ötmək imkanına maliksiniz!
Mütləq İdraka sahib olmaq imkanına maliksiniz!
Mütləq Mənəviyyata sahib olmaq imkanına maliksiniz!
Mütləq İradəyə sahib olmaq imkanına maliksiniz!
Zaman – İnamsızdır! İnam yaratmalıyıq!
Zaman – İnsansızdır! İnsan yaratmalıyıq!
İnsan – Vətənsizdir! Vətən yaratmalıyıq!

Daxilinizdəki Mütləq Sizə yar olsun!

## *Etiqad*

***Mütləqə inanıram!***
Yəni
Mütləq Həqiqətə inanıram!
Mütləq Ədalətə inanıram!
Mütləq Saflığa inanıram!
Mütləq Xeyirə inanıram!
***Mütləq olana inanıram!***

***Mütləqə inanıram!***
Yəni
Mütləq olmayan Həqiqəti Həqiqət saymıram!
Mütləq olmayan Ədaləti Ədalət saymıram!
Mütləq olmayan Saflığı Saflıq saymıram!
Mütləq olmayan Xeyiri Xeyir saymıram!
***Mütləq olmayana inanmıram!***

***Mütləqə inanıram!***
Yəni
Ömrümü Mütləq Həqiqətə həsr edirəm!
Mütləq Ədalətə həsr edirəm!
Mütləq Saflığa həsr edirəm!
Mütləq Xeyirə həsr edirəm!
***Mütləqləşirəm!***

Mütləq Həqiqəti Müqəddəs sayıram!
Mütləq Ədaləti Müqəddəs sayıram!
Mütləq Saflığı Müqəddəs sayıram!
Mütləq Xeyiri Müqəddəs sayıram!
***Mütləqə səcdə qılıram!***

### ***Ləyaqət***

Yalnız Sabit olan – Var olandır!
Dəyişən – Yoxdur!

Yalnız Bütöv olan – Var olandır!
Ziddiyyətli – Yoxdur!

Yalnız Kamil olan – Var olandır!
Qeyri-Kamil – Yoxdur!

İnsan dəyişən görünür –
Mahiyyət etibarilə o, Sabitdir.

İnsan ziddiyyətli görünür –
Mahiyyət etibarilə o, Bütövdür.

İnsan qeyri-kamil görünür –
Mahiyyət etibarilə o, Kamildir.

Dəyişkən – yaşamır!
Ziddiyyətli – yaşamır!
Qeyri-Kamil – yaşamır!

***Özünü yenidən yarat.***
Dəyişkəndin – Sabit ol!
Ziddiyyətliydin – Bütöv ol!
Qeyri-Kamildin – Kamil ol!
***Yox idin – Var ol!***

***Amal***

***Mütləqə İnam:***

Yeri-göyü yaradan Allaha yox, xurafata yox, İnsanın, Həyatın, Dünyanın Mütləq Mahiyyətinə İnam.

***Ruhani İdrak.***

İnsan Fəlsəfəsi.

***Kamil İnsan.***

Mənəviyyat, Zəka və İradə kamilliyi.

Özüylə döyüş, İmtina Qətiyyəti, Mahiyyətə yüksəlmək Müqəddəsliyi.

***Ədalətli Cəmiyyət.***

Ruhani Dövlət, özünüidarə ləyaqəti, fərdi əməkçi mülkiyyəti, imtiyaz bərabərliyi.

***Vətən.***

Müstəqil, qüdrətli, vahid.

***Yol***

***Mənəvi İntibah – Mütləqə İnamın təsdiqi,***
***Kamil İnsanın yaranması.***

***İdraki İntibah*** – İnsan Fəlsəfəsinin təsdiqi.
***Siyasi İntibah*** – Müstəqil Vətənin yaranması.
***İctimai İntibah*** – Ruhani Dövlətin yaranması.

***Vasitə***

Atalığı öyrənmək.
Atalıq əsasında yaşamaq.
Atalığı öyrətmək.
Atalığı yaymaq.

***Tələb***

Mənəviyyat pətəyini qəbahətdən təmizlə!
Onu Saflıq balıyla doldur.

İdrak pətəyini yalandan təmizlə!

Onu Həqiqət balıyla doldur.
İradə pətəyini qorxudan təmizlə!
Onu Cəsarət balıyla doldur.

### *İqbal*

Şəhvətdən keçdim – Var oldum.
Həsəddən keçdim – Var oldum.
Yalandan keçdim – Var oldum.
Qorxudan keçdim – Var oldum.
Hərcayilikdən keçdim – Var oldum.
Hərislikdən keçdim – Var oldum.
Əsirlikdən keçdim – Var oldum.
Köhnə çaydan keçdim.
Təzə Sahilə çatdım.
Yenidən doğuldum.

### *Doğmalıq*

Evladımı sevirəm.
***Amalı*** ondan çox sevirəm.
Valideynimi sevirəm.
***Amalı*** ondan çox sevirəm.
Yoldaşımı sevirəm.
***Amalı*** ondan çox sevirəm.
Qardaşımı sevirəm.
***Amalı*** ondan çox sevirəm.
Bacımı sevirəm.
***Amalı*** ondan çox sevirəm.
Nəslimi sevirəm.
***Amalı*** ondan çox sevirəm.

Bununla da evladıma, valideynimə, yoldaşıma, qardaşıma, bacıma, nəslimə layiq oluram.

### *Vətəndaşlıq*

Əşyalarla həmvətən deyiləm.
Əyyaşlarla həmvətən deyiləm.
Xainlərlə həmvətən deyiləm.
Zaillərlə həmvətən deyiləm.

Amalımla həmvətənəm.
Sabahımla həmvətənəm.

***Ölümsüzlük***

Ölümü yaşadan qorxudur.
Ölümdən qorxmuram.
Bu səbəbdən də ölümsüzəm.

## II. ATALIQ

Ata adına xristian kahinləri layiq deyil.
Çünki xristianlıqda Yalan Var.

Ata adına cəmiyyət başçıları layiq deyil.
Çünki cəmiyyət başçılığında Yalan Var.

Ata adına müasir ailə sahibləri layiq deyil.
Çünki müasir ailə sahibliyində Yalan Var.

***xxx***

Ata adına – Müqəddəs İnamlı İnsan layiqdir.
Ata adına – Müqəddəs İdraklı İnsan layiqdir.
Ata adına – Müqəddəs İradəli İnsan layiqdir.

***xxx***

***Atalıq – Müqəddəs Bəxtiyarlıqdır!***
***Ona Müqəddəs İnsan layiqdir!***

## III. MÜTLƏQÇİ

***Özümlük***

Mən quru bədən deyiləm – Mütləqəm!
Mən quru bədən deyiləm – Amalam!
Mən quru bədən deyiləm – Sabaham!

Mütləqi sevirəm – Özümü sevirəm!
Amalı sevirəm – Özümü sevirəm!
Sabahı sevirəm – Özümü sevirəm!

***Özümü sevirəm – Özümdən keçirəm!***

***Vüqar***

Mütləqdən başqa heç nəyim yoxdur!
Amaldan başqa heç nəyim yoxdur!
Sabahdan başqa heç nəyim yoxdur!
Hamıdan varlıyam!

***Qiymət***

Ən böyük rütbəm – İnsan!
Ən böyük mükafatım – İnsanlıq!

***Yetkinlik***

Xəbisliyimi öldürdüm.
Hərisliyimi öldürdüm.
İblisliyimi öldürdüm.
Heyvanlığımı öldürdüm.
Avamlığımı öldürdüm.
Köləliyimi öldürdüm.
Kölgəliyimi öldürdüm.
***Özümə Sahib oldum.***

***Məcnunluq***

Eşqim – Amalım.
Aşiqliyim – Ömrüm.

***Qətiyyət***

Ya Mütləq, ya gerçək.
Mütləqi seçdim, gerçəkdən keçdim.

***Yaşamaq***

Gerçək dünya – Dünyanın kölgəsidir.
Gerçək həyat – Həyatın kölgəsidir.
Gerçək insan – İnsanın kölgəsidir.

Kölgə olmadım – Dünya oldum.
Kölgə olmadım – Həyat oldum.
Kölgə olmadım – İnsan oldum.

### *İnam*

Dünyanı yaradan Allaha inanmadım!
Həyatı yaradan Allaha inanmadım!
İnsanı yaradan Allaha inanmadım!

Dünyada yaşayan Mütləqə inandım!
Həyatda yaşayan Mütləqə inandım!
İnsanda yaşayan Mütləqə inandım!

### *Müdriklik*

Təzahürə uymadım – Mahiyyətə vuruldum.
Mahiyyətə qovuşdum. Mahiyyət oldum.

### *Barışmazlıq*

Bədən gerçəkliklə barışır, Ruh barışmır.
Bədən şərlə barışır, Ruh barışmır.
Bədən günahla barışır, Ruh barışmır.
Bədənlə barışmadım. Ruha tapındım.

### *Etiraf*

Nisbini sevmədim – Mütləqi sevdim.
Həyatı sevmədim – Amalı sevdim.
Bugünü sevmədim – Sabahı sevdim.

### *Fədailik*

Əzabım – ən böyük Sevincim.
Məğlubiyyətim – ən böyük Qələbəm.
Ölümüm – ən böyük Həyatım.

### *Həyat*

Həyat – Mütləqə çatmır, Amala çatmır.
Bu səbəbdən də sevilmir.
Həyat – Mütləqə çatmır, Amala çatmır.
Bu səbəbdən də qurban verilir.
Həyat – Məqsəd deyil, vasitədir.
***Məqsəd – Mütləqdir, Amaldır, Sabahdır.***

***Dünyam***

O dünya səadətinə inanmadım.
Bu dünya səxavətinə küsənmədim.
Dünyam – Mütləqim, Amalım, Sabahım.

***Nicat***

Musa bəşəri aldatdı.
İsa bəşəri aldatdı.
Məhəmməd bəşəri aldatdı.
Yalana sığınan nicat – fəlakətdir.
***Fəlakətdən xilas oldum.***
***Yalanı öldürdüm.***

***Allahsızlıq***

Qorxunc Allah – Mütləq deyil – Şahdır.
Adil Allah – Mütləq deyil – Hakimdir.
Aqil Allah – Mütləq deyil – Loğmandır.
Allahların heç biri Mütləq deyil!

***Mütləq – Dünyanın, Həyatın, İnsanın Kamilliyi, Sonsuzluğu, Əbədiliyidir.***

***Mütləqi seçən – Allahdan keçir.***

***Xurafat***

"Ölən – diriləcək!" – dedilər.
"Ağlayan – güləcək!" – dedilər.
"Huri-pəri nəşəsi gələcək!" – dedilər.
İnsanı alçaltdılar.
Mükafat köləsi saydılar.
Şəhvət dəlisi saydılar.
Əslində cəzalandırdılar.
Ləyaqətini tapdaladılar.

"Xeyirin mükafatı var!" – dedilər.
"Xeyirin işrəti var!" – dedilər.
Xeyiri alçaltdılar.
Əslində cəzalandırdılar.
Ləyaqətini tapdaladılar.

Hər ikisində Mütləq təhqir olundu.
İnsandakı Mütləq!
Xeyirdəki Mütləq!

### *Ruhanilik*

Dedilər: İnsanı Allah yaradıb.
İstehsalat yaradıb.
Şəhvət yaradıb.
Cəmiyyət yaradıb.

Dedim: İnsanı Ruh yaradıb.
İdrak yaradıb.
Mənəviyyat yaradıb.
İradə yaradıb.

Dedilər: İnsan Allahdan asılıdır.
İstehsalatdan asılıdır.
Şəhvətdən asılıdır.
Cəmiyyətdən asılıdır.

Dedim: İnsan Ruhdan asılıdır.
İdrakdan asılıdır.
Mənəviyyatdan asılıdır.
İradədən asılıdır.

### *xxx*

Maddi mənafeyə güvəndilər.
Sinfi münaqişəyə güvəndilər.
Ruha güvəndim.
"Cəmiyyət dəyişməsə – İnsan dəyişməz!" – dedilər.
"İqtisadiyyat dəyişməsə – İnsan dəyişməz!" – dedilər.
"İnsan dəyişməsə – Cəmiyyət dəyişməz!" – deyirəm.
"İnsan dəyişməsə – İqtisadiyyat dəyişməz!" – deyirəm.

Fərdi mülkiyyəti günahkar saydılar.
Ümumi mülkiyyətə ümid bağladılar.
İnsanı günahkar saydım.
İnsana ümid bağladım.

Ruhu əsas saydım.
Maddiyyatı əsas saymadım.

***Ədalət***

Xalqı Mütləq saydım.
Millətsiz bəşəriyyətə inanmadım.
Əfsanəyə uymadım.
Qəyyumluq mərhəmətini rədd etdim.
Mütilik nəzakətini rədd etdim.
"Özünə Sahib olmayan Xalq – Xalq deyil!" – dedim.

***xxx***

"Mülkiyyət Əməkçinin olmalıdır!" – dedim.
Mülkədarın olmamalıdır!
Kapitalistin olmamalıdır!
***Dövlətin olmamalıdır!***

***xxx***

İnsanı İnsanın Sahibi saydım.
Vicdanı İnsanın Hakimi saydım.
Zor səlahiyyətini – İnsanlığa yaraşdırmadım.
İmtiyaz fərqini – İnsanlığa yaraşdırmadım.

***xxx***

***Dövləti*** – Xalqın yaradıcısı saydım.
– Keşikçisi saydım.
– Təmsilçisi saydım.
– ***Ağası saymadım.***

***xxx***

***Başçını*** – İdrak zirvəsində gördüm.
– Mənəviyyat zirvəsində gördüm.
– İradə zirvəsində gördüm.
– ***Ağalıq zirvəsində görmədim.***

***xxx***

İqtisadiyyatı İnsana tapşırdım –
İnsanı İqtisadiyyata tapşırmadım.

Əməyi İnsana tapşırdım –
İnsanı Əməyə tapşırmadım.

Qanunu İnsana tapşırdım –
İnsanı Qanuna tapşırmadım.

***Nisbini Mütləqə tapşırdım –***
***Mütləqi Nisbiyə tapşırmadım.***

***Əxlaq***

Xeyirləşmə. Ruhlaşma. Mütləqləşmə.

***İman***

Platonun İdeyaları kiçik göründü mənə.
Russonun Təbiiliyi kiçik göründü mənə.
Hegelin Mütləqi Nisbi göründü mənə.
İqtisadiyyat Allahına inanmadım.
Mütləqimi tapdım.
Mütləqimə inandım.

Zərdüştdən öyrəndim.
Buddadan öyrəndim.
Sufilərdən öyrəndim.
Hürufilərdən öyrəndim.
Şərqləşdim.
Mütləqimi tapdım.
Mütləqimə inandım.

İnamsızlıq gördüm – İnam yaratdım.
İdraksızlıq gördüm – İdrak yaratdım.
Mənəviyyatsızlıq gördüm – Mənəviyyat yaratdım.
İradəsizlik gördüm – İradə yaratdım.

Həyatda yaşamadım – Mütləqdə yaşadım.
Həyatda yaşamadım – Amalda yaşadım.
Həyatda yaşamadım – Sabahda yaşadım.
Mütləqimi tapdım.
Mütləqimə inandım.

## ***Həqiqət***

Mütləqin dərki.
Yəni Dünyanın Dünyadan böyük Mənasının dərki.
Həyatın Həyatdan böyük Mənasının dərki.
İnsanın İnsandan böyük Mənasının dərki.

## ***İdeal***

Deyirlər: Mülkiyyət yox olanda,
İnsan var olacaq.
Deyirəm: İnsan Mütləqləşəndə,
İnsan var olacaq.

Deyirlər: Siniflər yox olanda,
İnsan var olacaq.
Deyirəm: İnsan Mütləqləşəndə,
İnsan var olacaq.

Deyirlər: Ümumi Həyat bərqərar olanda,
İnsan var olacaq.
Deyirəm: Mütləq İnsani həyat bərqərar olanda,
İnsan var olacaq.

Deyirlər: Maddiyyat bol olanda,
İnsan var olacaq.
Deyirəm: Mənəviyyat zəngin olanda,
İnsan var olacaq.

Deyirlər: Hamı maddi nemətlərdən eyni dərəcədə bəhrələnəndə, İnsan var olacaq.
Deyirəm: Hamı İnsaniləşəndə,
İnsan var olacaq.

***İnsanın varlığını İnsandan kənarda axtarırlar.***
***İnsanın varlığını İnsanda görürəm.***

### *Dəlil*

Dedilər: Şərlə döyüşməyə Ordu gərək, Silah gərək.
Dedim: Silahım – Ruhumdur.

Dedilər: Silah Ruhdan güclüdür.
Dedim: Silah Ruha təslim olacaq.

Dedilər: Nəyə görə?
Dedim: Çünki silahı yaradan İnsandır.

### *İzahat*

Ruh anlayışında xurafat yoxdur.

Ruh – Mütləq İdrak, Mütləq Mənəviyyat və Mütləq İradənin vəhdətidir.

Mütləq İdrak – Mütləq Həqiqəti dərk edir.

Mütləq Mənəviyyat – Mütləq Saflıq yaradır.

Mütləq İradə – gerçəkliyi Amal (Mütləq Həqiqət və Mütləq Mənəviyyat) səviyyəsinə yüksəldir.

### *Müqəddəs Borc*

Vəhşi daxilində.
Qatil daxilində.
Çirkab daxilində.
Zülmət daxilində.
Quldar daxilində.
Qul daxilində.
Mülkədar daxilində.
Kapitalist daxilində.
Müstəbid daxilində.
Zəlil daxilində.
Oğru daxilində.
Dönük daxilində.
Özünü inkar et, rədd et, mənən öldür.
Yenidən doğul.

***xxx***

Təbiətin balasısan!
Ananın balasısan!
Cəmiyyətin balasısan!
Şəraitin balasısan!
Özün deyilsən!

***xxx***

Özünün balansan!
Özünü yaradansan!
Özünsən!

***xxx***

Naqissən!
Hərissən!
Köləsən!
Özünə özgəsən!

***xxx***

Özünü döymüsən!
Özünü söymüsən!
Özünü böyütmüsən!
Özünsən!

***xxx***

Özünsən – Amala lazımsan!
Sabaha lazımsan!

***Qəsdim***

Özümlə döyüşürəm.
Başqalarını özümləşdirirəm.
Gerçəklikdən keçirəm – Mütləqi seçirəm.
Gerçəkliyi – Mütləqləşdirirəm.

***Tələb***

Dünya məhvərindən çıxıb.
Əməkçi mülkiyyətdən ayrılıb.
Xalq müstəqillikdən ayrılıb.

Ürək İnamdan ayrılıb.
Ağıl İdrakdan ayrılıb.
Əməl Əxlaqdan ayrılıb.
Həyat Həyatilikdən ayrılıb.

Əməkçi – Mülkiyyətə qovuşmalıdır.
Xalq – Müstəqilliyə qovuşmalıdır.
Ürək – İnama qovuşmalıdır.
Ağıl – İdraka qovuşmalıdır.
Əməl – Əxlaqa qovuşmalıdır.
Həyat – Həyatiliyə qovuşmalıdır.

***Ölüm-dirim Məsələsi***

Dövləti olmayan Xalq – Xalq deyil!
Dünya siyasətində yeri olmayan Xalq – Xalq deyil!
Tarix meydanında yeri olmayan Xalq – Xalq deyil!
Dövlətsizlik bədnamlığından qurtarmalıyıq!

***Zəmanəylə Mübahisə***

"İnsan – İnsandır!" – deyirlər.

"Xəlqi Mahiyyətdən məhrum olan insan qeyri-insandır!" – deyirəm.

"Bəşər – birdir, vahiddir!" – deyirlər.

"Bəşər – xalqların vəhdəti kimi Var olandır!" – deyirəm.

"Xalqlar – birləşir!" – deyirlər.

"Xalqlar qoşalaşır!" – deyirəm.

"Vahid bir xalq yaranacaq!" – deyirlər.

"Yeni-yeni xalqlar peyda olacaq!" – deyirəm.

"Millət – məhdudluq əlamətidir!" – deyirlər.

"Millət – sürülükdən ayrılmaq keyfiyyətidir!" – deyirəm.

"Millət – keçici hadisədir!" – deyirlər.

"Millət – bəşəri ləyaqətdir!" – deyirəm.

"Müxtəliflik – çətinlik törədir!" – deyirlər.

"Müxtəliflik – zənginlik yaradır!" – deyirəm.

"Bir dil, bir bəşər, bir ehkam – bəşərin sabahı budur!" – deyirlər.

"Dillər, xalqlar, mədəniyyətlər əlvanlığı – bəşərin sabahı budur!" – deyirəm.

"Bizim İnamımız gerçəkliyə əsaslanır!" – deyirlər.

“Mənim İnamım Ruha əsaslanır!” – deyirəm.
***Ruh çoxa inanmır!***

### *Müqəddəslik*

Bəşər bədiiyyat acı deyil!
Elm acı deyil!
Siyasət acı deyil!
***Müqəddəslik acıdır.***

Bədii Söz – Müqəddəs Sözü əvəz etmədi!
Elmi Söz – Müqəddəs Sözü əvəz etmədi!
Siyasi Söz – Müqəddəs Sözü əvəz etmədi!

Gözəl Söz söylədilər.
Dərin Söz söylədilər.
Şirin Söz söylədilər.
***Müqəddəs Söz söyləmədilər.***
Mütləq İdraka yüksəldən Söz!
Mütləq Mənəviyyata yüksəldən Söz!
Mütləq İradəyə yüksəldən Söz!

Dünyanı vəsf etdilər, ölçdülər-biçdilər, dəyişdilər.
Müqəddəs saymadılar.
Həyatı vəsf etdilər, ölçdülər-biçdilər, dəyişdilər.
Müqəddəs saymadılar.
İnsanı vəsf etdilər, ölçdülər-biçdilər, dəyişdilər.
Müqəddəs saymadılar.

Müqəddəs Söz söyləməliyik.
Söz – Amal.
Söz – Əməl.
Söz – Aqibət.

***Müqəddəs Dünya yaratmalıyıq.***
***Müqəddəs Həyat yaratmalıyıq.***
***Müqəddəs İnsan olmalıyıq.***

### *Vətən*

Vətən – Qəribdir.
Özündən ayrı düşüb.
Özünü tapmalıdır.
Özünə çatmalıdır.

### *Bəxtiyarlıq*

“Nisbidən başqa heç nə yoxdur!” – dedilər.
“Mütləqdən başqa heç nə yoxdur!” – dedim.
“Nəqdini qoyub nisyədən yapışırsan!” – dedilər.
“Nəqdi – yoxdur!” – dedim.
“Olanı qoyub olmayandan yapışırsan!” – dedilər.
“Olan – yoxdur!” – dedim.
***“Məhv olacaqsan!” – dedilər.***
***“Var olacam!” – dedim.***

## IV. SABAHLI

Dünyadayam – Dünyasızam!
Həyatdayam – Həyatsızam!
İnsanlıyam – İnsansızam!

Çünki Dünya – Dünya deyil!
Çünki Həyat – Həyat deyil!
Çünki İnsan – İnsan deyil!
Sabahlıyam – bugündəyəm!

### *xxx*

Dünya əvəzinə – Yoxluq!
Həyat əvəzinə – Yoxluq!
İnsan əvəzinə – Yoxluq!

### *xxx*

Məhəbbət əvəzinə – Məhəbbətsizlik!
Ədalət əvəzinə – Ədalətsizlik!
Həqiqət əvəzinə – Həqiqətsizlik!
Böyüklük əvəzinə – Yekəlik.
Etiqad əvəzinə – Zor.
Etimad əvəzinə – Sürülük.

Dostluğu düşmənliyindən betər.
Doğmalığı yadlığından betər.

Dünya hamınındır və heç kəsin deyil!
Həyat hamınındır və heç kəsin deyil!
İnsan hamınındır və heç kəsin deyil!
Torpaq hamınındır və heç kəsin deyil!
Əmlak hamınındır və heç kəsin deyil!
Əxlaq hamınındır və heç kəsin deyil!

Hamı – Dünyasızdır!
Hamı – Həyatsızdır!
Hamı – İnsansızdır!
Hamı – Torpaqsızdır!
Hamı – Əmlaksızdır!
Hamı – Əxlaqsızdır!

***xxx***

Dövlət ağalığı.
Dövlət qəddarlığı.
Dövlət quldarlığı.

***xxx***

İnsan əvəzinə – ictimai münasibət!
İnsan əvəzinə – istehsalat ünsürü!
İnsan əvəzinə – kollektivin üzvü!

***xxx***

Fərdiyyətsiz cəmiyyət.
Şəxsiyyətsiz şəxsiyyət.

***xxx***

Asılı qalmaqda müstəqiləm.
Sözsüz qalmağa sözüm var.
Azad olmaqdan azadam.

***xxx***

Dünyanı Dünyasız qoymaq olmaz!
Həyatı Həyatsız qoymaq olmaz!
İnsanı İnsansız qoymaq olmaz!

***xxx***

Allah olmalıyam!
Heçdən Dünya yaratmalıyam!
Heçdən Həyat yaratmalıyam!
Heçdən İnsan yaratmalıyam!
***Sabahlıyam – bugündəyəm!***

## V. ZƏRURİYYƏT

İnsan Sifəti Həyalı olur.
Həyalı Sifət yoxdur.
İnsan Ürəyi İnamlı olur.
İnamlı Ürək yoxdur.
İnsan Zəkası Qanadlı olur.
Qanadlı Zəka yoxdur.
İnsan ölüb. Ancaq Bəşər sağ görünür.

Təzə Sifət gərəkdir.
Təzə Ürək gərəkdir.
Təzə Zəka gərəkdir.
Təzə İnsan gərəkdir.
Diri Bəşər gərəkdir.

İnsan Nura bənzəyər, İnsan kora bənzəyir.
İnsan Dağa bənzəyər, İnsan daşa bənzəyir.
İnsan ölüb. Ancaq Bəşər sağ görünür.

Nurlu İnsan gərəkdir.
Məğrur İnsan gərəkdir.
Təzə İnsan gərəkdir.
Diri Bəşər gərəkdir.

Göz görmək üçündür. Görən göz Yoxdur.
Qulaq eşitmək üçündür. Eşidən qulaq Yoxdur.
Dil danışmaq üçündür. Danışan dil Yoxdur.
İnsan ölüb. Ancaq Bəşər sağ görünür.

Təzə göz gərəkdir.
Təzə qulaq gərəkdir.
Təzə dil gərəkdir.
Təzə İnsan gərəkdir.
Diri Bəşər gərəkdir.

İnsan əyilməz – Əyilməyən İnsan Yoxdur!
İnsan sürülməz – Sürülməyən İnsan Yoxdur!
İnsan alçalmaz – Alçalmayan İnsan Yoxdur!
İnsan aldanmaz – Aldanmayan İnsan Yoxdur!
İnsan ölüb. Ancaq Bəşər sağ görünür.

Təzə İnsan gərəkdir.
Diri Bəşər gərəkdir.

## VI. QƏLƏBƏ

Gözəl Dünya yaratdılar – Dünya yox oldu.
Gözəl Həyat yaratdılar – Həyat yox oldu.
Gözəl İnsan yaratdılar – İnsan yox oldu.
Dövlət Mülkiyyətə sahib oldu.
Hakimiyyətə sahib oldu.
Fərdiyyətə sahib oldu.
Şəxsiyyətə sahib oldu.
İradəyə sahib oldu.
İdraka sahib oldu.
İnsan Dövlətdə itdi.

## VII. GƏLƏCƏK

Dövləti Birlik əvəz edəcək!
Birlik Mülkiyyətə sahib olacaq.
Hakimiyyətə sahib olacaq.
Fərdiyyətə sahib olacaq.
Şəxsiyyətə sahib olacaq.

İdraka sahib olacaq.
İradəyə sahib olacaq.
İnsan Birlikdə itəcək!
Bəşər Səadətə çatacaq!

## VIII. BUGÜNKÜLƏR

"Bizə oxşa!" – dedi naqis.
"Bizə oxşa!" – dedi xəbis.
"Bizə oxşa!" – dedi əyyaş.
"Bizə oxşa!" – dedi sərxoş.
"Bizə oxşa!" – dedi yaltaq.
"Bizə oxşa!" – dedi alçaq.

Bizik Dünya.
Bizik Həyat.
Bizik İnsan.
Bizik Çoxluq.
Bizik Hamı.

Birgə naqislər.
Birgə xəbislər.
Birgə əyyaşlar.
Birgə yaltaqlar.
Birgə alçaqlar.
Birgə Yoxlar.

Zəlillik kütləşdi.
Satqınlıq kütləşdi.
Azğınlıq kütləşdi.

Namus təkləndi.
Qeyrət təkləndi.
Mərifət təkləndi.

Erkəklik kütləşdi.
Kişilik təkləndi.

Dişilik kütləşdi.
Qadınlıq təkləndi.

Əyrilik kütləşdi.
Düzlük təkləndi.

Naşılıq kütləşdi.
Müdriklik təkləndi.

Yamanlıq kütləşdi.
Yaxşılıq təkləndi.

Bədxahlıq kütləşdi.
Saflıq təkləndi.

İlanlıq kütləşdi.
İnsanlıq təkləndi.

Dünya Şərlə doldu.
Xeyir təkləndi.

Qocalarınızda ağsaqqallıq öldü,
cavanlarınızda ismət!
Alimlərinizdə müdriklik öldü,
xadimlərinizdə ləyaqət!

***Ölüsünüz!***
İnamınız ölüb!
İdrakınız ölüb!
Əxlaqınız ölüb!
İradəniz ölüb!

***Ölüsünüz!***
Təltif adlı Nəsrullaha möhtacsınız!
Rütbə adlı Nəsrullaha möhtacsınız!
Varidat adlı Nəsrullaha möhtacsınız!
Şöhrət adlı Nəsrullaha möhtacsınız!
***Ölüsünüz – xoşbəxtsiniz!***
***Ölü – ölmür.***

Bir dən qədər torpağa gərək deyilsiniz!
Torpaqdan yemlənirsiniz!
Ancaq torpaq sizi hiss etmir!
***Çünki yoxsunuz!***

Yazdığınız kitablara düşürsünüz –
"Varıq!" – deyə.
Yazdığınız kitablar heç.
***Heçə düşürsünüz!***

Daxilinə enmirsən – çünki boşdur.
Ömrünü vərəqləmirsən – çünki vərəqlər ağdır.
Sevilmirsən – buna görə də lovğalanırsan!
Nailiyyətin yoxdur – buna görə də bağırırsan!
Dilin ağzına sığmır – çünki deməyə sözün yoxdur.

Atasızsan – Atalı görünürsən!
Evladsızsan – Evladlı görünürsən!
Kitabsızsan – Kitablı görünürsən!
Şeirsizsən – şeirli görünürsən!

Meyvən yoxdur – bağçalı görünürsən!
Aqibətin yoxdur – aqibətli görünürsən!
Dünənlə Sabah arasında boşluqsunuz!
        İnam boşluğu!
        İdrak boşluğu!
        Mənəviyyat boşluğu!
        İradə boşluğu!

"Sabah bizimdir!" – dedi bugünkülər.
"Sabah elə bizik!" – dedi bugünkülər.
Yalan söylədi bugünkülər.
Sabah – Yox olmaz!

Bəşər ölməliydi. Dirilməkçün.
***Bugünkülərdə bəşər öldü.***

## *İnsanlıq Vaxtı*

"Fədakarlıq vaxtı deyil!" – dedilər.
"Müqəddəslik vaxtı deyil!" – dedilər.
"Ruhanilik vaxtı deyil!" – dedilər.

"Fədakarlıq vaxtı – İnsanlıq vaxtıdır!" – dedim.
"Müqəddəslik vaxtı – İnsanlıq vaxtıdır!" – dedim.
"Ruhanilik vaxtı – İnsanlıq vaxtıdır!" – dedim.

## IX. YOXLAR

Vara səcdə qılırlar.
Var – heçdir.
Nişana səcdə qılırlar.
Nişan – heçdir.
Rütbəyə səcdə qılırlar.
Rütbə – heçdir.
Heçə səcdə qılırlar.
***Allahları heçdir!***

"Vicdanıma and olsun!" – deyir.
Vicdanı Yoxdur.
"Namusuma and olsun!" – deyir.
Namusu Yoxdur.
"Əqidəmə and olsun!" – deyir.
Əqidəsi Yoxdur.
***Yoxa and içir.***

Sevirlər – sevgi Yoxa çıxır.
Dostluq eləyirlər – Dostluq Yoxa çıxır.
İgidlik göstərirlər – İgidlik Yoxa çıxır.
Müdriklik göstərirlər – Müdriklik Yoxa çıxır.
***Ədalət yaradırlar – Ədalət Yoxa çıxır.***
***Səadət yaradırlar – Səadət Yoxa çıxır.***

Yoxlar dəstəsi yarandı.
Yoxlar məclisi yarandı.

Yoxlar məktəbi yarandı.
Yoxlar bayramı yarandı.
Yoxlar mərasimi yarandı.
Yoxlar zadəganları yarandı.
Yoxlar rəiyyəti yarandı.
***Var itdi, Yox qaldı.***

Canavar azaldı.
İnsan canavarlaşdı.
İlan azaldı.
İnsan ilanlaşdı.
Heyvan azaldı.
***İnsan Heyvanlaşdı.***

Yoxa Nifrətin yoxsa,
Hiddətin yoxsa,
Lənətin yoxsa,
***Yoxsan!***

**X. HAQLI**

Bugün İnsan yoxdur – Sabahkı İnsan naminə!
Bugün Vətən yoxdur – Sabahkı Vətən naminə!
Bugün Bəşər yoxdur – Sabahkı Bəşər naminə!

***xxx***

İnsan – Ruhdur!
Bugünkü – Ruhsuzdur – İnsan deyil!
Vətən – Özümlükdür!
Bugünkü – Özümsüzdür – Vətən deyil!
Bəşər – Mütləqlikdir!
Bugünkü – Mütləqsizdir – Bəşər deyil!

***xxx***

Bugünkünü İnsan saymaq – günahdır!
Bugünkünü Vətən saymaq – günahdır!
Bugünkünü Bəşər saymaq – günahdır!

***xxx***

Bugündə İnsan adına nə varsa – insansızlıqdır!
Vətən adına nə varsa – vətənsizlikdir!
Bəşər adına nə varsa – bəşərsizlikdir!

***xxx***

Məhəbbəti – məhəbbətsizlikdir!
Ülfəti – ülfətsizlikdir!
Qeyrəti – qeyrətsizlikdir!

***xxx***

Bugündə Ləyaqət görən – kordur.
Bugündə Həqiqət eşidən – kardır.
Bugünü vəsf edən – laldır.

***xxx***

Tamam yeni İnsan gərəkdir.
Tamam yeni Vətən gərəkdir.
Tamam yeni Bəşər gərəkdir.

***xxx***

Murdarlaşmış İnsan – İnsan deyil!
Murdarlaşmış Vətən – Vətən deyil!
Murdarlaşmış Bəşər – Bəşər deyil!

***xxx***

Murdarlaşmış İnsan –
ölməlidir və təzədən dirilməlidir!
Murdarlaşmış Vətən –
ölməlidir və təzədən dirilməlidir!
Murdarlaşmış Bəşər –
ölməlidir və təzədən dirilməlidir!

***xxx***

İnam yaratdılar – inamsızlıq yarandı.
İdrak yaratdılar – idraksızlıq yarandı.
Əxlaq yaratdılar – əxlaqsızlıq yarandı.
Yol yaratdılar – yolsuzluq yarandı.

***xxx***

“Millət Yox olanda Var olacaq!” – dedilər.
“Milli mədəniyyət solanda çiçəklənəcək!” – dedilər.

***xxx***

Fəhlə dövləti yaratdılar.
Fəhlə rəiyyətçiliyi bərqərar oldu.
Kəndli dövləti yaratdılar.
Kəndli rəiyyətçiliyi bərqərar oldu.
İnsani cəmiyyət yaratdılar.
İnsana yer tapılmadı.

***xxx***

Təşkilat İnsanı əzdi.
Təbliğat İnsanı əzdi.
Nişan İnsanı əzdi.
Fərman İnsanı əzdi.
Təltif İnsanı əzdi.
Tərif İnsanı əzdi.
İnsan kölələşdi.
İnsan kölgələşdi.

***xxx***

İndi axtar İnsanı – görüm tapırsanmı?!
İndi axtar Vətəni – görüm tapırsanmı?!
İndi axtar Bəşəri – görüm tapırsanmı?!

***xxx***

Kiçik böyüklər yaratdılar.
Alçaq ucalar yaratdılar.
Qorxaq igidlər yaratdılar.
Naşı loğmanlar yaratdılar.
Sadiq dönüklər yaratdılar.
Məğrur yaltaqlar yaratdılar.

***xxx***

Bugün İnsan yoxdur – Sabahkı İnsan naminə!
Bugün Vətən yoxdur – Sabahkı Vətən naminə!
Bugün Bəşər yoxdur – Sabahkı Bəşər naminə!

***xxx***

İnsan yaradacağıq – İnsan olacağıq.
Vətən yaradacağıq – Vətən olacağıq!
Bəşər yaradacağıq – Bəşər olacağıq!

***xxx***

Məktəbi – məktəbsizlik!
Tərbiyəsi – tərbiyəsizlik!
Elmi – elmsizlik!
Sənəti – sənətsizlik!

Həyası – həyasızlıq.
Vicdanı – vicdansızlıq.
Məsumluğu – fəsadlıq.
Doğruluğu – əyrilik.

Əsilliyi – sünilik.
İlkinliyi – çirkinlik.
Diriliyi – ölülük.

***xxx***

Halal harama özgəydi – doğma olublar.
Hörmət həqarətə özgəydi – doğma olublar.
Həya riyaya özgəydi – doğma olublar.
Cəsarət Qorxuya özgəydi – doğma olublar.

Söz əməllə doğmaydı – yadlaşdılar.
İnam ürəklə doğmaydı – yadlaşdılar.
İdrak zəkayla doğmaydı – yadlaşdılar.
İsmət qadınlıqla doğmaydı – yadlaşdılar.
Qeyrət kişiliklə doğmaydı – yadlaşdılar.

***xxx***

Ədalət nə deməkdir?
Sədaqət nə deməkdir?
Məhəbbət nə deməkdir?
***Tərcüməçi gərəkdir.***

Həqiqət nə deməkdir?
Ləyaqət nə deməkdir?
Mərifət nə deməkdir?
***Tərcüməçi gərəkdir.***

Düzgünlük nə deməkdir?
Yetkinlik nə deməkdir?
İlkinlik nə deməkdir?
***Tərcüməçi gərəkdir.***

Haqsevər nə deməkdir?
Xalqsevər nə deməkdir?
***Tərcüməçi gərəkdir.***

***xxx***

Həqiqətin dadını bilmirsən.
Çünki Yalanla yemlənirsən.
Cəmiyyət Həqiqət xörəyi bişirmir,
Yalan xörəyi bişirir.
Gözün daim yalan görür.
Qulağın daim yalan eşidir.
Dilin daim yalan söyləyir.

Həqiqəti görmürsən!
Həqiqəti eşitmirsən!
Həqiqəti danışmırsan!
Həqiqətsizsən! Yalanlısan!

***xxx***

Köləlikdə özünə Sahib olmursan,
Sahibinə məxsus olursan!
Taleyin öz əlində olmur,
Sahibin əlində olur.
Özünə məsul olmursan!
Çiynindən ağır bir yükü atırsan!
Yüngülləşir – köləlik rəqsi sındırırsan!

***xxx***

Deyirlər: “Zəncirini qır!” – deyirsən: “Ayaqlarımı itirərəm!”
Deyirlər: “Öz yolunla get!” – deyirsən: “Azaram!”
Deyirlər: “Yaşa!” – deyirsən: “Ölərəm!”

***xxx***

“Ayaqlarını itirsən də – zəncirlərini qır!”
“Azsan da – öz yolunla get!”
***“Ölsən də, yaşa!”***

***xxx***

Sabahkılar gözlərinə inanmayacaqlar:
“Gözsüz də İnsan olarmış!” – deyəcəklər.
Sabahkılar qulaqlarına inanmayacaqlar:
“Qulaqsız da İnsan olarmış!” – deyəcəklər.
Sabahkılar dillərinə inanmayacaqlar:
“Dilsiz də İnsan olarmış!” – deyəcəklər.

***xxx***

Haqlıya zaval yoxdur!
Çirkab yağışı yağır üstünə – islanmır.
Qəzəb şimşəyi çaxır başına – əyilmir!
Əzab şimşəyi şaqqalayır bədənini – parçalanmır.
Həyəcan burulğanı bürüyür qəlbini – sarsılmır.
***Çünki Haqlıdır!***

## XI. YÜKSƏKLİK

Həyata inanma!
Həyat səni aldadacaq!
Cavansan – qocaldacaq!
Sağsan – öldürəcək!

***xxx***

Amala inan!
Amal – qocalmaz!
Amal – ölməz!

***xxx***

Cəmiyyətə inanma!
Cəmiyyət səni səndən gizləyəcək!
Özündən kiçik bilinəcəksən!
Özündən gücsüz bilinəcəksən!
Amala inan.
Böyüyəcəksən!
Güclənəcəksən!

***xxx***

Ürəyində günəş olsun! Yoxsa üşüyərsən!
Həyat soyuqdur!
Ağlında günəş olsun! Yoxsa azarsan!
Həyat qaranlıqdır.

***xxx***

Həyat çirkaba bulanır.
Günaha batır.
Heyvanlaşır.

Amal – çirkabsızdır.
Günahsızdır.
Müqəddəsdir.

***xxx***

Yola çıxanda Həyatla çıxma – Amalla çıx.
Həyat dönər. Amal dönməz.

***xxx***

Həyat qəhrəmanları yoxdur,
Amal qəhrəmanları var.
Həyat müqəddəsləri yoxdur,
Amal müqəddəsləri var.
Həyat kamilləri yoxdur,
Amal kamilləri var.
Həyat yolçuları yoxdur,
Amal yolçuları var.
Həyat sadiqləri yoxdur,

Amal sadiqləri var.
Həyat müdrikləri yoxdur,
Amal müdrikləri var.
Həyat qalibləri yoxdur,
Amal qalibləri var.

***xxx***

Çünki Həyat qəhrəmanları – qorxaqdır!
Çünki Həyat müqəddəsləri – günahkardır!
Çünki Həyat kamilləri – naqisdir!
Çünki Həyat yolçuları – yolsuzdur!
Çünki Həyat sadiqləri – dönükdür!
Çünki Həyat qalibləri – məğlubdur!

***xxx***

Həyat çiçəkləri solur –
Amal çiçəkləri solmur.
Həyat ocaqları sönür –
Amal Ocaqları sönmür.
Həyat bulaqları quruyur –
Amal bulaqları daim qaynayır.

***xxx***

Həyat doğur – Amal yaradır!
Həyat itirir – Amal tapır!

## XII. YADLIQ

İnsana yad olanlar arasında yadam!
Vicdana yad olanlar arasında yadam!
İnama yad olanlar arasında yadam!
İdraka yad olanlar arasında yadam!

***xxx***

Həqiqət Yalana yad olan kimi.
Cəsarət Qorxuya yad olan kimi.
Ləyaqət Qəbahətə yad olan kimi.

***xxx***

Məhəbbətlərinə Yadam – çünki məhəbbətsizdirlər.
Fərəhlərinə Yadam – çünki fərəhsizdirlər.
Qeyrətlərinə Yadam – çünki qeyrətsizdirlər.
Fikirlərinə Yadam – çünki fikirsizdirlər.
Duyğularına Yadam – çünki duyğusuzdurlar.

***xxx***

Yadlığımla məhəbbətliyəm!
Yadlığımla fərəhliyəm!
Yadlığımla qeyrətliyəm!
Yadlığımla fikirliyəm!
Yadlığımla duyğuluyam!

***xxx***

Yadlarla dostlaşmadım – yadlıqla dostlaşdım!
Yadları sevmədim – yadlığı sevdim.

***xxx***

Yada yad oldum – yadlığa yad olmadım!
Yada yad oldum – yadlıqla doğmalaşdım!

## XIII. HÖKM

Çirkab evini tərk etmək gərək!
Saflıq qapısını döymək gərək!

Xülya evini tərk etmək gərək!
Haqq qapısını döymək gərək!

Köləlik evini tərk etmək gərək!
Vüqar qapısını döymək gərək!

## XIV. GERÇƏKLİK HÜDUDU

Gerçəklikdə Dünya nisbiləşir.
Gerçəklikdə Həyat nisbiləşir.
Gerçəklikdə İnsan nisbiləşir.
Bu səbəbdən də gerçəklikdən keçən – Dünyanı seçir.
Həyatı seçir.
İnsanı seçir.

***xxx***

Gerçəklikdə İnam nisbiləşir.
Mənəviyyat nisbiləşir.
İdrak nisbiləşir.
İradə nisbiləşir.
Bu səbəbdən də gerçəklikdən keçən – Mənəviyyatı seçir.
İdrakı seçir.
İradəni seçir.

***xxx***

Təbiət gerçək insanda qurtarır –
İnsan gerçək insanda başlayır.

Təbiət gerçək həyatda qurtarır –
İnsan gerçək həyatda başlayır.

Təbiət gerçək dünyada qurtarır –
İnsan gerçək dünyada başlayır.

***xxx***

Göz – Mütləqi görmür,
– Mahiyyəti görmür,
– Amalı görmür.
Göz – kordur.
***Görən – Ruhdur!***

Dil – Mütləqlə danışmır.
– Mahiyyətlə danışmır.
– Amalla danışmır.
Dil – laldır.
***Danışan – Ruhdur!***

Qulaq – Mütləqi eşitmir,
– Mahiyyəti eşitmir.
– Amalı eşitmir.
Qulaq – kardır.
***Eşidən – Ruhdur!***

***xxx***

Gerçəkliyin varidatını götürmə – yoxsulluğunu götür!
Nəşəsini götürmə – əzabını götür!
Səadətini götürmə – fəlakətini götür!
Sevincini götürmə – kədərini götür!

***xxx***

Gerçək İnam – İnamsızlıq Quyusudur – Düşmə!
Gerçək İdrak – İdraksızlıq Quyusudur – Düşmə!
Gerçək Mənəviyyat – Mənəviyyatsızlıq Quyusudur – Düşmə!
Gerçək İradə – İradəsizlik Quyusudur – Düşmə!

***xxx***

Gerçəklik hüdudunda İnsan yoxdur!
Həyat yoxdur!
Dünya yoxdur!

Gerçəklik hüdudunu aşmaq gərək!
İnsanlaşmaq gərək!
Dünyalaşmaq gərək!
Həyatlaşmaq gərək!

## XV. FƏRDİYYƏT

Cəmiyyətə inanan – Özünə inanmaz!
Şəraitə inanan – Özünə inanmaz!
Bədənə inanan – Özünə inanmaz!
Ruha inanan – Özünə inanar!

***xxx***

Cəmiyyət deyir ki, İnsan – ictimai varlıqdır.
Şərait deyir ki, İnsan – qeyri-sabit varlıqdır.
Bədən deyir ki, İnsan – cismani varlıqdır.
***Ruh deyir ki, İnsan – Ruhani Varlıqdır.***

***xxx***

Cəmiyyət deyir ki, İnsan cəmiyyətdən asılıdır.
Şərait deyir ki, İnsan şəraitdən asılıdır.
Bədən deyir ki, İnsan bədəndən asılıdır.
Ruh deyir ki, cəmiyyət İnsandan asılıdır,
şərait İnsandan asılıdır,
bədən İnsandan asılıdır!

***xxx***

Cəmiyyət İnsanı aldadır!
Şərait İnsanı aldadır!
Bədən İnsanı aldadır!
Ruh – Haqdır!

***xxx***

Cəmiyyətin İdrakı sönükdür!
Şəraitin İdrakı sönükdür!
Bədən – İdraksızdır!
***Ruhun İdrakı – Mütləqdir!***

***xxx***

Cəmiyyət – İnsanı İnsansızlaşdırır.
Şərait – İnsanı İnsansızlaşdırır.
Bədən – İnsanı İnsansızlaşdırır.
Cəmiyyət Əxlaqı – Əxlaqsızlıqdır.
Şərait Əxlaqı – Əxlaqsızlıqdır.
Bədən əxlaqı – Əxlaqsızlıqdır.

***xxx***

Cəmiyyət əxlaqının inkarından yaranır Əxlaq.
Şərait əxlaqının inkarından yaranır Əxlaq.
Bədən əxlaqının inkarından yaranır Əxlaq.

***xxx***

Cəmiyyət İradəsi – iradəsizlikdir!
Şərait İradəsi – iradəsizlikdir!
Bədən İradəsi – iradəsizlikdir!

***xxx***

Cəmiyyət İradəsinin inkarından yaranır İradə!

Şərait İradəsinin inkarından yaranır İradə!

Bədən İradəsinin inkarından yaranır İradə!

İdrakı, Əxlaqı, İradəni – Cəmiyyət, Şərait, Bədən yaratmır, Ruhani Fərdiyyət yaradır.

O, cəmiyyətin, şəraitin, bədənin üzərində qələbə çalır, ucalır.

***İnsaniləşmək – Ruhani Fərdiləşməkdir.***

## XVI. XALQ

Xalq – Ruhdur, Təzahürdən – cəmiyyətdən artıqdır, böyükdür, yüksəkdir!

Xalq – Əbədidir, cəmiyyət – keçicidir!

Xalq – Sonsuzdur, cəmiyyət – sonludur.

Xalq – Kamildir, cəmiyyət – qeyri-kamildir.

***Xəlqi İdrak*** – ictimai idrakdan artıqdır, böyükdür, yüksəkdir.

Çünki ictimai idrak – keçicidir, sonludur, qeyri-kamildir.

Ancaq Xəlqi idrak – Əbədidir, Sonsuzdur, Kamildir.

***Bu səbəbdən də Xəlqi İdrak – hakim ictimai idraka sığmır, ondan kənara çıxır, onun üzərində yüksəlir.***

***Xəlqi Mənəviyyat*** – ictimai mənəviyyatdan artıqdır, böyükdür, yüksəkdir.

Çünki ictimai mənəviyyat – keçicidir, sonludur, qeyri-kamildir!

Ancaq Xəlqi mənəviyyat – əbədidir, sonsuzdur, kamildir.

Bu səbəbdən də Xəlqi Mənəviyyat hakim əxlaqa sığmır, ondan kənara çıxır, onun üzərində yüksəlir.

***Xəlqi İradə*** – ictimai İradədən artıqdır, böyükdür, yüksəkdir.

Çünki o, əbədidir, sonsuzdur, kamildir, ictimai iradə isə keçicidir, sonludur, qeyri-kamildir!

Bu səbəbdən də Xəlqi İradə ictimai iradəyə sığmır, ondan kənara çıxır, onun üzərində yüksəlir.

***Cəmiyyət*** Xalqa bərabər görünməyə çalışır və bununla da İnsanı aldadır!

***İctimai İdrak*** Xəlqi İdraka bərabər görünməyə çalışır və bununla da İnsanı aldadır!

***İctimai Əxlaq*** Xəlqi Mənəviyyata bərabər görünməyə çalışır və bununla da İnsanı aldadır!

***İctimai İradə*** Xəlqi İradəyə bərabər görünməyə çalışır və bununla da İnsanı aldadır!

***Nisbi – Mütləqə bərabər ola bilməz.***
***Cəmiyyət – öləndir, Xalq – qalan!***

## XVII. MÜTLƏQİM

İnsanın Mahiyyəti.
Dünyanın Mahiyyəti.
Həyatın Mahiyyəti.

***xxx***

Əbədi olan!
Sonsuz olan!
Kamil olan!

***xxx***

İnsanın gerçək vəziyyətindən artıq, böyük, yüksək!
Dünyanın gerçək vəziyyətindən artıq, böyük, yüksək!
Həyatın gerçək vəziyyətindən artıq, böyük, yüksək!

***xxx***

İnsan Nisbidə Təzahür edir, ancaq Nisbiyə sığmır, ondan kənara çıxır, onun üzərində yüksəlir, Mütləqə can atır.

Dünya Nisbidə Təzahür edir, ancaq Nisbiyə sığmır, ondan kənara çıxır, onun üzərində yüksəlir, Mütləqə can atır.

Həyat Nisbidə Təzahür edir, ancaq Nisbiyə sığmır, ondan kənara çıxır, onun üzərində yüksəlir, Mütləqə can atır.

Mütləqə can atan – Mahiyyətə can atır.

Mahiyyət – Mütləqdir, Əbədidir, Sonsuzdur, Kamildir.

***xxx***

Nisbi Mahiyyət – Yoxdur!
Keçici Mahiyyət – Yoxdur!
Sonlu Mahiyyət – Yoxdur!
Qeyri-Kamil Mahiyyət – Yoxdur!
***Bu səbəbdən də Mütləq Var.***

***xxx***

***Mütləq Var*** – ona görə də İnsan nisbiylə barışmır, kifayətlənmir, nisbidə dayanıb qalmır.

***Mütləq Var*** – ona görə də Dünya nisbiylə barışmır, kifayətlənmir, nisbidə dayanıb qalmır.

***Mütləq Var*** – ona görə də Həyat nisbiylə barışmır, kifayətlənmir, nisbidə dayanıb qalmır.

***xxx***

***Mütləq Var*** – ona görə də gerçək İnsan öz Mahiyyətindən aşağıdır.

Gerçək Dünya öz Mahiyyətindən aşağıdır.

Gerçək Həyat öz Mahiyyətindən aşağıdır.

***xxx***

Deməli, İnsan gerçək İnsanı ötməlidir.
Dünya gerçək Dünyanı ötməlidir.
Həyat gerçək Həyatı ötməlidir.

***xxx***

Deməli, İnsan İnsandan böyükdür.
Dünya Dünyadan böyükdür.
Həyat Həyatdan böyükdür.

***xxx***

Deməli, İnsan göründüyündən artıqdır.
Dünya göründüyündən artıqdır.
Həyat göründüyündən artıqdır.

***xxx***

Deməli, Mütləqə inanmaq – İnsanı tapmaqdır!
Dünyanı tapmaqdır!
Həyatı tapmaqdır!

***xxx***

Mahiyyət İnsanı qabaqlayır!
İnsan Mütləqə ucalır.
Mahiyyət Dünyanı qabaqlayır!

Dünya Mütləqə ucalır.
Mahiyyət Həyatı qabaqlayır!
Həyat Mütləqə ucalır.

***xxx***

İnsanın, Dünyanın, Həyatın yaradıcısı –
İnsanın, Dünyanın, Həyatın özü – Mahiyyətidir.
Varlığı yaradan Allah – Yoxdur.

***xxx***

İnsan gerçəkliyə – gerçəkliyin gözüylə yox,
Ruhun – İnsani Mahiyyətin – gözüylə baxmalıdır.
Gerçəklik – Nisbini Var olan sayır.
Ruh – yalnız Mütləqi Var olan sayır.

***xxx***

Ruhun Məntiqinə əsasən, yalnız Mütləq Ədalət Ədalətdir, nisbi Ədalət – Yoxdur.
Yalnız Mütləq Həqiqət – Həqiqətdir, nisbi Həqiqət – Yoxdur.
Yalnız Mütləq Əxlaq – Əxlaqdır, nisbi Əxlaq – Yoxdur.
Yalnız Mütləq İradə – İradədir, nisbi İradə – Yoxdur!

***xxx***

Gerçəklik – Mütləq Hadisə tanımır.
Bu səbəbdən də o, Var olmur.
***Ruh gerçəkliyin Yoxluğunu görür.***

***xxx***

“Gerçəklik Yoxdur!” – etirafında Həyata İnam var.
Demək, gerçəklik həyata bərabər deyil;
“Gerçəklik – Vardır!” – etirafında Həyata Şübhə var.
Deməli, gerçəklik həyata bərabərdir.

***xxx***

İnsan – gerçəkliyi ötür!
Qəhrəmanlığa yüksəlir!
Fədakarlığa yüksəlir!
Saflığa yüksəlir!

Müdrikliyə yüksəlir!
Gerçəkliyi geridə qoyur!
Mütləqləşir!

***xxx***

Mütləqim!
Özümdən böyük – Özüm!
Dünyadan böyük – Dünyam!
Həyatdan böyük – Həyatım!

## XVIII. ALDANIŞ

### *Uçurum*

“Çiçəkliyik!” – deyirlər.
Uçurumda gül bitərmi?
“Binalıyıq!” – deyirlər.
Uçurumda bina qurularmı?

“Meyvəliyik!” – deyirlər.
Uçurumda meyvə yetişərmi?

“Diriyik!” – deyirlər.
Uçurumda dirilik olarmı?

İnamda uçurum yaratdılar.
Uçurumda İnam yaranarmı?

İdrakda uçurum yaratdılar.
Uçurumda İdrak yaranarmı?

Mənəviyyatda uçurum yaratdılar.
Uçurumda Mənəviyyat yaranarmı?

İradədə uçurum yaratdılar.
Uçurumda İradə yaranarmı?

Uçurumda Cəmiyyət yaratdılar.
Uçurumda Ədalət yaratdılar.

Uçurumda Həqiqət yaratdılar.
Uçurumda Səadət yaratdılar.

Fərəh uçuruma düşdü.
İstək uçuruma düşdü.
Məslək uçuruma düşdü.

Uçurum vüqarı yarandı.
Uçurum nişanı yarandı.
Uçurum sahibi yarandı.
Uçurum dahisi yarandı.

İnsana uçurumdan baxdılar.
Dünyaya uçurumdan baxdılar.
Həyata uçurumdan baxdılar.
Uçuruma səslədilər.
Uçuruma saldılar.

Söz uçuruma düşdü – deyilmədi.
Səs uçuruma düşdü – eşidilmədi.
Fikir uçuruma düşdü – qanadı sındı.
Ürək uçuruma düşdü – qanadı.

"Uçurum – uludur!" – dedilər.
"Uçurum – nurludur!" – dedilər.
"Uçurum – nicatdır!" – dedilər.
"Uçurum – savabdır!" – dedilər.

"Uçuruma düşməyən – kafirdir!" – dedilər.
"Uçuruma düşməyən – xaindir!" – dedilər.
"Uçuruma düşməyən – cahildir!" – dedilər.

"Uçurumu uçurmaq olmaz!" – dedilər.
"Uçurumu dağıtmaq olmaz!" – dedilər.
"Uçurumu adlamaq olmaz!" – dedilər.

Uçuruma düşdülər.
Uçuruma yaradılar.
Uçuruma yaraşdılar.

### *Dünyasızlıq*

"Yüzü pisdirsə – biri yaxşıdır" – dedilər.
"Yüzü pisdirsə – yüz biri də pisdir" – dedim.

"Yüz alaq otu arasında bir gül tapılar" – dedilər.
"Alaq otu düzündə gül qəribdir" – dedim.

"Yüz çirkli arasında bir təmiz tapılar" – dedilər.
"Çirkli dünyada təmiz qəribdir" – dedim.

"Yüz topal arasında bir ayaqlı tapılar" – dedilər.
"Topal dünyada ayaqlı qəribdir" – dedim.

"Yüz alçaq arasında bir uca tapılar" – dedilər.
"Alçaq dünyada uca qəribdir" – dedim.

"Yüz zalım arasında bir adil tapılar" – dedilər.
"Zalım dünyada adil qəribdir" – dedim.

"Yüz namərd arasında bir mərd tapılar" – dedilər.
"Namərd dünyada mərd qəribdir" – dedim.

"Yüz əyyaş arasında bir aşiq tapılar" – dedilər.
"Əyyaş dünyada aşiq qəribdir" – dedim.

"Yüz arsız arasında bir dərdli tapılar" – dedilər.
"Arsız dünyada dərdli qəribdir" – dedim.

"Hər şeyi inkar etmək olmaz" – dedilər.
"Heç şey hər şey olanda dünya yox olur" – dedim.

***xxx***

“Pisə qalan dünya – dünya deyil!”– dedim orada gül bitsə də.

“Çirkliyə qalan dünya – dünya deyil!” – dedim – orada təmiz tapılsa da.

“Topala qalan dünya – dünya deyil!” – dedim – orada ayaqlı tapılsa da.

“Alçağa qalan dünya – dünya deyil!” – dedim – orada uca tapılsa da.

“Zalıma qalan dünya – dünya deyil!” – dedim – orada adil tapılsa da.

“Namərdə qalan dünya – dünya deyil!” – dedim – orada mərd tapılsa da.

“Əyyaşa qalan dünya – dünya deyil!” – dedim – orada aşiq tapılsa da.

“Arsıza qalan dünya – dünya deyil!” – dedim – orada dərdli tapılsa da.

## *Günah*

“Bəşər axtarır – tapmır!” – dedilər.
“Bəşər axtarmır – aldanır!” – dedim.

“Bəşərin Allahları çox olub!” – dedilər.
“Mütləqi olmayıb!” – dedim.

“Bəşərin dahiləri çox olub!” – dedilər.
“Atası olmayıb!” – dedim.

“Bəşərə Söz söyləyən çox olub!” – dedilər.
“Həqiqət söyləyən az olub!” – dedim.

“Bəşəri cənnətə səsləyiblər!” – dedilər.
“Cəhənnəmə düşüb!” – dedim.

“Bəşər cəmiyyəti dəyişib!” – dedilər.
“Özünü dəyişə bilməyib!” – dedim.

“Bəşər vədlərə inanıb!” – dedilər.
“Şirnikib!” – dedim.

"Bəşər – qədimdir!" – dedilər.
"Körpədir!" – dedim.

"Bəşər irəli gedib!" – dedilər.
"Sürülüb!" – dedim.

"Uzun yol keçib!" – dedilər.
"Yolunu tapmayıb!" – dedim.

"Heyvanla döyüşüb!" – dedilər.
"Özüylə döyüşməyib!" – dedim.

"Talesizdir!" – dedilər.
"Günahkardır!" – dedim.

"Axtardı – tapmadı!" – dedilər.
"Özünü axtarmadı!" – dedim.
***Axtaracaq – tapacaq – dedim.***

### *Nicat Əsatiri*

Fəhlə hakimiyyətə gəlməliydi!
Kəndli hakimiyyətə gəlməliydi!
Zavod fəhlənin olmalıydı!
Torpaq kəndlinin olmalıydı!

Fəhlə hakimiyyətdən kənarda qaldı!
Kəndli hakimiyyətdən kənarda qaldı!
Fəhlə Mülkiyyətdən kənarda qaldı!
Kəndli Mülkiyyətdən kənarda qaldı!

### *xxx*

"Millətlər biri-birinə qovuşacaq.
Vahid bəşəriyyət yaranacaq!" – deyirlər.
(Yəni kiçik millətlər böyük millətlərin içərisində əriyəcək!)
"Milli mədəniyyətlər biri-birinə qovuşacaq.

Vahid ümumbəşəri mədəniyyət yaranacaq!” – deyirlər.
(Yəni “kiçik mədəniyyətlər böyük mədəniyyətlərin içərisində əriyəcək!”).
“Ölkələr biri-birinə qovuşacaq, vahid ölkə yaranacaq!” – deyirlər.
(Yəni dünya “böyük millətə” qalacaq!)

***xxx***

“Maddi təminat yüksək mənəviyyat yaradır!” – deyirlər.
“Mənəviyyat maddiyyatdan asılı deyil!” – deyirəm.
“İctimailəşən – insanilәşir!” – deyirlər.
“İnsanilәşmək – ictimailəşməkdən asılı deyil!” – deyirəm.
“Mənəviyyat İnsandan asılıdır!” – deyirəm.
“İnsanilәşmək – İnsandan asılıdır!” – deyirəm.

***xxx***

“Mülkiyyət Fərdin olanda – Dünya naqisləşir!” – deyirlər.
“Mülkiyyət ictimai (Ümumi) olanda – Dünya insanilәşir” – deyirlər.
“Bütün fəlakətlərin səbəbi Fərdi (Xüsusi) mülkiyyətdədir” – deyirlər.
“Bütün dərdlərin əlacı – ictimai (Ümumi) mülkiyyətdir” – deyirlər.

“Mülkiyyət Dövlətin (Ümuminin) əlinə keçəndə – Dünya pisləşir” – deyirəm.
“Dövlət (Ümumi) Mülkiyyətində istismar bərqərar olur” – deyirəm.
“Dövlət Mülkiyyətində izafi dəyər mənimsənilir” – deyirəm.
“İstismarçı siniflərin ləğvi – istismarı aradan qaldırmır” – deyirəm.
“Mülkədarsız dünya – gözəl dünya olmur” – deyirəm.
“Kapitalistsiz dünya – gözəl dünya olmur” – deyirəm.
“Məsələ İnsani səviyyədədir” – deyirəm.
“Məsələ – İdrakdadır” – deyirəm.
“Məsələ – Mənəviyyatdadır” – deyirəm.
“Məsələ – İradədədir” – deyirəm.
“Məsələ – İnsanilәşməkdədir!” – deyirəm.

***xxx***

“Şəxsiyyəti çoxluq (kollektiv) tərbiyə edir!” – deyirlər.
“Çoxluqda naqislik azalmır, artır!” – deyirəm.
“Kollektiv haqlıdır – Fərd haqsız!” – deyirlər.
“Kollektiv haqq – kollektiv haqsızlıq yaradır” – deyirəm.
“Şəxsiyyəti şəxsiyyət özü tərbiyə edir!” – deyirəm.
“Şəxsiyyət naqisliyini anlayır və aradan qaldırır!” – deyirəm.
“Şəxsiyyət məziyyətlərini görür və bəsləyir!” – deyirəm.

## *Tilsim*

Böyük ***kitabları*** oxumadın –
kiçik kitabları oxudun.
Xalis kitabları oxumadın –
naqis kitabları oxudun.
Düz kitabları oxumadın –
əyri kitabları oxudun.
Ülvi kitabları oxumadın –
bəsit kitabları oxudun.
Zəngin kitabları oxumadın –
yoxsul kitabları oxudun.
***Deməli, əslində kitab oxumadın.***

Böyük ***sözləri*** eşitmədin –
kiçik sözləri eşitdin.
Xalis sözləri eşitmədin –
naqis sözləri eşitdin.
Düz sözləri eşitmədin –
əyri sözləri eşitdin.
Ülvi sözləri eşitmədin –
bəsit sözləri eşitdin.
Zəngin sözləri eşitmədin –
yoxsul sözləri eşitdin.
***Deməli, əslində söz eşitmədin.***

Böyük ***Zəka*** görmədin – kiçik Zəka gördün.
Xalis Zəka görmədin – naqis Zəka gördün.
Düz Zəka görmədin – əyri Zəka gördün.
Ülvi Zəka görmədin – bəsit Zəka gördün.
Zəngin Zəka görmədin – yoxsul Zəka gördün.
***Deməli, əslində Zəka görmədin.***

Böyük ***Ürək*** görmədin – kiçik Ürək gördün!
Xalis Ürək görmədin – naqis Ürək gördün!
Düz Ürək görmədin – əyri Ürək gördün!
Ülvi Ürək görmədin – bəsit Ürək gördün!
Zəngin Ürək görmədin – yoxsul Ürək gördün!
***Deməli, əslində Ürək görmədin!***
Böyük ***İradə*** görmədin – kiçik İradə gördün!
Xalis İradə görmədin – naqis İradə gördün!
Düz İradə görmədin – əyri İradə gördün!
Ülvi İradə görmədin – bəsit İradə gördün!
Zəngin İradə görmədin – yoxsul İradə gördün!
***Deməli, əslində İradə görmədin!***

Kiçik böyüklər gördün.
Naqis xalislər gördün.
Əyri düzlər gördün.
Bəsit ülvilər gördün.
Yoxsul zənginlər gördün.

Aldatdılar səni – xəbərin olmadı!
Alçaltdılar səni – xəbərin olmadı!

***xxx***

Böyük görsən – tanımazsan!
Xalis görsən – tanımazsan!
Düz görsən – tanımazsan!
Ülvi görsən – tanımazsan!
Zəngin görsən – tanımazsan!
Tilsimdəsən!
***Tilsim sınacaq!..***

## XIX. HEÇLİKLƏ DOLU DÜNYA

Dünya heçliklə doludur.
Bu səbəbdən də Boşdur.
Dünya Ürəyi Boş adamlarla doludur.
Bu səbəbdən də Boşdur.
Dünya Qafası Boş adamlarla doludur.
Bu səbəbdən də Boşdur.
Dünya Əməli Boş adamlarla doludur.
Bu səbəbdən də Boşdur.

***xxx***

Dünya İnamsız İnamla doludur.
Bu səbəbdən də Boşdur.
Dünya İnsansız İnsanla doludur.
Bu səbəbdən də Boşdur.

Dost axtardın – Boşluğa düşdün.
Sevgili axtardın – Boşluğa düşdün.
İsmət axtardın – Boşluğa düşdün.
Ədalət axtardın – Boşluğa düşdün.
Həqiqət axtardın – Boşluğa düşdün.

***xxx***

Boşluq yağışına düşdün.
Boşluq selinə düşdün.
Boşluq quyusuna düşdün.
Boşluq səhrasına düşdün.

***xxx***

Dünya Boşluqla doludur.
Bu səbəbdən də Boşdur.

***xxx***

Dünyanı Boş qoymaq olmaz!
Dünya Çirkabla dolar.

Ürəyi Boş qoymaq olmaz!
Ürək Çirkabla dolar.

Zəkanı Boş qoymaq olmaz!
Zəka Çirkabla dolar.

Əməli Boş qoymaq olmaz!

***Dünyanı Papağı boşlara qoymaq olmaz!***

***xxx***

Dünya pətəyini İnamla dolduran Ruh gərəkdir.
Dünya pətəyini İdrakla dolduran Zəka gərəkdir.
Dünya pətəyini Duyğuyla dolduran Ürək gərəkdir.
Dünya pətəyini Xeyirlə dolduran Əməl gərəkdir.
***Dünya heçliklə dolub!***
***Bu səbəbdən də Boşdur!***

***xxx***

Söz pəhləvanları – Əməl cırtdanları!
Bəzək pəhləvanları – Gözəllik cırtdanları!
Haramlıq pəhləvanları – Halallıq cırtdanları!
Şəhvət pəhləvanları – Məhəbbət cırtdanları!
Əda pəhləvanları – Qüdrət cırtdanları!
Mənsəb pəhləvanları – İstedad cırtdanları!

***xxx***

Cırtdanlar çox olanda – pəhləvanlar görünmür.
Bəzək çox olanda – gözəllik görünmür.
Söz çox olanda – əməl görünmür.
Şəhvət çox olanda – məhəbbət görünmür.

***xxx***

Haram çox olanda – Halal da Haram görünür.
Əda çox olanda – Qüdrət də Əda görünür!
Mənsəb çox olanda – İstedad da Mənsəb görünür!

***xxx***

Ər əvəzinə – heçlik!
Arvad əvəzinə – heçlik!
Evlad əvəzinə – heçlik!

***xxx***

Dünya heçliklə zəngindir.
Bu səbəbdən də Yoxsuldur.

***xxx***

Heçlik dənizə düşür – batmır.
Yağışa düşür – islanmır.
Yoxuşa çıxır – təntimir.

***xxx***

Heçlik orduları yaranıb.
Heçlik müəssisələri yaranıb.
Heçlik məclisləri yaranıb.
Heçlik müəllimləri yaranıb.
Heçlik tələbələri yaranıb.
Heçlik mükafatı yaranıb.
Heçlik cəzası yaranıb.

***xxx***

And içirsən – heçi təsdiq edirsən!
Çünki Andına xilaf çıxacaqsan!

Döşünə döyürsən – heçi təsdiq edirsən!
Çünki peşiman olub başına döyəcəksən!

Qürrələnirsən – heçi təsdiq edirsən!
Çünki qürrələnməli əməlin yoxdur.

Hiddətlənirsən – heçi təsdiq edirsən!
Çünki hiddətin tez soyuyacaq!

Daxilin heçlə Doludur.
Buna görə də Boşdur.

***xxx***

Heçlik Laylası eşitmisən!
Heçlik Beşiyində böyümüsən!
Heçlik Məktəbində oxumusan!
Heçlik vəsiqəsi almısan!
Heçlik səviyyəsinə qalxmısan!

***xxx***

Təzə Layla eşitməlisən!
Təzə Beşikdə böyüməlisən!
Təzə Məktəbdə oxumalısan!
Varlıq Fərmanı almalısan!
Varlıq Səviyyəsinə qalxmalısan!
***Varı Var etmək üçün heçi heç etmək gərəkdir!***

***xxx***

Cılızı böyütdülər. Cılız böyüməz.
Bunu bilmədilər.
Bəsiti ülviləşdirdilər. Bəsit ülviləşməz.
Bunu bilmədilər.
Alçağı yüksəltdilər. Alçaq yüksəlməz.
Bunu bilmədilər.

***xxx***

"Hər şeyik!" – dedilər.
"Heç şeyik!" – demədilər.

"Canlıyıq!" – dedilər.
"Kölgəyik!" – demədilər.

"Doğruyuq!" – dedilər.
"Əyriyik!" – demədilər.

"Təbiiyik!" – dedilər.
"Süniyik!" – demədilər.

“Parlağıq!” – dedilər.
“Sönüyük!” – demədilər.

“Qalibik!” – dedilər.
“Məğlubuq!” – demədilər.

“Nə varsa – həqiqidir!” – dedilər.
Yoxu görmədilər.

“Nə varsa – labüddür!” – dedilər.
Təsadüfü görmədilər.

“Nə varsa – irəliləyişdir!” – dedilər.
Geriliyi görmədilər.

***xxx***

Ləyaqətsizlikdən ləyaqət qurdular.
Cəsarətsizlikdən cəsarət qurdular.
Xəyanətdən sədaqət qurdular.
***Qəbahət yaladılar.***
***Həqarət sümürdülər.***

***xxx***

Cılızda böyüklük görmədim – kiçiklik gördüm.
Bəsitdə ülvilik görmədim – bəsitlik gördüm.
Alçaqda ucalıq görmədim – alçaqlıq gördüm.

“Cılızlıq – Gücdür!” – dedilər.
“Cılız Güc – Heçdir!” – dedim.

“Bəsitlik – Gücdür!” – dedilər.
“Bəsit Güc – Heçdir!” – dedim.

“Alçaqlıq – Gücdür!” – dedilər.
“Alçaq Güc – Heçdir!” – dedim.

***Heçdə Heçdən başqa heç nə görmədim.***

***Dialektik Məntiq***

“Qəbahət – elə Ləyaqətdir!”
“Xəyanət – elə Sədaqətdir!”
“Şəhvət – elə Məhəbbətdir!”
“Yalan – elə Həqiqətdir!”
“Zülm – elə Ədalətdir!”
“Naşılıq – elə Müdriklikdir!”
“Məkr – elə Məsumluqdur!”
“Fitnə – elə Munislikdir!”
“Əsarət – elə Azadlıqdır!”
“Alçaqlıq – elə Ucalıqdır!”
“Yaltaqlıq – elə Məğrurluqdur!”
“Qorxaqlıq – elə Cəsarətdir!”
“Korluq – elə Görməkdir!”
“Lallıq – elə Danışmaqdır!”
“Karlıq – elə Eşitməkdir!”
“Səfalət – elə Firavanlıqdır!”
“Fəlakət – elə Səadətdir!”
“Əyrilik – elə Doğruluqdur!”
“Sünilik – elə Təbiilikdir!”
“Yadlıq – elə Doğmalıqdır!”

***xxx***

Qəbahəti Ləyaqət saymayan – metafizikdir!
Xəyanəti Sədaqət saymayan – metafizikdir!
Şəhvəti Məhəbbət saymayan – metafizikdir!
Yalanı Həqiqət saymayan – metafizikdir!
Zülmü Ədalət saymayan – metafizikdir!
Naşılığı Müdriklik saymayan – metafizikdir!
Məkri Məsumluq saymayan – metafizikdir!
Fitnəni Munislik saymayan – metafizikdir!
Əsarəti Azadlıq saymayan – metafizikdir!
Alçaqlığı Ucalıq saymayan – metafizikdir!
Yaltaqlığı Məğrurluq saymayan – metafizikdir!
Qorxaqlığı Cəsarət saymayan – metafizikdir!
Korluğu Görmək saymayan – metafizikdir!
Lallığı Danışmaq saymayan – metafizikdir!
Karlığı Eşitmək saymayan – metafizikdir!

Səfaləti Firavanlıq saymayan – metafizikdir!
Fəlakəti Səadət saymayan – metafizikdir!
Əyriliyi Doğruluq saymayan – metafizikdir!
Süniliyi Təbiilik saymayan – metafizikdir!
Yadlığı Doğmalıq saymayan – metafizikdir!
***Metafiziklər yenə də tapılır!***
***Onları itirmək lazımdır!***

### *Ölülər və Dirilər*

Dahilər – Muzeylərdə öldülər.
– Yubileylərdə öldülər.
– Tədqiqatda öldülər.
– Təbliğatda öldülər.

Qafillər – Muzeylərdə dirildilər.
– Yubileylərdə dirildilər.
– Tədqiqatda dirildilər.
– Təbliğatda dirildilər.

***Gözəl*** – Bəzəkdə öldü.
***Çirkin*** – Bəzəkdə dirildi.

***Əməl*** – Təmənnada öldü.
***Əməlsiz*** – Təmənnada dirildi.

***Möhtəşəmlik*** **–** Müstəbiddə öldü.
***Cılızlıq*** – Müstəbiddə dirildi.

***Mütləq*** – Allahda öldü.
***Nisbi*** **–** Allahda dirildi.

***Kişilik*** **–** Erkəklikdə öldü.
***Şəhvanilik*** **–** Erkəklikdə dirildi.

***Qadınlıq*** – Dişilikdə öldü.
***Köləlik*** **–** Dişilikdə dirildi.

***Varlıq* –** varidatda öldü.
***Yoxluq*** – varidatda dirildi.

***İşıq*** – İşıltıda öldü.
***Zülmət*** – İşıltıda dirildi.

***Fəryad*** – çığırtıda öldü.
***Zəlillik*** – çığırtıda dirildi.

***Ümid* –** Arsızlıqda öldü.
***Biganəlik* –** Arsızlıqda dirildi.

***xxx***

"İbtidai İnsan gözəldir" – dedilər.
"Bugünkü İnsan çirkindir" – dedilər.
"İbtidai İnsan – İnsana çatmadı" – dedim.
"Bugünkü İnsan – İnsandan ayrıldı" – dedim.
***"İnsan – olandan artıqdır!" – dedim.***
***"İnsan hələ Olmayıb!" – dedim.***

***xxx***

İnsanilik heyvaniliyə ziddir.
Heyvaniliyə zidd İnsan varmı?

"İnsan – olandan artıqdır!" – dedim.
"İnsan hələ Olmayıb!" – dedim.

***Zadəganlar***

Fikir aşını bəyənmirlər.
Fikir yalını bəyənirlər.

Fikir dağını bəyənmirlər.
Fikir yamacını bəyənirlər.

Duyğu bulağını bəyənmirlər.
Duyğu bulanlığını bəyənirlər.

### *Qiymət*

Yuxudaydım: İnsanabənzərləri insan sayırdım.
Ayıldım: İnsanabənzərləri insan saymadım.
Ətrafda Heçlik gördüm.

***xxx***

Peyğəmbər kəlamlarında Heçlik Var.
Alim təlimlərində Heçlik Var.
***Nə deyilibsə – düz deyilməyib.***
Bu səbəbdən də "Var – Yoxdur!" – deyiblər.
"Dünya – Heçdir!" – deyiblər.

***xxx***

Heçliklə dolmuş dünya!
Boş dünya!
Özündən ayrılmış dünya!
Özündən əskik dünya!
Heç ola bilməzsən!
Varlıqla dolacaqsan!
Özün olacaqsan!

## XX. MÜQƏDDƏS TƏZAD

Əzabın Nəşə səviyyəsi Var.
Kədərin Sevinc səviyyəsi Var.
Vüqarın Səcdə səviyyəsi Var.
Özünütəsdiqin Özündənkeçmə səviyyəsi Var.

***xxx***

Əzabın Nəşə səviyyəsi Müqəddəsdir!
Kədərin Sevinc səviyyəsi Müqəddəsdir!
Vüqarın Səcdə səviyyəsi Müqəddəsdir!
Özünütəsdiqin Özündənkeçmə səviyyəsi Müqəddəsdir!

***xxx***

Əzab böyüyüb Nəşə olur!
Kədər böyüyüb Sevinc olur!
Vüqar böyüyüb Səcdə olur!
Özünütəsdiq böyüyüb Özündənkeçmə olur!

***xxx***

Əzabsız Nəşəyə nail olan az şeyə nail olur!
Kədərsiz Sevincə nail olan az şeyə nail olur!
Səcdəsiz Vüqara nail olan az şeyə nail olur!
Özündənkeçməyən – özünü təsdiq etmir.

***xxx***

Əzabdan nəşələnən – Müqəddəsdir!
Kədərdən sevinən – Müqəddəsdir!
Səcdədən Vüqarlanan – Müqəddəsdir!
Özündənkeçmədə özünü təsdiq edən – Müqəddəsdir!

***xxx***

Nəşə əzaba ziddir! – deyirlər.
Sevinc kədərə ziddir! – deyirlər.
Səcdə vüqara ziddir! – deyirlər.
Özünütəsdiq özündənkeçməyə ziddir! – deyirlər.

"Nəşə Əzaba gerçəklikdə ziddir!" – deyirəm.
"Sevinc Kədərə gerçəklikdə ziddir!" – deyirəm.
"Vüqar Səcdəyə gerçəklikdə ziddir!" – deyirəm.
"Özünütəsdiq özündənkeçməyə gerçəklikdə ziddir!" – deyirəm.

***xxx***

***Müqəddəslik gerçəkliyi ötür.***
Müqəddəslikdə Nəşə Əzabın zirvəsi olur.
Sevinc Kədərin zirvəsi olur.
Vüqar Səcdənin zirvəsi olur.
Özünütəsdiq – Özündənkeçmənin zirvəsi olur.

***xxx***

Müqəddəs – gerçəkliyin Nəşəsinə sığmır, Əzab çəkir;
Əzab təzə Nəşə yaradır.
Müqəddəs – gerçəkliyin Sevincinə sığmır, Kədərlənir;
Kədər təzə Sevinc yaradır.
Müqəddəs – gerçəkliyin Vüqarına sığmır, Səcdəyə yüksəlir;
Səcdə təzə Vüqar yaradır.
Müqəddəs – gerçəkliyin özünütəsdiqinə sığmır, özündən keçir;
Özündənkeçmə təzə özünütəsdiq yaradır.

***xxx***

Əzab gerçəklik səddini aşır – Nəşəyə çevrilir.
Kədər gerçəklik səddini aşır – Sevincə çevrilir.
Səcdə gerçəklik səddini aşır – Vüqara çevrilir.
Özündənkeçmə gerçəklik səddini aşır – Özünütəsdiqə çevrilir.
***Müqəddəslik Amala ucalır!***

## XXI. TƏCRİD

Mütləqdən başqa Mütləqim yoxdur!
Amaldan başqa Həyatım yoxdur!

***xxx***

İnsan naminə Adamdan ayrıldım.
Bəşər naminə Şərdən ayrıldım.

***xxx***

Çirkabdan ayrıldım.
Günahdan ayrıldım.
Yalandan ayrıldım.
Vəhşidən ayrıldım.
Naşıdan ayrıldım.
Kölədən ayrıldım.
Kölgədən ayrıldım.

***xxx***

İnamım – Mütləq!
İdrakım – Mütləq!
Mənəviyyatım – Mütləq!
İradəm – Mütləq!
Qanunum – Ruhani!

***xxx***

İnamımdan kənarda İnam yoxdur!
İdrakımdan kənarda İdrak yoxdur!
Mənəviyyatımdan kənarda Mənəviyyat yoxdur!
İradəmdən kənarda İradə yoxdur!
Qanunumdan kənarda Qanun yoxdur!

***xxx***

Azlığım – çoxluğumdur!
Təkliyim – cəmliyimdir!

***xxx***

Ömrümü Yüksək tutdum – Amala həsr etdim.
İdrakımı Yüksək tutdum – Amala həsr etdim.
Mənəviyyatımı Yüksək tutdum – Amala həsr etdim.
İradəmi Yüksək tutdum – Amala həsr etdim.

***xxx***

İnamıma İman gətirəcəklər!
İdrakıma İman gətirəcəklər!
Mənəviyyatıma İman gətirəcəklər!
İradəmə İman gətirəcəklər!
***İnsanlaşacaqlar!***

## XXII. QATİL

***Xeyirxahlıq*** edirsən – xeyirxah çağırılmaq üçün – ***xeyirxahlığı*** öldürürsən!

***Fədakarlıq*** edirsən – fədakar çağırılmaq üçün – ***fədakarlığı*** öldürürsən!

***Qəhrəmanlıq*** edirsən – qəhrəman çağırılmaq üçün – ***qəhrəmanlığı*** öldürürsən!

***Ölümsüz*** sayılmaq istəyirsən – ***ölümsüzlüyü*** öldürürsən!

## XXIII. GƏRƏKLİ

Mütləqə gərək olduğum qədər Özümə gərəyəm!
Amala gərək olduğum qədər Özümə gərəyəm!
Sabaha gərək olduğum qədər Özümə gərəyəm!

***xxx***

Mütləqə gərək deyiləmsə –
Özümə də gərək deyiləm!
Amala gərək deyiləmsə –
Özümə də gərək deyiləm!
Sabaha gərək deyiləmsə –
Özümə də gərək deyiləm!

## XXIV. BAŞLANĞIC

***İnsan Təbəqələşəndə özünü itirir.***
Təbəqə inamı – inamsızlıqdır!
Təbəqə idrakı – idraksızlıqdır!
Təbəqə mənəviyyatı – mənəviyyatsızlıqdır!
Təbəqə iradəsi – iradəsizlikdir!

***xxx***

***İnsan sinifləşəndə özünü itirir.***
Sinfi inam – inamsızlıqdır!
Sinfi idrak – idraksızlıqdır!
Sinfi mənəviyyat – mənəviyyatsızlıqdır!
Sinfi iradə – iradəsizlikdir!

***xxx***

***İnsan şəraitdən asılı olanda – insansızlaşır.***

Şəraitdən asılı olan inam – inamsızlıqdır!
Şəraitdən asılı olan idrak – idraksızlıqdır!
Şəraitdən asılı olan mənəviyyat – mənəviyyatsızlıqdır!
Şəraitdən asılı olan iradə – iradəsizlikdir!

***xxx***

Təbəqələşmə qurtaranda – insanilik başlayır!
Sinfilik qurtaranda – insanilik başlayır!
Şəraitdən asılılıq qurtaranda – insanilik başlayır!

## XXV. GÖRMƏK

Gözüm bugünü görmək üçün yaranmayıb!
Bugündə görməli heç nə yoxdur!
Gözüm bugünküləri görmək üçün yaranmayıb!
Bugünkülərdə görməli heç nə yoxdur!

Gözüm Sabahı görmək üçün yaranıb!
Gözüm Sabahkıları görmək üçün yaranıb!

***Bugündə xalis nə varsa – Sabahkıdır.***

## XXVI. MƏQSƏD

Dünənim Var.
Sabahım Var.
Dünənlə Sabah arasında Uçurum Var.
Uçurumdan keçmək Məqsədim – Qətiyyətim Var.

## XXVII. DÜZGÜN

Bu dünyanın Fərəhi – Əyri, Kədəri – Doğru.
İzzəti – Əyri, Zilləti – Doğru.
Nəşəsi – Əyri, Əzabı – Doğru.

Kədəri seçdim, Fərəhi seçmədim.
Zilləti seçdim, İzzəti seçmədim.
Əzabı seçdim, Nəşəni seçmədim.

Hamıdan Fərəhliyəm.
Hamıdan İzzətliyəm.
Hamıdan Nəşəliyəm.

Əyri Hakimdir, Doğru Məhkum.
Əyri Zəngindir, Doğru Yoxsul.
Əyri Möhtəşəmdir, Doğru Məsum.
Əyri sevilir, Doğru söyülür.
***Doğrunu seçdim.***

Hamıya Hakiməm.
Hamıdan Zənginəm.
Hamıdan Möhtəşəməm.
Hamıdan Sevimliyəm.

Əyri Doğrunu üstələyib – Üstünlük Doğrudadır.
Əyri Doğrunu endirib – Ucalıq Doğrudadır.
Əyri Doğrunu kiçildib – Böyüklük Doğrudadır.
Əyri Doğrunu itirib – Varlıq Doğrudadır.

Əyri üstələyir – üstün olmur.
Yüksəlir – Ucalmır.
Yekəlir – Böyümür.
Sağ olur – Var olmur.

***Əyri dünyanın belini əydi.***
Gözə qondu – gözü əydi.
Dodağa qondu – dodağı əydi.
İdraka qondu – idrakı əydi.
İradəyə qondu – iradəni əydi.
***Doğrunu əyə bilmədi.***

Əyri yeriyən yağışa düşmür, çənə-dumana düşmür, tufana düşmür.

Yağış əyrini bəyənmir.
Çən-duman əyrini bəyənmir.
Tufan əyrini bəyənmir.

Yolunu azanlara qalıb dünya. Azıb dünya.
"Azmayan – yetkin deyil!"
"Azmayan – ilkin deyil!"
"Azmayan – böyük deyil!"
"Azmayan – müdrik deyil!"
Azanlara qalıb dünya!
Azıb dünya!

***Ağlın azıb!***
İnamsızlığı İnam saymısan!
İdraksızlığı İdrak saymısan!
Həqarəti Səadət saymısan!
Səfaləti Əzəmət saymısan!
Mütiliyi Ləyaqət saymısan!

***Ürəyin azıb!***
İnamsıza inanmısan!
İdraksıza inanmısan!
Həqarətə inanmısan!
Səfalətə inanmısan!
Mütiliyə inanmısan!

***İradən azıb!***
İnamsıza yaramısan!
İdraksıza yaramısan!
Həqarətə yaramısan!
Səfalətə yaramısan!
Mütiliyə yaramısan!
Ağlını azdırıblar.
Ürəyini azdırıblar.
İradəni azdırıblar.
***Səni – sənsizləşdiriblər.***

İnsansızlaşdın – "İnsanlaşdım!" – dedin.
Vətənsizləşdin – "Vətənləşdim!" – dedin.
Şəhvətləşdin – "Məhəbbətləşdim!" – dedin.
Hərisləşdin – "Qüdrətləşdim!" – dedin.
Köləşdin – "Qeyrətləşdim!" – dedin.
Yalanlaşdın – "Həqiqətləşdim!" – dedin.

Qorxuda azdın.
Yuxuda azdın.
Röyada azdın.
Hiylədə azdın.
Dünya səni əydi – Sən dünyanı düzəltməliydin!

Əyrini seçmədim – Doğrunu seçdim!
Əyriyə seçilmədim – Doğruya seçildim.

## XXVIII. ÖZGƏ

"İnsan – İnsandır!" – deyirsən!
Şöhrəti sevirsən, həqiqəti sevmirsən!
İnsan deyilsən!

***xxx***

"İnsan – İnsandır!" – deyirsən!
Varidatı sevirsən, Ləyaqəti sevmirsən!
İnsan deyilsən!

***xxx***

"İnsan – İnsandır!" – deyirsən!
Şəhvəti sevirsən, Məhəbbəti sevmirsən!
İnsan deyilsən!

***xxx***

"İnsan – İnsandır!" – deyirsən!
Fəlakəti görmürsən!
İnsan deyilsən!

***xxx***

"İnsan – İnsandır!" – deyirsən!
Xəyanəti görmürsən!
İnsan deyilsən!

***xxx***

"İnsan – İnsandır!" – deyirsən!
Rəzaləti görmürsən!
İnsan deyilsən!

***xxx***

"İnsan – İnsandır!" – deyirsən!
Əsarəti görmürsən!
İnsan deyilsən!

***xxx***

Aldanan – aldadar.
Aldatdılar səni.
***Sən də özünü aldatdın.***
Oynadılan oynadar.
Oynatdılar səni.
***Sən də özünü oynatdın.***

Dünyadan xəbərin oldu – özündən xəbərin olmadı!
Dünyaya yaradın – Özünə yaramadın!
Dünyanı tanıdın – Dünya səni tanımadı.
İtsən bilinməzsən!
Tapılsan – görünməzsən!

***xxx***

İnsanı tikə-tikə doğrayarlar –
İnsan doğranmaz!
İnsanı çırpı-çırpı yandırarlar –
İnsan yanmaz!
Doğranmaq haqqında bağırırlar –
Bıçaqdan gen gəzirlər!
Yanmaq haqqında bağırırlar –
Oddan gen gəzirlər!
Bağırırlar, çağırırlar – doğranmırlar, yanmırlar.
Doğranmağı, yanmağı başqalarına yaraşdırırlar!

***xxx***

Bağırtıdan qulaq kar olur – Həqiqəti eşitmir.
Ehtişamdan göz kor olur – Həqiqəti görmür.
Söhbətdən dil lal olur – Həqiqəti söyləmir.

***xxx***

Çirkablısan!
Günahlısan!
Şübhəlisən!
Hərcayisən!
***Özgəsən!***

## XXIX. TƏSDİQ

"Günahsız İnsan Yoxdur!" – deyirlər.
"Çirkabsız İnsan yoxdur!" – deyirlər.

"Günahlı İnsan Yoxdur!" – deyirəm.
"Çirkablı İnsan yoxdur!" – deyirəm.

"Ruhunda yaratdın İnsanı!" – deyirlər.
"Ağlında yaratdın İnsanı!" – deyirlər.
"Duyğunda yaratdın İnsanı!" – deyirlər.
"Ruhum – Varlıqdır!" – deyirəm.
"Ağlım – Varlıqdır!" – deyirəm.
"Duyğum – Varlıqdır!" – deyirəm.

“Gerçəkdə Mütləq yoxdur!” – deyirlər.
“Gerçək – Yoxluqdur!” – deyirəm.

Bugünkülərə bənzədiyim dərəcədə – Yoxam.
Bugünkülərdən fərqləndiyim dərəcədə – Varam.

Sevilirdim – Yox olurdum.
Söyülürəm – Var olmuşam.

Sevinirdim – Yox olurdum.
Qəmlənirəm – Var olmuşam.

Əsil sevgi qazanmışam.
Əsil sevinc qazanmışam.

## XXX. BİÇİM

Kölə Ağaya bənzəyir –
Kölə Ağa biçimində görünür.
Zəlil Məğrura bənzəyir –
Zəlil Məğrur biçimində görünür.
Qəbahət Ləyaqətə bənzəyir –
Qəbahət Ləyaqət biçimində görünür.
Azğın Məsuma bənzəyir –
Azğın Məsum biçimində görünür.

***xxx***

Ruhum İnamlıdır, çünki bugünə inanmır.
İdrakım İnamlıdır, çünki bugünə inanmır.
Mənəviyyatım İnamlıdır, çünki bugünə inanmır.
İradəm İnamlıdır, çünki bugünə inanmır.

***xxx***

Alçaq tap ki, bugünə yaramasın!
Yaltaq tap ki, bugünə yaramasın!
Sarsaq tap ki, bugünə yaramasın!

***xxx***

Şərə xeyir vermisən!
Çirkabı bəzəmisən!
Alçağı ucaltmısan!
Bu dünyanın qoçağı.

***xxx***

"Dünya dəyişir – düzəlmir!" – dedilər.
"Dünya dəyişməyib!" – dedim.

"İnsan dəyişir – düzəlmir!" – dedilər.
"İnsan dəyişməyib!" – dedim.

Şər azalmayıb.
Xeyir çoxalmayıb.

"Dünya dəyişəcək – düzələcək!" – dedim.
"İnsan dəyişəcək – düzələcək!" – dedim.

## XXXI. GÜZGÜ

Ən Təmizi belə – Çirklidir.
Ən Gözəli belə – Çirkindir!
Ən Ağıllısı belə – Səfehdir!
Ən Əxlaqlısı belə – Əxlaqsızdır!
Ən Qeyrətlisi belə – Qeyrətsizdir!
Ən Sadiqi belə – Dönükdür!
Ən Alisi belə – Alçaqdır!
Ən Məğruru belə – Yaltaqdır!

***xxx***

Elə təmizi yoxdur ki, çirklənməsin!
Elə gözəli yoxdur ki, çirkinləşməsin!
Elə ağıllısı yoxdur ki, səfehləşməsin!
Elə əxlaqlısı yoxdur ki, əxlaqsızlaşmasın!
Elə qeyrətlisi yoxdur ki, qeyrətsizləşməsin!
Elə məğruru yoxdur ki, yaltaqlanmasın!

***xxx***

Rütbə uğrunda döyüşür –
"Xalq uğrunda döyüşürəm!" – deyir.

Mənsəb uğrunda döyüşür –
"Xalq uğrunda döyüşürəm!" – deyir.

Şöhrət uğrunda döyüşür –
"Xalq uğrunda döyüşürəm!" – deyir.

***xxx***

Hərcayilər Müqəddəs göründülər.
Müqəddəslik itdi.
Murdar Müqəddəsliyə yaradı.

***xxx***

"Həm Murdaram, həm də Safam!" – dedilər.
Saflığı murdarladılar.
"Həm Alçağam, həm də Ucayam!" – dedilər.
Ucanı alçaltdılar.

***xxx***

Hamı biri-birinə bənzəyir.
Çünki Müqəddəslik Yoxdur.

Hamı biri-birinə bənzəyir.
Çünki Ruhanilik Yoxdur.

Hamı biri-birinə bənzəyir.
Çünki Fədakarlıq Yoxdur.
Hamı biri-birinə bənzəyir.
Çünki Müdriklik Yoxdur.

***Hamı biri-birinə bənzəyir,***
***Heç kəs İnsana bənzəmir.***

## XXXII. ÖLÇÜ

"Müdrik göründüm – aldatdım!" – deyib sevinir.
"Fədakar göründüm – aldatdım!" – deyib sevinir.
"Böyük göründüm – aldatdım!" – deyib sevinir.
***Aldanır.***
***Yalandan artıq deyil!***

Nəşənin dəyərinə bərabərdir dəyərin.
Rütbənin dəyərinə bərabərdir dəyərin.
Mənsəbin dəyərinə bərabərdir dəyərin.
***Dəyərsizsən!***

Rütbə səviyyən artdı.
İnam səviyyən azaldı.
İdrak səviyyən azaldı.
Mənəviyyat səviyyən azaldı.
İradə səviyyən azaldı.

Mənsəb səviyyən artdı.
İnam səviyyən azaldı.
İdrak səviyyən azaldı.
Mənəviyyat səviyyən azaldı.
İradə səviyyən azaldı.

Nəşə səviyyən artdı.
İnam səviyyən azaldı.
İdrak səviyyən azaldı.
Mənəviyyat səviyyən azaldı.
İradə səviyyən azaldı.

***xxx***

Rütbəsizsən – Rütbəni lənətləndirirsən.
Rütbəyə çatırsan – Rütbəni gözünə təpirsən.
Zəlilsən!

Mənsəbsizsən – Mənsəbi lənətləndirirsən.
Mənsəbə çatırsan – Mənsəbi gözünə təpirsən.
Zəlilsən!

Nəşəsizsən – Nəşəni lənətləndirirsən.
Nəşəyə çatırsan – Nəşəni gözünə təpirsən.
Zəlilsən!

***xxx***

"Bütövlükdən artığam!" – deyirsən!
Çilik-çilik olursan!
"Sabitlikdən artığam!" – deyirsən!
Külək kimi hər yana əsirsən.
"Əxlaqdan artığam!" – deyirsən!
Heyvana yoldaş olursan!

***xxx***

"Rütbəsiz nə ləyaqət!" – deyirsən.
"Mənsəbsiz nə ləyaqət!" – deyirsən.
"Nəşəsiz nə ləyaqət!" – deyirsən.

***xxx***

"İnsanlıq Rütbəsi də var!" – deyirəm.
"İnsanlıq Mənsəbi də var!" – deyirəm.
"İnsanlıq Nəşəsi də var!" – deyirəm.

## XXXIII. TƏZƏLİK

Təzəyəm – deyirsən!
Qədimi bəyənmirsən!
Günəş də qədimdir!
Səma da qədimdir.
Günəşə bənzəmirsən.
Səmaya bənzəmirsən.

Təzəyəm – deyirsən!
Qədimi bəyənmirsən.
Qədim daim təzədir.
Qədimə bənzəmirsən.

Naşılıq qədər köhnəsən!
Lovğalıq qədər köhnəsən!
Saxtalıq qədər köhnəsən!

Təzə məhəbbət olmur.
Təzə sədaqət olmur.
Təzə ləyaqət olmur.

Təzə həqarət olur.
Təzə qəbahət olur.
Təzə xəyanət olur.

Vicdandan asılı deyilsən!
Ona görə sərbəstsən!
Həyadan asılı deyilsən!
Ona görə sərbəstsən!

Vicdansızlıq qədər köhnəsən!
Həyasızlıq qədər köhnəsən!

Təzə deyilsən!
Təzə Qədimə bənzəyər!
Günəşə bənzəyər!
Səmaya bənzəyər!

## XXXIV. GÜNAHKAR

Bugünkülərlə qarşılaşdığın üçün – Günahkarsan!
Bugünkülərlə salamlaşdığın üçün – Günahkarsan!
Gözün günahkardır – bugünküləri görür!
Qulağın günahkardır – bugünküləri eşidir!
Dilin günahkardır – bugünkülərlə danışır!
Ömrün günahkardır – Ömürlərə qarışır!
Nəfəsin günahkardır – nəfəslərə dəyir!
İradən günahkardır – dözür!
Məhəbbətləriylə səni günaha batırırlar!
Hörmətləriylə səni günaha batırırlar!
Nifrətləriylə səni günaha batırırlar!

Günahını yumalısan!
Çirkaba son qoymalısan!

## XXXV. ƏSİLLİK

Təzəyəm –
Qədimlik qədər,
Əbədilik qədər.
Köhnəsən –
Bugün qədər.

Cavanam –
Qədimlik qədər,
Əbədilik qədər.

Qocasan –
Bugün qədər.

Bənzərsizəm –
Qədimlik qədər,
Əbədilik qədər.
Bənzərlisən –
Bugün qədər.

Varam –
Qədimlik qədər,
Əbədilik qədər.

Yoxsan –
Bugün qədər.

## XXXVI. ÜNVAN

Sabahkılar Diyarında yaşayıram!
Sabahkılar Zamanında yaşayıram!
Sabahkılar İnamında yaşayıram!

## XXXVII. LƏYAQƏTİN YAŞI

Səadətin Otağına sığır –
Səadətim Dövrana sığmır.

Sevincin – Gülüşünə sığır –
Sevincim Ömrümə sığmır.

Kədərin Göz yaşına sığır –
Kədərim Dünyaya sığmır.

***Bir vaxtda yaşayırıq!***
***Bir-birimizdən neçə əsr uzağıq!***

## XXXVIII. HİKMƏT

Göz açıq olanda da qapalı olur.
Qulaq eşidəndə də kar olur.
Dil danışanda da lal olur.

Heçlik kor gözlərə görünür.
kar qulaqlarda eşidilir.
lal dillərdə danışılır.

## XXXIX. QAZANC

Sənin qazancın Həyat –
mənim qazancım Amal!
Sənin qazancın Öldürən –
mənim qazancım Yaşadan!

## XL. NÖKƏR

Varidat adlı Ağanın nökəri.
Şöhrət adlı Ağanın nökəri.
İşrət adlı Ağanın nökəri.

***Varlı bilinən Yoxsul!***

## XLI. SAHİB

Zəngin İnam Sahibi.
Zəngin İdrak Sahibi.
Zəngin Əxlaq Sahibi.
Zəngin Əməl Sahibi.

***Yoxsul bilinən Varlı!***

## XLII. İMKAN

Hamıya qarşı necə durmaq olar?
Hamıdan qüdrətli olmaq gərək.

Zamana qarşı necə durmaq olar?
Zamandan qüdrətli olmaq gərək.

Dünyaya qarşı necə durmaq olar?
Dünyadan qüdrətli olmaq gərək.

Mümkün olan adidir.
Mümkün olmayan alidir.

Mümkün olan kiçikdir.
Mümkün olmayan böyükdür.

Mümkün olan bəsitdir.
Mümkün olmayan ülvidir.

***Mümkünsüzlük səddini aşmaq gərək!***

## XLIII. ƏYRİLİK

Bugünkülərin Xeyir saydıqları nə varsa – Şərdir,
Şər saydıqları nə varsa – Xeyirdir!

Bugünkülərin Gözəl saydıqları nə varsa – Çirkindir,
Çirkin saydıqları nə varsa – Gözəldir!

Bugünkülərin Doğru saydıqları nə varsa – Yalandır,
Yalan saydıqları nə varsa – Doğrudur!

Bugünkülərin Pak saydıqları nə varsa – Çirklidir,
Çirkli saydıqları nə varsa – Pakdır!

Bugünkülərin Ləyaqət saydıqları nə varsa – Qəbahətdir,
Qəbahət saydıqları nə varsa – Ləyaqətdir!

Bugünkülərin Səadət saydıqları nə varsa – Fəlakətdir,
Fəlakət saydıqları nə varsa – Səadətdir!

***Bugünkülər Dünyanı əyri görürlər,
Çünki əyridirlər.***

## XLIV. BƏRABƏRSİZLİK

Naqis – Xalisə bərabər olmaz!
Zail – Qabilə bərabər olmaz!
Zalım – Adilə bərabər olmaz!
Əyyaş – Aşiqə bərabər olmaz!
Xain – Sadiqə bərabər olmaz!
Oğru – Doğruya bərabər olmaz!
Əyri – Düzgünə bərabər olmaz!
Saxta – Təbiiyə bərabər olmaz!
Bəsit – Ülviyə bərabər olmaz!
Naqisi xalisə bərabər sayan dünya – naqisdir!
Zaili qabilə bərabər sayan dünya – zaildir!
Zalımı adilə bərabər sayan dünya – zalımdır!
Əyyaşı aşiqə bərabər sayan dünya – əyyaşdır!
Xaini sadiqə bərabər sayan dünya – xaindir!
Oğrunu doğruya bərabər sayan dünya – oğrudur!
Əyrini düzgünə bərabər sayan dünya – əyridir!
Saxtanı təbiiyə bərabər sayan dünya – saxtadır!
Bəsiti ülviyə bərabər sayan dünya – bəsitdir!

***xxx***

Məzlum azğına bərabər olmadı.
Yoxsul varlıya bərabər olmadı.
Rəiyyət hakimə bərabər olmadı.

***xxx***

Naqis ***üstünlüyü*** yarandı.
Zail ***üstünlüyü*** yarandı.
Zalım ***üstünlüyü*** yarandı.
Əyyaş ***üstünlüyü*** yarandı.
Xain ***üstünlüyü*** yarandı.
Oğru ***üstünlüyü*** yarandı.

Əyri ***üstünlüyü*** yarandı.
Saxta ***üstünlüyü*** yarandı.
Bəsit ***üstünlüyü*** yarandı.

***xxx***

Naqis ***imtiyazı*** yarandı.
Zail ***imtiyazı*** yarandı.
Zalım ***imtiyazı*** yarandı.
Əyyaş ***imtiyazı*** yarandı.
Xain ***imtiyazı*** yarandı.
Oğru ***imtiyazı*** yarandı.
Əyri ***imtiyazı*** yarandı.
Saxta ***imtiyazı*** yarandı.
Bəsit ***imtiyazı*** yarandı.

***xxx***

Naqis ***hakimliyi*** yarandı.
Zail ***hakimliyi*** yarandı.
Zalım ***hakimliyi*** yarandı.
Əyyaş ***hakimliyi*** yarandı.
Xain ***hakimliyi*** yarandı.
Oğru ***hakimliyi*** yarandı.
Əyri ***hakimliyi*** yarandı.
Saxta ***hakimliyi*** yarandı.
Bəsit ***hakimliyi*** yarandı.

Bərabərlik həqarəti yarandı.
Bərabərlik xəyanəti yarandı.

## XLV. TƏKLİK

Fəlsəfi binaları uçmuş gördüm.
Fəlsəfi şəhərləri dağılmış gördüm.
Fəlsəfi çayları qurumuş gördüm.

Anlayışlar cəngəlliyində azıb idrak.
Cərəyanlar cəngəlliyində azıb idrak.
Məktəblər cəngəlliyində azıb idrak.

Peyğəmbərləri çoxdur bəşərin –
ancaq bəşər peyğəmbərsizdir!

Dahiləri çoxdur bəşərin –
ancaq bəşər dahisizdir!

Həmdəmləri çoxdur bəşərin –
ancaq bəşər həmdəmsizdir!

Sayı çoxdur bəşərin –
ancaq bəşər təkdir!

## XLVI. KEŞİKÇİM

Elə murdarlıq olmadı ki, görməyəm.
Murdar olmadım.
Elə həqarət olmadı ki, eşitməyəm.
Həqarətçi olmadım.
Elə bədəməl olmadı ki, şahidi olmayam.
Bədəməl olmadım.

***Ruhum qoymadı!***

## XLVII. QÜDRƏTSİZ

Çirkabdan adlaya bilmədi – Çirkaba düşdü.
Günahdan adlaya bilmədi – Günaha düşdü.
Qorxudan adlaya bilmədi – Təlaşa düşdü.

## XLVIII. NƏTİCƏ

Döyülmədim – döydüm.
Söyülmədim – söydüm.
Yıxılmadım – yıxdım.

***xxx***

Ən çox döyüləndə döydüm.
Ən çox söyüləndə söydüm.
Ən çox yıxılanda yıxdım.

Döyən – döyüldü.
Söyən – söyüldü.
Yıxan – yıxıldı.

Hürufiləri öyrəndim – bəhrələndim.
Hindliləri öyrəndim – bəhrələndim.
Sufiləri öyrəndim – bəhrələndim.
Platonu öyrəndim – bəhrələndim.
Kantı öyrəndim – bəhrələndim.
Hegeli öyrəndim – şübhələndim.
Marksı öyrəndim – inanmadım!
Nitsşeni öyrəndim – iyrəndim.
Freydi öyrəndim – iyrəndim.
Ekzistensialistləri öyrəndim – barışmadım.
Şopenhaueri öyrəndim – sevmədim.
Məhəmmədin Harayını eşitdim – Allahını tanımadım!
İsanın şəxsiyyətinə vuruldum – Allahını tanımadım!
Materialistləri öyrəndim – bəyənmədim!
Utopistləri öyrəndim – bəyənmədim!

Təzə İnam yaratdım!
Təzə İdrak yaratdım!
Təzə Amal yaratdım!
Təzə Əməl yaratdım!

## XLIX. ZİYALILAR

Ağıllarının qapısı yoxdur!
Ürəklərinin qapısı bağlıdır.
İştahlarının qapısı açıqdır.

Elm cöyüzünü qıra bilmirlər.
Yem dağını parçalayırlar.

Tərəzilərinin iki gözü var –
İkisi də haram.

Beyinlərini fikirdən qoruyurlar.
Fədakar görünürlər.
Qabaqda sürünürlər.

***Ziyalılar olmasaydı – xalq ziyalanardı.***

## L. İDARƏÇİLƏR

Nəfsini idarə edə bilmir – Camaatı idarə edir.
Ağlını idarə edə bilmir – Camaatı idarə edir.
İradəsini idarə edə bilmir – Camaatı idarə edir.

Cılız böyüklər.
Müti vüqarlılar.
Dönük ilqarlılar.
Nökər ağalar.
Yaxşıya yamanlar.

***Başda görünən ayaqdakılar.***
***İdarəçilər olmasaydı – xalq idarə olunardı.***

## LI. VERGÜL

Füzulinin kölgəsində daldalanırlar.
Nəsiminin kölgəsində daldalanırlar.

Yalana yalmanırlar – Dövlət kənizləri.

Əsrin havasına oynayırlar.

Qeyrət satıb – şöhrət alırlar.

Sözü əməldən ayırırlar.

Lovğalanırlar.

***Şairlər olmasa – şeir sevilər.***

## LII. ÖYÜD

Ağıla qiymət verəndə öz ağlına inanma.
Bugünküsən – ağılsızsan!
Ürəyə qiymət verəndə öz qəlbinə inanma.
Bugünküsən – ürəksizsən!
Əmələ qiymət verəndə öz əməlinə inanma.
Bugünküsən – əməlsizsən!
Amala qiymət verəndə öz amalına inanma.
Bugünküsən – amalsızsan!

***xxx***

Ağıla qiymət verəndə – ağlını lənətləndir.
Ürəyə qiymət verəndə – ürəyini lənətləndir.
Əmələ qiymət verəndə – əməlini lənətləndir.
Amala qiymət verəndə – amalını lənətləndir.

***xxx***

Sirrini yoldaşına demə – aləmə car çəkər.
Sevincini dostuna demə – kədərlənər.
Kədərini həmdəminə demə – sevinər.
Başqasıyla təmasda özünü yada sal.
***Özün nəsənsə – o da odur.***

## LIII. HAMIYLA BİRGƏ

Hamıyla birgə namus bəndini aşdın.
Hamıyla birgə həqarət törətdin.
Hamıyla birgə kölələşdin.
Hamıyla birgə kölgələşdin.

## LIV. MATƏM

Çirkaba düşmək.
Günaha düşmək.
Kölgəyə düşmək.

## LV. BAYRAM

Çirkabdan çıxmaq.
Günahdan çıxmaq.
Kölgədən çıxmaq.

## LVI. BUGÜN – SABAH

"Görünmürsən!" – deyirlər.
"Bugündə görünmürəm. Sabahda görünürəm!" – deyirəm.
"Danışmırsan!" – deyirlər.
"Bugünlə danışmıram. Sabahla danışıram!" – deyirəm.
"Görüşmürsən!" – deyirlər.
"Bugünlə görüşmürəm. Sabahla görüşürəm!" – deyirəm.
"Bugünsüz Sabah olmaz!" – deyirlər.
"Sabah Qədimdən yaranacaq!" – deyirəm.
"Bugündə doğulmusan!" – deyirlər.
"Qədimdən törəmişəm!" – deyirəm.
"Bugündə yaşayırsan!" – deyirlər.
"Sabahda yaşayıram!" – deyirəm.
"Bugündən başqa günün yoxdur!" – deyirlər.
"Sabahdan başqa bugünüm yoxdur!" – deyirəm.

***xxx***

Tarix kitabları – tarix deyil!
Tarix katibləri – tarix deyil!
Tarix sahibləri – tarix deyil!
Tarix – ürəklərdədir.

***xxx***

Çiynimdə Sabah dağı daşıyıram!
Sinəmdə Sabah dağı daşıyıram!
Çiyni Sabahlıyam!
Sinəsi Sabahlıyam!

***xxx***

Sabah – bugündən keçir?
Sabah – Özündən keçir.

Sabah – bugündən doğur?
Sabah – Özündən doğur.

Bugünün Sabahı var.
Sabah bugünsüzdür.

***xxx***

Sabah bugünə:
İnam İnamsızlığa baxan kimi baxır.
İdrak İdraksızlığa baxan kimi baxır.
Mənəviyyat Mənəviyyatsızlığa baxan kimi baxır.
İradə İradəsizliyə baxan kimi baxır.
Həqiqət Yalana baxan kimi baxır.
Vüqar Mütiliyə baxan kimi baxır.
Ədalət Zülmə baxan kimi baxır.
Sədaqət Xəyanətə baxan kimi baxır.
Ləyaqət Əsarətə baxan kimi baxır.

Hardan bilirsən?
***Sabahı görürəm.***
***Sabahla görüşürəm.***
***Sabahla danışıram.***

## LVII. MÜQƏDDƏSLİK ÇAĞI

Dünya çirkaba qərq olanda –
Müqəddəslik haraya gəlir.

Dünya günaha qərq olanda –
Müqəddəslik haraya gəlir.

Dünya yalana qərq olanda –
Müqəddəslik haraya gəlir.

***xxx***

Dünya çirkabını
yalnız Müqəddəslik Suyu yuyub apara bilər.
Dünya günahını
yalnız Müqəddəslik Suyu yuyub apara bilər.
Dünya yalanını
yalnız Müqəddəslik Suyu yuyub apara bilər.

***xxx***

Dünya çirkabını qanla yudular.
Dünya çirkləndi.

Dünya günahını qanla yudular.
Dünya günaha batdı.

Dünya yalanını qanla yudular.
Dünya yalana büründü.

***xxx***

“Mütləq Yoxdur!” – dedilər.
Müqəddəslik Yox oldu.

“Ruh Yoxdur!” – dedilər.
Müqəddəslik Yox oldu.

***xxx***

Cismanini Müqəddəs saydılar.
Müqəddəslik Yox oldu.

Maddiyyata səcdə qıldılar.
Müqəddəslik Yox oldu.

***xxx***

“Dünya çirkabsız olmaz!” – dedilər.
Dünya çirkabla doldu.

“Dünya günahsız olmaz!” – dedilər.
Dünya günahla doldu.

“Dünya yalansız olmaz!” – dedilər.
Dünya yalanla doldu.

***xxx***

Mütləq Saflıq deməkdir – Müqəddəslik!
Mütləq Ləyaqət deməkdir – Müqəddəslik!
Mütləq Kamillik deməkdir – Müqəddəslik!

***xxx***

Çirkab Dünyanı tutub!
Günah Dünyanı tutub!
Yalan Dünyanı tutub!
Müqəddəslik çağıdır!

***xxx***

"Dünyada Mütləq heç nə yoxdur!" – dedilər.
"Dünyada Mütləqdən başqa heç nə yoxdur!" – dedim.

*6-cı il. Xəzan-Sərt Ayları.*
(Oktyabr-dekabr, 1984). Bakı.

# HALLAR

(Qırx Birinci qutsal əsər)

## GERÇƏKLİK – MƏNA

Gerçəkliyi ötmək – Gerçəkliyi Uydurmaq deyil – ***Mənalandırmaqdır.***

Gerçəkliyə uyğunlaşmaq – Gerçəkliyi Yüksəltmək deyil – Əksiltməkdir, ***onu Mənadan Ayırmaqdır.***

Gerçəkliyi uydurmaq – onu Gözəlləşdirmək deyil – ***Cəfənglləşdirməkdir – Mənanı cəfəngiyyatla əvəz etməkdir.***

## HƏQİQƏT

Müqəddəslik – Ruhani Azadlıq İzharıdır.
***Din – Əsarəti Müqəddəsləşdirir.***
***Bu səbəbdən də Din əslində Əsarət Azadlığıdır.***

## ƏSARƏTDƏN ƏSARƏTƏ

***Gerçəklikdə*** Əsarətə düçar olan Adam ***Təxəyyüldə*** Azadlığa can atır, ancaq nəticədə Təxəyyül gerçək əsarəti əks eləyir, təsdiq edir.

***Gerçəklikdə Əsarətdən çıxa bilməyən Adam – Təxəyyüldə də Əsarətdən çıxa bilmir.***

## HƏQİQƏT

Müqəddəslik – Hadisənin Mənaya Yetməsidir.
Dini "Müqəddəslikdə" Hadisə Cəfəngiyyata Yetir.
***Din – Müqəddəsliyi Cəfəngləşdirir.***

## HƏQİQƏT

Din – Müqəddəsləşdirilən Əsarətdir.

## HALLAR GEDİŞİ

***İnsan Dində*** – Uydurmaya Uyur.
***Elmdə*** – Gerçəkliyi tanıyır.
***Fəlsəfədə*** – Mahiyyətə – Mənaya üz tutur.

***İnamda*** – Həqiqətə Yetir; –
***Həqiqət – Gerçəklik və Mahiyyət – Məna Birliyidir.***

## FƏRQ

***Adam*** – Yalansız yaşaya bilmir.
***İnsan*** – Yalanla yaşaya bilməz.

## YAŞAMAQ – ÖLMƏK

Keçmişi ötmək – keçmişi öldürmək deyil – ***Təzələməkdir.***
***Təzələnən – yaşayır.***
Keçmişi təkrarlamaq – Keçmişi yaşatmaq deyil – ***köhnəltməkdir; Köhnələn – ölür.***

## KEÇMİŞİ YAŞADAN

Qədimlik – Keçmişin Təzələnməsidir – bu səbəbdən də Yaşamasıdır.
Qədimlik olmasa – Keçmiş ölər.
Qədimlik Keçmişi Təzələyir və Bugündə Yaşadır.

## ÖLÜMCÜL TƏHLÜKƏ

Bəşər Dünəndən çıxa bilmir.
***Bu ölümcül Təhlükədir.***
***Təzələnməyən – ölür.***
***Bəşər Dünəndən çıxmasa – Ölər.***

## ƏLAQƏ

Təzələnmək – İnsaniliyə Yetməkdir.
***Dəyişirsən ki, İnsaniliyə Yetəsən;***
***İnsaniliyə Yetirsən ki, – Dəyişməyəsən.***

## TƏZƏLƏNMƏ DÜSTURU

***Təzələnməyə qədər – Dəyişmək –***
***Təzəliyi Dəyişməmək.***

## DƏYİŞKƏNLİK – DƏYİŞMƏZLİK

Dəyişkənlikdən Mütləq Məziyyət Uydururlar.
Əslində Dəyişkənlik – Köhnəliyi əvəz etməkdir.
***İnsanilik – köhnəlmir, ona çatmaq gərək, onda qalmaq gərək.***
Dəyişən Zaman olur, Şərait olur, Mühit olur –
***Dəyişən İnsanilik olmur.***
***Çox şey dəyişir – İnsanilik dəyişmir.***
***Çox şey köhnəlir – İnsanilik köhnəlmir.***
***Mütləq Dəyişkənlik Ehkamı İnamsızlıq İdeyasıdır.***
Əgər Dünyada hər şey köhnəlirsə, deməli, İnanmalı bir şey yoxdur.
Əslində isə Dünyada köhnəlməyən ***Dünyalıq*** var.
Həyatda köhnəlməyən ***Həyatlıq*** var.
İnsanda köhnəlməyən ***İnsanilik*** var.
***Dünyalığı köhnəlməyən Dünyaya İnanmaq gərək.***
***Həyatlığı köhnəlməyən Həyata İnanmaq gərək.***
***İnsanlığı köhnəlməyən İnsana İnanmaq gərək.***

## KÖHNƏ ƏQİDƏSİZLİK

İndikilər Əqidələrini tez dəyişdilər – ancaq Təzələnmədilər – Köhnəldilər.
***Köhnə Əqidəsizlər sırasına qatıldılar.***

## FƏLSƏFƏ – DİN

***Fəlsəfənin*** Məqsədi – Dünyanın, Həyatın, İnsanın Mahiyyətini dərk etməkdir.
***Dinin*** Məqsədi – Dünyanın, Həyatın, İnsanın Mahiyyətini rədd etməkdir.
Bu səbəbdən də Fəlsəfənin Dinə qulluq etməsi – onun intiharıdır – ***Mahiyyəti dərk etməli olanın – Mahiyyəti*** rədd etməsi – Ölümdür.

## İDRAKİ HADİSƏLƏR

***Rasionalizm*** – Zəkaçılıqdır ki, İdrakı Duyğusuzlaşdırır.

***İrrasionalizm*** – Ehtirasçılıqdır ki, İdrakı Zəkasızlaşdırır.

Hər ikisi Cəfəngiyyata Yaraya bilir.

***Cəfəngiyyat – Rasional Duyğusuzluğun əvəzi olur – İrrasional Zəkaçılıqdan güc alır.***

***Mütləqçilik*** – İdrakı İnamlaşdırır–onda Cəfəngiyyata Yer qalmır.

## İNAMSIZ ZƏKAÇILIQ

Allahı Uydurmağın lazımlığını elan edən Fransız Zəkaçıları (o cümlədən Volter) – İnsan Zəkasına inanmırdılar əslində.

***Uydurmaya Ehtiyacı olan Zəka – Naqisdir.***

***Zəkaçılar – Zəkaya İnamsızlıq göstərirdilər.***

## HƏQİQƏT

Həqiqət – təkcə Düzgünlük deyil.

***Həqiqət – Düzgünlüyün Mahiyyətlə – Mənayla Birliyidir.***

***Həqiqət – Mahiyyətli, Mənalı Düzgünlükdür.***

## ELMÇİLİK – FƏLSƏFƏÇİLİK

***Elm*** – Fəlsəfəni əvəz edəcək – dedilər Elmçilər.

***Elm*** – Fəlsəfəni əvəz edə bilməz, çünki Gerçəklik haqqında ***Biliklər*** – Mahiyyət haqqında ***Həqiqəti*** əvəz edə bilməz.

Fəlsəfə Elmləşməlidir – dedilər ***Pozitivistlər*** və Fəlsəfəni Mücərrəd Elmşünaslığa çevirdilər.

***Fəlsəfə – Dünya, Həyat, İnsan Mahiyyətinə Universal baxışdır.***

Fəlsəfəni Universal Baxışdan məhrum etmək – onu Özündən eləməkdir – ***Özgələşdirməkdir.***

## CƏMİYYƏTÇİLİK – FƏLSƏFƏ

Marksistlər Fəlsəfəni Cəmiyyətləşdirdilər.
Mahiyyətsizlikdə Mahiyyət axtardılar – ***Fəlsəfəni Mahiyyətsizləşdirdilər.***

## BƏNZƏRSİZ AQİBƏT

Fəlsəfənin neçə min illik tarixi var, – ancaq onun Təşəkkülü hələ sona çatmayıb, ***o daimi Təşəkküldədir.***

***Bu baxımdan Fəlsəfə Bənzərsizdir.***

***İnama Yetməklə onun İmkanları Zənginləşəcək, Bəşərə təsiri artacaq, İnsanilik Əməlində rolu güclənəcək.***

***Fəlsəfəyə söykənən İnam – İnama Yuksələn Fəlsəfə Birliyindən İnsanlaşma İşığı Yayılacaq Ömürlərə – Fəlsəfi İnam Həqiqəti, İnam Fəlsəfəsi Həqiqəti.***

## DİNDƏN ARTIQ

***Zərdüştçülük*** – xüsusi Dindir.

Zərdüşt Allahı – Hürmüzd – İnsanlara Ağalıq eləmir – Xidmət edir.

***Hürmüzd Hünəri – həm Hürmüzdün özünü, həm də İnsanları Ucaldır.***

Bu səbəbdən də Zərdüştçülük – Ocaqçılara, İnamçılara Yaxındır – ***İnsançılığında Dindən Artıqdır.***

## GEDİŞAT

20-ci əsr Fəlsəfəni özündən ayırmaq cəhdləriylə seçilir.

***Fəlsəfədən Fəlsəfəsizlik Quraşdırdılar.***

Ancaq Quraşdırmalar Fəlsəfəni əvəz edə bilmədi. Həyatda fəlsəfi Boşluq yarandı və ***İnam Fəlsəfəsi onu doldurdu.***

***Əsrin sonunda Əsrin əskikliyi aradan qalxdı.***

## İNSANÇILIQ MƏRHƏLƏLƏRİ

***Avropa İntibahı*** – Allahın kölgəsində.
***Hürufilik*** – Allaha bərabər.
***Marksizm*** – Ümumiçilikaltı.
***Ocaqçılıq*** – İnsanilik Ucalığında.

## CƏFƏNGİYYAT "İDRAKI"

Dini Fəlsəfə – Cəfəngiyyat "İdrakıdır".
***Allahı İdrak Yoluyla tanımaq – Cəfəngiyyatdır.***

## DÜNYALIQ ƏSASI

"Dünyanın əsası – Maddidir" – demək – Dünyanı Əsassız saymaqdır; çünki Mənasız əsas olmur.

"Dünyanın əsası – İdeyadır" – demək – Dünyanı Fikirlə Eyniləşdirməkdir – Fikir isə Mənanın özü deyil – İfadəsidir.

"Dünyanın əsası – Dünyalıqdır" – demək – Dünyanı əsaslı saymaqdır – ***Maddidən Üstün, İdeyadan Üstün.***

## DÜNYALIQ TƏLƏBİ

Dünyada Dünyalıq Tələbi Yaşayır: – Kainatçılıq Tələbi, Həyatlıq Tələbi, İnsanlıq Tələbi.
***Dünyanı Dünyalıq Tələbi Yaşadır.***

## HÖKMDAR QANUNLARI

Dini Əfsanələrin heç biri Heyrətdən Yaranmayıb, hamısı Hökmdən Yaranıb.
***Dini Əfsanələr – Hökmdar Qanunlarıdır əslində.***

## İNSANİLİYƏ QƏDƏR

***Müdriklik** – **Cəfəngiyyatı*** Yer üzündən siləbilmədi, çünki Cəfəngiyyat Müdrik bilindi.

***Müdriklik** – **Ağalığı*** Yer üzündən silə bilmədi, çünki Ağalıq Müdrik bilindi.

***Müdriklik** – **Təbəqəliyi*** Yer üzündən silə bilmədi, çünki Təbəqəlik Müdrik bilindi.

***Müdriklik** – **Yağılığı*** Yer üzündən silə bilmədi, çünki Yağılıq Müdrik bilindi.

***Müdriklik – Adamlığa yaradı – İnsaniliyə çatmadı.***

## HƏQİQƏT

***Həqiqi Müdriklik*** – İdraklı İnamdır, İnamlı İdrakdır; İnamlı, İdraklı Mənəviyyatdır; İnamlı, İdraklı, Mənəviyyatlı İradədir.

***Müdriklik halı – əslində İnsanilikdir.***

## BƏŞƏR HALI

***Bəşər – Adam Halındadır – bu səbəbdən də Halı Qarışıqdır.***
***Bəşər İnsan Halına Ucalmalıdır ki, Halı Durulsun.***

*Çiçək Ayı, 19-cu il. Bakı.*
*(Aprel, 1997-ci il).*

## İçərisi


**Görəni Görmək gərəkliyi..................................................5**

**İnsanlaşmaq ........................................................................13**

**Sabahdaşlara.......................................................................14**

**Olan, Olmayan.....................................................................17**

**Varlıq – Yoxluq...................................................................63**

**Ruhani Xətt.........................................................................85**

**Münasibətlər.......................................................................99**

**Mütləqilik..........................................................................151**

**Hallar.................................................................................237**

[illegible], [illegible], [illegible]

[illegible] ([illegible]) [illegible]!

## [illegible]

### ([illegible])

[illegible] ([illegible]) [illegible] — [illegible] ([illegible]) [illegible] 30-[illegible] ([illegible] 2008-2009-[illegible]) [illegible], [illegible] "[illegible]" [illegible]. "[illegible]" [illegible] 43 [illegible] 7 [illegible].

[illegible]; [illegible], [illegible], [illegible]. [illegible]. [illegible].

[illegible] ([illegible]) — [illegible]; [illegible] ([illegible]) — "[illegible] ([illegible]) [illegible]" [illegible], [illegible]. [illegible], [illegible], [illegible], [illegible].

[illegible], [illegible]. [illegible].

[illegible]!
[illegible]!

[illegible]
*[illegible]*

*8 [illegible], 30-[illegible]. [illegible].*

Mütləqim, Müqəddəsim, peyğəmbərim
Asif Ataya (İnam Ataya) səcdəylə!

# MÜTLƏQƏ İNAM RUHANİYYATI

## (Qutsal Bəlgə)

Türkün (ilk) Ruhaniyyat Ocağı – Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağı 30-ildə (Miladın 2008-2009-ili) Asif Ata İrsi'ndən özünün, ən uca ümumbəşəri ruhani dəyər kimi, tapındığı hissəni "On Qutsal Bitiq və üç Yan Bitiq (qısaca Onluq)" adı altında nəşrə hazırladı. "Onluq" Atamızın 43 Müqəddəs Kitabını və 7 Müqəddəs Kəlamını özündə birləşdirir.

Bitiqlərin təsnifatı və sistemləşdirilməsi içlərindəki Kitabların Mütləqə İnam baxışında yerinə görə aparılmışdır; hər Bitiq Ata Təlimindəki məna ifadəsinə əsasən adlandırılmış, Ata Mətnlərinin bütövlüyü, ilkinliyi, məzmunu, dili, üslubu, cümlə quruluşu olduğu kimi saxlanılmışdır. Asif Ata İrsinə yönəlik bu prinsip həmişə və hər yerdə gözlənilməlidir. Bitiqlərin indi təqdim olunan quruluşu, biçimi, adları, sayı da toxunulmazdır.

Onluq (On Qutsal Bitiq) – hazırkı Mütləqə İnam Ocağı tərəfindən Mütləqə İnam Ruhaniyyatı – Ata Müqəddəsatı sayılır; Yan Bitiqlər (Əlavə Cildlər) – "Qutsal (Müqəddəs) İrs"ə daxil edilir, məzmunlarına görə Onluğa daxil edilmirlər, çünki Onluq Mütləqə İnam Dünyabaxışının Cövhərini və Meyarını birbaşa, Yan Bitiqlər isə onun ayrı-ayrı məqamlarını və dolayısı ilə ifadə edirlər. Bütövlükdə Ata Dilindən, Ata Qələmindən nə çıxıbsa, Mütləqə İnam Dünyabaxışının Kutsal İrsi sayılır, ancaq Onluğa daxil edilmir.

İrsin yiyəsi, qoruyucusu, sorumlusu Asif Atanın Mütləqə İnam Ocağıdır. İrslə bağlı bütün hüquqlar bu Ocağa məxsusdur.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız Var olsun!

**Soylu Atalı**
***Mütləqə İnam Ocağının Yükümlüsü***

*8 Köçəri Ayı, 30-il. Atakənd.*

Türkün (İlk) Ruhaniyyat Ocağı –
Asif Atanın (İnam Atanın)
Mütləqə İnam Ocağı

ASİF ATA
(Əfəndiyev Asif Qasım oğlu)
On Qutsal Bitiq'in
Dördüncü Bitiqi: Görmək İnsaniliyi

(Türk dilində)

Bitiq Bilən Atalının yatırımı ilə basılmışdır.

Bağlantı ünvanımız: www.asifataocagi.com
soyluatali@mail.ru.
nurtekin_atali@mail.ru

Tel: (051) 585-56-97;
(050) 527-70-50.

**Qeyd üçün**

"Elm və təhsil" nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

**Dizayner:** Kamran İbrahimov

Çapa imzalanmış 08.05.2020
Şərti çap vərəqi 31,5. Sifariş № 104
Kağız formatı 60x84 1/16. Tiraj 200 .

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4